# İLHAM ƏLİYEV

# İNKİŞAF – MƏQSƏDİMİZDİR

İLHAM
ƏLİYEV

# DOXSAN İKİNCİ KİTAB

## YANVAR 2019 - FEVRAL 2019

AZƏRNƏŞR
BAKI - 2019

# İLHAM ƏLİYEV

## ÇIXIŞLAR * NİTQLƏR

## BƏYANATLAR * MÜSAHİBƏLƏR

## MƏKTUBLAR * MƏRUZƏLƏR

## MÜRACİƏTLƏR

AZƏRNƏŞR
BAKI – 2019

**BBK 32**
**Ə 56**

Buraxılışına məsul
akademik

**RAMİZ MEHDİYEV**

**ƏLİYEV İLHAM**
**Ə 56** **İnkişaf – məqsədimizdir.** B., Azərnəşr, 2019, 392 səh.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin oxuculara təqdim olunan «İnkişaf – məqsədimizdir» çoxcildliyinin bu cildində dövlət başçısının Davos Dünya İqtisadi Forumunun illik toplantısında iştirakına və Davosda Çinin CGTN və Rusiyanın «Rossiya-1» televiziya kanallarına geniş müsahibələri, həmçinin «Bir kəmər – bir yol» təşəbbüsünün inkişaf etdirilməsi: Çinin trilyon dollarlıq baxışı» mövzusunda keçirilən sessiyada iştirakına, sualları cavablandırması və Forum çərçivəsində beynəlxalq ictimaiyyətin nümayəndələri ilə görüş və danışıqlarına dair materiallar toplanmışdır.

Azərbaycan Prezidentinin bütün görüş və danışıqlarında Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normaları və Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həlli yolları prioritet məsələ kimi qaldırılır ki, bu da hər bir clddə öz əksini tapır.

Kitabda, həmçinin Azərbaycan Prezidentinin «Real» televiziyasına müsahibəsi, şəhid ailələri ilə görüşü zamanı çıxışı, onlarla söhbətləri, Azərbaycan Gəncləri Gününə həsr olunmuş respublika toplantısında geniş nitqi, «Azərbaycan Respublikası regionlarının 2014–2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı»nın icrasının yekunlarına həsr olunan konfransda geniş məzmunlu çıxışı və bölgələrə səfərləri yer almışdır.

**ISBN 978-9952-8100-7-3**

**Я** $\frac{\textbf{0801000000}}{\textbf{M – 651(07)– 2019}}$ **ББК - 32**

© Azərnəşr, 2019

## NAZİRLƏR KABİNETİNİN 2018-ci İLİN SOSİAL-İQTİSADİ İNKİŞAFININ YEKUNLARINA VƏ QARŞIDA DURAN VƏZİFƏLƏRƏ HƏSR OLUNMUŞ İCLASINDA İŞTİRAK

*11 yanvar 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə yanvarın 11-də Nazirlər Kabinetinin 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclası keçirilmişdir.*

*Dövlət başçısı iclasda giriş nitqi söylədi.*

### Azərbaycan Prezidenti İlham Əliyevin giriş nitqi

Bu gün biz Nazirlər Kabinetinin iclasında 2018-ci ilin əsas yekunlarını müzakirə edəcəyik, eyni zamanda, bu il görüləcək işlər haqqında danışacağıq.

2018-ci il ölkəmiz üçün uğurlu il olubdur. Dünyada və bölgəmizdə gedən proseslərdən asılı olmayaraq, Azərbaycan uğurla, sürətlə inkişaf edibdir. Keçən ilin əvvəllərində qarşımıza qoyduğumuz bütün vəzifələr icra olunub, ölkəmizin hərtərəfli dinamik inkişafı təmin edilibdir. Bildiyiniz kimi, keçən il dünyanın müxtəlif bölgələrində, o cümlədən bizim bölgəmizdə çox xoşagəlməz proseslər gedirdi, yeni risklər, yeni təhdidlər yaranır. Əvvəlki illərdə başlanmış müna-

qişələr, qanlı toqquşmalar davam edir, bir çox yerlərdə sabitlik pozulur, kütləvi etiraz aksiyaları geniş vüsət alır. Bu mənfi mənzərə fonunda Azərbaycanın uğurları özünü daha da qabarıq şəkildə büruzə verir. Azərbaycan inkişaf, tərəqqi, sabitlik ölkəsidir. Dünyada və bölgədə gedən proseslərdən asılı olmayaraq, Azərbaycan öz müstəqil yolu ilə, inkişaf yolu ilə uğurla gedir və gedəcəkdir.

Keçən il regionların üçüncü sosial-iqtisadi inkişafı Dövlət Proqramı başa çatdı. Bu beşillik proqram artıqlaması ilə yerinə yetirildi. Bu proqram bizə imkan verdi ki, bölgələrdə infrastruktur layihələrinin icrası daha sürətlə getsin, yüz minlərlə yeni iş yerləri, yeni sənaye müəssisələri yaradılsın, kənd təsərrüfatı daha sürətlə inkişaf etsin. Bir sözlə, regional inkişaf proqramının çox böyük əhəmiyyəti və gözəl nəticələri vardır. Bu il biz regionların dördüncü sosial-iqtisadi inkişafı Dövlət Proqramını qəbul edəcəyik. Demək olar ki, proqramın əsas hissəsi hazırdır.

Keçən il mən Azərbaycanın bölgələrinə 24 səfər etmişəm. Bu səfərlər zamanı həm işlərə nəzarət etmək üçün imkan yaranır, həm də yerlərdə vətəndaşlarla görüşərək, onları narahat edən problemlərin həlli istiqamətində əlavə göstərişlər verilir. Rayonların sosial-iqtisadi vəziyyətinin yaxşılaşdırılması, o cümlədən infrastruktur layihələri ilə bağlı bir çox sərəncamlar imzalanıbdır. Bu sərəncamlar bölgələrimizdə çox böyük əks-səda verir və böyük nəticələrə gətirib çıxarır. Dediyim kimi, bölgələrə səfərlərim həm vətəndaşlarla təmasda olmaq, həm görülən işlərə nəzarət etmək, həm

də gələcəkdə görüləcək işlərlə bağlı düzgün addımların atılması üçün gözəl imkan yaradır. Mən Azərbaycanın hər bir rayonunda dəfələrlə olmuşam, ən azı hər bir rayonda 5 dəfə, elə rayon var ki, 10 dəfədən çox olmuşam və bu müntəzəm səfərlərin çox böyük əhəmiyyəti vardır.

Ölkəmizdə, ümumiyyətlə, daxili vəziyyət – həm ictimai-siyasi, həm iqtisadi-sosial məsələlərlə bağlı vəziyyət sabitdir. Yəni deyə bilərəm ki, 2018-ci il əvvəlki illərdən çox da fərqlənməyib, ölkəmiz dinamik inkişaf yolu ilə gedibdir.

Keçən il, həmçinin xarici siyasət sahəsində də uğurlu olubdur. Mən keçən il xarici ölkələrə 16 səfər etmişəm və Azərbaycana 16 dövlət və hökumət başçısı səfər edib. Bu bir daha onu göstərir ki, bizim xarici siyasətimiz çoxşaxəlidir və bizimlə əməkdaşlıq edən ölkələrin sayı gündən-günə artır. Əlbəttə, biz  ilk növbədə, qonşularımızla əlaqələrimizi daha yüksək pilləyə qaldıra bilmişik. Keçən il qonşu ölkələrin dövlət və hökumət başçıları ilə mənim çoxsaylı görüşlərim olub və bu görüşlərdə praktiki məsələlər həll edilibdir. Hər bir ölkə üçün qonşuları ilə yaxşı münasibətlərin qurulması çox vacib amildir. Azərbaycan o ölkələrdəndir ki, Ermənistandan başqa, bütün qonşularımızla çox düşünülmüş siyasət apararaq, gözəl münasibətlər qura bilib və ölkəmiz bu münasibətlərdən faydalanır. Həm regional təhlükəsizliyin inkişafı, eyni zamanda, nəqliyyat, energetika, ticarət məsələlərinin uğurla həlli, o cümlədən qonşularımızla münasibətlərdən asılıdır. Bir sözlə, qonşu ölkələrlə əlaqələrimiz çox müsbətdir və

əminəm ki, bu il də bu istiqamətdə yeni müsbət addımlar atılacaqdır.

Azərbaycan müsəlman aləmində çox böyük hörmət, nüfuz qazanıb. Bizim islam həmrəyliyi ilə bağlı atdığımız addımlar İslam Əməkdaşlıq Təşkilatı və eyni zamanda, bir çox müsəlman ölkələri tərəfindən çox yüksək qiymətləndirilir və bu sahədə verdiyimiz töhfə çox təsirlidir. Yəni bizim apardığımız siyasət islam aləmində həmrəyliyi, əməkdaşlığı möhkəmləndirir. Həm ölkə daxilində, həm xaricdə bu istiqamətdə keçirdiyimiz tədbirlər islam birliyini daha da möhkəmləndirir. Təsadüfi deyil ki, keçən il Naxçıvan «İslam mədəniyyətinin paytaxtı» seçilmiş və Naxçıvan şəhəri bu şərəfli adı çox böyük uğurla daşımışdır. Biz bu il də müsəlman ölkələri ilə əlaqələrimizi müxtəlif istiqamətlərdə inkişaf etdirəcəyik və beləliklə, müsəlman aləmində bizim nüfuzumuz, çəkimiz, rolumuz daha da artacaqdır.

Keçən il Avropa İttifaqı ilə Azərbaycan arasında «Tərəfdaşlığın prioritetləri» adlı mühüm sənəd imzalanıbdır. Bu sənəddə bir çox məsələlər öz əksini tapır. Xüsusilə onu vurğulamalıyam ki, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı olan məsələlər çox müsbət xarakter alır. Bu sənəddə Azərbaycanın ərazi bütövlüyünə, suverenliyinə, sərhədlərimizin toxunulmazlığına dəstək və hörmət ifadə olunur. Hesab edirəm ki, son illər ərzində bu istiqamətdə aparılan işlər arasında bu sənədin xüsusi yeri vardır. Beləliklə, Avropa İttifaqı Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli yolları ilə bağlı öz fikrini

birmənalı şəkildə ortaya qoyur. Eyni zamanda, keçən il NATO-nun Zirvə görüşündə də qəbul edilmiş yekun Bəyannamədə Azərbaycanın ərazi bütövlüyünə dəstək və hörmət əksini tapmışdır.

Biz ötən il Bakıda «Qoşulmama Hərəkatı»nın Xarici İşlər nazirləri səviyyəsində böyük konfrans keçirdik. Bildiyiniz kimi, bu il Bakıda «Qoşulmama Hərəkatı»nın Zirvə görüşü keçiriləcək və Azərbaycan bu böyük təşkilata sədrlik edəcəkdir. Əlbəttə ki, BMT-dən sonra dünyanın ikinci böyük təşkilatına sədrlik etmək bizim nüfuzumuzu daha da artıracaq, eyni zamanda, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli işinə müsbət təsir göstərəcəkdir.

Xarici siyasətimizlə bağlı vacib məsələlərdən biri də Xəzər dənizinin hüquqi statusunun müəyyən edilməsi idi. İmzalanmış Konvensiya bu məsələnin həlli üçün çox böyük əhəmiyyət daşıyır. Şadıq ki, uzun illər ərzində müdafiə etdiyimiz mövqe bu Konvensiyada tam öz əksini tapmışdır. Bu sənədin imzalanması bir daha göstərir ki, Xəzər dənizi sülh, əməkdaşlıq, təhlükəsizlik dənizidir. Bu Konvensiyanın çox böyük əhəmiyyəti vardır. Hesab edirəm ki, bu sənədin imzalanması hər bir Xəzəryanı ölkənin böyük diplomatik və siyasi uğurudur.

Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə gəldikdə, bizim mövqemiz dəyişməz olaraq qalır. Bu məsələ yalnız ölkəmizin ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır. BMT Təhlükəsizlik Şurasının qətnamələri icra edilməlidir, Ermənistan silahlı qüvvələri işğal edilmiş torpaqlardan qeyd-şərtsiz çıxarılmalıdır. BMT Təhlükəsizlik

Şurasının qətnamələrində məhz bu ifadələr öz əksini tapıbdır. Danışıqların davam etdirilməsi prosesi başlanıbdır, baxmayaraq ki, ilkin mərhələdə Ermənistanın yeni rəhbərliyi danışıqlardan boyun qaçırmaq istəyirdi. Hətta belə bir fikir səsləndirildi ki, Azərbaycan qondarma «Dağlıq Qarabağ respublikası» ilə danışıqlar aparmalıdır. Biz dərhal belə cəhdləri rədd etdik. Əlbəttə ki, münaqişənin həlli ilə məşğul olan vasitəçilər də belə anlaşılmaz yanaşmanı heç cür dəstəkləyə bilməzdilər və öz fikirlərini bildirdilər. Nəticə etibarilə danışıqlar prosesi bərpa edildi. Xarici İşlər nazirləri artıq bir neçə dəfə görüşüblər və danışıqlar Ermənistan ilə Azərbaycan arasında aparılır. Danışıqlar prosesi üçün yalnız bu format məqbuldur.

Bildiyiniz kimi, keçən il Ermənistanda böyük dəyişikliklər baş verdi. 20 il hakimiyyəti qanunsuz şəkildə zəbt etmiş kriminal xunta rejimi süqut etdi. Bu da təbiidir və bu, kriminal rejimin məntiqi acı sonudur. Bu məsələdə, əlbəttə ki, Ermənistanın işğalçılıq siyasəti də mühüm rol oynayır. Çünki məhz bu siyasətə görə Ermənistan biz tərəfdən bütün regional layihələrdən təcrid edilib. Bu işğalçılıq siyasətinə görə Ermənistan iqtisadiyyatı, demək olar ki, çökdü. Ermənistan çox dərin demoqrafik böhran içindədir və depopulyasiya, yəni əhalinin azalması prosesi geniş vüsət alıbdır. Azərbaycan dünyaya sübut etdi ki, onun apardığı siyasət düzgün siyasətdir. Mən bu siyasəti heç vaxt gizlətməmişəm və müxtəlif kürsülərdən açıq bəyan etmişəm – nə qədər ki, torpaqlarımız azad olunmayıb, biz Ermənistanı təcrid etmək üçün bütün vasitələrdən istifadə edirik və

edəcəyik. Bu siyasət öz nəticəsini verir – kriminal rejim çökdü və Ermənistanda yeni vəziyyət yarandı.

Biz dəfələrlə demişdik ki, Ermənistanda 20 il ərzində kriminal, qaniçən xunta rejimi hökm sürür. Ancaq əfsuslar olsun ki, bəzi beynəlxalq təşkilatlar buna göz yumurlar. İndi sual olunur, necə ola bilər ki, son illərdə Ermənistanda böyük miqyasda saxtakarlıqla keçirilmiş Prezident və parlament seçkilərinə beynəlxalq təşkilatlar müsbət rəy verirlər?! Axı son parlament seçkiləri göstərdi ki, hakimiyyəti qanunsuz şəkildə zəbt etmiş dəstə heç 5 faiz də səs yığa bilməyib. Bunu hər kəs etiraf edir. Ancaq əvvəlki illərdə özlərinə 50 faizdən çox səs yazdıran kriminal rejimin fəaliyyəti niyə qınaq obyektinə çevrilməmişdir?! Avropa Şurası, Avropa Parlamenti və demokratiyadan, ədalətdən dəm vuran digər beynəlxalq təşkilatlar o biabırçı mənzərəyə niyə göz yumurdular?! Məgər onlar bilmirdilər ki, Ermənistanda bütün seçkilər saxtalaşdırılıb?! Bilmirdilər ki, erməni xalqı kriminal rejimə nifrət edir?! Çox yaxşı bilirdilər, amma göz yumurdular. Nəyə görə? İkili standartlara görə. Nəyə görə? Çox güman ki, burada hansısa təmənna ilə bağlı başqa məsələlər də olub. Heç kimə sirr deyil ki, Ermənistan beynəlxalq arenada «konyak diplomatiyası»nı işə salıb və bir çox siyasətçiləri satın alıbdır. Əvvəlki illərdə Ermənistanın xarici siyasətində rüşvət amili birinci yerdə idi.

Hesab edirəm ki, bu məsələ müvafiq beynəlxalq orqanlar tərəfindən çox ciddi araşdırılmalı və kriminal rejimə 20 il ərzində dəstək verən, onun cinayətlərinə

göz yuman, onun əlindən orden, medal alan «siyasətçilər» məsuliyyətə cəlb olunmalıdırlar. Bizim tələbimiz bundan ibarətdir. Əgər bu olmasa, demək heç nə dəyişilmir. Əgər bu olmasa, onda bu gün bəzi beynəlxalq təşkilatlar tərəfindən səsləndirilən ədalət, insan haqları haqqında cəfəng bəyanatlar elə cəfəng bəyanatlar kimi də qalacaq. Sarkisyan rejiminə, onun əməllərinə dəstək verən, göz yuman beynəlxalq təşkilatlar əgər öz günahlarını yumaq istəyirlərsə, qoy etiraf etsinlər ki, onlar 20 il ərzində cinayətkarlarla əlbir olub və beləliklə, bu cinayətlərdə onların da əli, onların da payı vardır.

Mən dəfələrlə demişəm ki, Ermənistanı kriminal rejim idarə edir. İndi bunu erməni xalqı deyir. Onların keçmiş rəhbərləri cinayətkardır, bu, sübut olundu. Onların qəhrəmanları qorxaq, generalları isə oğrudur. Bax, budur Ermənistanın indiki vəziyyəti. Əgər müstəqilliyi cəmi 27 ilə bərabər olan bir ölkəni 20 il ərzində cinayətkarlar idarə ediblərsə, onda bu ölkə haqqında təsəvvür yaratmaq o qədər də çətin deyil.

Mən dəfələrlə bunu bildirmişəm, bir daha demək istəyirəm ki, Ermənistanı bu ağır böhranlı vəziyyətdən çıxarmaq üçün bir yol vardır, o da Azərbaycan ilə münasibətləri normallaşdırmaqdır. Biz buna hazırıq. Ancaq, əlbəttə ki, buna nail olmaq üçün bir şərt vardır – Ermənistan silahlı qüvvələri işğal edilmiş torpaqlardan çıxarılmalıdır.

Biz keçən il hərbi potensialımıza böyük diqqət göstərmişik və bu sahədə böyük nailiyyətlər əldə etmişik. Bizim ordumuzun döyüş qabiliyyəti artır və

Naxçıvan əməliyyatı bunu əyani şəkildə sübut etdi. Uğurlu Naxçıvan əməliyyatı nəticəsində biz 11 min hektar torpağa tam nəzarət edirik. Bu çox uğurlu əməliyyat idi. Eyni zamanda, əldə edilmiş yüksəkliklər strateji xarakter daşıyır. Bu yüksəkliklər Ermənistanı Dağlıq Qarabağla birləşdirən yola tam nəzarət etmək üçün bizə imkan yaradır. Yəni bu hadisə – Naxçıvan əməliyyatı bir daha onu göstərdi ki, Azərbaycan xalqı və dövləti heç vaxt işğalla barışmayacaq və öz ərazi bütövlüyünü istənilən yolla bərpa edəcəkdir. Sadəcə, danışıqlara ümid olduğu üçün biz bu yolu hələ ki, əsas vasitə kimi görürük. Ancaq eyni zamanda, hərbi gücümüzü də artırırıq. Döyüş qabiliyyətimizlə bağlı keçən il aparılmış işlər, əlbəttə ki, çox yüksək qiymətə layiqdir. Uğurlu Naxçıvan əməliyyatında fərqlənən hərbçilərə dövlət tərəfindən müvafiq mükafatlar verilibdir.

Biz keçən il ordumuzun maddi-texniki bazasının möhkəmləndirilməsi ilə bağlı çox böyük işlər gördük. İki dəfə keçirilən hərbi paradda texnikamızın bir hissəsini nümayiş etdirdik. Mən onların arasında, əlbəttə ki, xüsusilə uzaqmənzilli «Polonez» və «Lora» raket sistemlərini qeyd etmək istərdim. Qarşı tərəfin bu sistemlərə qarşı heç bir müdafiə imkanı yoxdur. Bu sistemlər 300 kilometr və ondan çox məsafəni qət edərək, çox yüksək dəqiqlik və böyük dağıdıcı qüvvə ilə istənilən hərbi hədəfi məhv edə bilər. Düşmənin elə bir hərbi hədəfi yoxdur ki, biz onu dəqiqliklə məhv edə bilməyək.

Bu sistemlərin və yeni pilotsuz döyüş uçuş aparatlarının əldə edilməsi bizim hərbi gücümüzü daha da artırır. Əlbəttə ki, son illər ərzində hava hücumuna, raket hücumuna qarşı aldığımız sistemlər müdafiə potensialımızı gücləndirir və digər sistemlər bizim hücum gücümüzü artırır. Bunu hər kəs bilir. Hərbi sahədə baş verən hadisələr heç kim üçün sirr deyil. Qarşı tərəf də – düşmən də bilir və bilməlidir ki, bu gün Azərbaycan Ordusu dünya miqyasında güclü ordular sırasındadır və bu il bu istiqamətdə əlavə addımlar atılacaqdır.

Müharibədən əziyyət çəkən soydaşlarımızın problemləri də keçən il uğurla həll olunub. Bu məsələ ilə bağlı çox ciddi addımlar atılıb. Keçən il 5800-dən çox köçkün ailəsinə yeni evlər, mənzillər verilibdir. Bu, son illər ərzində rekord göstəricidir. Bununla bərabər, şəhid ailələrinə, Qarabağ müharibəsi əlillərinə 620-dən çox mənzil verilib. Bu il daha da çox mənzil veriləcək, o cümlədən məcburi köçkünlər üçün yeni şəhərciklər tikiləcəkdir. Yəni bu məsələ daim diqqət mərkəzindədir. Biz hələ də ağır vəziyyətdə yaşayan köçkünlərin problemlərinin həlli üçün bu il də böyük vəsait nəzərdə tutmuşuq. Biz bu məsələləri həll edəcəyik.

Əlbəttə, bütün bu işləri görmək üçün iqtisadi güc olmalıdır və biz bunu yaradırıq. Bu gün Azərbaycan iqtisadi inkişaf baxımından heç kimdən, heç bir beynəlxalq maliyyə qurumundan, heç bir ölkədən asılı deyil. İqtisadi müstəqillik bizə imkan verir ki, müstəqil siyasət aparaq, Azərbaycan xalqının maraqlarını müdafiə edək. Keçən il iqtisadi inkişaf baxımından

uğurlu il olmuşdur. Deyə bilərəm ki, keçən il dərin iqtisadi islahatlar ili olub və bu islahatların nəticələrini indi hər kəs görür. Büdcəmizə daxilolmalar yüksək dərəcədə artıb. İqtisadi islahatların əsas məqsədi bu sahədə şəffaflığı tam təmin etmək, xoşagəlməz hallara qarşı mübarizəni gücləndirmək və beləliklə, ölkəmizin uğurlu inkişafını sürətləndirməkdir. Deyə bilərəm ki, beynəlxalq təşkilatlar, aparıcı maliyyə qurumları Azərbaycanda gedən prosesləri çox böyük maraqla izləyir və bizim işimizə çox yüksək qiymət verir. Mən xüsusi qeyd etməliyəm ki, Dünya Bankının «Doing Business» hesabatında Azərbaycan dünya miqyasında 25-ci yerdədir. İl ərzində biz 32 pillə irəliləmişik. Hesab edirəm ki, bu, rekord göstəricidir. Biznesi aparmaq üçün yaradılmış şəraitə görə dünya miqyasında 25-ci yerdə olmaq böyük nailiyyətdir.

Bizim bütün iqtisadi göstəricilərimiz çox müsbətdir. Mən bəzi göstəriciləri ictimaiyyətin diqqətinə çatdırmaq istəyirəm. Ümumi daxili məhsul, yəni iqtisadi artım keçən il Azərbaycanda 1,4 faiz olubdur. Hesab edirəm ki, bu, yaxşı göstəricidir. Əlbəttə, bizim arzularımızı tam əks etdirmir. Ancaq dünyada gedən proseslərə baxdıqda hesab edirəm ki, yaxşı göstəricidir. Ondan daha yaxşı göstərici qeyri-neft sektorunun inkişafıdır. Burada da inkişaf 1,8 faizdir. Sənaye istehsalı 1,5 faiz, qeyri-neft sektorunda isə sənaye istehsalı 9,1 faiz artıbdır. Bu onu göstərir ki, sənayeləşmə siyasətimiz öz gözəl nəticələrini verir.

İnflyasiya cəmi 2,3 faizdir, əhalinin pul gəlirləri 9,2 faiz artıbdır. Görürsünüz ki, əhalinin gəlirləri inflya-

siyanı üstələyir. Əgər biz 2017-ci ilə nəzər salsaq görərik ki, inflyasiya 12 faizdən çox idi, indi isə 2,3 faizdir. Manatın məzənnəsi sabitdir. Kənd təsərrüfatı 4,6 faiz artıb. Hesab edirəm ki, bu da yaxşı göstəricidir. Ölkə iqtisadiyyatına keçən il 17,2 milyard manat sərmayə qoyulub. Çox böyük rəqəmdir və ən sevindirici hal ondan ibarətdir ki, bu sərmayənin 11 milyard manatı, ondan da çoxu ölkəmizin qeyri-neft sektoruna qoyulan sərmayədir. Yəni bu onu göstərir ki, Azərbaycan sərmayə qoyuluşu üçün çox cəlbedici ölkədir. Dünya Bankının son hesabatında bizim 25-ci yerə qalxmağımız hesab edirəm ki, sərmayə qoymaq istəyənləri daha da həvəsləndirəcək və ölkəmizə daha çox sərmayə qoyulacaqdır.

Biz keçən il valyuta ehtiyatlarımızı 3 milyard dollar məbləğində artıra bilmişik. Baxmayaraq ki, xərclərimiz də az olmayıb. Beləliklə, bu gün ölkəmizin valyuta ehtiyatları 45 milyard dollara bərabərdir. Xarici borc 22,8 faizdən 19 faizə düşüb və bu da çox müsbət haldır. Yəni indi Azərbaycanın xarici borcu ümumi daxili məhsulun 19 faizini təşkil edir. Qarşıya vəzifə qoyulub ki, biz bu borcu yaxın illərdə daha da azaldaq. Bu məsələ ilə bağlı müvafiq proqram hazırlanıb. Mən hesab edirəm ki, biz borcu tədricən azaltmalıyıq. Düzdür, 19 faiz də dünya miqyasında indi çox gözəl göstəricidir. Elə ölkələr var ki, xüsusilə inkişaf etmiş ölkələr, orada xarici borc ümumi daxili məhsulun 100–120 faizini təşkil edir. Əgər hansısa ölkədə 50 faiz təşkil edirsə, o ölkə iqtisadi cəhətdən sabit ölkə kimi tanına bilər. Bizdə isə 19 faizdir, mən bunu da çox görürəm. Hesab edirəm

ki, bu daha da düşməlidir və düşəcəkdir. Əlbəttə, əgər xarici borcumuzu valyuta ehtiyatlarımızla müqayisə etsək görərik ki, bizim valyuta ehtiyatlarımız xarici borcumuzu 4-5 dəfə üstələyir. Yəni istənilən vaxtda biz xarici borcu tam ödəyə bilərik. Bu bizim siyasətimizi əks etdirir və onu göstərir ki, biz bir çox kreditlər ala bilərik. Ancaq mən göstəriş vermişəm, kreditlərin alınması məhdudlaşdırılsın, buna indi ehtiyac yoxdur. Biz ancaq texnoloji tutumlu layihələrə bəzi hallarda istisna hal kimi, müəyyən məbləğdə kredit ala bilərik. Buna isə ehtiyac yoxdur, çünki öz pulumuz da var və valyuta ehtiyatlarımız da artır.

Keçən il 118 min daimi iş yeri yaradılıbdır. İşsizliyin aşağı səviyyədə saxlanılması üçün bu çox əhəmiyyətli məsələdir. İxracla bağlı yaxşı göstəricilər vardır. İxrac 36 faiz artıb. Ümumi rəqəmi götürsək, ixracımız 19 milyard dollara çatıb. Xarici ticarət balansında müsbət saldo – yəni ixracın idxalı üstələməsi 8,6 milyard dollar təşkil edir. Əgər ölkələrə nəzər salsaq görərik ki, bu da dünya miqyasında nadir hallarda müşahidə olunan mənzərədir. Ölkələrin əksəriyyətində idxal ixracı üstələyir. Azərbaycanda isə biz bunun əksini görürük. Özü də biz ölkəyə ixracla bağlı daha çox – 8,6 milyard dollar pul gətirmişik, nəinki xərcləmişik. Əgər biz buraya xarici turistlərdən gələn vəsaiti əlavə etsək görərik ki, rəqəm daha da artacaqdır. Onu da bildirməliyəm ki, keçən il ölkəmizə 2 milyon 850 min xarici vətəndaş gəlib. Bu, 6 faiz artım deməkdir. Aparılmış hesablamalara görə, bu xarici qonaqlar ölkəmizdə 2 milyard dollar pul xərcləyiblər. Turizmin inkişafı ilə bağlı apar-

dığımız siyasət, görürsünüz ki, ilk növbədə, maliyyə sahəsində özünü büruzə verir. Həm ölkəmizi tanıtdırırıq, həm də pul qazanırıq.

Beləliklə, iqtisadi göstəricilərimiz elədir ki, dünyanın istənilən ölkəsi bu göstəriciləri böyük qəhrəmanlıq kimi qəbul edə bilər, bizim üçün isə bu, adi haldır. Çünki bizim iqtisadi siyasətimiz düşünülmüş siyasətdir. Ümumiyyətlə, bizim siyasətimiz Azərbaycan xalqının maraqlarını tam əks etdirir, ona tam uyğundur. Məhz buna görə Azərbaycan xalqı bizim siyasətimizi dəstəkləyir. Bu dəstək keçən il Prezident seçkilərində bir daha özünü göstərdi. Azərbaycan xalqı mənə bir daha çox böyük etimad göstərdi. Bildiyiniz kimi, seçkilər ərəfəsində keçirilmiş rəy sorğuları, seçkilər günü keçirilmiş eksit-pollar rəsmi nəticələrlə tam üst-üstə düşdü. Bu bir daha onu göstərdi ki, seçkilərin nəticələrində Azərbaycan xalqının iradəsi tam öz əksini tapıb. Bu, görülən işlərə verilən yüksək qiymətdir. Görülən işlər isə göz qabağındadır.

Keçən ilin önəmli hadisələrini sadalamaq üçün bir neçə saat vaxt lazımdır. Mən bir neçə önəmli hadisəni qeyd etmək istərdim. Biz keçən il üçüncü peyki orbitə buraxdıq və Azərbaycan kosmik dövlət kimi, öz mövqelərini daha da möhkəmləndirdi. Keçən il «Cənub Qaz Dəhlizi»nin rəsmi açılışı oldu. Bu, sözün əsl mənasında, tarixi hadisədir. Çünki bu hadisə bundan sonra onilliklər ərzində Azərbaycana böyük xeyir, həm siyasi, həm də iqtisadi və maliyyə mənfəəti gətirəcək. Keçən il «Cənub Qaz Dəhlizi»nin tərkib hissəsi olan TANAP layihəsi də işə düşdü və artıq fəaliyyətdədir. Beləliklə, «Cənub Qaz

Dəhlizi»nin 4 layihəsindən 3-ü reallaşdı. Bu bizim böyük, tarixi uğurumuzdur. Ölkəmizi nəqliyyat mərkəzinə çevirmək üçün keçən il çox önəmli hadisə baş verdi. Bakı Beynəlxalq Dəniz Ticarət Limanı öz işinə başladı. Beləliklə, Azərbaycan tranzit ölkə kimi, artıq özünü dünyada təsdiqlədi.

Keçən il bir çox hadisələr olub ki, onların haqqında danışmamaq olmaz. Ancaq hesab edirəm ki, mən Azərbaycan xalqını keçən il görülmüş əsas işlər haqqında müəyyən dərəcədə yığcam formada məlumatlandırım. Nazirlər Kabinetinin toplantıları, əlbəttə, o cümlədən xalqa verilən hesabatdır. Mən müxtəlif tədbirlərdə, müxtəlif görüşlərdə xalqa müntəzəm olaraq hesabat verirəm. Eyni zamanda, görülmüş işlər haqqında hesabatın bu formatda da verilməsi hesab edirəm ki, düzgün addımdır.

Bu gün biz bu il görüləcək işlər haqqında danışacağıq. Müvafiq tapşırıqlar veriləcək ki, 2019-cu il də ölkəmiz üçün uğurlu il olsun.

* * *

**S a m i r Ş ə r i f o v** (*Maliyyə naziri*): Möhtərəm cənab Prezident! Hörmətli iclas iştirakçıları!

Müsəlman Şərqində ilk demokratik respublikanın qurulmasının 100 illiyi münasibətilə «Cümhuriyyət ili» kimi qeyd etdiyimiz 2018-ci il ölkəmizin ictimai-siyasi və sosial-iqtisadi həyatındakı hadisələrin əhəmiyyəti və zənginliyi baxımından uğurlu bir il kimi səciyyələndirilməlidir.

Yola saldığımız ilin ən əlamətdar hadisəsi aprel ayında keçirilmiş Prezident seçkilərində Azərbaycan

Respublikasının Prezidenti cənab İlham Əliyevin inamlı və parlaq qələbəsi olub. Azərbaycan xalqı Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdəki dönməz sabitliyə və təhlükəsizliyə, davamlı inkişafa, etibarlı sosial rifaha, tərəqqiyə, modernləşməyə və firavan gələcəyə aparan və son 15 ildə özünü təsdiq etmiş uğurlu iqtisadi və sosial kursun davam etməsinə növbəti dəfə tam dəstəyini ifadə edibdir.

2018-ci il dövlətimizin müasir tarixində xüsusi yerə layiq olan bir sıra layihələrin ərsəyə gəlməsi, o cümlədən nəhəng transmilli «Cənub Qaz Dəhlizi» layihəsi çərçivəsində «Şahdəniz-2» və TANAP layihələrinin uğurla reallaşması, «Azərspace-2» peykinin orbitə buraxılması, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Kompleksinin, Sumqayıtda Polipropilen zavodunun, Azərbaycanın dövlət investisiyası ilə Türkiyədə böyük Neft Emalı zavodunun istismara verilməsi ilə də səciyyələnir. Möhtərəm Prezident cənab İlham Əliyevin təşəbbüskarı olduğu bu layihələr uzun illər ərzində ölkə iqtisadiyyatının inkişafına birbaşa və dolayısı ilə mühüm töhfələr verəcəkdir.

Ötən il «Büdcə sistemi haqqında» Azərbaycan Respublikasının Qanununa, Vergi Məcəlləsinə mühüm dəyişikliklər edilib, yeni büdcə və ortamüddətli xərclərin formalaşdırılması qaydası, dövlət borcunun idarə edilməsinə dair orta və uzunmüddətli strategiya, yeni vahid büdcə təsnifatı təsdiqlənib. Qeyd olunan sənədlər qeyri-neft sektorunda vergi yükünün azaldılmasını, büdcənin sabitliyinin və ortamüddətli dayanıqlılığının təmin edilməsini, maliyyə inzibatçılığının və

hesabatlılığın daha da artırılmasını, ölkədə dayanıqlı və idarəolunan dövlət borcunun səviyyəsinin müəyyən edilməsini, bu sahədə risklərin qarşılanması sisteminin təkmilləşdirilməsini və nəzarət mexanizminin gücləndirilməsini özündə birləşdirir.

2018-ci il eyni zamanda, makroiqtisadi sabitliyin daha da möhkəmləndirilməsi, qlobal ticarətdə proteksionizmin və ticarət müharibələrinin vüsət aldığı bir zamanda xarici şokların ölkə iqtisadiyyatına təsirlərinin neytrallaşdırılması ili kimi də dəyərləndirilə bilər. Büdcə-fiskal siyasətin monetar siyasətlə sıx əlaqəli şəkildə həyata keçirilməsi nəticəsində il ərzində milli valyutanın sabitliyi qorunub, inflyasiyanın cilovlanmasına və ötən ilin müvafiq dövrü ilə müqayisədə 10 faiz-bənd azalmasına nail olunubdur. Xarici ticarət balansındakı müsbət saldo tədiyyə balansının cari əməliyyatlar hesabının 5 milyard ABŞ dollarına qədər, məcmu valyuta ehtiyatlarının isə ötən ilin əvvəlinə nisbətən 3,0 milyard ABŞ dolları məbləğində və ya 6,5 faiz artmasını şərtləndiribdir.

2018-ci ilin sonuna Mərkəzi Bankın valyuta ehtiyatları nəzərə alınmadan, hökumətin valyuta ehtiyatları xarici dövlət borcumuzu 4,3 dəfə üstələməklə, ümumi daxili məhsulun 83,5 faizini təşkil edibdir.

Ötən il ölkə iqtisadiyyatının dinamik inkişafı dövlət və icmal büdcələrinin icrasına da öz müsbət təsirini göstərib. Operativ məlumatlara əsasən, 2018-ci ilin icmal büdcəsinin gəlirləri 31 milyard 35 milyon manat, xərcləri 26 milyard 334 milyon manat icra olunub. İcmal büdcədə 4 milyard 700 milyon manat büdcə

artıqlığı və ya ümumi daxili məhsula nisbətdə 5,9 faizlik profisit əldə edilib. 2017-ci illə müqayisədə gəlirlər müvafiq olaraq 6 milyard 750 milyon manat və ya 28,9 faiz, xərclər isə 1 milyard 151 milyon manat və ya 4,6 faiz çox icra olunubdur.

2018-ci ildə dövlət büdcəsinin gəlirləri 22 milyard 411 milyon manat və yaxud təsdiq olunmuş proqnoza nisbətən 262 milyon manat çox icra edilib. Dövlət büdcəsinin kəsiri 951 milyon manat proqnoza qarşı faktiki olaraq 644 milyon manat az olub və ya 307 milyon manatadək daralıbdır.

Qeyri-neft sektoru üzrə büdcə daxilolmalarının artımla icra edilməsi xüsusilə qeyd olunmalıdır. Bu daxilolmalar 9 milyard 10 milyon manat və yaxud 102,4 faiz icra edilməklə, proqnozda nəzərdə tutulduğundan 207 milyon manat, 2017-ci illə müqayisədə isə 378 milyon manat və ya 4,4 faiz çox təşkil edibdir.

2018-ci ildə Vergilər Nazirliyinin xətti ilə daxilolmalar 7 milyard 418 milyon manat və yaxud 100,5 faiz, 2017-ci ilə nisbətən 444 milyon manat və ya 6,4 faiz çox icra edilibdir.

Dövlət Gömrük Komitəsi xətti ilə dövlət büdcəsinə 3 milyard 434 milyon manat və ya proqnoza nisbətən 244 milyon manat çox vəsait daxil olub. Bu 2017-ci illə müqayisədə 825 milyon manat və ya 31,6 faiz çoxdur.

Dövlət əmlakının özəlləşdirilməsi üzrə proqnoz 1,2 faiz artımla yerinə yetirilərək, büdcəyə 101,2 milyon manat vəsait təmin edilibdir.

2018-ci ilin dövlət büdcəsinin xərcləri 22 milyard 719 milyon manat və yaxud 98,4 faiz icra edilib ki, bu da 2017-ci ilin icra göstəricisindən 0,3 faiz-bənd çoxdur.

Ötən il dövlət və icmal büdcələrdə nəzərdə tutulan bütün sosial öhdəliklər, əsas dövlət proqramları və prioritet kəsb edən layihələr tam həcmdə maliyyələşdirilibdir.

Hesabat ilində dövlət büdcəsi xərclərinin 31,7 faizi və ya 7 milyard 197 milyon manatı sosial yönlü xərclərin payına düşür ki, bu da 2017-ci illə müqayisədə 506 milyon manat və ya 7,6 faiz çoxdur.

Azərbaycan Respublikası Prezidentinin sərəncamlarına uyğun olaraq, ötən ilin mart ayından əhalinin sosial müdafiəsinin gücləndirilməsi məqsədilə ölkədə sosial müavinətlərin, təqaüdlərin və digər sosial ödənişlərin orta hesabla 10 faiz artırılması təmin olunub, dövlət büdcəsindən maliyyələşən təşkilatlarda çalışan işçilərin əmək haqları da 10 faiz artırılıbdır. Bu tədbirlərin maliyyələşdirilməsi üçün dövlət büdcəsində əlavə olaraq 446 milyon manat təminat yaradılıbdır.

Sosial yönlü siyasətin digər vacib istiqamətləri kimi, qaçqın və məcburi köçkünlərin sosial müdafiəsinin gücləndirilməsi və yaşayış şəraitinin yaxşılaşdırılması üçün 2018-ci ilin icmal və dövlət büdcələrindən üst-üstə 436 milyon manat, sosial mənzillərin tikintisi və güzəştli ipoteka proqramının davamı üçün müvafiq olaraq, 100 və 50 milyon manat vəsait ayrılıbdır.

Eyni zamanda, Qarabağ müharibəsi əlilləri və şəhid ailələri 626 mənzillə təmin edilib, ordumuzda uzun

müddət qüsursuz xidmət etmiş hərbi qulluqçuların mülkiyyətinə ötən il 394 mənzil verilərək, ümumilikdə hərbi qulluqçulara verilmiş mənzillərin sayı 1284-ə çatdırılıbdır.

Ölkəmizdə iqtisadi inkişafın aparıcı qüvvəsi olan sahibkarlığa dövlət dəstəyinin verilməsi möhtərəm Prezidentimizin müəyyən etdiyi iqtisadi inkişaf strategiyasının prioritetlərindən biridir. Son illərdə bu istiqamətdə dövlət tərəfindən görülən məqsədyönlü tədbirlər Dünya Bankının «Doing Business–2019» təhlilində öz əksini tapıb, ölkəmiz ümumi reytinqdə yeni rekorda imza ataraq, dünyada 10 ən islahatçı dövlət siyahısına daxil olubdur. Bu təhlil ölkəmizdə əlverişli investisiya mühitinin cəlbediciliyinin mühüm göstəricisi olmaqla, özəl, xarici və daxili sərmayələrin iqtisadiyyatımıza, xüsusən onun qeyri-neft sahələrinə axını üçün əlavə güclü təkan verir.

Sahibkarlığa dövlət dəstəyinin əyani göstəricisi kimi, qeyd etmək yerinə düşər ki, hesabat ili ərzində kənd təsərrüfatı sahəsində çalışanlara 370 milyon manat məbləğində subsidiya və güzəştlər verilib, Sahibkarlığın İnkişafı Fondunun xətti ilə 999 sahibkara 160 milyon manat məbləğində güzəştli şərtlərlə kreditlər ayrılıb, İpoteka və Kredit Zəmanəti Fondu isə ölkə bankları tərəfindən kreditləşdirilən 277 milyon manat məbləğində ipoteka kreditlərini yenidən maliyyələşdirib, 17 milyon manat məbləğində kreditlərlə bağlı zəmanət dəstəyi göstəribdir.

Ölkənin qeyri-neft məhsullarının ixracının təşviqi və stimullaşdırılması proqramı çərçivəsində sahibkarlara

dövlət büdcəsindən 15 milyon manat məbləğində ixrac təşviqləri ödənilibdir.

Hesabat ilində sosial, fiziki infrastruktur və digər investisiya təyinatlı layihələrin maliyyələşdirilməsi üçün Dövlət İnvestisiya Proqramı hesabına 5 milyard 64 milyon manat və Prezidentin ehtiyat fondu hesabına 301 milyon manat – cəmi 5 milyard 365 milyon manat vəsait sərf edilibdir.

Möhtərəm Prezident, 2018-ci ildə təsdiq etdiyiniz dövlət borcunun idarə edilməsinə dair orta və uzunmüddətli strategiyanın icrasına başlanılıb və ötən il ərzində görülən tədbirlər hesabına xarici dövlət borcunun ümumi daxili məhsula nisbəti ilin əvvəlindəkindən 3,8 faiz-bənd azalıb və 19 faiz təşkil edibdir.

Bununla yanaşı, daxili qiymətli kağızlar bazarının təşviqi, bank və sığorta sektorunun inkişafı üçün maliyyə alətlərinə olan tələbatın ödənilməsi, habelə dövlət büdcəsi kəsirinin maliyyələşdirilməsi məqsədilə il ərzində daxili bazarda 1 milyard 81 milyon manat məbləğində daxili dövlət borc kağızları yerləşdirilibdir.

Ümumiyyətlə, dövlət borcuna və öhdəliklərinə xidmət edilməsi ilə bağlı xərclərə 2 milyard 260 milyon manat vəsait istifadə olunubdur.

Möhtərəm cənab Prezident!

Sizin də qeyd etdiyiniz kimi, yola saldığımız 2018-ci ildə Azərbaycan Respublikasının uğurlu, dinamik inkişafı təmin olunub, ölkə qarşısında duran bütün vəzifələr müvəffəqiyyətlə icra edilib, 2019-cu və gələcək illərin iqtisadi inkişafının təməlləri atılıbdır. Tam əminliklə söyləmək olar ki, Sizin rəhbərliyinizlə 2019-cu ildə də

davam etdiriləcək köklü və çoxşaxəli iqtisadi islahatlar, məqsədyönlü proqramlar iqtisadiyyatımızın inkişafına və xalqımızın rifahının yüksəldilməsinə öz böyük töhfəsini verəcəkdir.

İcazə verin, çıxışımın sonunda Sizi əmin edim ki, bugünkü iclasda verəcəyiniz tapşırıqlar da nəzərə alınmaqla, 2019-cu ildə qarşıya qoyulan hədəflərin təmin olunmasında Maliyyə Nazirliyinin kollektivi səylərini əsirgəməyəcəkdir.

Diqqətinizə görə təşəkkür edirəm.

**Sahil Babayev** (*Əmək və Əhalinin Sosial Müdafiəsi naziri*): Möhtərəm cənab Prezident!

Hörmətli iclas iştirakçıları!

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev tərəfindən əsası qoyulan və Sizin rəhbərliyinizlə uğurla həyata keçirilən sosial-iqtisadi siyasət nəticəsində ölkəmizdə davamlı iqtisadi artım təmin olunur, çoxşaxəli sosial proqramlar reallaşdırılır, sosial müdafiə sistemi yeni inkişaf mərhələsinə qədəm qoyur.

Cənab Prezident, pensiya, ünvanlı yardım, əlillik və məşğulluq sahələrində şəffaflığın və sosial ədalətin tam təmin olunması, bürokratiya, süründürməçilik və korrupsiya hallarının aradan qaldırılması, məmur–vətəndaş təmasının minimuma endirilməsi və elektron sistemlərin tətbiqi Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin qarşısında qoyduğunuz əsas vəzifələrdir. Bu vəzifələrə uyğun olaraq, sosial müdafiə sisteminin inkişafına və mənfi halların aradan qaldırılmasına xidmət edən geniş islahatlar paketi hazırlanıb və Sizin dəstəyinizlə icra olunur.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə sosial xidmətlərin vahid platforma və «bir pəncərə»dən şəffaf və vətəndaş məmnunluğu şəraitində göstərilməsi məqsədilə Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi və DOST mərkəzlərinin yaradılmasına başlanılıb. Sizin 2018-ci il 9 avqust və 10 dekabr tarixli fərmanlarınıza əsasən DOST layihəsinin hüquqi və institusional işləri artıq başa çatıbdır.

DOST mərkəzlərində birbaşa, telefon və internetlə, səyyar və tam avtomatlaşdırılmış qaydada 124 xidmət göstəriləcəkdir. Tezliklə Yasamal rayonunda ilk DOST Mərkəzinin açılması, cari ildə Bakıda daha 3 mərkəzin yaradılması nəzərdə tutulur.

Elektron xidmətlərin genişləndirilməsi məqsədilə Sizin tapşırıqlarınızın və 2018-ci il 5 sentyabr tarixli Fərmanınızın icrası olaraq, «e-sosial» internet portalı, «Məşğulluq» sistemi və 18 alt sistemdən ibarət Mərkəzləşdirilmiş İnformasiya Sistemi yaradılıbdır.

«E-sosial» portalı ölkəmizdə ilk dəfə olaraq sosial reyestri formalaşdırıb, vətəndaşlara əmək müqavilələri, məşğulluq, pensiya kapitalı, mənzil və avtomobil növbəsi, əlillik, reabilitasiya və digər məlumatlara birbaşa çıxış imkanı yaradıb, şəffaflığı və ictimai açıqlığı təmin edibdir.

Yanvar ayında istifadəyə veriləcək «Məşğulluq» sistemi işsiz və işaxtaran şəxslərin reyestrini, iş yerlərinin vakansiya bankını və məşğulluq xidmətlərinin elektronlaşmasını təmin edəcəkdir. Bu sistem vasitəsilə hər bir şəxs arzuladığı vakansiyaya elektron müraciət

edəcək, eyni zamanda, işəgötürənlər işçi qüvvəsinə sərbəst çıxış əldə edəcəklər.

Pensiya təyinatı sahəsində «Pensiyaçının dostu» proqramı hazırlanıb və cari ildən avtomatlaşdırılmış pensiya təyinatına başlanılıb. Bu innovativ yanaşma əsasında, vətəndaşın hüququ yarandığı gün elektron qaydada pensiya təyinatı aparılır, ona pensiya məbləği, ödəniş kartını əldə edəcəyi bank filialı barədə sms, «e-mail» və məktub göndərilir.

İslahatın tərkib hissəsi kimi, fərdi hesabında pensiya kapitalı olan şəxslərə 2006-cı ilədək 25 il sığorta stajı avtomatik hesablanır. Bu mühüm sosial təşəbbüs vətəndaşlarımıza Sizin qayğınızın növbəti təzahürüdür və cari ildə əlavə olaraq, 19500 nəfərin pensiya almasına və onların aylıq gəlirlərinin 48 faiz artmasına imkan yaradacaqdır. Artıq 628 şəxsə elektron qaydada pensiya təyin edilib və pensiya hüququ yaranacaq şəxslərin 70 faizinin, yəni 36 min nəfərin pensiya təyinatı məhz avtomatlaşdırılmış şəkildə aparılacaqdır.

Möhtərəm cənab Prezident, hesabat ilində inzibatçılığın təkmilləşdirilməsi və ciddi nəzarət tədbirləri nəticəsində Dövlət Sosial Müdafiə Fondu tərəfindən sosial sığorta haqları 2017-ci ilə nisbətən 246 milyon manat çox yığılaraq, 2 milyard 332 milyon manata çatıb. Qeyri-büdcə sektoru üzrə yığım 1 milyard 494 milyon manatı keçib, əvvəlki illə müqayisədə 152 milyon manat çox, proqnozla müqayisədə isə 6,1 faiz və ya 86 milyon manat çox olubdur.

Ötən il fondun xərcləri 3 milyard 682 milyon manat təşkil edib və bunun 97,8 faizi əhaliyə ödənişlərə

yönəldilibdir. Sizin sərəncamlarınızla ölkə üzrə əmək pensiyalarının sığorta hissəsi 5,7 faiz, sosial müavinətlər və təqaüdlər isə 10 faiz artırılıb. Beləliklə, 2018-ci ildə pensiyaların orta aylıq məbləği 6,8 faiz, yaşa görə pensiya isə 7,3 faiz çox olubdur.

Aztəminatlı ailələrin sosial müdafiəsi məqsədilə ünvanlı dövlət sosial yardım proqramının icrası davam edib, dekabrda yardımın orta aylıq məbləği 189 manata çatıb, il ərzində 104 milyon manat vəsait xərclənibdir. Bu sahədə mənfi halların qarşısının alınması və ünvanlılığın təmin edilməsi nəticəsində təyinatların sayı 53 faiz azalıb, büdcə vəsaitlərinə 102 milyon manat və ya 49 faiz qənaət edilibdir.

Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə aztəminatlı ailələrə yardım verilməsi haqqında sərəncamınızla 172 min üzvü olan 42895 ailəyə vəsait ödənilibdir.

Şəhid ailələrinin və müharibə əlillərinin mənzillə təminatı proqramı da uğurla davam edib. 1997-ci ildə ümummilli liderimiz Heydər Əliyevin təşəbbüsü ilə başlanan proqram ildən-ilə genişlənib və 6654 ailəyə mənzillər təqdim edilibdir.

Sizin və Mehriban xanım Əliyevanın avqustun 1-də müharibə əlilləri və şəhid ailələrinə mənzillərin verilməsi mərasimində iştirakınız onlara yüksək diqqətin növbəti təzahürü oldu. Tədbirdən bir gün sonra imzaladığınız sərəncamla Prezidentin ehtiyat fondundan 20 milyon manat əlavə vəsaitin ayrılması nəticəsində 2018-ci ildə onlara 626 mənzil və 265 minik avtomobili verilibdir.

Möhtərəm cənab Prezident, 2018-ci ildə keçirilmiş seçkilərdə əhalinin mütləq əksəriyyətinin etimadını yenidən qazanaraq, Prezident seçildikdən sonra imzaladığınız ilk fərman da şəhid ailələri ilə bağlı növbəti humanist addımınız oldu. Fərmanın icrası olaraq, 11000 manatlıq ödənişin verilməsi üçün elektron xidmət yaradılıb və 3097 şəhidin 4190 vərəsəsinə məmur təması olmadan 34 milyon manat vəsait ödənilibdir.

Nazirlik qarşısında qoyduğunuz vəzifələrdən biri də əlilliklə bağlı yeni konsepsiyanın hazırlanması və əlilliyi olan şəxslərin təminatının gücləndirilməsidir. Bununla əlaqədar olaraq, Ümumdünya Səhiyyə Təşkilatının və Avropa ölkələrinin standartları əsasında əlillik üzrə yeni meyarlar hazırlanıb. Bu meyarlarda əlillik dərəcəsinin ənənəvi 3 qrup əvəzinə, əmək və özünəqulluq qabiliyyətinin itirilməsi faizi əsasında qiymətləndirilməsi, sosial reabilitasiya və əməyə adaptasiya imkanları da nəzərə alınıbdır.

Əlillik təyinatlarında şəffaflığın təmin edilməsi məqsədilə ciddi nəzarət tədbirləri görülüb, Səhiyyə Nazirliyi ilə birgə iş nəticəsində 2018-ci ilin dördüncü rübündə birinci rüblə müqayisədə əlillik təyinatı 61 faiz, I qrup təyinatları isə 56 faiz azalıb. Əsassız təyinatlar ləğv edilərək, 3 milyon manat büdcə vəsaitinə qənaət olunubdur.

Hesabat ilində 11900 nəfərə reabilitasiya xidmətləri göstərilib, 35300 reabilitasiya vasitəsi, 7557 sanator-kurort yollayışı verilibdir.

Hörmətli cənab Prezident, hesabat ilində işaxtaran vətəndaşlar üçün məşğulluq imkanlarının yaradılması,

aktiv əmək bazarı tədbirlərinin genişləndirilməsi islahatları da davam etdirilib. 2018-ci ildə Dövlət Məşğulluq Xidməti tərəfindən əvvəlki ilə nisbətən 8,1 faiz çox olmaqla, 51774 nəfər işlə təmin edilib, 118138 nəfər peşəyönümü məsləhətlərinə, 2914 nəfər peşə hazırlığı kurslarına cəlb olunub, 8760 nəfərə işsizlikdən sığorta və müavinət ödənilibdir. Qeyri-rəsmi məşğulluğun qarşısının alınması istiqamətində həyata keçirilən tədbirlər nəticəsində əmək müqavilələrinin sayı 91,3 min artıbdır.

Özünüməşğulluq proqramı 2018-ci ildə 6,5 dəfə genişlənib, 7267 nəfər biznes planlarını uğurla müdafiə edib, 5000-dən çox ailə aktivlərlə təmin olunub və kiçik ailə təsərrüfatlarını yaradıbdır.

Proqrama cəlb olunanların əksəriyyətini ünvanlı yardım alanlar, məcburi köçkünlər, əlilliyi olanlar, şəhid ailələri, qadınlar və gənclər təşkil edib. Heydər Əliyev Fondu bu istiqamətdə Nazirliyə dəstək verib və «Sosial bağlar» layihəsi çərçivəsində 125 ailə üçün bağçılıq təsərrüfatları yaradılıbdır.

Tapşırığınıza əsasən ictimai işlərin təşkilinə dair «İşsizin dostu» adlı yeni proqram hazırlanıb, DOST İş Mərkəzi yaradılıbdır. Mərkəz vasitəsilə bu il 30 minədək işsiz şəxs ictimai işlərə tam şəffaf şəkildə cəlb ediləcəkdir.

Cənab Prezident, Sizi əmin edirəm ki, Nazirliyin kollektivi sosial inkişaf proqramınızın yüksək səviyyədə icrası üçün 2019-cu ildə də bütün səylərini səfərbər edəcəkdir.

Diqqətinizə görə təşəkkür edirəm.

**S ə f ə r  M e h d i y e v** (*Dövlət Gömrük Komitəsinin sədri)*: Möhtərəm cənab Prezident!

Hörmətli iclas iştirakçıları!

Ümummilli liderimiz Heydər Əliyev tərəfindən əsası qoyulmuş sosial-iqtisadi inkişaf strategiyasının davamı olaraq, zamanın çağırışlarına adekvat qərarlar qəbul edilməklə, ölkəmizin iqtisadi gücü daha da artırılıb. 2018-ci ildə ölkəmizin maliyyə dayanıqlılığı, yaxın və uzaq gələcəyə hədəflənmiş düzgün iqtisadi inkişaf strategiyası sayəsində makroiqtisadi sabitlik təmin edilib və iqtisadiyyatımızın inkişaf dinamikasının qorunub saxlanılmasına nail olunubdur. Əldə olunmuş bu nailiyyətlər, cənab Prezident, Sizin rəhbərliyiniz ilə aparılmış genişmiqyaslı islahatların nəticəsində qazanılıb və ötən dövr ərzində beynəlxalq aləmdə ölkəmizin mövqeləri daha da güclənibdir.

2018-ci ildə ölkə iqtisadiyyatının inkişafında və büdcənin gəlirlər hissəsinin formalaşmasında xüsusi rola malik olan Dövlət Gömrük Komitəsi idxal-ixrac əməliyyatları üzrə vergitutma bazasını düzgün müəyyənləşdirməklə, dövlət büdcəsinə 3 milyard 434 milyon manat gömrük ödənişinin köçürülməsini təmin edib. İlin əvvəlində nəzərdə tutulan proqnozla müqayisədə 1 milyard 4 milyon manat və ya 141 faiz çox gömrük vergi və rüsumları toplanaraq, dövlət büdcəsinə köçürülübdür.

Qeyd etmək istəyirəm ki, hesabat dövründə ticarət dövriyyəsi 30 milyard 924 milyon ABŞ dolları təşkil edib. İxracın həcmi 19 milyard 460 milyon dollar, idxalın həcmi isə 11 milyard 465 milyon ABŞ dolları olub.

2017-ci illə müqayisədə 2 milyard 682 milyon ABŞ dolları məbləğində artan idxalın həcminin heç də hamısı vergitutma bazası deyil. Aparılan təhlillərin nəticəsi olaraq bildirmək istəyirəm ki, artan idxalın tərkibində strateji qızıl ehtiyatlarını artırmaq məqsədilə Azərbaycan Respublikasının Dövlət Neft Fondu və Mərkəzi Bankı tərəfindən imtiyazlı qaydada ölkə ərazisinə gətirilən, dövlət əhəmiyyətli 803 milyon dollar dəyərində qızıl külçələr, eyni zamanda, müxtəlif təsərrüfat subyektləri tərəfindən ölkəyə idxal olunan 300 milyon dollar məbləğində avadanlıq və mexaniki qurğular və digər imtiyazlı mallar təşkil edib. Bununla yanaşı, idxalın tərkibində vergitutma bazası olan 1 milyard 200 milyon dollar məbləğində artıma səbəb isə gömrük orqanları tərəfindən malların real qiymətləndirmə əsasında qanunvericiliyə uyğun qaydada düzgün dəyərləndirilməsi olubdur.

Cənab Prezident, gömrük orqanları qarşısında gömrük sistemində şəffaflığın təmin olunması, idxal-ixrac əməliyyatları üzrə statistik uçotun düzgün qurulması və xarici ticarət fəaliyyəti ilə məşğul olan şəxslərlə məmur təmasının minimuma endirilməsi, gömrük xidməti mədəniyyətinin yüksəldilməsi kimi mühüm tapşırıqlar qoymusunuz. Bildirmək istəyirəm ki, 2018-ci ildə ölkə ərazisinə gətirilən mallara və nəqliyyat vasitələrinə gömrük nəzarəti daha da gücləndirilib, gömrük qaydalarının pozulmasına qarşı mübarizə tədbirləri genişləndirilibdir. Əməliyyat-axtarış fəaliyyəti istiqamətində həyata keçirilmiş kompleks tədbirlər

nəticəsində 747 cinayət xarakterli və 9672 hüquqpozma faktı aşkarlanıbdır.

Hesabat dövründə narkotiklərin qanunsuz dövriyyəsi ilə əlaqədar 264 fakt aşkar edilib və bu faktlar üzrə ümumilikdə 1 ton 193 kiloqram narkotik vasitə və psixotrop maddələr qanunsuz dövriyyədən çıxarılıbdır. Bundan başqa, valyuta və valyuta sərvətləri, zinət əşyaları, dərman preparatları, mobil telefonlar, pnevmatik və soyuq silahlar və digər mallar tutulubdur. Cari ildə gömrük orqanları tərəfindən 308 nəfər cinayət məsuliyyətinə cəlb olunub, aşkar edilmiş 8925 gömrük qaydaları əleyhinə inzibati xəta faktları üzrə 332 hüquqi və 8608 fiziki şəxs barəsində inzibati qaydada tədbirlər görülübdür.

Aparılmış hesablamalara görə, gömrük nəzarətindən gizlədilərək, gömrük sərhədindən keçirilməsinə cəhd edilmiş və nəticədə tərəfimizdən saxlanılmış qaçaqmalçılıq predmeti olan malların ümumi dəyəri 107 milyon manat olub, 416 milyon manatdan çox imtiyaz hüququ olmayan malların güzəştli qaydada gömrük rəsmiləşdirilməsindən keçirilməsi cəhdlərinin qarşısı alınıbdır. Bununla yanaşı, xidməti fəaliyyəti zamanı aşkar edilmiş korrupsiya faktları və bu faktların obyekti olan 117 nəfər gömrük əməkdaşı «Gömrük orqanlarında xidmət haqqında Əsasnamə»nin və Əmək Məcəlləsinin müvafiq maddələrinə əsasən, tutduğu vəzifədən azad edilib. Mövcud faktlara hüquqi qiymətin verilməsi üçün 17 gömrük əməkdaşı barəsində açılan cinayət işi üzrə istintaq materialları Azərbaycan Respublikasının Baş Prokurorluğuna göndərilib. Cari ildə də Baş Prokurorluq

və digər hüquq-mühafizə orqanları ilə birlikdə korrupsiya hallarına qarşı mübarizə tədbirləri daha da gücləndiriləcəkdir.

Cənab Prezident, Azərbaycan gömrük xidməti idarəetmə prinsipini tam kağızsız texnologiya əsasında qurmaqla, elektron bəyanetmə sistemini 100 faizə çatdırıb və dünyanın qabaqcıl ölkələri sırasına daxil olubdur. 2018-ci ildə Komitəyə 11 növ elektron xidmət üzrə 3 milyon 777 min elektron müraciət daxil olub və gömrük xidməti göstərilibdir.

Diqqətinizə çatdırmaq istəyirəm ki, ötən dövr ərzində gömrük xidməti olaraq, bizim üçün ən önəmlisi xarici ticarət fəaliyyəti zamanı şəffaflığın təmin edilməsi olub. Burada ilk növbədə, ən vacib və problemli məsələ bir çox hallarda xarici ticarət fəaliyyət iştirakçıları tərəfindən ölkəyə gətirilən mal və nəqliyyat vasitələrinin düzgün və real dəyərlə bəyan olunmamasıdır. Lakin tərəfimizdən qanunun aliliyi əsas götürülərək, beynəlxalq prinsiplərə əsaslanan mövcud qanunvericiliyin müddəaları, idxal mallarına münasibətdə qiymətləndirmə metodları düzgün tətbiq olunur və daxili bazarda rəqabətliliyin qorunması təmin edilir.

Fiskal funksiyalar həyata keçirən qurumların, o cümlədən gömrük xidmətinin fəaliyyəti ilə bağlı beynəlxalq təcrübə göstərir ki, vergiödəyiciləri arasında könüllü riayət psixologiyasının formalaşdırılması və onlara mütəmadi özünüqiymətləndirmə sisteminin tətbiqinin aşılanması faktiki olaraq büdcə gəlirləri ilə bağlı müəyyən edilmiş öhdəliklərin icrasında daha effektiv

metod hesab olunur. Hazırda bu formatda yanaşma ilə bağlı yeni qanunvericilik aktı zati-alilərinizin müvafiq fərmanı ilə təsdiqlənibdir.

Möhtərəm cənab Prezident, Sizin «Xarici ticarət iştirakçılarının «Yaşıl dəhliz» buraxılış sistemindən daimi istifadə hüququnu əldə etməsi, həmin hüququn dayandırılması, ləğvi və bərpası Qaydası»nın təsdiq edilməsi haqqında» 2018-ci il 21 dekabr tarixli Fərmanınız ölkəmizdə sahibkarlığın inkişafına, xüsusən qeyri-neft məhsullarının, o cümlədən kənd təsərrüfatı və tez xarab olan digər məhsulların ixracına yeni təkan verib və biznes mühitinin daha da şəffaflaşmasında inqilabi dönüş olaraq, hökumət–biznes münasibətlərində «könüllü riayət mədəniyyəti»nin əsasını qoyubdur.

Cənab Prezident, ölkədə idxal-ixrac əməliyyatlarına nəzarət sisteminin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında müvafiq sərəncamlarınızın icrası ilə əlaqədar Dövlət Gömrük Komitəsi ilə Vergilər Nazirliyi qarşılıqlı əlaqələndirmə formatında idxal-ixrac əməliyyatlarına birgə nəzarət tədbirləri həyata keçirib, xarici ticarət fəaliyyət iştirakçılarının vergidən yayınma cəhdləri nəzarətə götürülüb, vahid risk platformasının tətbiqinə başlanılıbdır. Qeyd etmək istəyirəm ki, iki dövlət qurumu arasında idxal-ixrac mallarına münasibətdə risklərin idarə olunması prinsipinin ən yüksək səviyyədə tətbiqinə, demək olar ki, nail olmuşuq. Qarşılıqlı nəzarət sisteminin tətbiqi dövlətin büdcəsindən vergi yayınmasının qarşısını almaqla yanaşı, sahibkarlıq subyektlərində yüksək vergi mədəniyyətinin və könüllü

riayət sisteminin formalaşdırılması istiqamətində görüləcək ən mühüm tədbirlərdən olacaqdır.

Diqqətinizə çatdırmaq istəyirəm ki, ölkəmizin artan turizm potensialı fonunda 2018-ci ildə sərhədi keçən fiziki şəxslərin ümumi sayı 15 milyon 500 min nəfər olmaqla, 2017-ci illə müqayisədə 2 milyon nəfər artıb və bu şəxslərə Dövlət Sərhəd Xidməti ilə birlikdə gücləndirilmiş iş rejimində xidmət göstərilibdir.

Cari ildə yeni innovasiya tipli layihələrin həyata keçirilməsi ilə vətəndaş məmnunluğunun təmin edilməsinə və ticarət dövriyyəsinin daha da artırılmasına nail olunacaq. Ümumi Tranzit Konvensiyasına əsaslanan tranzit sisteminin inkişaf etdirilməsi qarşıya qoyulmuş başlıca hədəflərdən biridir. Yeni kompüterləşdirilmiş tranzit sisteminin tətbiq olunmasının tezləşdirilməsi üçün milli qanunvericiliyin uyğunlaşdırılması, tranzit zəmanət sisteminin yaradılması istiqamətində müvafiq işlər görülməkdədir. Bu isə «made in Azerbaijan» markalı malların Avropa bazarlarına sərbəst çıxışını təmin edəcəkdir.

Möhtərəm cənab Prezident, icazə verin, Sizi əmin edim ki, zati-alilərinizin ölkədə apardığı uğurlu iqtisadi siyasətin nəticəsi olaraq cari ildə də göstəriş və sərəncamlarınızın icrasını təmin etməklə, Dövlət Gömrük Komitəsi xidməti fəaliyyətini müasir dünya standartlarına uyğun həyata keçirəcək, ölkəmizin iqtisadi təhlükəsizliyini qoruyaraq, 1 milyard 272 milyon manat artımla proqnozlaşdırılan və qanunla təsdiq olunmuş 3 milyard 702 milyon manat büdcə öhdəliyini artıqlaması ilə yerinə yetirəcəkdir.

Diqqətinizə görə təşəkkür edirəm.

## YEKUN NİTQİ

Mən əminəm ki, biz 2019-cu ildə də qarşımıza qoyduğumuz bütün vəzifələri icra edəcəyik. Bu il də ölkəmiz üçün uğurlu il olacaqdır. Mən giriş sözümdə qeyd etdim ki, keçən il dərin islahatlar ili olubdur. Bu islahatlar il ərzində özünü göstərdi, əlbəttə ki, gələcək illərdə də özünü daha böyük həcmdə göstərəcəkdir. Xüsusilə vergi və gömrük sahələrində aparılan islahatlar çox böyük əhəmiyyət daşıyır. Bu sahələrdə sağlamlaşdırma prosesi gözəl nəticələr verir. Bizim maliyyə imkanlarımız genişlənir. Görülmüş işlər, yəni artıq apardığımız islahatlar bu il də özünü yüksək dərəcədə göstərəcəkdir.

Burada qeyd olundu ki, gömrük sahəsində aparılan islahatlar nəticəsində biz büdcəmizi xeyli artıra bilmişik. Hətta keçən il dürüstləşmə apararaq, büdcəmizi artırdıq ki, əlavə işləri görə bilək. Həm sosial sahəyə, həm də infrastruktur layihələrin icrası ilə bağlı əlavə vəsait ayrıldı. Bütün bunlar nəyə görə mümkün oldu? Ona görə ki, həm vergi, həm də gömrük sahələrində artıq yeni yanaşma mövcuddur. Yeni icraçılar vəzifəyə gətirildi, rəhbərlikdə dəyişikliklər edildi və hər bir ölkə üçün xüsusi əhəmiyyət daşıyan bu qurumlar indi çox yaxşı işləyir, şəffaflıq, dürüstlük təmin edilir. Korrupsiyaya, rüşvətxorluğa qarşı çox ciddi mübarizə aparılır və aparılacaqdır. Bu işlərdə əli olan adamlar məsuliyyətə cəlb olunur, vəzifədən kənarlaşdırılır. Yəni tam sağlamlaşdırma prosesi gedir və artıq keçən il biz gözəl nəticələri görə bildik.

Vergi sahəsində də çox dərin islahatlar aparılıb. Hesab edirəm ki, vergi planının yerinə yetirilməsi çox yüksək qiymətə layiq olan məsələdir. Çünki əvvəlki rəhbərlik tərəfindən buraxılmış kobud səhvlər ona gətirib çıxarmışdı ki, gələn illərin vergiləri yığılırdı, beləliklə, bir piramida yaradılırdı, sahibkarlar incidilirdi, onlara qarşı əsassız tələblər irəli sürülürdü. Vergi sahəsində özbaşınalıq hökm sürürdü, bir çox xoşagəlməz əməllər müşahidə olunurdu. Bütün bunlara son qoyulmalı idi və son qoyuldu. Keçən ilin təcrübəsi onu göstərir ki, həm vergi, həm gömrük sahəsində yeni rəhbərlik mənim göstərişlərimi yaxşı yerinə yetirir. Biz bu sahələrdə aparılan islahatların nəticələrini bundan sonrakı illərdə də görəcəyik. Bu sahələrdə tam şəffaflıq və dürüstlük olmalıdır. Bu sahələrdə işləyən insanlara da xəbərdarlıq edildi ki, əvvəlki qayda ilə işləmək mümkün olmayacaq və onlar özləri üçün nəticə çıxarsınlar. Kim ki nəticə çıxarmır, onlara qarşı tədbirlər görülür, o cümlədən bir çox adamlar cinayət məsuliyyətinə də cəlb olunurlar.

Mən tam əminəm ki, aparılan islahatlar nəticəsində həm bizim gəlirlərimiz artacaq – artıq artıb, gömrük 1 milyard manat əlavə vəsait toplayıb – həm də biz «kölgə iqtisadiyyatı»na böyük zərbə vurmuş olarıq. Bu, böyük bəladır və biz bu bəla ilə bağlı çox ciddi mübarizə aparırıq. Azərbaycanda «kölgə iqtisadiyyatı» olmamalıdır. Düzdür, elə bir ölkə yoxdur ki, orada «kölgə iqtisadiyyatı» olmasın. Biz «kölgə iqtisadiyyatı»na qarşı həm inzibati, həm də institusional yollarla, o cümlədən islahat yolu ilə mübarizə aparırıq və apa-

racağıq. Vergi sahəsində aparılan islahatlar qanunsuz məşğulluğa son qoymalıdır. Hesab edirəm ki, icbari tibbi sığortanın tam işə düşməsi nəticəsində qanunsuz məşğulluq bir amil kimi, ümumiyyətlə, aradan qaldırılacaq. «Kölgə iqtisadiyyatı»na qarşı mübarizə metodları kifayət qədər çoxşaxəlidir. Biz onların hamısından istifadə edirik və edəcəyik. Hər kəs başa düşməlidir ki, Azərbaycanda bütün işlər qanun çərçivəsində aparılmalıdır. Heç bir qanunsuzluğa yol verilməyəcək və hər kəs bundan nəticə çıxarsın. Bu il də islahatların dərinləşməsi istiqamətində çox ciddi addımlar atılacaq. Bu, təkcə vergi və gömrük sahələrinə aid deyil. Eyni zamanda, sosial sahədə çox ciddi islahatlar aparılır. Bu gün onların bir hissəsi səsləndirildi. Bu sahədə də vaxtilə çox böyük pozuntular, ədalətsizliklər olub. Bütün bunlar indi aradan qaldırılır və bu sistem də vətəndaşlara tam ədalətli xidmət edəcəkdir.Bu il infrastrukturla bağlı bir çox önəmli layihələr icra ediləcək. Biz son illər ərzində infrastrukturun yaradılması ilə çox ciddi məşğul olmuşuq. Təsadüfi deyil ki, Davos Dünya İqtisadi Forumunun hesablamalarına görə, Azərbaycan infrastrukturun inkişafı üzrə qabaqcıl yerlərdədir – 30-cu yerdədir. Ancaq hələ ki, görüləsi işlər var və bu istiqamətdə işlər aparılacaq. Bu il «Şimal-2» yeni böyük elektrik stansiyasının istifadəyə verilməsi gözlənilir. Bu stansiya 400 meqavat enerji istehsal edəcək. İndi biz özümüzü elektrik enerjisi ilə tam təmin edirik, hətta böyük həcmdə ixrac da edirik. Ancaq biz yeni güclər yaratmalıyıq. Çünki tələbat artır, sənaye artır, əhali artır

və ixrac imkanlarımız genişlənir. Ona görə 400 meqavat gücündə «Şimal-2» elektrik stansiyasının işə salınması mühüm hadisə olacaqdır. Bununla bərabər, keçən ilin ikinci yarısından başlayaraq – o qəza baş verəndən sonra bizim enerji sistemimiz çox ciddi təftiş olunur. Bu sahədə də çox böyük pozuntular aşkarlanıb. Məhz bu pozuntular nəticəsində biz yay mövsümündə gözlənilməz bir qəza ilə üzləşmişdik. Ona görə bütün çatışmazlıqlar operativ qaydada aradan qaldırılır və eyni zamanda, mövcud enerji bloklarımızın reabilitasiyası, yenidən qurulması prosesinə start verilib. Bu məqsədlər üçün keçən il vəsait ayrılıb. Ancaq mövcud enerji qurğularımızı təmir edərək, onlara düzgün xidmət göstərərək, biz yeni stansiyalar tikmədən enerji istehsalını ən azı 500 meqavat artıra bilərik. Bu çox böyük rəqəmdir. Gücü 400 meqavat olan «Şimal-2» elektrik stansiyasının işə salınması ilə biz bu il 1000 meqavata yaxın yeni generasiya gücünə malik ola bilərik. Bu, əlbəttə ki, ixrac imkanlarımızı yüksək dərəcədə artıracaq. Çünki keçən il biz elektrik enerjisinin ixracından on milyonlarla dollar pul əldə etmişik, bu vəsait xəzinəyə daxil olubdur.

Keçənilki qəzadan sonra aydın oldu ki, bizim strateji obyektlərimiz bu fövqəladə vəziyyətə hazır deyil və bu, böyük təəssüf hissi yaradır. Əlbəttə ki, bu strateji obyektlərə rəhbərlik edən şəxslər də tənbeh olundu. İndi isə görülən və görüləcək işlər nəticəsində bütün strateji obyektlərdə müasir generator sistemi quraşdırılacaq, bu məqsədlər üçün vəsait ayrılıb. İlk növbədə, metro stansiyalarında generatorlar quraşdırılacaq. Artıq

kontraktlar da imzalanıb və bu il biz bunu tam şəkildə təmin edəcəyik. Bu bizə imkan verəcək ki, əgər hər hansı bir qəza olarsa, metro tunelində heç bir qatar qalmasın. Yəni bu generatorlar imkan verəcək ki, qatarlar stansiyaya qədər gəlsin və vətəndaşlar stansiyada həm rahat düşə bilsinlər, həm də eskalatorlarla qalxa bilsinlər. Metroda quraşdırılan generatorların əsas funksiyası bundan ibarətdir. Bizim bütün strateji səhiyyə obyektlərində də təftiş aparıldı və bütün obyektlərdə bu sahədə tam təminat təşkil ediləcəkdir.

Söz verdiyimiz kimi, keçən il Azərbaycanda qazlaşdırılmanın səviyyəsi 95 faizə çatıb və hesab edirəm ki, bu, ən yüksək göstəricidir. Dünyada nadir ölkələr tapılar ki, bu dərəcədə qazlaşdırılma aparılsın. Hesab edirəm ki, bu proses bu il də davam etdirilməlidir. Hələ ki, bir çox kəndlərdə qaz yoxdur və o kəndlərin qazlaşdırılması gündəlikdə duran məsələdir.

İçməli su ilə bağlı aparılan işlər nəticəsində 38 şəhərin su məsələsi tam şəkildə öz həllini tapıb. Hazırda 12 şəhərdə işlər gedir və yaxın gələcəkdə o şəhərlərin də içməli su ilə tam təminatı təşkil ediləcəkdir. Bu il 5 şəhərdə işlər başa çatacaq. Bu sahədə görülən işlər daim diqqət mərkəzindədir. İçməli su layihələrinin icrası insanların sağlamlığına verilən böyük töhfədir.

Keçən il 2000 kilometr avtomobil yolu salınıbdır. Bu, rekord göstəricidir. Ümumilikdə isə 2004-cü ildən bu günə qədər 15000 kilometr avtomobil yolu salınıb. Davos Dünya İqtisadi Forumunun hesablamalarında yol infrastrukturunun keyfiyyətinə görə Azərbaycan dünyada 34-cü yerdədir. Biz inkişaf etmiş bir çox

ölkələri də qabaqlayırıq və bu proses davam etdiriləcək. Keçən il 920 kəndin yol infrastrukturu yaxşılaşıb, yeni yollar salınıbdır. Bu yaşayış məntəqələrində 2,2 milyon insan yaşayır. Yəni 2,2 milyon insanın yol problemi həll olunub. Bildiyiniz kimi, bu iqtisadi amildir. Çünki yol olan yerdə kənd təsərrüfatının inkişafı da sürətlənir, yol olan yerdə sosial məsələlər də öz həllini tapır, o cümlədən xəstəxanalara insanlar daha da tez çata bilirlər. Yəni bunun çox böyük əhəmiyyəti vardır. Bu il investisiya proqramında yol tikintisi üçün kifayət qədər vəsait nəzərdə tutulub, hələlik ən azı 1000 kilometr yeni yol salınacaqdır. Onların arasında, əlbəttə ki, yüzlərlə kənd yolları var, magistral yolların tikintisinin davam etdirilməsi layihələri var, o cümlədən Astara–İran sərhədi yolu var. Çünki biz Bakıdan Astaraya qədər yeni yol salmışıq. Çox gözəl yoldur və məsafəni də təqribən 40 kilometr qısaldır. Eyni zamanda, bu magistral yol şəhərlərə girmədən gedir və hər bir şəhərə ayrıca giriş nəzərdə tutulubdur. Ancaq Astara şəhərindən İran sərhədinə qədər yol yoxdur, yol şəhərin içindən keçir. Ona görə biz bu layihəni də icra edəcəyik. Plana görə bu ilin sonunadək Astaradan İran sərhədinə qədər yeni dördzolaqlı yol çəkiləcək və beləliklə, yük maşınları Astara şəhərinə girmədən, vətəndaşları narahat etmədən sərhədə qədər gedə biləcək.

Biz bu il yeni Sumqayıt–Rusiya sərhədi yolunun tikintisi üçün də böyük vəsait nəzərdə tutmuşuq. Bu, sahilboyu ilə Rusiya sərhədinə gedən tamamilə yeni bir yoldur. Beləliklə, Rusiya sərhədinə gedən ikinci, çox keyfiyyətli yolumuz olacaqdır. Bununla yanaşı, bu günə

qədər boş qalan torpaqlarda canlanma olacaqdır. Çünki bu ərazilər istifadəsiz qalmışdı. İndi o ərazilərdə kənd təsərrüfatının inkişafı üçün müxtəlif layihələr icra edilir. O cümlədən Taxtakörpü su anbarı və Ceyranbatana qədər gələn kanal da, əlbəttə ki, o torpaqlara suyun verilməsini təmin edir. Sumqayıt–Rusiya sərhədi yolunun böyük hissəsi bu il icra edilməlidir. Natamam qalmış Bakı–Gürcüstan sərhədi yolu haqqında deyə bilərəm ki, Gəncə şəhərinə qədər dördzolaqlı yol salınıb. Gəncədən Gürcüstan sərhədinə qədər ikizolaqlı yolu isə biz 4 zolağa genişləndirməliyik. Bu məqsədlər üçün də vəsait nəzərdə tutulub. Şəhərlərarası, şəhərlərdaxili və kənd yolları tikiləcəkdir.

Keçən il biz meliorativ tədbirlər görməklə, 100 min hektar torpağa su verilməsini təmin etdik. Onlardan 60 min hektara su verilirdi, ancaq çox zəif verilirdi. Yəni keçən il o torpaqlara suyun verilməsi yaxşılaşdırıldı, 40 min hektara isə heç vaxt su verilmirdi, bu da əkin dövriyyəsinə cəlb edilmiş suvarılan yeni torpaqlar olacaqdır. Yəni həm 2017-ci ildə 100 min hektara, həm də keçən il 100 min hektara suyun verilməsi kənd təsərrüfatına çox böyük dəstəkdir. Bu il verilən təkliflərə görə ən azı 80 min hektara suyun verilməsi nəzərdə tutulur. Bundan əlavə, 300 subartezian quyusu qazılacaq. Biz bunu hər il edirik, keçən il də, əvvəlki illərdə də. 300 subartezian quyusunun qazılması kəndlərdə həm içməli suya olan tələbatı ödəyir, həm də ki, kənd təsərrüfatına xidmət göstərir.

Bu il sosial infrastrukturla bağlı işlər görüləcək. Giriş sözümdə qeyd etdiyim kimi, məcburi köçkünlərin

məişət problemlərinin həlli təmin ediləcəkdir. Keçən il 5800 ailəyə yeni mənzillər verildi. Onu da qeyd etməliyəm ki, bu mənzillərdən 1000-i «Qobu Park» yaşayış kompleksində özəl şirkət tərəfindən inşa edilib və köçkünlərə təmənnasız verilibdir. Bu çox müsbət təşəbbüsdür, mən bunu alqışlayıram. Bizim böyük biznes qurumlarımız sosial sahələrdə də fəal olmalıdır. Elə birinci təcrübə çox təqdirəlayiqdir. Bildiyimə görə, bu proses bu il də davam etdiriləcək. İlkin hesablamalara görə, bu il təqribən 5000 köçkün ailəsi üçün yeni mənzillər tikilib istifadəyə veriləcək. Hələlik biz bu rəqəm üzərində dayanırıq, amma il ərzində baxarıq, əgər imkan olarsa, bunu daha da artıra bilərik. Nə qədər çox etsək, bir o qədər yaxşıdır. Ancaq hamımız bilməliyik ki, bu, böyük vəsait tələb edən layihələrdir və biz bu məsələləri imkan daxilində həll edirik. Bu günə qədər 300 min məcburi köçkün yeni evlərlə təmin edilibdir.

Şəhid ailələrinə və Qarabağ müharibəsi əlillərinə evlərin verilməsi prosesi davam etdiriləcək. Əgər keçən il 626 mənzil verilibsə, bu il ən azı 800 mənzil veriləcəkdir. Hesab edirəm ki, bu çox düzgün addımdır. Çünki bu ailələr buna layiqdirlər. Biz həmişə onların problemlərini diqqət mərkəzində saxlayırıq. 6000-dən çox ailə artıq dövlət tərəfindən evlərlə təmin edilib. Mən bilmirəm və eşitməmişəm ki, hansısa başqa ölkədə belə bir təcrübə vardır. Ancaq bizim üçün əsas o deyil, ən əsası biz hesab edirik ki, bu düzgündür. Bu vətəndaşlara mənzil hədiyyə etmək hesab edirəm ki, bizim borcumuzdur. Biz bunu edirik və edəcəyik. Bu proses davam

edəcək. Bütün şəhid ailələrinin nümayəndələri evlərlə təmin olunacaqlar.

Bildiyiniz kimi, keçən il Prezident seçkilərindən dərhal sonra şəhid ailələrinin vərəsələrinə – o vərəsələrə ki, o yardımı, o müavinəti almayıblar – mənim sərəncamımla 11 min manat vəsaitin verilməsi nəzərdə tutulur. Artıq vəsaitin verilməsi prosesi başlanıbdır. Bu günə qədər siyahıda 10 minə yaxın vərəsə vardır. Onların hamısına 11 min manat veriləcəkdir. Eyni zamanda, siyahılara baxılır, dəqiqləşdirilir və bu məsələ ilə bağlı təkliflər də irəli sürülür. Mən artıq bu barədə sözümü demişəm. Burada, əlbəttə ki, sosial ədalət prinsipi əsas olmalıdır. Qanun və ədalət. Əminəm ki, biz bu istiqamətdə də istədiyimizə nail olacağıq. Yəni bu təşəbbüs, bu addım bir məqsədi güdürdü ki, vaxtilə o vəsaiti almayan ailələr o vəsaiti alsınlar. Bunu da biz təmin edirik. Yenə də demək istəyirəm ki, siyahılar dəqiqləşdirilir və bu məsələ ilə bağlı bundan sonra da açıqlamalar veriləcəkdir.

Keçən il 140-dan çox məktəb tikilib. Bu il 100-dən çox məktəbin tikintisi nəzərdə tutulur. Qəzalı vəziyyətdə olan məktəblərin yenidən tikilməsi hesab edirəm ki, maksimum 2 il çəkə bilər. Bu il və gələn il biz bu proqramı başa çatdırmalıyıq.

Bu il Mərkəzi Rayon xəstəxanalarının tikintisi davam etdiriləcək. Bu il 10-a yaxın Mərkəzi Rayon Xəstəxanasının açılışı gözlənilir. Keçən il də bir çox yerlərdə xəstəxanalar açılıbdır. Bu il 3 Olimpiya İdman Kompleksinin açılışı nəzərdə tutulur. 5 «ASAN xidmət» Mərkəzi açılmalıdır.Onu da bildirməliyəm ki, keçən il 5

milyondan çox insan pulsuz olaraq tibbi müayinədən keçibdir.

Özünüməşğulluq proqramı geniş vüsət alır. Bu il ən azı 7000 ailə bu proqramdan faydalanacaq. Bu gün onların arasında, əlbəttə ki, ünvanlı sosial yardım alanlar da vardır. Beləliklə, o kateqoriyadan olan insanlar dövlətin dəstəyi ilə artıq özləri pul qazanacaqlar, öz ailə büdcələrini quracaqlar. Özünüməşğulluq proqramının çox böyük sosial və iqtisadi faydası vardır.

Mən giriş sözümdə qeyd etdim ki, biz hərbi potensialımızın möhkəmləndirilməsi istiqamətində çox böyük işlər görmüşük. Bu il də istisna olmayacaq. Artıq yeni kontraktlar imzalanır. Əvvəlki illərdə imzalanmış kontraktlar əsasında ölkəmizə müasir silahlar, texnika gətirilir. Yəni bu məqsədlər üçün biz nə qədər lazımdırsa, o qədər də vəsait ayıracağıq. Bununla paralel olaraq, hərbçilərin sosial vəziyyətinin yaxşılaşdırılması, məişət problemlərinin həlli istiqamətində işlər gedir. Keçən il 400-ə yaxın hərbçiyə mənzil verilibdir. Artıq hərbi xidməti uğurla, qüsursuz başa vuran hərbçilərə bu il də mənzillərin verilməsi nəzərdə tutulur. Hərbçilərin məişət problemlərinin həlli də təmin edilir. Bizim hərbi hissələrimizin mütləq əksəriyyəti indi tam təmirlidir. Təmirsiz olan hissələrdə də təmir işləri nəzərdə tutulur.

Bu il sahibkarlığın inkişafı ilə bağlı əlavə addımlar atılacaq. Bildirməliyəm ki, əvvəlki illərdə sahibkarlara 2,2 milyard manat, keçən il isə 160 milyon manat məbləğində güzəştli kreditlər verilibdir. Sevindirici haldır ki, verilən kreditlər əvvəlcə verilmiş və sonra

qaytarılmış kreditlər hesabına verilir. Yəni büdcə bu məsələyə pul xərcləmir. Artıq bu vəsait akkumulyasiya olunub. Biz sahibkarlara hər il belə dəstək göstəririk və göstərəcəyik. Sahibkarlara daha böyük kömək göstərmək üçün indi bir çox ölkələrə ixrac missiyaları təşkil olunur. Biz kömək edirik, bu işlərə büdcədən vəsait ayırırıq. Biz sərgilərdə, xüsusilə ərzaq məhsullarının təbliği ilə bağlı sərgilərdə dövlət hesabına iştirak edirik. Sahibkarları oraya cəlb edirik ki, onlar öz məhsullarını xaricə daha rahat sata bilsinlər. Ticarət evləri yaradılır. Artıq Belarusda, Çində, Ukraynada, Latviyada, Polşada Azərbaycan Ticarət evləri açılıb. Bu da bizim təşəbbüsümüzdür. Onu da bildirməliyəm ki, bizim Ticarət evlərimizə çox böyük maraq vardır. Bu Ticarət evlərinin açılması nəticəsində həmin ölkələrə bizim ixracımız da artır. Yaxın gələcəkdə Birləşmiş Ərəb Əmirliklərində və Rusiyada Azərbaycan Ticarət evlərinin açılması nəzərdə tutulur.

Sənaye potensialımızın inkişafı ilə bağlı keçən ilin göstəriciləri çox müsbətdir. Sənayenin qeyri-neft sektorunda istehsal 9,1 faiz artıb. Bütün bu işlərin təməlində düşünülmüş siyasət dayanır. Sənaye zonalarının, sənaye məhəllələrinin, sənaye parklarının yaradılması geniş vüsət alıb. Nəinki Sumqayıtda, indi Gəncədə, Mingəçevirdə və digər şəhərlərdə də bu proses gedir. Bu günə qədər bizim sənaye parklarımızda 67 rezident vardır. Onlardan 40 rezident artıq fəaliyyətdədir. Sənaye parklarında həyata keçirilən layihələrə nəzərdə tutulmuş sərmayə 5 milyard manatdan çoxdur. Bu layihələr nəticəsində 11 min yeni iş

yeri yaradılıb. Bu proses davam etdiriləcək. Bu il də sənaye zonalarının yaradılması nəzərdə tutulur.

İnvestisiya təşviqi mexanizminin işə düşməsi də çox ciddi islahat idi. Bu proqram 333 layihəni əhatə edir. Onlardan 107-si 2018-ci ildə icra edilib. İnvestisiya təşviqi proqramı çərçivəsində həyata keçirilən layihələrin dəyəri 2,8 milyard manatdır. Bu layihələrin icrası nəticəsində 12 min iş yeri yaradılıb. İndi baxın, əgər biz bu mexanizmə keçməsəydik, bunu tətbiq etməsəydik, ölkə iqtisadiyyatına 2,8 milyard manat qoyulmayacaqdı.

Bu, islahatların nə qədər vacib olduğunu bir daha göstərir. Bəzi hallarda artıq o sözə sadəcə, öyrəşirlər. Amma islahat çox böyük məna daşıyır. İslahat nəticəsində dünya inkişaf edir, ölkələr inkişaf edir, yeni imkanlar yaranır. İslahat məqsədyönlü olmalıdır. Biz elə islahatlar aparırıq ki, həm makroiqtisadi vəziyyətə, həm iqtisadiyyatın real sektoruna, həm də vətəndaşların rifahına, onların rahat yaşamasına xidmət edir. Görün sahibkarlıqla bağlı aparılan islahatların nəticələri nə qədər təsirlidir.

Biz bir neçə il bundan əvvəl ənənəvi sahəmiz olan xalçaçılığı sürətlə inkişaf etdirməyə başlamışıq və nəticələr də vardır. 20 Xalça fabriki tikilərək, istifadəyə verilib. Bu il 11 Xalça fabrikinin istifadəyə verilməsi nəzərdə tutulur. Bu fabriklər tam gücü ilə fəaliyyətə başlayandan sonra 5000-ə yaxın insan – onların mütləq əksəriyyəti qadınlardır – orada işləyəcək. Həm iş yerləri, gözəl müəssisələr yaradılır, həm bizim tarixi milli sənətimiz yaşayır və yaşayacaqdır, həm gənclər sənətə cəlb

olunur, həm də ki, xalçaçılığın böyük iqtisadi tərəfi də vardır. Bu, ixrac yönümlü məhsuldur.

Qeyd etdiyim kimi, kənd təsərrüfatı sahəsində 4,6 faiz artım yaxşı göstəricidir. Ancaq bu sahədə də çox ciddi islahatlar aparılır. Kənd Təsərrüfatı Nazirliyinin yeni rəhbərliyi bir çox önəmli təşəbbüslər irəli sürüb. Mən onları bəyənmişəm, dəstəkləmişəm. İndi onların icrası başlanılır. Mən əminəm ki, bu islahatlar nəticəsində kənd təsərrüfatı istehsalı xeyli artacaq, o cümlədən ixrac artacaq, daxili tələbat daha çox yerli məhsullar hesabına təmin ediləcəkdir. Özümüzü təminetmə əmsalı artacaq, qeyd etdiyim kimi, ixrac imkanlarımız genişləndiriləcək, biz yeni bazarlara çıxış əldə edəcəyik.Elektron kənd təsərrüfatı sisteminin tam işə düşməsi gündəlikdə duran vacib məsələlərdən biridir. Subsidiyalarla bağlı təkliflər imkan verəcək ki, bu sahədə də müsbətə doğru çox ciddi dönüş yaransın. Çünki subsidiyaların verilməsində də böyük pozuntular olub. Bəzi hallarda subsidiyalar ünvana çatmırdı, bəzi hallarda kortəbii şəkildə verilirdi. Dövlət tərəfindən güzəştli şərtlərlə alınması nəzərdə tutulan gübrələr də bir çox hallarda keyfiyyətsiz idi. İndi gübrə təminatında dövlət 70 faiz yükü öz üzərinə götürür. Amma bəzi hallarda keyfiyyətsiz, müddəti keçmiş gübrələr gətirilirdi və bu, kənd təsərrüfatına xeyirdən çox, ziyan verirdi. Digər pozuntular da olub. Ona görə bütün pozuntular aradan qaldırılmalıdır. Kənddə işləyən vətəndaş daim hiss etməlidir ki, dövlət hər zaman onun yanındadır.Biz kənd təsərrüfatını stimullaşdırmaq üçün çox böyük işlər görmüşük. Təkcə keçən il 5800 texnika

alınıb. Əvvəlki illərdə bəzən 9000, bəzən 8000 texnika alınıb. Biz texnika parkımızı təzələmişik. Ən qabaqcıl şirkətlərin texnikası alınır – istər taxılçılıqda, istər pambıqçılıqda və istərsə də digər sahələrdə. Biz kəndliləri torpaq vergisi istisna olmaqla, bütün vergilərdən azad etmişik. Mən bilmirəm, bu qədər dəstək göstərən ikinci belə ölkə varmı?! Gübrə 70 faiz, yanacaq 50 faiz dövlətin hesabına, texnika dövlət tərəfindən alınaraq, güzəştli şərtlərlə verilir, subsidiyalar, infrastruktur layihələri, indi 100 min hektar torpağın dövriyyəyə cəlb olunması, suvarma suyu ilə təmin edilməsi, yolların çəkilməsi – bütün bunlar güzəştli kreditlər hesabınadır. Sahibkarlığın inkişafına yönələn kreditlərin əksəriyyəti kənd təsərrüfatına gedir. Amma biz daha yüksək nəticələr gözləyirik. Yəni verilən dövlət dəstəyi real nəticələrdə öz əksini tapmır. O dəstək müqabilində daha da böyük istehsal, daha da inkişaf etmiş kənd təsərrüfatı olmalı idi.

Bilirsiniz, mən əldə edilmiş uğurlar haqqında həmişə danışmağa hazıram və fəxr ediləsi məsələlər kifayət qədər çoxdur. Ancaq mən həmişə, necə deyərlər, narazı oluram. Çünki mən istəyirəm ki, daha yaxşı olsun. İstəyirəm ki, bu pozuntular olmasın. Harada ki mümkündür, biz maksimum dərəcədə öz imkanlarımızdan istifadə edək ki, işlər daha da yaxşı getsin. Kadr islahatı da bu məqsədi daşıyır. İndi struktur islahatı gözlənilir. Çünki idarəetmədə struktur köhnəlib. Yeni idarəetmə strukturu olmalıdır – daha çevik, daha yığcam, daha məqsədyönlü. Çünki illər boyu yeni qurumlar yaranıb. Onlar yarananda o qədər də hiss

olunmurdu – biri orada, biri burada yaranıb, bir agentlik, bir xidmət yaranıb. Sonra da baxanda görürük ki, bizim idarəetmə strukturumuz çox şişirdilib. İndi dünyada əks proses gedir – idarəetmə daha yığcam, çevik, daha məqsədyönlü və az işçi ilə böyük iş görmək üçün. Amma bizdə idarəetmə sistemi şişir. Buna son qoyulmalıdır. Ona görə struktur islahatı, kadr islahatı aparılmalıdır. Hər hansı bir sahəyə rəhbərlik edən şəxs mütləq maksimum səmərə ilə işləməlidir.

Kənd təsərrüfatı çox ciddi, çox böyük sahədir. Əhalinin, demək olar ki, yarısı kəndlərdə yaşayır. Ona görə bu sahə daim diqqət mərkəzindədir. İri fermer təsərrüfatlarının və aqroparkların yaradılması istiqamətində də yaxşı nəticələr vardır. Proqrama görə bizdə, ümumiyyətlə, 51 aqropark və iri fermer təsərrüfatı yaradılmalıdır. Onlardan 17-si yaradılıb və bu 17 aqroparkın ümumi sahəsi 104 min hektardır. Ümumilikdə isə bütün aqroparkların əhatə etdiyi sahə təqribən 200 min hektara yaxın olacaqdır. İndi 31 aqroparkın yaradılmasına 2,2 milyard manat vəsait nəzərdə tutulur. Təxmini hesablamalar göstərir ki, onların istehsal edəcəyi məhsullar, təqribən 800 milyon–1 milyard manata yaxın olacaqdır.

Turizm sahəsində gözəl nəticələr vardır. Qeyd etdiyim kimi, keçən il də 6 faiz artım olub və ölkəmizə 2 milyon 850 min xarici qonaq gəlib. Bizdə turizm sənayesi yaradılmalıdır. Azərbaycanda olan bütün amillər turizmin sürətli inkişafını şərtləndirir. Təhlükəsizlik, qonaqpərvərlik, tarixi abidələrimiz, gözəl iqlimimiz, 9 iqlim tipi, dəniz turizmi, dağ-xizək turizmi,

müalicəvi turizm bizdə çox sürətlə inkişaf edə bilər. Gözəl mətbəx, müasir infrastruktur, hotellər, yollar, nəqliyyat infrastrukturu, 6 beynəlxalq aeroport – bütün bu amillər turizmin sürətli inkişafını təmin etməlidir. Bu sahədə də islahatlar aparılıb, o cümlədən struktur islahatları, Turizm Agentliyi yaradılıbdır. Görülmüş işlərlə bağlı mənə bu yaxınlarda məruzə edildi. Görüləcək işlərlə bağlı isə mən öz tövsiyələrimi verdim. Bizim tarixi yerlərimizin yenidən qurulması, bərpası istiqamətində çox böyük işlər görülür. Bu il böyük turist kütləsini cəlb edən Yanardağ qoruğu yenidən fəaliyyətə başlayacaq. Keçən il orada olarkən acınacaqlı mənzərədən dəhşətə gəldim. Mən Yanardağda sovet vaxtında olmuşdum. O vaxtdan bu günə qədər heç nə dəyişilməmişdi – həmin o dağılmış binalar, eybəcər budkalar. Adam baxanda dəhşətə gəlirdi: bura Bakıdır, Azərbaycandır, yoxsa haradır? Sözün düzü, mənim oraya yolum düşmürdü. Əlbəttə, orada olarkən dərhal göstəriş verdim ki, o tarixi yer yenidən qurulsun və bu il biz artıq buna nail olacağıq. Həm Azərbaycan vətəndaşları, həm də turistlər orada tam yeni bir mənzərə ilə üzləşəcəklər – yeni istirahət zonaları, ictimai zonalar, kafe yaradılacaq. Yəni bu yer bizim inkişafımıza uyğun şəkildə yenidən qurulacaqdır.

Bizim tarixi kəndlərimiz vardır. Onlardan biri Lahıc kəndidir. Bildiyiniz kimi, Şamaxıdan Lahıca daha rahat, daha təhlükəsiz, Bakıdan gələndə daha qısa yeni yol çəkildi, qaz çəkildi, yeni məktəb tikildi. Lahıc qədimiliyi, tarixi ilə turistləri özünə cəlb edir, eyni zamanda, özünəməxsus ab-havası ilə Azərbaycan dövlə-

tinin nə qədər qədim və zəngin dövlət olduğunu göstərir.Mənim sərəncamımla tarixi Basqal kəndini abadlaşdırmaq və turistləri cəlb etmək üçün çox böyük layihələrin icra olunması məqsədilə xüsusi proqram hazırlanır. Çünki Basqal da qədim tarixi kənddir, qədim yaşayış yeridir, yaşayış məskənidir. Həm Basqalda yaşayan vətəndaşlar üçün, həm də turistləri oraya cəlb etmək üçün çox gözəl şərait yaradılacaq. Digər tarixi şəhərlərlə də bağlı göstərişlər verilib, xüsusilə turistləri daha çox cəlb edən şəhərlərin məsələləri öz həllini tapmalıdır. Qusar rayonunda yerləşən «Şahdağ» xizək kurortunda yeni xizək zolaqları yaradılır, ümumiyyətlə, yeni yanaşma tətbiq olunur və əminəm ki, bu gözəl kurort turistləri daha çox cəlb edəcək.

Biz keçən il nəqliyyat sahəsi ilə bağlı çox yaxşı nəticələr əldə etmişik. Şərq–Qərb nəqliyyat dəhlizinin uğurlu fəaliyyəti üçün bir çox ikitərəfli təmaslar olub, razılaşmalar əldə edilibdir. Mənim keçən il Türkmənistana dövlət səfərim çərçivəsində 21 sənəd imzalanıbdır. Onlardan 9-u məhz nəqliyyat sektoruna aiddir. Türkmənistanla əldə edilmiş razılaşma imkan verəcək ki, digər Orta Asiya ölkələri, Əfqanıstan öz yüklərini Türkmənistandan keçməklə, Azərbaycan ərazisindən Şərq–Qərb dəhlizi ilə dünya bazarlarına çıxara bilsinlər. Bakı Beynəlxalq Dəniz Ticarət Limanında xüsusi şərait yaradırıq. Müvafiq orqanlar həm tarif siyasətini, həm də tranzit imkanlarını dövlətlərarası səviyyədə tənzimləyiblər. Yəni bu bizim üçün yeni böyük nəqliyyat imkanları yaradır. Onu da bildirməliyəm ki, nəinki Orta Asiya ölkələri ilə, eyni zamanda, Əfqanıs-

tanla danışıqlar aparılıb və aparılacaq. Biz Əfqanıstanın «Lapis-Lazuli» layihəsini Bakı–Tbilisi–Qars layihəsi ilə birləşdiririk. Artıq Əfqanıstandan da ilk yüklər Türkmənistan ərazisindən Azərbaycana, ondan sonra da Qərb istiqamətinə getməyə başlamışdır. Bizim hədəfimiz odur ki, Orta Asiyanın yüklərinin böyük hissəsini bu istiqamətə cəlb edək. Artıq bu proses başlanıbdır. Təbii ki, Türkmənistan bu imkanlardan istifadə edir, Tacikistanın yükləri bu marşrutla gəlir, Əfqanıstan bu yolla yükləri göndərməyə başlayıb. Biz yaxın gələcəkdə Özbəkistanla da danışıqlar aparacağıq. Təbii ki, Qazaxıstanla bizim bu sahədə ənənəvi əməkdaşlığımız var və Qırğızıstan tərəfinə də biz öz təkliflərimizi göndərmişik. Ona görə çox böyük bir inkişaf olacaqdır. Biz keçən il Bakı Beynəlxalq Dəniz Ticarət Limanını işə saldıq, dəmir yolu da hazırdır, bütün infrastruktur vardır.

Keçən il Şimal–Cənub nəqliyyat dəhlizi ilə daşınan yüklərin həcmi 10 dəfə artıb. Bu sahədə də çox böyük işlər görülür. Biz Azərbaycanın daxilində dəmir yolunun yenidən qurulması prosesinə başlamışıq. Bu il Bakı–Yalama dəmir yolunun yenidən qurulması davam etdiriləcək. Bakı–Astara dəmir yolunun yenidən qurulması üçün bu ilin investisiya proqramında da vəsait nəzərdə tutulub. Bunlar Şimal–Cənub dəhlizi üçün çox önəmli layihələrdir. Düzdür, bu dəmir yolu var, ancaq sürət aşağıdır. Biz keçən ilin sonunda Bakı–Gəncə sürət qatarını istifadəyə verdik, indi vaxt nə qədər qısalıbdır. Sürət qatarları həm sərnişinlər, həm də yüklər üçün daha yaxşıdır. Bakı–Yalama yolunun yenidən

qurulması prosesi başlayandan sonra və buna paralel olaraq, biz «Şahdağ» kurortuna da dəmir yolunun çəkilişini təmin edəcəyik. Biz indi Ləki–Qəbələ dəmir yolunun tikintisinə başlamışıq. Bu da həm Tufandağa, həm də Qəbələyə turistlərin gəlişi üçün daha yaxşı şərait yaradacaqdır.

Onu da bildirməliyəm ki, keçən il Bakı və Sumqayıt dəmir yolu vağzalları yenidən qurulub. Bakı–Sumqayıt sürət qatarı işləyir və sərnişinlər bu qatardan çox razıdırlar. Müasir vaqonlar alınır. Ümumiyyətlə, biz şəhər nəqliyyatı üçün əlavə tədbirlər görəcəyik. Bu il Bakıya 300 müasir avtobusun gətirilməsi nəzərdə tutulur, keçən il imzalanmış kontraktlara əsasən, 300 avtobus da əlavə gətiriləcək. Yəni bu il Bakıya 600 avtobus gətiriləcək. Beləliklə, həm vətəndaşların rahatlığı təmin ediləcək, həm də təhlükəsizlik baxımından bunun böyük faydası vardır.

Əlbəttə, bu il görüləcək işlər çoxdur. Hamısını bir iclasda qeyd etmək mümkün deyil. Amma əsas məsələlər bunlardan ibarətdir.İclasın sonunda bildirməliyəm ki, mən keçən il noyabr ayında böyük Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyinin qeyd edilməsi haqqında sərəncam imzalamışam. Bu il biz İmadəddin Nəsiminin 650 illik yubileyini qeyd edəcəyik. Keçən il Bakıda və şairin doğulduğu Şamaxı şəhərində Nəsimi günləri, Nəsimi festivalı keçirilibdir. Bütün bunları və Nəsiminin 650 illik yubileyini nəzərə alaraq, mən 2019-cu ili «Nəsimi ili» elan edirəm. Sağ olun.

## ÜMUMDÜNYA GÖMRÜK TƏŞKİLATININ BAŞ KATİBİ KUNİO MİKURİYA İLƏ GÖRÜŞ

*14 yanvar 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 14-də Ümumdünya Gömrük Təşkilatının baş katibi Kunio Mikuriyanı qəbul etmişdir.*

*Ümumdünya Gömrük Təşkilatının baş katibi Kunio Mikuriya ilk növbədə, dövlət başçısına ötən il Prezident seçkilərində qələbəsi münasibətilə təbriklərini çatdırdı. O eyni zamanda, Ümumdünya Gömrük Təşkilatının baş katibi vəzifəsinə seçkilərdə Azərbaycanın verdiyi dəstəyə görə minnətdarlığını bildirdi.*

*Təbriklərə görə təşəkkür edən Prezident İlham Əliyev öz növbəsində, Kunio Mikuriyanı Ümumdünya Gömrük Təşkilatının baş katibi vəzifəsinə seçilməsi münasibətilə təbrik etdi. Dövlət başçısı bunu onun səmərəli fəaliyyətinə verilən qiymət kimi dəyərləndirərək, Kunio Mikuriyanın rəhbərliyi ilə Ümumdünya Gömrük Təşkilatında həyata keçirilən işləri yüksək qiymətləndirdiyini diqqətə çatdırdı. Prezident İlham Əliyev hazırda Azərbaycanda bütün istiqamətlərdə, o cümlədən gömrük sahəsində genişmiqyaslı islahatların həyata keçirildiyini və bunun artıq çox yaxşı nəticələr verdiyini vurğuladı. Dövlət başçısı*

*Azərbaycanın gömrük sisteminin dünyanın ən şəffaf gömrük sistemlərindən biri olması istəyini və Ümumdünya Gömrük Təşkilatının bu məqsədə çatmaq işində bizə kömək göstərməyi davam etdirəcəyinə ümidvar olduğunu bildirdi.*

*Ümumdünya Gömrük Təşkilatının baş katibi Kunio Mikuriya Azərbaycan gömrük sisteminin nümunəvi bir qurum olduğunu və Ümumdünya Gömrük Təşkilatının standartlarına uyğun fəaliyyət göstərməsini yüksək qiymətləndirdi. Kunio Mikuriya xüsusilə Azərbaycanın korrupsiya ilə mübarizənin, beynəlxalq standartlara cavab verən texnologiyaların tətbiqinin, əlverişli biznes mühitinin yaradılmasının gömrük orqanlarının şəffaf fəaliyyəti üçün mühüm əhəmiyyət daşıdığını və görülən bütün bu işlərin onda böyük təəssürat doğurduğunu qeyd etdi.*

*Xoş sözlərə görə minnətdarlığını bildirən dövlət başçısı Azərbaycanda korrupsiya ilə mübarizənin ən prioritet istiqamətlərdən biri olduğunu vurğuladı. Prezident İlham Əliyev gömrük orqanlarında həyata keçirilən ardıcıl tədbirlər nəticəsində şəffaflığın əldə edildiyini və gömrükdən daxil olan rüsumların planlaşdırıldığından da artıq olduğunu bildirdi. Azərbaycanda biznes fəaliyyəti üçün əlverişli mühitin daha da yaxşılaşdığını qeyd edən dövlət başçısı Dünya Bankı tərəfindən Azərbaycanın 10 ən çox islahatçı ölkələr sırasına daxil edildiyini, Dünya Bankının «Doing Business» hesabatında 57-ci yerdən 32 pillə irəliləyərək, 25-ci yerdə qərarlaşmasını önəmli hadisə kimi dəyərləndirdi. Prezident İlham Əliyev Azərbaycanda*

*genişmiqyaslı islahatların qarşıdakı illərdə də davam etdiriləcəyini vurğulayaraq, ölkəmizin Ümumdünya Gömrük Təşkilatı ilə bundan sonra da səmərəli əməkdaşlıq həyata keçirəcəyinə əminliyini ifadə etdi.*

## QARADAĞ RAYONUNUN QOBUSTAN QƏSƏBƏSİNDƏ YENİ İNŞA OLUNMUŞ XƏSTƏXANANIN AÇILIŞI MƏRASİMİ

*14 yanvar 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva yanvarın 14-də Bakının Qaradağ rayonunun Qobustan qəsəbəsində Səhiyyə Nazirliyinin yeni inşa olunmuş 17 saylı Birləşmiş Şəhər Xəstəxanasının açılışında iştirak etmişlər.*

*Qaradağ Rayon İcra Hakimiyyətinin başçısı Süleyman Mikayılov və 17 saylı Birləşmiş Şəhər Xəstəxanasının baş həkimi, Əməkdar həkim Elmira Rəfailova görülən işlər barədə məlumat verdilər. Bildirildi ki, 60 çarpayılıq dördmərtəbəli xəstəxananın ərazisində təcili yardım stansiyası və digər binalar inşa olunub, zəruri infrastruktur yaradılıbdır. Xəstəxananın yerləşdiyi ərazinin ümumi sahəsi 1,4 hektar, tibb ocağının binasının ümumi sahəsi isə 8000 kvadratmetrə yaxındır.*

*Dövlət başçısı xəstəxananın rəmzi açılışını bildirən lenti kəsdi.*

*Qeyd edildi ki, Qobustanda xəstəxana 1955-ci ildən fəaliyyətə başlayıb. Xəstəxana binalarının yararsız vəziyyətdə olması nəzərə alınaraq, Prezident İlham*

*Əliyevin 2011-ci il 6 aprel tarixli Sərəncamı ilə Qobustan qəsəbəsində 17 saylı Birləşmiş Şəhər Xəstəxanasının yenidən qurulması üçün maliyyə vəsaiti ayrılıb. Aparılmış inşaat işləri zamanı köhnə xəstəxananın yerləşdiyi binalar tam sökülüb və onların yerində müasir standartlara cavab verən yeni xəstəxana binası inşa edilibdir.*

*Xəstəxana binasında ümumi qəbul, funksional diaqnostika, pediatriya, mama-ginekologiya, travmatologiya, cərrahiyyə və doğum şöbələri, rentgen, terapevt, EKQ, otorinolarinqoloq, oftalmoloq, stomatoloq kabinetləri, əczaxana yaradılıb. Tibb müəssisəsində eyni zamanda, ümumi terapiya, reanimasiya şöbələri, böyüklər və uşaqlar üçün palatalar, laboratoriyalar vardır. Xəstəxananın hemodializ və fizioterapiya şöbələrində müasir avadanlıqlar quraşdırılıb, bütün şöbələr və bölmələr arasında birbaşa əlaqələr mövcuddur. Bu isə həm həkimlərin, həm də xəstələrin rahatlığını təmin etmək baxımından böyük rol oynayır. Xəstəxana binasında istirahət və gözləmə guşələri də yaradılıb. Tibb müəssisəsinin müşavirə zalı və yeməkxanası da vardır. Xəstəxana binası yüksək zövq və keyfiyyətlə inşa olunub. Tibbi heyət köhnə xəstəxana binasında gün ərzində 80–90 xəstəyə xidmət göstərə bilirdisə, yeni binada gün ərzində 200–300 xəstəyə tibbi xidmət göstərmək mümkündür. Yeni xəstəxana binasının istifadəyə verilməsindən sonra burada 200–250 həkim, orta və kiçik tibb heyəti və yardımçı işçilərin işlə təmin olunması nəzərdə tutulur. Səhiyyə sisteminin təkmilləşdirilməsi, bu sahənin müasirləşdirilməsi və inkişafı*

*son illərdə ölkəmizdə Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən dövlət siyasətində mühüm yerlərdən birini tutur.*

*Heydər Əliyev Fondu səhiyyə sahəsində həyata keçirilən dövlət siyasətinə dəyərli töhfələr verir. Fəaliyyəti dövründə Fondun təşəbbüsü ilə müxtəlif səhiyyə müəssisələrinin, o cümlədən xəstəxanaların, Müalicə-Diaqnostika, Reabilitasiya mərkəzlərinin, poliklinikaların inşası həyata keçirilib, səhiyyə ocaqları əsaslı təmir olunub və lazımi avadanlıqlarla təmin edilibdir. Fondun gələcəyimiz olan uşaqların sağlamlığı üçün atdığı addımlar görülən işlərin tərkib hissəsidir. Diabetli uşaqlara ən yüksək qayğı, talassemiyasız həyat naminə layihələr və Fond tərəfindən həyata keçirilən digər tədbirlər ilk növbədə, vətəndaşlarımızın sağlamlığının qorunması, uşaqların sağlam böyüməsi kimi mühüm və nəcib məqsədə xidmət edir. Bu gün Azərbaycanda səhiyyənin inkişafı bir çox sahədə özünü aydın büruzə verir. Bu, istər yeni tibb ocaqlarının inşası, istər mövcud xəstəxana və tibb mərkəzlərinin bərpası, istərsə də tibb müəssisələrinin ən müasir avadanlıqlarla təchiz edilməsində özünü daha qabarıq göstərir. Bütün bunlar sübut edir ki, Azərbaycan vətəndaşlarının hərtərəfli tibbi xidmətlə təmin edilməsi istiqamətində icra olunan layihələri dövlət başçısı daim nəzarətdə saxlayır. Bu layihələr vətəndaşlarımızın məhz ölkəmizdə yüksək səviyyəli tibbi xidmətlərdən yararlanması ilə bağlı görülən mühüm işlərin davamlı olduğunu göstərir.*

*Sonra dövlət başçısı tibb müəssisəsinin kollektivi ilə görüşdü.*

**İ l h a m Ə l i y e v**: Bu gün Qaradağ rayonunun Qobustan qəsəbəsində çox gözəl hadisə baş verir, çox əlamətdar bir gündür. Biz yeni tikilmiş gözəl xəstəxananın açılışını birlikdə qeyd edirik. Bu münasibətlə sizi ürəkdən təbrik edirəm.

Çox gözəl binadır, çox yaxşı şərait yaradılıb, ən müasir avadanlıqlar quraşdırılıbdır. Binanın sahəsi də çox böyükdür və əminəm ki, burada xəstələrə ən yüksək tibbi xidmət göstəriləcəkdir. Buraya gələrkən girişdə mənə xəstəxananın əvvəlki şəkilləri, görüntüləri göstərildi. Siz, burada işləyən həkimlər, tibb işçiləri yaxşı bilirsiniz ki, əvvəlki xəstəxananın vəziyyəti çox ağır, bərbad idi. Bu təbiidir, çünki xəstəxana ötən əsrin 50-ci illərinin əvvəllərində fəaliyyətə başlamışdı və uzun müddət təmirsiz qalmışdı. Xatırlayıram, bir neçə il bundan əvvəl Qobustan qəsəbəsində olarkən mənə xəstəxananın baş həkimi müraciət etmişdi ki, yeni xəstəxana tikilsə yaxşı olar. Mən də dərhal göstəriş verdim, vəsait ayırdıq və bu gün bu gözəl xəstəxananın açılışında biz birlikdə iştirak edirik. Onu da xatırlayıram ki, o səfərdə bir neçə xahiş irəli sürülmüşdü. Onların arasında Mədəniyyət evinin, məktəbin, poliklinikanın və xəstəxananın tikilməsi təklifləri də var idi və hər biri icra edildi. Yəni qəsəbənin və rayon sakinlərinin xahişləri ən yüksək səviyyədə yerinə yetirildi. Bu gün bu gözəl xəstəxana ilk növbədə, bizim siyasətimizi əks etdirir. Bu onu göstərir ki, insan sağlamlığı bizim üçün ən başlıca məsələlərdən biridir, digər tərəfdən də sübut edir ki, yerlərdən, vətəndaşlardan gələn hər bir təklifə baxılır və imkan daxilində bu təkliflər təmin edilir,

yerinə yetirilir. Bu canlı təmas hesab edirəm ki, bizim uğurlarımızın təməlində dayanan ən vacib amillərdən biridir. Mənim vətəndaşlarla müntəzəm görüşlərim, rayonlara səfərlərim – təkcə keçən il 24 rayona səfər etmişəm – Bakı qəsəbələrinin problemlərinin həlli ilə bağlı atılan addımlar və yerlərdən gələn təkliflərə müsbət yanaşma bizim uğurlu inkişafımızı təmin edir. Əgər o vaxt mənim qarşımda bu məsələ qaldırılmasaydı, bəlkə də indi bu xəstəxana da tikilməyəcəkdi. Ona görə mən həmişə deyirəm ki, insanları narahat edən, həlli vacib olan məsələlər daim məruzə edilsin, məlumat verilsin ki, biz də bu məsələləri həll edək.

Qobustan xəstəxanasının timsalında biz inkişafda olan ölkəmizin dinamik addımlarını görürük. Bu gün Azərbaycan dünya miqyasında seçilən ölkələrdəndir ki, burada həm iqtisadi, həm sosial və bütün başqa məsələlər uğurla öz həllini tapır. Sosial məsələlərin arasında səhiyyə sisteminin inkişafı xüsusi yer tutur. Çünki bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı durur və hər bir insan üçün onun sağlamlığı, onun yaxınlarının sağlamlığı xüsusi əhəmiyyət daşıyır. Biz çalışırıq və çalışacağıq ki, bu sahədə bütün lazımi tədbirləri görək. Onu da bildirməliyəm ki, təkcə son 15 il ərzində ölkəmizdə 600-dən çox xəstəxana, tibb müəssisəsi ya yenidən tikilib, ya da əsaslı şəkildə təmir edilibdir. Ölkəmizin hər bir şəhərində və ya onların mütləq əksəriyyətində müasir xəstəxanalar artıq tikilib və bir neçə şəhərdə tikinti işləri davam edir. Yaxın gələcəkdə Azərbaycanda elə bir şəhər olmayacaq ki, orada ən müasir tibb mərkəzi olmasın.

Siz yaxşı bilirsiniz ki, 5 milyondan çox insan hər il dövlət xətti ilə tibbi müayinədən keçir. Bu bizim təşəbbüsümüzdür və dünyanın nadir ölkələrində belə təşəbbüslər həyata keçirilir. Bunun da bir məqsədi var ki, vətəndaşlar, əgər onların sağlamlığında hər hansı bir problem varsa, onu vaxtında aşkar etsinlər və yüksək səviyyəli müalicə alsınlar. Bu proqram nəticəsində minlərlə insan artıq lazımi səviyyədə müalicə alır.

Diaqnostika və müalicə bir-biri ilə vəhdət təşkil edir. Bu xəstəxanada həm diaqnostika, həm də poliklinika şöbəsi, təcili yardım stansiyası və əməliyyat aparmaq üçün imkanlar, doğum şöbəsi vardır. Mənə məlumat verildi ki, bu məsələ ilə bağlı ciddi problemlər var idi və bu bölgədə doğum şöbəsi yox idi. Siz onu da yaxşı bilirsiniz ki, bu xəstəxana ətraf qəsəbələrə də xidmət göstərəcək, on minlərlə insan bu imkanlardan istifadə edəcək. Əlbəttə ki, bu xəstəxanada dializ şöbəsinin yaradılması xüsusi məna daşıyır. Çünki mənə verilən məlumata görə, burada böyrək xəstələri var ki, onlar da müntəzəm olaraq Bakıya dializ almaq üçün getməli olurdular. Bu da həm məsrəfdir, həm də narahatlıqdır, əziyyətdir. Ona görə burada dializ şöbəsinin yaradılması bu insanlara da böyük dəstək olacaq, onlar öz sağlamlığını burada bərpa edəcəklər.

Biz bütün bunları, bütün bu işləri ona görə görürük ki, Azərbaycan vətəndaşları daha da yaxşı yaşasınlar və onları narahat edən məsələlər öz həllini tapsın. Əlbəttə ki, buna nail olmaq üçün güclü iqtisadiyyat olmalıdır və biz bu iqtisadiyyatı qururuq. Keçən ilin nəticələri – bir

neçə gün bundan əvvəl bu barədə mən xalqa hesabat verdim – çox müsbətdir. Bu onu göstərir ki, biz düzgün yoldayıq, biz uğurla inkişaf edirik və ölkəmiz bütün lazım olan məsələləri – həm sosial, həm iqtisadi, həm infrastrukturla bağlı və digər məsələləri öz daxili imkanları hesabına həll edir. Əminəm ki, gələcək illərdə, o cümlədən 2019-cu ildə biz bu müsbət dinamikanı saxlayacağıq, ölkəmiz uğurla inkişaf edəcək və bütün məsələlər öz həllini tapacaqdır.

Mən sizi bir daha bu gözəl hadisə münasibətilə təbrik edirəm və kollektivə uğurlar arzulayıram. Həkimlər üçün gözəl iş yeri yaradılıbdır ki, siz də burada xəstələrə yaxşı xidmət göstərəsiniz. Sağ olun.

* * *

**Elmira Rəfailova** (*xəstəxananın baş həkimi, Əməkdar həkim*): Möhtərəm cənab Prezident, hörmətli Mehriban xanım, biz sizi bir daha salamlayırıq, rayonumuza xoş gəlmisiniz! Bu gün Qobustan qəsəbəsi və Qaradağ rayonu sevinc içərisindədir. Keçən əsrin 50-ci illərində tikilmiş 17 saylı Birləşmiş Şəhər Xəstəxanası yararsız vəziyyətə düşdüyündən Siz dərhal sərəncam verdiniz, xəstəxana söküldü və yerində yenisi tikildi. Bu müasir, gözəl tibbi cihazlarla təmin olunmuş xəstəxananı bu gün bizə hədiyyə edirsiniz. Bu hədiyyəyə görə Sizə böyük minnətdarlığımızı bildirmək istəyirik. Bu şəxsən Sizin və Mehriban xanımın tibb sahəsinə olan qayğınızın nəticəsidir.

4 ildən artıqdır ki, Sizin sərəncamınıza əsasən, ildə bir dəfə əhalinin dispanserizasiyası keçirilir, bu aksiya xəstəliklərin aşkar edilməsinə və profilaktikasına böyük kömək edir. Növbəti dispanserizasiya bu gözəl binada daha səmərəli və keyfiyyətli keçəcəkdir. Xüsusilə vurğulamaq istəyirəm ki, bizim xəstəxanada hemodializ və travmatologiya şöbələri Qaradağ rayonu tarixində ilk dəfə fəaliyyət göstərəcək. Bizim qəsəbəyə, ətraf rayonlara, 50–60 min əhaliyə xidmət göstərmək üçün cihazlarımız, hər bir imkanımız vardır. Biz Sizə söz veririk ki, xalqımıza vicdanla, keyfiyyətlə xidmət edəcəyik. Kollektivimiz adından, Qobustan qəsəbəsi sakinləri adından, bütün Qaradağ rayonu sakinləri adından Sizə böyük minnətdarlığımızı bildirirəm. Sizə və ailə üzvlərinizə cansağlığı, Azərbaycan naminə yorulmaz fəaliyyətinizdə yeni-yeni uğurlar diləyirəm. Allah Sizi və Sizin ailənizi qorusun! Çox sağ olun.

**A l l a h v e r d i  M ə m m ə d o v** (*Qobustan qəsəbəsi Ağsaqqallar Şurasının sədri*): Cənab Prezident, Qobustana ikinci dəfədir ki, gəlirsiniz. Sizin gəlişiniz bizim üçün bayramdır. Bu bayramı bizə nəsib etdiyinizə görə Sizə minnətdarıq. Qobustan qəsəbəsinin əhalisi adından, ağsaqqallar, ziyalılar adından Sizə «Xoş gəlmisiniz!» – deyirəm, Sizə uğurlar, cansağlığı arzulayıram. Allah Sizi bizə çox görməsin.

**İ l h a m  Ə l i y e v:** Çox sağ olun, Qobustan qəsəbəsinin, bütün Qaradağ rayonunun sakinlərinə salamlarımı çatdırın. Bilirsiniz ki, məni Qaradağ rayonu ilə uzun tarix birləşdirir. Mən öz siyasi fəaliyyətimə buradan başlamışam.

**Allahverdi Məmmədov:** Mehriban xanım bizim Qobustan qoruğunu 2007-ci ildə UNESKO-ya daxil edib. Bizim bu Qobustanı dünyaya tanıtdırdığı üçün sevimli Mehriban xanıma minnətdarıq.

**Mehriban Əliyeva:** Çox sağ olun.

**Allahverdi Məmmədov:** Qəsəbəmizin sakinləri adından Sizə də minnətdarlığımı bildirirəm, cənab Prezident, çox sağ olun.

**İlham Əliyev:** Çox sağ olun.

## FRANSA RESPUBLİKASININ SABİQ PREZİDENTİ NİKOLA SARKOZİ İLƏ GÖRÜŞ

*15 yanvar 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 15-də ölkəmizdə səfərdə olan Fransa Respublikasının sabiq Prezidenti Nikola Sarkozi ilə görüşmüşdür.*

*Nikola Sarkozi bir neçə il bundan əvvəl Azərbaycana səfərindən ötən dövr ərzində Prezident İlham Əliyevin rəhbərliyi ilə Bakıda həyata keçirilən böyük quruculuq və abadlıq işlərinin şahidi olduğunu və bütün bu inkişaf proseslərinin onda dərin təəssürat yaratdığını qeyd etdi.*

*Prezident İlham Əliyev xoş sözlərə görə minnətdarlığını bildirdi.*

*Söhbət zamanı Nikola Sarkozinin 2007–2012-ci illərdə Fransanın Prezidenti olduğu dövrdə Azərbaycan–Fransa münasibətlərinin möhkəmləndiyi vurğulandı, bir çox sahələrdə əlaqələrimizin böyük inkişaf yolu keçdiyi qeyd edildi. Azərbaycan Prezidenti və Nikola Sarkozi öz aralarında keçirilən görüşləri məmnunluqla xatırlatdılar. Qeyd olundu ki, həmin dövrdə təhsil sahəsində əməkdaşlığın yeni çərçivələri məhz Prezident İlham Əliyev və Nikola Sarkozinin birgə səyləri nəticəsində mümkün olubdur.*

**İRAN İSLAM RESPUBLİKASI SİLAHLI QÜVVƏLƏRİNİN BAŞ QƏRARGAH RƏİSİ MƏHƏMMƏD BAQERİNİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ**

*16 yanvar 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 16-da İran İslam Respublikası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Məhəmməd Baqerinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlət başçısı Azərbaycan–İran ikitərəfli münasibətlərin son illər ərzində bütün sahələrdə, o cümlədən hərbi sahədə uğurla inkişaf etdiyini bildirdi. Siyasi əlaqələrimizin bu gün ən yüksək pilləyə qalxdığını vurğulayan Prezident İlham Əliyev son illər ərzində prezidentlər səviyyəsində 10-dan çox görüşün keçirilməsinin münasibətlərin inkişafında xüsusi rolunu qeyd etdi. Dövlət başçısı digər səviyyədə qarşılıqlı səfərlərin də əlaqələrin genişləndirilməsi baxımından önəmini vurğuladı. Xalqlarımızın əsrlərboyu mehriban qonşuluq şəraitində yaşadığını diqqətə çatdıran Prezident İlham Əliyev Azərbaycan–İran dostluq və qardaşlıq münasibətlərinin qarşıdakı illərdə də uğurla inkişaf edəcəyinə əminliyini ifadə etdi.*

*İran İslam Respublikası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Məhəmməd Baqeri Prezident Həsən*

*Ruhaninin salamlarını dövlətimizin başçısına çatdırdı. Məhəmməd Baqeri bildirdi ki, İranın Ali Rəhbəri ölkələrimiz və xalqlarımız arasında əlaqələrin bundan sonra daha da möhkəmlənməsini zəruri hesab edir. Qonaq qeyd etdi ki, Azərbaycanda Prezident İlham Əliyevin rəhbərliyi ilə əldə edilmiş inkişaf, əmin-amanlıq və sabitlik İran xalqı tərəfindən sevinclə qarşılanır. O, xalqlarımızın əsrlərboyu müştərək tarixə və mədəniyyətə malik olduğunu və əlaqələrimizin bu gün də uğurla inkişaf etdiyini vurğuladı.*

*Məhəmməd Baqeri bildirdi ki, İran Qarabağ torpağını Azərbaycan torpağı hesab edir, Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir və bundan sonra da dəstəkləyəcək, sərhədlərin zor gücü ilə dəyişdirilməsi qəbuledilməzdir, İran bu məsələdə hər zaman Azərbaycanın yanındadır.*

*Prezident İlham Əliyev bu qardaşlıq mövqeyinə görə onun təşəkkürlərinin İran rəhbərliyinə çatdırılmasını xahiş etdi və Azərbaycanın İran tərəfinin bu ədalətli mövqeyini yüksək qiymətləndirdiyini bildirdi. İşğal edilmiş ərazilərdə Azərbaycanın tarixi və dini abidələrinin ermənilər tərəfindən dağıdılması barədə Məhəmmədi Baqerini məlumatlandırdı.*

*Dövlət başçısı İran İslam Respublikasının Prezidenti Həsən Ruhaninin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını İran Prezidentinə çatdırmağı xahiş etdi.*

## ZİMBABVE RESPUBLİKASININ PREZİDENTİ EMMERSON MNANQAQVA İLƏ GÖRÜŞ

*19 yanvar 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yanvarın 19-da ölkəmizə işgüzar səfərə gələn Zimbabve Respublikasının Prezidenti Emmerson Mnanqaqva ilə görüşü olmuşdur.*

*Dövlət başçısı İlham Əliyev Zimbabve Prezidentini qarşıladı. Birgə foto çəkdirildi.*

*Sonra dövlət başçılarının görüşü oldu.*

**İ l h a m  Ə l i y e v:** Xoş gəlmisiniz! Sizi görməyə çox şadam. Əminəm ki, səfəriniz çox məhsuldar keçəcək və tərəfdaşlığımızın gücləndirilməsi üçün imkanlar yaradacaq. Bu, Zimbabve Prezidentinin Azərbaycana ilk səfəridir, odur ki, bu, tarixi səfərdir. Əminəm ki, məhsuldar müzakirələr zamanı biz əməkdaşlığımızın çox mühüm sahələrini müəyyən edəcəyik. Biz ticarət münasibətlərimizin genişləndirilməsi üçün imkanları, həmçinin siyasi sahədə qarşılıqlı fəaliyyətimizə aid məsələləri nəzərdən keçirəcəyik. Bilirəm ki, gəlişiniz çərçivəsində Siz bir neçə ölkəyə səfər edirsiniz. Çox şadam ki, Azərbaycan da Sizin səfər etdiyiniz ölkələrdən biridir. Bu Sizin ölkəmizə və münasibətlərimizə verdiyiniz önəmin göstəricisidir. Biz də

öz növbəmizdə, ölkələrimiz arasında münasibətləri inkişaf etdirmək istəyirik. Əlbəttə, Sizin səfəriniz də bu münasibətlərin inkişafı üçün məsələlərin müzakirəsi baxımından çox əla imkandır. Bir daha Azərbaycana xoş gəlmisiniz!

**Emmerson Mnanqaqva:** Çox sağ olun, zati-aliləri. Buraya gəldiyimizdən bəri çox səmimi qarşılandığımız üçün Sizə nümayəndə heyəti adından təşəkkürümü bildirmək istəyirəm. Sizin çox gözəl ölkəniz var. Biz ilk dəfədir ki, sizin ölkənizə səfər edirik. Azərbaycanda artıq şahidi olduğumuz inkişaf və infrastruktur səviyyəsi bizə çox güclü təsir bağışlayıb. Bizim arzumuz iki ölkə arasında qarşılıqlı siyasi münasibətlərin qurulmasından ibarətdir. Lakin biz xüsusilə iki ölkə arasında iqtisadi əməkdaşlığı təşviq etmək, əməkdaşlıq aparılacaq digər sahələri, o cümlədən ölkələrimiz arasında aparılacaq ticarət sahələrini tədqiq etmək istəyirik.

## ÜMUMXALQ HÜZN GÜNÜNDƏ ŞƏHİDLƏR XİYABANINI ZİYARƏT

*20 yanvar 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva yanvarın 20-də – Ümumxalq Hüzn Günündə Şəhidlər xiyabanında 20 Yanvar şəhidlərinin xatirəsini yad etmişlər.*

*Qara Yanvar hadisələrindən 29 il keçir. 1990-cı il yanvarın 20-si Azərbaycanın müasir tarixinə ən faciəli günlərdən biri, eyni zamanda, xalqımızın qəhrəmanlıq səhifəsi kimi daxil olub, milli müstəqillik, azadlıq uğrunda mübarizəsinin və yenilməz iradəsinin rəmzinə çevrilibdir. Təpədən-dırnağadək silahlanmış keçmiş sovet ordusunun cəza tədbirlərinə məruz qalan xalqımız azadlıq əzmini itirməmiş, əksinə, haqq səsini daha ucadan bəyan etmişdi. 29 il əvvəl doğma yurdunun, xalqının azadlığını, şərəf və ləyaqətini hər şeydən uca tutan vətənpərvər Azərbaycan övladları həmin müdhiş gecədə canlarından keçərək, şəhidlik zirvəsinə ucaldılar. Sovet qoşunlarının Azərbaycanda törətdiyi qanlı qırğından uzun illər keçməsinə baxmayaraq, xalqımız o dəhşətli günlərin ağrı-acısını unutmur, öz vətəndaşlarına divan tutan sovet imperiyasının ovaxtkı rəhbərlərinə və onların Azərbaycandakı nökərlərinə dərin nifrətini bildirir.*

*Keçmiş SSRİ rəhbərliyinin Azərbaycana qarşı qərəzli, ermənipərəst siyasətinə, əzəli torpaqlarımıza iddia edən təcavüzkar Ermənistanın açıq-aşkar dəstəklənməsinə və respublikanın ozamankı rəhbərliyinin xəyanətkar mövqeyinə etiraz əlaməti olaraq ayağa - qalxmış geniş xalq kütlələrinə qarşı sovet ordusunun iri hərbi birləşmələrinin yeridilməsi Azərbaycanda, xüsusilə Bakıda misli görünməmiş faciəyə gətirib çıxardı, böyük itkilərlə, günahsız insanların ölümü ilə nəticələndi. Buna baxmayaraq, Azərbaycanın ovaxtkı səriştəsiz, kölə psixologiyalı rəhbərlərinin yenə də xalqla bir olmağa cəsarəti çatmadı və onlar sovet rəhbərliyinin ətəyindən yapışmağa davam etdilər.Onlardan fərqli olaraq, həmin vaxt Moskvada yaşayan xalqımızın dahi oğlu Heydər Əliyev həyatını təhlükədə qoyaraq, faciənin ertəsi günü Azərbaycanın daimi nümayəndəliyinə gələrək, Qanlı Yanvar qırğınını törədənləri pisləyən kəskin bəyanatla çıxış etdi, xalqımızın başına gətirilən müsibəti dünyaya çatdırdı. Bununla da ulu öndər cəsarətini, mərdliyini, xalqının sədaqətli oğlu olduğunu bir daha sübut etdi.*

*Əslində ermənilərin fitvası ilə törədilmiş bu cinayət Azərbaycan xalqının iradəsini qıra, azadlıq eşqini söndürə bilmədi. Xalqımız qanı bahasına da olsa istəyinə – azadlıq və müstəqilliyinə qovuşdu və bu nailiyyəti heç vaxt əlindən verməyəcəkdir.*

*Keçmiş sovet hərb maşınının Azərbaycanda törətdiyi qanlı qırğın mahiyyətinə görə dövlətin öz vətəndaşlarına qarşı tarixdə misli görünməmiş təcavüzü, qətliamı idi. Keçmiş SSRİ və Azərbaycan SSR konsti-*

*tusiyalarının kobudcasına pozulması, ayaqlar altına atılması idi. Həmin gün keçmiş SSRİ dövləti dinc əhalinin üstünə qoşun yeritməklə, BMT Nizamnaməsinə, beynəlxalq hüquq normalarına məhəl qoymamış, iştirakçısı olduğu Mülki və Siyasi Hüquqlar Haqqında Beynəlxalq Paktın bir sıra müddəalarını cinayətkarcasına pozmuşdu.*

*Xalqımızın ümummilli lideri Heydər Əliyevin Azərbaycan rəhbərliyinə yenidən qayıdışından sonra, 1994-cü ildə 20 Yanvar hadisələrinə siyasi-hüquqi qiymət verildi və cinayəti törədənlərin adları ictimaiyyətə çatdırıldı. 20 Yanvar Ümumxalq Hüzn Günü elan edildi. Azərbaycan xalqı hər il 20 Yanvar faciəsi qurbanlarının xatirəsini dərin ehtiramla yad edir.*

*Azərbaycanın azadlığı uğrunda canından keçən şəhidlərin xatirəsi daim əziz tutulduğu kimi, onların ailə üzvləri, əzizləri də hər zaman dövlət qayğısı ilə əhatə olunub. Eləcə də 20 Yanvar hadisələrində sağlamlığını itirən əlillərin sosial müdafiəsi, pensiya təminatı hər zaman dövlət başçısının diqqətindədir. 20 Yanvar şəhidlərinin ailə üzvləri və əlillərin sosial müdafiəsinin təmin olunması istiqamətində mütəmadi tədbirlər həyata keçirilib. Şəhid ailələrinin pensiya təminatı, mənzil şəraitinin yaxşılaşdırılması, yaşayış səviyyəsinin yüksəldilməsi ilə bağlı mükəmməl qanunvericilik bazası yaradılıb. Dövlət başçısı bu istiqamətdə sərəncam və fərmanlar verib. Bundan başqa, əlillərin reabilitasiyası üçün respublikada yeni sağlamlıq mərkəzləri inşa olunub. Şəhid ailələrinin,*

*əlillərin sosial təminatı ildən-ilə daha da möhkəmləndirilir.*

* * *

*Yanvarın 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Qanlı Yanvar faciəsində həlak olanların əziz xatirəsini yad etmək üçün Şəhidlər xiyabanına gəlmişlər.*

*Dövlət başçısı «Əbədi məşəl» abidəsinin önünə əklil qoydu. Müdafiə Nazirliyinin əlahiddə nümunəvi hərbi orkestrinin ifasında Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.*

*Dövlət və hökumət rəsmiləri, respublikamızdakı dini icmaların başçıları, xarici ölkələrin Azərbaycandakı səfirləri, beynəlxalq təşkilatların nümayəndələri də şəhidlərin əziz xatirəsini yad etdilər.*

*Şəhidlər xiyabanının ziyarət olunması mərasimində Baş Nazir Novruz Məmmədov, Milli Məclisin Sədri Oqtay Əsədov və Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev iştirak etdilər.*

**MEKSİKA BİRLƏŞMİŞ ŞTATLARININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ANDRES MANUEL LOPES OBRADORA**

Hörmətli cənab Prezident!

İdalqo ştatında boru kəmərində baş vermiş partlayış və yanğın nəticəsində çoxsaylı insan tələfatı barədə xəbər məni olduqca kədərləndirdi.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, bütün Meksika xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara və xəsarət alanlara şəfa diləyirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *21 yanvar 2019-cu il*

## İSVEÇRƏ KONFEDERASİYASINA İŞGÜZAR SƏFƏR

*Davos*

*21 yanvar 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 21-də Dünya İqtisadi Forumun illik toplantısında iştirak etmək üçün İsveçrə Konfederasiyasına işgüzar səfərə gəlmişdir.*

*Dövlət başçısı Davosda Dünya İqtisadi Forumun prezidenti Borge Brende ilə görüşdü.*

*Görüşdə Azərbaycan hökuməti və Dünya İqtisadi Forumun Dördüncü Sənaye İnqilabı Mərkəzi arasında ilk dəfə olaraq əməkdaşlığın təməli qoyuldu. Bu məqsədlə Azərbaycan Prezidenti İlham Əliyev və Dünya İqtisadi Forumun prezidenti Borge Brende arasında əməkdaşlıq sazişinin təntənəli mübadiləsi həyata keçirildi.*

*Söhbət zamanı Dünya İqtisadi Forumun prezidenti Borge Brende Prezident İlham Əliyevi yenidən Davosda görməkdən məmnunluğunu bildirdi və dövlət başçımızın rəhbərliyi ilə Azərbaycanın dördüncü sənaye inqilabına doğru qətiyyətli addımlar atdığını qeyd etdi. Borge Brende son 20 ildə Bakının sürətlə tanınmaz dərəcədə dəyişdiyini vurğuladı.*

*Prezident İlham Əliyev Azərbaycan hökuməti və Dünya İqtisadi Forumun Dördüncü Sənaye İnqilabı Mərkəzi arasında əməkdaşlıq sazişinin vacibliyini qeyd edərək vurğuladı ki, bu sənəd bizim tərəfdaşlıq ruhumuzu və qarşılıqlı səylərimizi davam etdirməkdə istəkli olduğumuzu nümayiş etdirir. Dövlət başçısı bildirdi ki, Azərbaycan Dördüncü Sənaye İnqilabının hədəflərinin həyata keçirilməsində çox fəal iştirak edəcəkdir. Keçən il Azərbaycanda qeyri-neft sektorunda sənaye istehsalının 9,1 faiz artdığını vurğulayan Prezident İlham Əliyev əminliklə bildirdi ki, biz bu vacib layihədə yaxşı tərəfdaşlar olacağıq.*

*Prezident İlham Əliyev növbəti dəfə Dünya İqtisadi Forumunda iştirakından və Forumla Azərbaycan arasında əməkdaşlıq əlaqələrinin yüksək səviyyədə olmasından məmnunluğunu ifadə etdi. Forumun dünyada gedən transformasiya prosesinin yeni təmayülləri və çağırışların müzakirəsi baxımından əhəmiyyətini vurğulayan dövlət başçısı Azərbaycanın öz inkişaf strategiyasını yenilənən beynəlxalq və regional təmayüllər nəzərə alınmaqla qurduğunu bildirdi.*

*Prezident İlham Əliyev ölkəmizdə aparılan islahatlar, inkişaf prosesləri barədə məlumat verdi, böyük nəqliyyat və infrastruktur layihələrinin, o cümlədən Şərq–Qərb, Şimal–Cənub nəqliyyat dəhlizləri ilə bağlı layihələrin, enerji layihələrinin reallaşdırılmasının həm ölkəmiz, həm də region üçün əhəmiyyətini qeyd etdi. Dövlət başçısı Azərbaycanda biznes mühitinin daha da inkişaf etdirilməsi istiqamətində aparılan islahatlar barədə məlumat verdi.*

*Borge Brende Azərbaycan ilə Dünya İqtisadi Forumu arasında əməkdaşlıqdan və ölkəmizin bölgədə oynadığı roldan məmnunluğunu ifadə etdi. Bildirdi ki, Azərbaycanın qonşu və region dövlətləri ilə iqtisadi əməkdaşlığının və ölkəmizin güclənən iqtisadiyyatının bölgə ölkələrinin inkişafında əhəmiyyətli rolu vardır. Dünya İqtisadi Forumu bu rolu qiymətləndirir.*

*Söhbət zamanı qarşılıqlı maraq doğuran məsələlər barədə fikir mübadiləsi aparıldı.*

## «ROSSİYA-1» TELEVİZİYA KANALINA MÜSAHİBƏ

*Davos*

*21 yanvar 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 21-də Davosda «Rossiya-1» televiziya kanalına müsahibə vermişdir.*

*Dövlət başçısı İlham Əliyev dünyada neftin qiymətinin vəziyyəti, beynəlxalq münasibətlər və digər məsələlərlə bağlı sualları cavablandırdı.*

## ÇİNİN CGTN TELEVİZİYASINA MÜSAHİBƏ

*Davos*

*21 yanvar 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 21-də Davosda Çinin CGTN televiziya kanalına müsahibə vermişdir.*

**M ü x b i r:** Cənab Prezident, Sizi Davosda görmək bizdə böyük məmnunluq hissi doğurur.

**İ l h a m  Ə l i y e v:** Çox sağ olun, sizi görməyə şadam.

**S u a l: Ölkənizdəki neft və qaz sektorunun inkişafı iqtisadiyyatınızın yüksək səviyyəyə qaldırılmasına imkan verib və bu Sizin baxışınız nəticəsində mümkün olub. Sualım belədir ki, bu, dayanıqlı olacaqmı?**

**C a v a b:** Siz doğru qeyd etdiniz, neft və qaz iqtisadiyyatımızın aparıcı qüvvəsidir. Biz böyük enerji şirkətlərini Azərbaycana sərmayə yatırmaq üçün cəlb etdiyimizə görə çox böyük tərəqqiyə nail olmuşuq. Lakin indi, əlbəttə ki, bizim əsas vəzifəmiz iqtisadiyyatımızı şaxələndirməkdir və neft-qazdan asılılığımızı azaltmaqdır. Bu, asan olmayacaq, çünki biz indi neft və qaz ehtiyatlarımızın işlənilməsinin aktiv inkişaf fazasındayıq. Lakin son illərdə biz əsasən infrastruktura sərmayə yatırmışıq. Biz çoxlu sərmayə cəlb etdik – son

15 ildə təqribən 250 milyard dollar həcmində. Dünya Bankının «Doing Business» reytinqində 25-ci yerdəyik. Buna görə düşünürəm ki, neft-qaz sektorundan başqa, digər sektorlara sərmayə yatırmaq üçün investorları cəlb etmək çətin olmayacaq.

**S u a l: Cənab Prezident, başa düşürəm ki, infrastruktur sahəsinin sizin ölkədə vacib potensialı vardır. Məsələn, Siz bir neçə vacib infrastruktur layihələri üzərində işləyə bilərsiniz. Yəni ölkənizdə həyata keçirilən layihələri, eyni zamanda, digər Xəzəryanı ölkələr arasında və hətta bu regiondan kənarda olan layihələri nəzərdə tuturam. Bunun inkişaf üçün qısamüddətli və uzunmüddətli təsirləri nədir?**

**C a v a b:** Siz tamamilə düz deyirsiniz. Biz Azərbaycana və onun sərhədlərindən kənara sərmayə yatırmışıq. İlkin olaraq prioritet, əlbəttə ki, müasir infrastrukturun yaradılması idi. Bu infrastruktur da öz növbəsində, investorlar, biznes dairələri üçün çoxlu potensial və insanlarımız üçün rahatlıq yaradacaq. Buna görə biz əsasən elektrik enerjisinin istehsalına sərmayə yatırdıq və elektrik enerjisi idxal edən ölkədən elektrik enerjisi ixrac edən ölkəyə çevrildik və bundan çoxlu qazanc götürmüşük. Biz ölkə daxilində qazlaşdırılma səviyyəsini 95 faizə qədər artırdıq. Bu da zənnimcə, çox yaxşı nəticədir. Biz əsasən yol tikintisinə sərmayə yatırmışıq və Davos Dünya İqtisadi Forumun qiymətləndirməsinə əsasən, bizim yollarımız keyfiyyətinə görə dünyada 34-cü yerdədir.

Həmçinin suyun təmizlənməsi və irriqasiya sahəsində xeyli işlər görülüb. Eyni zamanda, biz nəqliyyat infrastrukturumuza sərmayə yatırdıq ki, bu da bizə çoxlu yükləri cəlb etməyə və bir «hab» yaratmağa imkan verəcək. Bizim dəmir yollarımız, 6 beynəlxalq hava limanımız var, bizə 15 milyon tondan 25 milyon tona qədər yük daşımağa imkan verəcək Yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanımız vardır. Bütün növ gəmiləri istehsal etməyə və Xəzər dənizində yükdaşımaları artırmağa, eyni zamanda, Mərkəzi Asiya və Avropa ölkələri ilə əlaqələrimizi yaratmağa imkan verəcək yeni Gəmiqayırma zavodumuz vardır. 2017-ci ildə biz Bakı–Tbilisi–Qars dəmir yolunun açılışını etdik. Bu dəmir yolu Azərbaycan və Avropa, eləcə də Avropa və Asiya arasında çatışmayan bir bağlantı idi. Hazırda bu dəmir yolu fəaliyyət göstərir və biz yüklərin artımını görürük. İnfrastruktur bizə böyük miqdarda yükləri cəlb etməyə və bir çox ölkələr arasında yeni vacib bağlantı yaratmağa kömək edir.

**S u a l: Siz bir Prezident olaraq, həmişə demisiniz ki, nailiyyətlərinizlə fəxr edirsiniz. Lakin yenə də belə bir sual yaranır ki, qısamüddətli və uzunmüddətli perspektivdə bu nailiyyətlərdən necə faydalanmaq olar. Qısa müddətdə nəticələri dərhal görmək mümkün deyil. Burada belə bir problem var, elə deyilmi?**

**C a v a b:** Bəli, biz infrastruktur layihələrinə vəsaiti dövlət büdcəsindən yatırmışıq və anlayırıq ki, bu vəsaitin faydasını bir çox illərdən sonra görəcəyik.

Lakin əvvəl də qeyd etdiyim kimi, ilkin olaraq biz öz xalqımız üçün çox yaxşı şərait yaratmaq istəyirik. Biz infrastrukturu yeniləmək və biznes dairələrinin faydalana biləcəyi şəraiti yaratmaq istəyirdik. Azərbaycanda nəqliyyat qovşağının yaradılması bizə şərqdən qərbə və şimaldan cənuba vacib tranzit ölkə olmaq imkanını verəcək. Bu investisiyalar gələcək üçün yatırılıb. Biz gələcək 10 il ərzində yatırdığımız vəsaiti geri götürəcəyimizi gözləmirik. Lakin bizim planımız neft və qaz sektorundan başqa, yeni imkanlar və gəlir mənbəyi yaratmaqdır. Bir gün neft və qaz tükənəcək, lakin coğrafiyamızı nəzərə alsaq, nəqliyyat infrastrukturu həmişə qalacaqdır.

**S u a l: Cənab Prezident, Sizin bir çox ölkələrdə olan həmkarlarınız uzunmüddətli perspektivə investisiyaların yatırılmasına arzuolunmaz hal kimi baxa bilər. Deyə bilərlər ki, əsas diqqətimizi bu günə, lap uzağı sabaha yönəldirəm. Bir dövlət başçısı kimi, Siz bu qısamüddətli və uzunmüddətli faydalar arasında balansın qorunmasına necə baxırsınız?**

**C a v a b:** Qısamüddətli faydalara gəldikdə deyə bilərəm ki, bizim nisbətən qısa müddət ərzində xeyli gəlir gətirən çoxlu layihələrimiz vardır. Biz investisiyaların cəlb edilmə mexanizmini yaradırıq, özəl sektorumuza çox aşağı faiz dərəcəsi ilə kreditlər ayırırıq ki, onlar da tezliklə gəlir gətirəcək sahələrə investisiya yatıra bilsinlər. Məsələn, kənd təsərrüfatı, kiçik və orta biznes kimi sahələr. Biz bunu qısamüddətli gəlir götürmək üçün edirik. Lakin uzunmüddətli

investisiyalara gəldikdə, əsas məqsəd elə bir infrastrukturun yaradılmasıdır ki, o, uzun zaman ərzində fəaliyyət göstərsin və ölkəni dəyişmiş olsun, dünyanın ölkəyə münasibətini dəyişmiş olsun. Çünki bu infrastruktur layihələri olmadan Azərbaycanın coğrafi mövqeyinin bir o qədər də böyük mənası yoxdur. Biz ölkələri və insanları birləşdirməyə nail olmuşuq. Sizə deyə bilərəm ki, nəqliyyatla bağlı infrastruktur layihələri regionumuzda tamamilə yeni siyasi vəziyyət yaradır. Bir-birindən asılı olan ölkələr – biri tranzit ölkəsindən asılıdır, digəri tranzit ölkəsi olur ki, onlar arasında daha yaxın münasibətlər yaranır. Onlar faydaları paylaşır, onlar bütün tərəflərin uduzmadığı bir vəziyyət tapa bilir. Təkcə ikitərəfli formatda yox, çoxtərəfli formatda da. Xəzər dənizi vasitəsilə qitələrin birləşdirilməsi, Bakıda dəniz limanının tikintisi, dəmir yolu sistemimizin Avropa sistemi ilə birləşməsi yeni əməkdaşlıq formatını yaradır və qarşılıqlı asılılıq zənnimcə, fəal siyasi dialoq üçün, müəyyən çətinliklərin, gərginliklərin azaldılması üçün və müsbət gündəliyə diqqət yetirmək üçün mühüm alətlərdən biridir. Bizim hədəfimiz Azərbaycanda müasir infrastruktur yaratmaq, ölkəni müasirləşdirmək, məqsədlərimizə – siyasi, iqtisadi və maliyyə məqsədlərimizə fəal əməkdaşlıq və qarşılıqlı dəstək vasitəsilə nail olmaqdır.

**S u a l: Cənab Prezident, bilirəm ki, hətta indi digər çağırışlarla yanaşı, sizin ölkəniz müəyyən ərazi mübahisəsi ilə üz-üzə qalıb. Əlaqəlilik, infrastruktur, daha yaxşı mühitin qurulması və**

**iqtisadiyyatın insanlarla alyansı Sizə bu problemi çözmək üçün fürsət tapmağa imkan verəcəkmi?**

**C a v a b:** Mən əminəm ki, bu bizim 20 ildən artıq işğal altında qalan torpaqlarımızın azad edilməsi üçün ən effektiv yollardan biridir. Müstəqilliyimizin ilk illərində biz Ermənistanın təcavüzünə və işğalına məruz qaldıq. Bunun nəticəsində 1 milyondan çox azərbaycanlı qaçqın və məcburi köçkünə çevrildi, torpaqlarımızın 20 faizi işğal altındadır. BMT Təhlükəsizlik Şurasının erməni qoşunlarının torpaqlarımızdan dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən və 25 il bundan əvvəl qəbul olunan 4 qətnaməsinə baxmayaraq, onlar icra olunmur. Buna görə də biz hədəfimiz olan ərazi bütövlüyümüzün bərpa edilməsi və 1 milyondan artıq insanın evlərinə qayıtması üçün daha güclü, daha uğurlu və daha effektiv olmalıyıq. Buna görə də özümüzü təminetmə, öz resurs və ehtiyatlarımıza arxalanma siyasətimiz artıq bizi uğura aparır. Biz indi yaşayış standartlarını artırırıq, bizim yaxşı beynəlxalq nüfuzumuz vardır. Qeyd etdiyim kimi, biz, demək olar ki, 250 milyard dollar investisiya cəlb etmişik. Biz hərbi potensialımıza çoxlu sərmayə yatırmışıq və öz qonşularımızla uğurlu əməkdaşlıq formatını yaratmışıq. Beləliklə, torpaqlarımızın işğalını davam etdirən ölkə bütün bunları qiymətləndirməlidir. Başa düşməlidir ki, onlar da bu böyük əməkdaşlıq formatının bir tərəfi ola bilərdi, yəni enerji, neft-qaz, nəqliyyat, bağlılıq layihələrindən asılı olub-olmayaraq. Bütün bu layihələr onlardan yan keçir, bir səbəbə görə: səbəb işğaldır. İşğala son

qoyulsa, onda, əlbəttə ki, bizim regionumuzda daha geniş beynəlxalq əməkdaşlıq və davamlı sülh olardı.

**S u a l: Beləliklə, cənab Prezident, iqtisadi gücün və ölkənizin beynəlxalq arenada nüfuzunun artmasının Sizə bu problemin həllində kömək edəcəyinə inanırsınızmı?**

**C a v a b:** Tamamilə doğrudur. Biz nəticələri, müsbət dinamikanı görürük və səmimi desəm, görürük ki, beynəlxalq təşkilatların qətnamələri icra edilmir və buna görə cəza olmur. Dünyada aparıcı beynəlxalq təşkilat olan BMT Təhlükəsizlik Şurası münaqişə ilə bağlı qətnamə qəbul edir, lakin münaqişə həllini tapmır, qətnamələr icra olunmur. Buna görə də biz beynəlxalq hüquqa arxalanmalıyıq, eyni zamanda, daha güclü olmalıyıq. Biz iqtisadi cəhətdən daha güclü olsaq, onda siyasi cəhətdən də daha güclü olacağıq, milli maraqlarımıza əsaslanan müstəqil xarici siyasət də yürüdə biləcəyik. Həmçinin biz xarici borcumuzun azalması üzərində çox işləmişik. Bu gün bu borc ümumi daxili məhsulun 19 faizi səviyyəsindədir. Bu da yaxşı göstəricidir. Lakin daha yaxşı göstərici xarici borcumuz və ehtiyatlarımız arasında olan nisbətdir. Bu nöqteyi-nəzərdən bizim sərbəst konvertasiya olunan valyuta ehtiyatlarımız xarici borcumuzdan 4-5 dəfə çoxdur. Başqa sözlə, biz xarici borcumuzu bir neçə aya ödəyə bilərik və iqtisadi nöqteyi-nəzərdən heç bir ölkədən asılı deyilik.

**S u a l: Mən görürəm ki, Siz öz nailiyyətlərinizlə çox fərəhlənirsiniz. Lakin dünyamız çox fərqli dünyadır. Çünki qeyd etdiyiniz strateji**

**düşüncələrə əsasən, gündəlik olaraq müəyyən seçimlər etməlisiniz. Siz qloballaşmanı necə görürsünüz? Bu, artıq bir zarafat deyil və bir çox məqamların təzahürüdür. Cənab Prezident, bu böyük dəyişiklik xəritəsində Siz öz ölkənizi necə görürsünüz? Sizin və ölkəniz üçün düzgün olan yeri necə tutmaq olar?**

**C a v a b:** Düşünürəm ki, Azərbaycan təcrübəsi, bizim əldə etdiyimiz nəticələr siyasətimizin doğru olduğunu nümayiş etdirir. Biz o qədər də sabit olmayan bir regionda yaşayırıq. Sərhədlərimizə yaxın zonada gərgin vəziyyət müşahidə olunur. Biz yeni münaqişə mənbələrini, yeni risk mənbələrini görürük. Buna görə də bizim əsas məqsədimiz Azərbaycanı potensial risklərdən qorumaqdır. Bunun üçün bayaq da qeyd etdiyim kimi, biz daxildə güclü olmalıyıq, bizim qonşularımızla yaxşı münasibətlərimiz olmalıdır və bizim belə münasibətlərimiz vardır. Həmçinin dünyanın aparıcı mərkəzləri ilə də yaxşı münasibətlərimiz olmalıdır.

**S u a l: Siz nəyi nəzərdə tutursunuz?**

**C a v a b:** Mən aparıcı ölkələri, aparıcı iqtisadiyyatları, dünya gündəmini müəyyən edən ölkələri, beynəlxalq sülh və təhlükəsizliyin asılı olduğu siyasət yürüdən ölkələri nəzərdə tuturam. Düşünürəm ki, biz milli maraqlarımızın, milli kimliyimizin, müstəqilliyimizin çox güclü müdafiəsi və eyni zamanda, qeyd etdiyim ölkələrlə yaxşı iş münasibətləri arasında balansı tapa bilmişik. Qonşularımızla münasibətlər prioritetdir, çünki biz bir regionda yaşayırıq. Lakin

bizə daha böyük gündəlik lazımdır. Çünki Azərbaycan coğrafi nöqteyi-nəzərdən böyük ölkə deyil. Lakin regionda edə bildiklərimiz, hansı töhfələri verə biləcəyimiz nöqteyi-nəzərindən biz coğrafiyamızdan daha böyüyük.

**S u a l: Bu balansı tapmaq üçün Sizdən nə tələb olunur? Biz artıq bunun müsbət və mənfi tərəflərini on illərdir ki, görmüşük. Lakin Sizə və ölkənizə ən yaxşı balansı tapmaq üçün nə lazımdır? Yeri gəlmişkən, bunu tapmaq o qədər də asan deyil. Siz bu balansa necə nail olursunuz?**

**C a v a b:** Daxili və iqtisadi siyasət baxımından düşünürəm ki, bizim nailiyyətlərimizdən biri neft və qazdan əldə etdiyimiz gəlirlərin düzgün idarə edilməsinə nail olmağımızdır. Neft bizim iqtisadiyyatımıza, bizim xalqımıza, bizim infrastruktura, sosial problemlərin həllinə böyük dəstək olub. Bu kimi işlərin aparılması çox düzgün idi. Biznes dairələri, investorlarla qarşılıqlı fəaliyyət nöqteyi-nəzərindən biz çox yaxşı investisiya mühiti yaratdıq. Biz, demək olar ki, 250 milyard dollar həcmində investisiya cəlb etdik.

**S u a l: Bəs geosiyasi baxımdan necə? Bu çox vacibdir, Sizin iqtisadiyyatınız çox yaxşı fəaliyyət göstərir, yaxşı gəlirləriniz var, onları düzgün yerlərə yatırırsınız. Biz hamımız bunu başa düşürük. Lakin daha mürəkkəb məsələ varmı?**

**C a v a b:** Mən sizin verdiyiniz suala cavabımı ölkə daxilində gördüyümüz işlərdən başlamaq istəyirəm. Düşünürəm ki, ölkələrlə, qonşularımızla, tərəfdaşlarımızla qarşılıqlı əlaqə baxımından uğurlu, bəzən

tarazlaşdırılmış siyasətin səbəblərindən biri odur ki, biz həmişə işimizə sadiq olmuşuq. Bəzən bizim tərəfdaşlar, qonşularımız bizimlə razılaşmaya bilər. Bəzən bizim işlərimiz onların xoşuna gəlməyə bilər. Lakin onlar bilirlər ki, biz dediyimizi həmişə edirik. Onlar bilirlər ki, imzamızla sözümüz eynidir. Biz heç vaxt heç kimi məyus etməmişik. Buna görə də bu, artıq etimad məsələsidir və Azərbaycan böyük etimad qazanan ölkədir. Bayaq da qeyd etdiyim kimi, digər ölkələrlə qarşılıqlı fəaliyyətdə bizim siyasətimiz müsbət ssenariyə əsaslanır. Biz müsbət tərəfdaş, dost olmaq istəyirik. Biz imkanımız olduqda kömək etmək istəyirik. Bu kömək vasitəsilə biz çox güman ki, müəyyən çətinliklərdən fayda götürməkdən daha çoxuna nail oluruq. Buna görə düşünürəm ki, Azərbaycan artıq müstəqil xarici siyasəti olan ölkə kimi tanınır və daxili sabitlik, iqtisadi inkişaf bizə bu gücü verir. Biz hər hansı bir ölkəyə zərər vurmuruq. Biz sadəcə, daha yaxşı münasibətlər qurmaq, daha çox iş görmək, insanlarımıza daha yaxşı şərait qurmaq istəyirik, sülh və harmoniya içində yaşamaq istəyirik.

**S u a l: Cənab Prezident, dediyiniz kimi, ölkəniz coğrafi baxımdan çox əhəmiyyətli strateji mövqeyə malikdir. Sizin mühüm qonşularınız var: Rusiya, Çin və digər ölkələr. Avropa da Sizin üçün çox güclü potensialı olan qonşudur. ABŞ-ın son günlər və illər ərzində çox fərqli mövqeyinin şahidisiniz. Cənab Prezident, elə bir zamandır ki, hamı bu mühitdə öz yeri üzərində düşünür. Hansı böyük ideyaları dəstəkləmək lazımdır? Ölkə daxilinə nə**

**dərəcədə diqqət yetirmək zəruridir? Dünyaya nə dərəcədə açıq olmaq lazımdır? Maraqlarımız digərləri ilə nə dərəcədə üst-üstə düşür? Onlardan mənim payıma düşən nədir? Bütün bu suallar bir-biri ilə bağlıdır. Lakin lider kimi, ola bilsin, Siz bu haqda hər gün düşünürsünüz. Bu gün siyasi rəhbərin ən vacib keyfiyyətlərini nədə görürsünüz? Gələn nəsil liderlər üçün məsləhətiniz nə olardı?**

**C a v a b:** Əlbəttə ki, dünya dəyişir, regionumuz dəyişir, bir çox hadisələr baş verir. Siz onları 5 il əvvəl heç təsəvvür edə bilməzdiniz. Hesab edirəm ki, hər bir lider hadisələri izləməlidir və baş verənlərə hər zaman diqqətli olmalıdır. Biz 1-2 ildən sonra dünyada nələr baş verəcəyini bilmirik. Lakin bugünkü geosiyasi mühitə gəldikdə, fikrimcə, biz həmin mühitdə öz yerimizdə qərarlaşmışıq və bu mövqe bizi qane edir. Beynəlxalq siyasət nöqteyi-nəzərindən, əsas məqsədimiz elə bir xarici siyasətdən ibarətdir ki, onun ölkənin daxili vəziyyətinə müsbət təsiri olsun, bütün növ riskləri azaltsın. Zənnimcə, biz buna nail olmuşuq, çünki Azərbaycanda insanlar dinc şəraitdə yaşayır və ölkə sabitdir. Biz gələcəkdə nəyin olacağını bilmirik.

**S u a l: Qeyri-müəyyənlik Sizi çəkindirirmi? Yaxud, bu Sizi həvəsləndirirmi? Belə hallar həm çağırış, həm də imkanlar deməkdir?**

**C a v a b:** Xarici siyasətin və mühitin bizə təsir göstərməsi baxımından düşünürəm ki, bu gün malik olduğumuz yetərlidir. Siz hər zaman daha yaxşı hal

üzərində fikirləşə bilərsiniz. Hər zaman hesab edə bilərsiniz ki, beynəlxalq vəziyyət sizin üçün daha üstün ola bilər, lakin buna nail olmaq üçün siz, həmçinin ürəkdən çalışmalısınız. Əgər siz oturub gözləsəniz, bu heç zaman baş verməyəcək. Hazırda fikirləşirəm ki, ətrafımızda formalaşan beynəlxalq vəziyyət pisləşməsin. Bu məni narahat edir. Əgər o yaxşılaşarsa və biz onu daha da yaxşılaşdırsaq, töhfə versək, lap yaxşı. Lakin əgər bu, baş verməsə, onda bu gün olduğumuz vəziyyətdə qalsaq yaxşıdır, çünki Azərbaycan üçün bu günün beynəlxalq mühiti, fikrimcə, ən münasib və ən yaxşısıdır. O bizə daxili məsələlərə, hələ də mövcud olan daxili problemlərə, onların dinc şəkildə həllinə diqqəti yönəltməyə imkan verir. Sizin müxtəlif ölkələrlə çətinlikləriniz, anlaşılmazlıq, toqquşmalar, qarşıdurmalar olanda, bu sizin diqqətinizi başqa istiqamətə çəkir və sizə daxili məsələlərinizlə daha çox məşğul olmağa imkan vermir. Mənim üçün, bir Prezident kimi, ən vacibi xalqın gündəlik həyatı, iqtisadiyyatımız, sənayemiz, sosial problemlərimizin həllidir. Xarici siyasətimiz onun qoruyucusudur, ona zəmanət yaradır. Bu günə qədər siyasətimiz uğurlu olub. Lakin gələcəkdə nə baş verəcəyini gələcəyin özü göstərəcək.

**M ü x b i r:** Cənab Prezident, Çin Prezidenti Si Cin-pin ötən ilin sonunda ad gününüz münasibətilə Sizə təbrik məktubu göndərdi. Əminəm ki, Siz o məktubu məmnunluq hissi ilə aldınız.

**İ l h a m Ə l i y e v:** Bəli, əlbəttə.

**S u a l: Bu, təbii ki, Sizin və tərəfdaşlarınızın müxtəlif sahələrdə göstərdiyi səylərin təzahürüdür. Məsələn, «Bir kəmər – bir yol» təşəbbüsü. Bu təşəbbüsün də müxtəlif təfsiri və qavranılması vardır. Çinin təşəbbüsü kimi qarşılanan həmin layihə əslində regional təşəbbüs olub. O daha çox tərəfdaşlar tərəfindən irəli sürülmüş platformadır. Siz Azərbaycan Prezidenti kimi, necə düşünürsünüz, bu platforma Sizə nə verə bilər? Onun sayəsində Siz nəyə nail ola bilərsiniz?**

**C a v a b:** Prezident Si Cinpin, nəzakətlilik göstərib mənə ad günüm münasibətilə təbrik məktubu göndərdi. Mən də hər zaman onu doğum günü münasibətilə təbrik edirəm.

Çinə bir neçə il öncə çox uğurlu rəsmi səfərimi, Prezidentlə söhbətimi xatırlayıram. Yeri gəlmişkən, biz bir neçə mühüm sənəd imzaladıq və onlar əməkdaşlığımız üçün yaxşı çərçivə yaradır. Əlbəttə, səfərim və digər görüşlər zamanı biz «Bir kəmər – bir yol» təşəbbüsünü müzakirə etdik. Azərbaycan onu tam dəstəkləyir və Azərbaycanın bu təşəbbüsün və layihənin çox fəal üzvünə çevrilməsi üçün biz əlimizdən gələni etmək istəyirik. Biz nəqliyyat şəbəkəsini Avropaya qədər uzatmışıq və Bakı–Tbilisi–Qars dəmir yolunu çəkməklə, xətləri birləşdirdik. Lakin Çindən Avropaya doğru başlayan daşımaların çox sayda istiqamətləri vardır. Buna görə biz bu prosesdə daha yaxından iştirak etmək arzusundayıq. Bu məqsədlə, əlbəttə, Mərkəzi Asiyada, Gürcüstanda, Türkiyədə və Avropadakı tərəfdaşlarımızla işləyirik.

Təbii ki, əsas məqsədimiz Çindən yükləri qəbul etməkdən və onların daşınmasını təmin etməkdən ibarətdir. Azərbaycan daxilində hər şey hazırdır. Hazırda Azərbaycan Xəzər dənizində ən böyük donanmaya malikdir. Bu əsasən, tankerlər və digər yük gəmiləridir. Onlar şərqdən qərbə və geriyə malları daşıyır. Əlbəttə, daha çox Çin şirkətlərinin Azərbaycanda işlədiyini, ölkəmizə sərmayə qoyduğunu, yeni imkanlar tapdıqlarını görmək istərdik. Beləliklə, «Bir kəmər – bir yol» bizim üçün həqiqətən, çox əhəmiyyətli layihədir. Biz onu qəti şəkildə dəstəkləyirik və onun çatışmayan hissəsinin yaradılmasına töhfə vermişik.

**S u a l: Çatışmayan hissə dedikdə nəyi nəzərdə tutursunuz?**

**C a v a b:** Mən Bakıdan başlayan və Türkiyəyə gedən dəmir yolunu nəzərdə tuturam, çünki əvvəllər bu əlaqə yox idi və Asiyadan gələn yüklər Azərbaycan üzərindən Gürcüstanın Qara dənizdəki limanına daşınırdı. Türkiyəyə dəmir yolunun çəkilməsi ilə yüklər artıq Aralıq dənizinin sahilinə çatdırılır və dəmir yolu ilə birbaşa Avropaya daşınır. Buna görə o, xərclərə qənaət, vaxt baxımından sürətli daşınma və bizim üçün daha çox gəlirin əldə olunması deməkdir.

**M ü x b i r:** Siz daha çox diqqət yetirirsiniz...

**İ l h a m Ə l i y e v:** Nəyə?

**M ü x b i r:** İndicə qeyd etdiyiniz infrastruktur imkanlarına diqqət yetirirsiniz.

**C a v a b:** Bəli, birmənalı olaraq. Bakı–Tbilisi–Qars dəmir yolu xətti 2017-ci ilin sonunda açılıb. Bakının dəniz limanı ərazisində böyük mərasim təşkil

edilmişdi və biz birinci yükü yola saldıq. Yeri gəlmişkən, biz artıq Çindən yükləri qəbul etməyə başlamışıq.

**S u a l: Cənab Prezident, adətən, yeni ideya irəli sürüləndə və xüsusən də bu addımı yeni formalaşan və inkişaf edən ölkə atanda, ona o qədər də inamla yanaşmırlar. Bununla bağlı araşdırmalar və debatlar gedir. Lakin onun icrası üçün, həmçinin çox sayda həvəsləndirici yollar vardır. Bu, maraqlı balansdır, elə deyilmi? Yəni skeptik yanaşma yaradıcı fikirlərlə əvəz edilə bilər. İnkişaf edən ölkənin Prezidenti kimi, Siz buna necə yanaşırsınız?**

**C a v a b:** Əlbəttə, bu, skeptik yanaşmanı doğuran təşəbbüslərdən, layihələrdən asılıdır. Deyə bilərəm ki, Azərbaycanın başlatdığı və ya qoşulduğu bütün layihələr bizim tərəfdən tamamlanıb. Azərbaycandan Aralıq dənizinə boru kəmərinin çəkilməsi haqqında düşünməyə başlayanda bizim də ətrafımızda çox skeptik yanaşma müşahidə olunurdu. Bunun mümkünsüz olacağı, heç zaman baş verməyəcəyi ilə bağlı çoxsaylı spekulyasiya, təhlillər və məqalələr oldu. Lakin bu, baş verdi.

**S u a l: Siz həmin şərhlərə necə baxırsınız?**

**C a v a b:** Bilirsiniz, onlardan bəziləri sadəcə, informasiyanın çatışmaması, mümkünsüz görünən bu layihəni icra etməkdə qətiyyətimiz barədə məlumatın olmaması ilə bağlı idi. 2000-ci ilin əvvəlində həmin layihəni başladığımız zaman Azərbaycan bu gün olduğu qədər güclü deyildi. O vaxt biz xarici maliyyə dəstəyindən çox asılı idik. Skeptik ideyaların çox

böyük qismi qeyri-ədalətli yarışma cəhdləri ilə bağlı idi. Mən bunu belə diplomatik formada təsvir edirəm. Buna görə biz cavab tədbiri görmədik. Biz görəcəyimiz işlə, nəticələrlə cavab verməli idik. Bakı ilə Aralıq dənizindəki Ceyhan arasında uzunluğu təxminən 2000 kilometr olan boru kəməri çəkildikdən sonra hamı gördü ki, biz skeptik düşüncəni darmadağın etdik. Daha böyük layihə olan «Cənub Qaz Dəhlizi»ndə də bu, müşahidə olundu. Bu, 7 ölkəni əhatə edən, təxminən 10-a yaxın beynəlxalq bankın, çoxsaylı şirkətlərin iştirak etdiyi, dəyəri 40 milyard ABŞ dolları olan layihədir. Bu layihəni biz başlatmışıq. Resursların həcmi, kəmərin necə tikiləcəyi, texniki çətinliklər, maliyyə mürəkkəbliyi və digər məsələlərlə bağlı çox skeptik fikirlər var idi. Biz isə dedik: biz bunu başlamışıqsa, bunu edəcəyik. İndi, demək olar ki, həmin layihə tamamlanmaq üzrədir. Buna görə biz skeptik yanaşmaya sözlərlə deyil, atdığımız addımlarla, gördüyümüz işlə cavab verməliyik. Bundan fərəhlənə bilərik. Hazırda isə həmin layihəyə skeptik yanaşanların səsini artıq eşitmirik.

**M ü x b i r:** Cənab Prezident, bu baxımdan onlara işlərinizlə cavab verməkdə böyük müdrikliyinizi görürəm.

**İ l h a m  Ə l i y e v:** Sağ olun.

**S u a l: Cənab Prezident, Çin və ölkəniz ikitərəfli ticarət üzərində çalışıblar. Bu günə olan məlumata görə, Azərbaycanla ticarət aparan ölkələr arasında Çin hələ ki, 25-ci yerdədir. Biliırəm ki, Siz və Çin rəhbərliyi daha yaxşı iqtisadi**

**və ticari əlaqələr yaratmaqda çox israrlısınız. Cənab Prezident, bu sahəni necə inkişaf etdirmək olar və insanlar arasında onların gündəlik həyatına müsbət təsir göstərəcək təmasları necə artırmaq olar? Regionunuzun daha cəlbedici olması üçün nə etmək lazımdır? Bu həm Sizi, həm digər region rəhbərlərini maraqlandıran sualdır...**

**C a v a b:** Bəli, haqlısınız. Biz bunun üzərində işləyirik. İnsanlar arasında təmaslara gəldikdə, bu yaxınlarda biz Çin vətəndaşları üçün viza məhdudiyyətlərini aradan qaldırmışıq. Hazırda Azərbaycana səfər etmək istəyən hər kəs öz evindəki kompüter vasitəsilə maksimum 3 gün və hətta bəzən bir neçə saat ərzində elektron viza ala bilər. Bu, tərəfdaşlığımızın təzahürü olaraq, Çin vətəndaşlarının ölkəmizə səfərləri üçün daha yaxşı imkanların yaradılmasına görə edilibdir. Ticarətimizi inkişaf etdirmək məqsədilə biz bir neçə ixrac missiyalarını Çinin müxtəlif bölgələrinə göndərmişik. Artıq yaxşı nəticələrimiz vardır. Biz Çində Azərbaycan şərab evlərini açmışıq. Biri Şanxayda, digəri isə başqa şəhərdədir. Çində təşkil olunan böyük sərgilərdə dövri olaraq öz kənd təsərrüfatı məhsullarımızla iştirak edirik. Biz çinlilərə nailiyyətlərimizi göstərmək istəyirik və mallarımız üçün çox böyük, əhəmiyyətli, cəlbedici bazara çıxışı əldə etmək arzusundayıq. Eyni zamanda, qapılarımız Çinin iş adamları üçün açıqdır. Artıq söylədiyim kimi, biz onları daha çox sərmayədar, ticarət aparan tərəf, podratçı kimi görmək istərdik. İşləyəcəyimiz daha çox sahələr vardır. Əlbəttə, Azər-

baycanda, həmçinin onun enerji sektorunda işləyən Çin şirkətləri vardır. Lakin hesab edirəm ki, bu, istədiyimiz qədər deyil. Bu xüsusən də podratçı və ticari layihələrə aiddir. Fikrimcə, biz bunu birgə etməliyik və bizim üçün bu, əsas prioritetlərdən biridir. Biz bu yaxınlarda ticarət nümayəndəliklərini yaratmağa başlamışıq. Azərbaycanın ilk ticarət nümayəndəliklərindən biri Çində açıldı. Bütün bunlar ticarət sahəsində güclü tərəfdaşlığı qurmaqda, insanlar arasında təmasların yaradılmasında iradəmizi nümayiş etdirir. Bu isə avtomatik olaraq, həyatımızın bütün başqa sahələrinə müsbət təsir göstərəcəkdir.

**S u a l: Dünyada böyük dəyişikliklər baş verir. Siz bunu əvvəl də dediniz. Siz ölkə rəhbərinin qlobal səviyyədə ən mühüm keyfiyyətini nədə görürsünüz? Mən burada böyük praqmatik yanaşmanın şahidiyəm. Sizin gərgin fəaliyyətinizdən məlumatlıyam. Cənab Prezident, rəhbərin ən mühüm keyfiyyəti hansıdır?**

**C a v a b:** Fikrimcə, bir neçə çox əhəmiyyətli məsələ vardır. Xatırladığım birinci məsələ uzunmüddətli inkişaf strategiyasının planlaşdırılmasıdır. Səyləri yalnız siyasi gündəlikdə duran tədbirlərlə məhdudlaşdırmaq lazım deyil. Siz xalqınızın 20 və ya 30 ildən sonra ölkənizi hansı səpkidə görmək arzusuna bələd olmalısınız və həmin məqsədə çatmaq üçün bu gün nə edəcəyinizi bilməlisiniz. Başlanğıcda biz uzunmüddətli infrastruktur haqqında danışırdıq. Bundan çox vaxt keçir. Lakin bu gün o, artıq öz nəticələrini verir. Fikrimcə, bu işlər ilk növbədə vacibdir. İkinci ən

mühüm məsələ xalqa heç zaman yalan danışmamaqdır. Heç zaman həqiqət olmayan məsələni deməmək və icra edə bilməyəcəyiniz vədləri verməməkdir. Mənə gəldikdə, mən çalışıram və hesab edirəm ki, bu meyarlara cavab verməyi bacarıram. Eyni zamanda, səni tənqid edənlərə nail ola biləcəyin işlərlə cavab verməlisən. Əgər sənin haqqında danışan və yazan, səni tənqid edən və hücum çəkən hər kəsə cavab versən, sadəcə, vaxtını itirəcəksən, özünü o səviyyəyə salacaqsan. Lakin cavabını işlərinlə göstər. Biz fikrimcə, buna nail olmuşuq və skeptik düşüncədə olanların hamısına, bilərəkdən belə davrananlara, səylərimizi sual altına almağa, qarşımızda maneə yaratmağa çalışanlara belə cavab verdik. Biz Bakıya gələn hər kəsə bunu göstəririk və onlar bilir. Onlar paytaxtın gözəlliyinin şahidi olur, bölgələrə gedir və nəticələri görürlər. Hesab edirəm ki, bu iki məsələ həm ölkə, həm liderin özü üçün vacibdir. Əgər o, istəyirsə ki, xalq ona inansın, etimad etsin, dəstəkləsin, bu iki məsələ hər zaman liderin gündəliyində olmalıdır.

**M ü x b i r:** Sözlər deyil, işlər daha güclüdür. Cənab Prezident, Sizinlə görüşməkdən çox məmnun oldum. Sizə Davosda böyük uğurlar arzu edirəm.

**İ l h a m Ə l i y e v:** Sağ olun.

* * *

*Sonra Prezident İlham Əliyev CGTN televiziya kanalının Xatirə kitabına ürək sözlərini yazdı.*

## «VİSA» ŞİRKƏTİNİN PREZİDENTİ RAYAN MAKLNERNİ İLƏ GÖRÜŞ

*Davos*

*22 yanvar 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 22-də Davosda «Visa» şirkətinin prezidenti Rayan Maklnerni ilə görüşmüşdür.*

*Görüşdə Rayan Maklnerni bu il Davosa səfərinin əsas məqsədinin Prezident İlham Əliyev ilə görüşmək olduğunu vurğuladı. O, son illər Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda rəqəmsal ödənişlərin inkişafında mühüm irəliləyişlərin baş verdiyini və bu sahədə müxtəlif layihələrin reallaşdırılmasında «Visa» şirkətinin ölkənin müvafiq qurumları ilə sıx əməkdaşlıq etdiyini bildirdi.*

*Rayan Maklnerni nağdsız ödənişlərin inkişafı üçün Azərbaycanda tətbiq edilən vergi güzəştlərinin və digər təşəbbüslərin çox faydalı olacağını qeyd etdi, bunun başqa ölkələr üçün də nümunə olduğunu bildirdi. Hazırda Azərbaycanda elektron ödənişlərin aparılmasında «Visa» brendli kartlardan geniş istifadə edildiyini nəzərə çatdıran Rayan Maklnerni şirkətin ölkədə fəaliyyətinin genişləndirilməsində maraqlı olduğunu, bir çox sahələrdə, o cümlədən ictimai nəq-*

*liyyatda da nağdsız ödənişlərin geniş tətbiqinə dəstək göstərməyə hazır olduqlarını vurğuladı.*

*Prezident İlham Əliyev elektron ödənişlərin inkişafının ölkə üçün əhəmiyyətli məsələlərdən biri olduğunu və bu məqsədlə geniş islahatların aparıldığını, bu islahatların artıq nəticələr verdiyini, o cümlədən bunun beynəlxalq reytinqlərdə, məsələn, «Doing Business–2019» hesabatında əks olunduğunu, Azərbaycanın bu hesabatda 32 pillə irəliləyərək, 57-ci yerdən 25-ci yerə yüksəldiyini bildirdi. Dövlət başçısı əməkdaşlıq səylərinin daha da gücləndirilməsinin önəmini ifadə etdi.*

## *bp* QRUPUNUN BAŞ İCRAÇI DİREKTORU ROBERT DADLİ İLƏ GÖRÜŞ

*Davos*

*22 yanvar 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 22-də Davosda bp qrupunun baş icraçı direktoru Robert Dadli ilə görüşmüşdür.*

*Görüşdə Azərbaycan ilə bp şirkəti arasında əməkdaşlığın inkişafından məmnunluq ifadə olundu, «Azəri–Çıraq–Günəşli», «Şəfəq», «Asiman», «Abşeron» və digər yataqlar üzrə əməkdaşlıq məsələləri müzakirə edildi.*

## CİSCO ŞİRKƏTİNİN İCRAÇI VİTSE-PREZİDENTİ GERRİ ELLİOTT İLƏ GÖRÜŞ

*Davos*

*22 yanvar 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 22-də Davosda Cisco şirkətinin icraçı vitse-prezidenti və satış rəhbəri xanım Gerri Elliott ilə görüşmüşdür.*

*Görüşdə Gerri Elliott Azərbaycanın müxtəlif dövlət qurumları ilə əməkdaşlıqdan məmnunluğunu bildirdi. Qeyd etdi ki, Azərbaycan regionda şirkətin əməkdaşlıqda maraqlı olduğu ən mühüm dövlətlərdən biridir. Gerri Elliott Cisco şirkətinin layihələrinə göstərdiyi dəstəyə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirdi. O hər bir dövlətin inkişafı üçün lazım olan 3 əsas istiqaməti Azərbaycanda müşahidə etdiklərini vurğuladı. Bu baxımdan Azərbaycanda islahatları aparan bacarıqlı liderin olmasının, konkret inkişaf planlarının mövcudluğunun, bu planların reallaşdırılmasını və dövlətin inkişafını təmin edəcək hədəflərə çatmaq üçün məsul qurumların müəyyənləşdirilməsinin ölkənin tərəqqisində əsas amillər olduğunu qeyd etdi.*

*Xanım Gerri Elliott Azərbaycan hökuməti, xüsusilə Ədliyyə Nazirliyi ilə məhkəmələrin, cəzaçəkmə müəssisələrinin inteqrasiyası, bu sahədə elektron xidmətlərin səviyyəsinin daha da artırılması istiqamətlərində sıx əməkdaşlıq etdiklərini vurğuladı. O, Cisco şirkətinin Azərbaycanın iqtisadi inkişafın müxtəlif istiqamətləri üzrə həyata keçirdiyi siyasətə dəstək verməyə hazır olduğunu ifadə etdi və Azərbaycan hökuməti ilə sıx əməkdaşlığa görə minnətdarlığını bildirdi.*

*Prezident İlham Əliyev Cisco şirkəti ilə əməkdaşlıqdan məmnunluğunu vurğuladı. Dövlət başçısı şirkətin Azərbaycanın aidiyyəti qurumları ilə məhsuldar əməkdaşlığından razılığını bildirdi. Prezident İlham Əliyev bu əməkdaşlığın Azərbaycanın müəyyənləşdirdiyi proqram və planların həyata keçirilməsində, şəffaflığın artırılmasında və digər elektron xidmətlərin inkişafında əhəmiyyətini qeyd etdi.*

## SAP SE ŞİRKƏTİNİN BAŞ İCRAÇI DİREKTORU BİLL MAKDERMOT İLƏ GÖRÜŞ

*Davos*

*22 yanvar 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 22-də Davosda SAP SE şirkətinin baş icraçı direktoru Bill MakDermot ilə görüşmüşdür.*

*Görüşdə Bill MakDermot müəllifi olduğu kitabı dövlət başçısına təqdim etdi.*

*Söhbət zamanı Bill MakDermot Azərbaycan ilə əməkdaşlıqdan məmnunluğunu vurğuladı və son illər Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən islahatların və ölkəmizin inkişaf proqramlarının onlarda böyük maraq oyatdığını bildirdi. Şirkətin artıq Bakıda ofis açdığını deyən Bill MakDermot Prezident İlham Əliyevin həyata keçirdiyi iqtisadi siyasətin reallaşdırılmasında və rəqəmsal iqtisadiyyatın formalaşmasında SAP SE şirkətinin dəstək verməyə hazır olduğunu ifadə etdi. O, qeyd etdi ki, şirkət həm dövlət sektorunda, həm də özəl sektorda rəqəmsal iqtisadiyyatın, ümumiyyətlə, rəqəmsallaşmanın inkişafına töhfə verə bilər. Azərbaycanın dövlət başçısının*

*həyata keçirdiyi iqtisadi siyasət onlarda bu inamı yaradır.*

*Bill MakDermot vurğuladı ki, Azərbaycan iqtisadiyyatındakı mövcud sabitlik və ölkənin maliyyə dayanıqlılığının güclənməsi rəqəmsal iqtisadiyyatın inkişafı üçün geniş zəmin yaradır. Eyni zamanda, rəqəmsal iqtisadiyyat böyük sürətlə iş yerlərinin artmasına imkan verir. Şirkətin baş icraçı direktoru xüsusi vurğuladı ki, rəqəmsal iqtisadiyyatın inkişafı gender bərabərliyinin təmin olunmasına da töhfə verə bilər.*

*Prezident İlham Əliyev SAP SE şirkəti ilə əməkdaşlıqdan məmnunluğunu bildirdi. Dövlət başçısı qeyd etdi ki, şirkətin Azərbaycanın müvafiq qurumları ilə əməkdaşlığı ölkəmizdə iqtisadiyyatın inkişafına, şəffaflığın artmasına, yeni iş yerlərinin yaradılmasına töhfə verib. Prezident İlham Əliyev bu istiqamətdə əməkdaşlığın davam etdirilməsinin önəmini vurğuladı.*

# DÜNYA BANKININ BAŞ İCRAÇI DİREKTORU KRİSTALİNA GEORGİYEVA İLƏ GÖRÜŞ

*Davos*

*22 yanvar 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 22-də Davosda Dünya Bankının baş icraçı direktoru xanım Kristalina Georgiyeva ilə görüşmüşdür.*

*Görüşdə xanım Kristalina Georgiyeva Prezident İlham Əliyevi ölkədə aparılan uğurlu islahatlar və Azərbaycanın Dünya Bankının «Doing Business–2019» hesabatında 25-ci yerə yüksəlməsi münasibətilə təbrik etdi. Bildirdi ki, bu, Dünya Bankının «Doing Business» reytinqinin tarixində ən uğurlu və böyük nailiyyətlərindən biridir. O, uğurlu islahatların bundan sonra da davam etdirilməsinin önəmini vurğuladı.*

*Azərbaycan ilə əməkdaşlıqdan məmnunluğunu bildirən xanım Kristalina Georgiyeva qeyd etdi ki, Prezident İlham Əliyevin həyata keçirdiyi struktur islahatlarının və iqtisadi islahatların əhəmiyyəti son illər dünyada iqtisadi artım sürətinin azalması fonunda daha da artmaqdadır. Bildirdi ki, Dünya Bankı Azərbaycanda reallaşdırılan iqtisadi siyasəti və islahatları*

*dəstəkləyir. Bu islahatlar Azərbaycanda iqtisadiyyatın davamlı inkişafına, yeni iş yerlərinin yaranmasına mühüm dəstək verəcəkdir.*

*Dünya Bankının baş icraçı direktoru Azərbaycanın Beynəlxalq Yenidənqurma və İnkişaf Bankında, həm də Beynəlxalq Maliyyə Korporasiyasında səhmdarı olduğu institutlarda öz səhmlərinin artırılması məsələsinin nəzərdən keçirilməsini təklif etdi və bildirdi ki, bu, Azərbaycanın gələcək iqtisadi inkişafına Dünya Bankı tərəfindən əlavə dəstək göstərilməsinə kömək edə bilər.*

*Xanım Kristalina Georgiyeva Beynəlxalq İnkişaf Assosiasiyası tərəfindən yoxsul ölkələrə dəstək proqramına Azərbaycanın donor ölkə kimi qoşulmasını təklif etdi. O, Azərbaycanın iqtisadi transformasiyasının dünyada Çin, Hindistan kimi ölkələrlə yanaşı, ən uğurlu təcrübələrdən biri olduğunu bildirdi. Qeyd etdi ki, Azərbaycan vaxtilə Dünya Bankından yardım alan ölkədən qısa müddətdə donor ölkəyə çevrilib. Bu da son 20 ildə Azərbaycanda bütün sahələrdə həyata keçirilən islahatların nəticəsində mümkün olubdur.*

*Prezident İlham Əliyev Dünya Bankı ilə əməkdaşlıqdan razılığını ifadə etdi və bankın daim Azərbaycana lazımi dəstək göstərdiyini vurğuladı. Dövlət başçısı Dünya Bankı ilə əməkdaşlığın bundan sonra da uğurla davam etdiriləcəyinə əminliyini bildirdi. Prezident İlham Əliyev Azərbaycanın əldə etdiyi uğurların «Doing Business–2019» hesabatında əks olunmasından məmnunluğunu vurğuladı. Dövlət başçısı bu göstəricilərin daha da yaxşılaşdırılması ilə bağlı*

*xüsusi komissiyanın yaradıldığını bildirdi və qeyd etdi ki, «Doing Business–2019» hesabatında Azərbaycanın 32 pillə irəliləyərək, 25-ci yerdə qərarlaşması həyata keçirilən çox vacib islahatlar nəticəsində mümkün olub. Prezident İlham Əliyev bunu böyük uğur kimi dəyərləndirdi və Azərbaycanın iqtisadi sahədə əldə etdiyi uğurlara verilən yüksək qiymətə görə təşəkkürünü bildirdi. Söhbət zamanı Dünya Bankı tərəfindən Azərbaycanda yeni proqramların həyata keçirilməsi məsələsi müzakirə olundu.*

*Dövlət başçısı məhkəmə sahəsində Dünya Bankı ilə birgə həyata keçirilən islahatları yüksək dəyərləndirdi, məhkəmə sistemində innovativ yeniliklərin tətbiqində və bu sistemin avtomatlaşdırılmasında bankın iştirakını və Ədliyyə Nazirliyi tərəfindən bu layihənin reallaşdırılmasındakı uğurları məmnunluqla qeyd etdi. Prezident İlham Əliyev bu uğurlu əməkdaşlığın digər sahələrdə də həyata keçirilməsinin vacibliyini vurğulayaraq qeyd etdi ki, vergi, gömrük, icbari tibbi sığorta sahələrində də Dünya Bankı ilə əməkdaşlıq layihələri hazırlanıb. Bu layihələrin uğurla həyata keçirilməsi üçün imkanlar var və hər iki tərəf bu imkanlardan yararlanmalıdır.*

*Görüşdə qeyd olundu ki, Dünya Bankının bu sahədəki fəaliyyəti Azərbaycandakı özünüməşğulluq layihələrinin genişlənməsində, xüsusilə məcburi köçkünlərin özünüməşğulluğunun artırılmasına dair proqramlarda faydalı ola bilər. Buna görə də hər iki tərəfin aidiyyəti qurumları bu sahədə yeni proqramlar hazırlayıb uğurla həyata keçirə bilər.*

*Dövlət başçısı Azərbaycanın Dünya Bankı qrupuna daxil olan institutlarda səhmlərinin artırılması və Beynəlxalq İnkişaf Assosiasiyasının həyata keçirdiyi yoxsul ölkələrə yardım proqramlarında donor kimi çıxış etmək məsələləri barədə yekun qərarların qəbul olunması üçün müvafiq arayışların təqdim edilməsinə dair aidiyyəti qurumlara tapşırıqlar verdi.*

## GÜRCÜSTANIN BAŞ NAZİRİ MAMUKA BAXTADZE İLƏ GÖRÜŞ

*Davos*

*22 yanvar 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 22-də Davosda Gürcüstanın Baş Naziri Mamuka Baxtadze ilə görüşmüşdür.*

*Görüşdə Azərbaycan ilə Gürcüstan arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi bildirildi. Ölkələrimizin həyata keçirdiyi mühüm qlobal layihələrin əhəmiyyəti qeyd edildi, əməkdaşlığın bundan sonra da genişlənəcəyinə əminlik ifadə olundu.*

*Söhbət zamanı ikitərəfli münasibətlər və qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## «BİR KƏMƏR – BİR YOL» TƏŞƏBBÜSÜNÜN İNKİŞAF ETDİRİLMƏSİ: ÇİNİN TRİLYON DOLLARLIQ BAXIŞI» ADLI SESSİYADA İŞTİRAK

*Davos*

*22 yanvar 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva yanvarın 22-də Davosda Dünya İqtisadi Forumu çərçivəsində «Bir kəmər – bir yol» təşəbbüsünün inkişaf etdirilməsi: Çinin trilyon dollarlıq baxışı» mövzusunda keçirilmiş sessiyada iştirak etmişlər.*

*Prezident İlham Əliyev Dünya İqtisadi Forumunun təsisçisi və icraçı sədri Klaus Şvab ilə ayaqüstü söhbət etdi.*

**A p a r ı c ı:** Gəlin Sizdən başlayaq, cənab Prezident. «Bir kəmər – bir yol» təşəbbüsü Azərbaycan kimi qonşu ölkə üçün nə deməkdir? Mən bilirəm ki, Siz ölkənizin iqtisadi fəaliyyətini təkcə neft-qaz sahəsinə yox, infrastrukturun qurulmasına da yönəltmisiniz.

**İ l h a m Ə l i y e v:** Bəli, Siz tamamilə düz deyirsiniz. Müasir infrastrukturun yaradılması bizim hökumətin ən əsas məqsədlərindən biridir. Düşünürəm ki, biz coğrafi vəziyyətimizdən faydalanaraq, əsasən

infrastruktura, yəni daxili infrastruktura və Azərbaycanın beynəlxalq «hablar»dan birinə çevrilməsinə imkan verəcək infrastruktura sərmayə yatırmaqla doğru iş görmüşük. Biz yolların, magistralların, hava limanlarının tikintisi, qazlaşdırılmanın aparılması, elektrik enerjisinin generasiyası üçün ölkə daxilində infrastruktura sərmayə yatırırıq. Biz həmçinin nəqliyyat infrastrukturuna da sərmayə yatırmışıq. Bu da bizə yüklərin şərqdən qərbə, şimaldan cənuba və cənubdan şimala nəqlinə imkan verəcəkdir.

Azərbaycan Şərq–Qərb nəqliyyat dəhlizi təşəbbüsünün fəal üzvüdür.Biz, əlbəttə ki, Çin hökumətinin «Bir kəmər – bir yol» təşəbbüsünü dəstəkləyirik. Azərbaycan özündən şimalda və cənubda yerləşən ölkələrə bu layihəyə qoşulmaq üçün imkanlar yaradır. Biz artıq bunu müşahidə edirik. Azərbaycan Şərq–Qərb və Şimal–Cənub nəqliyyat dəhlizlərinin üzvü olan yeganə ölkədir. Bunun üçün dəmir yolu sistemlərimizin müasirləşdirilməsi, Xəzərin sahilində 25 milyon tona qədər yük daşımaq gücündə olan ən böyük dəniz limanının tikintisi, Avropa və Asiya arasında çatışmayan bağlantının yaradılması ilə bizi Türkiyə və Avropa ilə birləşdirən Bakı–Tbilisi–Qars dəmir yolunun inşası yollarımızdan istifadə etmək istəyənlərə yaxşı şərait yaradır. Biz yaxşı tarif siyasətini yaratmaq üçün vəsait sərf edirik. Yükdaşımaların həcmi də artır. Yalnız Şimal–Cənub dəhlizi vasitəsilə keçən il ondan əvvəlki illə müqayisədə 10 dəfə çox yük daşınıbdır.

**S u a l: Mən etiraf etməliyəm ki, cənab Prezidentdən müsahibə almışam və o, bütün rəqəmləri xatırlayır. Biz hazırda bu rəqəmlərin yalnız kiçik hissəsini təhlil edirik.**

**Cənab Prezident, gəlin borcdan danışaq. Çünki Siz bu məsələ ilə dəfələrlə üzləşmisiniz. Əgər düz xatırlayıramsa, 10 il ərzində Siz borc barədə bir çox yerlərdən olan bir sıra insanların suallarını cavablandırmalı olmusunuz. Bu barədə nə deyə bilərsiniz?**

**C a v a b:** İnfrastruktura gəlincə, biz onu əsasən dövlət büdcəsindən maliyyəşdirmişik. Hesab edirəm ki, infrastruktura investisiya qoymaq üçün neft və qaz satışından əldə etdiyimiz gəlirləri düzgün istiqamətə yönəltməyə müvəffəq olmuşuq və indi biz bununla fərəhlənə bilərik. Davos Dünya İqtisadi Forumun qiymətləndirməsinə əsasən, yolların keyfiyyətinə gəlincə, Azərbaycan dünyada 34-cü yerdə qərarlaşıb. Bunu biz neft və qaz satışlarından əldə etdiyimiz vəsaitlə etdik. Sonra, əlbəttə ki, bu, biznes mühitinin yaradılmasına gətirib çıxardı. Çünki sizin müasir infrastrukturunuz, qazlaşdırılmanız, elektrik enerjiniz, yaxşı yollarınız və magistrallarınız olduqda biznes üçün də investisiya yatırmaq daha asan olacaqdır. Biz bu istiqamət üzrə də işlər görmüşük. Dünya Bankının ən son «Doing Business» hesabatına əsasən, Azərbaycan dünya üzrə 25-ci pillədədir və mövqemizi rekord göstərici olan 32 pillə yaxşılaşdırmışıq. Biz Dünya Bankının bu proqramında 10 ən çox islahatçı ölkələr sırasındayıq.

**S u a l: Mən bilirəm ki, Siz gözəl nəticələri qeyd edə bilərsiniz. Lakin bu nəticələrə aparan proses heç də həmişə asan olmur. Buna görə mən Sizdən bu borc məsələsini soruşuram.Çünki Siz bir çoxları kimi, infrastrukturun qurulması nəticəsində borcun yığılmasına görə tənqid olunmusunuz. Buna görə də Sizin fikrinizcə, borca gətirib çıxaran investisiyaları necə görürsünüz və bu məsələ öz həllini necə tapa bilər?**

**C a v a b:** Bizim uzun illərdir ki, strategiyamız qazandığımızdan daha az xərcləməkdən ibarət olub. Yaxşı olardı ki, bu fərq daha da böyük olsun. Buna görə də biz üzərimizə borc yığmamışıq. Daxili borca gəlincə, o çox aşağıdır. Bizim xarici borcumuz ümumi daxili məhsulun yalnız 19 faizinə bərabərdir. Bizim bunu 10 faizə endirmək üçün strategiyamız vardır. Buna görə də Azərbaycanda həyata keçirdiyimiz bütün infrastruktur layihələri, yəni qeyd etdiyim kimi, ölkələri bir-birinə birləşdirən layihələr borcsuz həyata keçirilibdir. Biz 20 il bundan əvvəl – o qədər inkişaf etmədiyimiz və kasıb olduğumuz zaman borc götürmüşdük və borc götürmək məcburiyyətində idik. Bizə borc verən həmin maliyyə institutlarına minnətdarıq. İndi biz borc veririk. İndi Azərbaycanın başqa ölkələrə təkcə investisiya yatırmaq yox, həm də infrastruktura, real iqtisadiyyata sərmayə yatırmaq strategiyası vardır. Eyni zamanda, biz digər ölkələrdə həyata keçirilən infrastruktur layihələri üçün borc pul veririk. Bizim borcumuzun infrastruktura heç bir aidiyyəti yoxdur. Lakin biz infrastruktura investisiya yatıranda dərhal vəsaitimizin geri qaytarılmasını gözlə-

mirdik. Biz başa düşürük ki, geri qayıdacaq gəlir birbaşa olmayacaq. Siz yol tikdiyinizə görə pul qazanmayacaqsınız. Lakin siz mallarını bazara gətirmək üçün bu yoldan istifadə edənlər tərəfindən ödənilən vergilərdən qazanacaqsınız. Ya da bizim ərazidən tranzit kimi, şərqdən qərbə və əks istiqamətdə istifadə edənlər tərəfindən ödənilən vəsaitdən qazanacağıq. Bu da sərmayədən geri qayıdan bir gəlirdir. Lakin hesab edirəm ki, daxildə infrastruktura və regional əməkdaşlığa sərf etdiyimiz vəsait ola bilsin 10 ildən sonra geri qayıtsın.

**S u a l: Lakin heç də hər bir ölkə Azərbaycan kimi xoşbəxt deyil. Sizin çox zəngin neft və qaz ehtiyatlarınız vardır. Mən bunu bir gün içində təəccüb doğuran bir fakt kimi kəşf etdim. İnfrastrukturu quran və bu platformada iştirak edən digər ölkələr üçün bu bir narahatlıqdırmı? Bunu tarazlaşdırmağın yolu nədən ibarətdir?**

**C a v a b:** Hesab edirəm ki, bu, əlbəttə, narahatlıqdır. Bizim sərmayə yatırmaq üçün pulumuz olmasaydı, xarici investorlardan pul almaq məcburiyyətində olardıq. Mən sizə il yarım bundan əvvəl tamamladığımız dəmir yolu layihəsi timsalında bir misal çəkə bilərəm. Söhbət şərqlə qərbi birləşdirən Azərbaycan və Türkiyə arasında dəmir yolu bağlantısından gedir. Biz bir neçə il xarici mənbələrdən maliyyələşməni axtarırdıq.

**S u a l: Bu nə zaman idi?**

**C a v a b:** Bu, 2000-ci illərin əvvəlləri, 2004–2005-ci illər idi. Lakin bizim müraciətlərimizə rədd cavabı

verilmişdi. Çünki sizin qeyd etdiyiniz kimi, investisiyalar heç ortamüddətli perspektivdə belə, geri qayıtmayacaqdı. Əlbəttə, maliyyə ehtiyatları olmayan ölkələr üçün çox çətin olur. Belə ölkələrin daha çox təxirəsalınmaz problemləri var. Məsələn, işsizlik, gəlir əldə etmək üçün iqtisadiyyatın real sektoruna investisiya yatırmaq və bu ölkələr üçün infrastruktur layihələri prioritet deyil. Buna görə düşünürəm ki, maliyyə institutları bu məsələyə daha çox diqqət ayırmalıdır. Xüsusilə aparıcı beynəlxalq maliyyə institutlarını nəzərdə tuturam. Onlar 10 il ərzində iş yerlərinin açılmasına imkan yaradacaq ölkələrə infrastruktur sahəsinə investisiya yatırmağa kömək etməlidirlər.

*Sonra dövlət başçısı auditoriyanın suallarını cavablandırdı.*

**Lurdis Kardsanella** (*Kornell Universitetindən*): **«Bir kəmər – bir yol» təşəbbüsünün üzvü olan ölkələrin investisiyaları son 5 ildə 50 faiz artıb. Çin şirkətlərinin ABŞ və Avropada üzləşdiyi məhdudiyyətləri nəzərə alsaq, gələcəkdə bu kimi artım müşahidə olunacaqmı?**

*Çinin və dünyanın ən böyük enerji şirkətinin nümayəndəsi:* **Sualım zati-aliləri Prezident Əliyevədir. Mən bilirəm ki, Siz nəqliyyat sahəsində infrastruktura diqqət yetirirsiniz. Lakin elektrik enerjisinin təchizatı da daxil olmaqla, enerji infrastrukturu barədə nə deyə bilərsiniz? Bizim şirkətlər üçün bu sahədə potensial imkanlar varmı? Çox sağ olun.**

**Fred Biqli** (*İsveçrə parlamentinin nümayəndəsi*): **«Bir kəmər – bir yol» təşəbbüsü nə dərəcədə**

**infrastruktur layihəsi və nə dərəcədə xarici siyasi münasibətlərin birləşməsi layihəsidir?**

**L i n a** (*Tailandda fəaliyyət göstərən «Omata Group» şirkətinin əməkdaşı* ): **Mənim sualım belədir, biz Çin və ABŞ gərginliyi haqqında çox danışdıq. Bu gərginlik «Bir kəmər – bir yol» təşəbbüsünü ləngidəcək, yoxsa sürətləndirəcək? Sağ olun.**

**İ l h a m Əl i y e v:** Biz elektrik enerji generasiyasına çoxlu sərmayə yatırmışıq. İndi biz defisiti tamamilə azaltmışıq, elektrik enerjisinin xalis ixracatçısına çevrilmişik və 10 milyonlarla dollar qazanmışıq. Biz sərmayələrə açığıq, həmçinin şirkətləri podratçı olmağa dəvət edirik. Bu il biz yeni elektrik stansiyasını istismara verəcəyik və onun gücü 400 meqavat olacaq. Əlbəttə, indi səmərəlilik, itkilərin azaldılması üzərində işləyirik. Praktik nöqteyi-nəzərdən siz investor, podratçı qismində – istənilən qisimdə ölkəmizə gəlsəniz, mən çox şad olardım.

İsveçrə parlamenti nümayəndəsinin verdiyi suala da toxunmaq istəyirəm. Mən tamamilə əminəm ki, ölkələri birləşdirən istənilən nəqliyyat layihəsinin geosiyasi əsası vardır. Bu layihələr geosiyasi vəziyyətə, sabitliyə, proqnozlaşdırmaya müsbət təsir göstərir. Çünki bu layihələr qarşılıqlı asılılıq yaradır. Biz qonşularımız olmadan tranzit ölkə ola bilmərik. Bizim qonşularımız onların qonşuları olmadan tranzit ölkələr ola bilməzlər. Bu, ölkələr zənciridir və bayaq dediyim kimi, biz şərqdən qərbə və şimaldan cənuba gedən yol üzərindəyik. Beləliklə, biz qitələri, ölkələri birləşdiririk və daha proqnozlaşdırıla bilən gələcək yaradırıq.

* * *

*Sessiyanın digər iştirakçıları – Ümumçin Sənaye və Ticarət Federasiyasının sədr müavini Vanq Yonq-qinq, «China Poly Group» Korporasiyasının sədri Su Niansha və Sinqapurun Maliyyə naziri Henq Svi Keat mövzu ilə bağlı müzakirələrdə iştirak etdilər.*

## RUSİYANIN LUKOYL ŞİRKƏTİNİN PREZİDENTİ VAHİD ƏLƏKBƏROV İLƏ GÖRÜŞ

*Davos*

*22 yanvar 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 22-də Davosda Rusiyanın LUKoyl şirkətinin prezidenti Vahid Ələkbərov ilə görüşmüşdür.*

*Görüşdə LUKoyl şirkətinin Azərbaycanda həyata keçirdiyi layihələr və onların icrası ilə bağlı məsələlərdən, əməkdaşlığın perspektivlərindən danışıldı.*

## TOTAL S.A. ŞİRKƏTİNİN BAŞ İCRAÇI DİREKTORU PATRİK PUYANNE İLƏ GÖRÜŞ

*Davos*

*22 yanvar 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 22-də Davosda Fransanın Total S.A. şirkətinin baş icraçı direktoru Patrik Puyanne ilə görüşmüşdür.*

*Görüşdə Total S.A. şirkətinin Azərbaycanda reallaşdırdığı layihələr, o cümlədən «Abşeron» layihəsinin uğurla həyata keçirilməsi, əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.*

## «MİKROSOFT» ŞİRKƏTİNİN VİTSE-PREZİDENTİ MİŞEL VAN DER BEL İLƏ GÖRÜŞ

*Davos*

*22 yanvar 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 22-də Davosda «Mikrosoft» şirkətinin vitse-prezidenti, Avropa, Yaxın Şərq və Afrika üzrə prezidenti Mişel Van der Bel ilə görüşmüşdür.*

*Mişel Van der Bel dünyanın aparıcı texnoloji şirkəti olan «Mikrosoft»un Azərbaycanda həyata keçirilən layihələrə dəstəyinin bundan sonra da davam etdirəcəyini vurğuladı. Bildirdi ki, dünya iqtisadiyyatının və sosial həyatın inkişafı nəticəsində müasir dövrdə «süni intellekt» məsələləri ön plana keçməkdədir. Yaxın onilliklərdə «süni intellekt» artıq bir çox peşələri əvəz edəcək. Mişel Van der Bel hökumətlərin və dövlətlərin «süni intellekt» erasına hazır olmalarının vacibliyini vurğuladı. Diqqətə çatdırdı ki, bu prosesdə hökumət nümayəndələri, elmi dairələr və biznes qurumları bir araya gəlməli, «süni intellekt» dövrünə transformasiya üçün lazım olan proqramlar və digər layihələr həyata keçirilməklə, «süni intellekt»ə əsaslanan peşələr üzrə çalışacaq insanlar və*

*müvafiq mühit hazırlanmalıdır. Bu da bütövlükdə informasiya texnologiyalarının inkişafı ilə mümkündür.*

*Prezident İlham Əliyev Azərbaycanda həyata keçirilən islahatlar, o cümlədən informasiya texnologiyalarının inkişafına və dövlət xidmətlərinin genişləndirilməsinə göstərilən dəstək haqqında məlumat verdi. Bildirdi ki, Azərbaycanda qəbul olunmuş dövlət proqramlarında, iqtisadi və sosial həyatın bütün sahələrində informasiya texnologiyalarının tətbiqi genişlənməkdədir. İnformasiya texnologiyalarının tətbiqi həm də yeni iş yerlərinin yaranması ilə müşayiət olunur. Bu da Azərbaycan üçün mühüm əhəmiyyət kəsb edir. «Süni intellekt» dövrünə hazırlıq üçün Azərbaycan hökuməti də müvafiq tədbirlər həyata keçirir.*

*Söhbət zamanı bildirildi ki, «Mikrosoft»un Azərbaycandakı təmsilçiləri ilə aidiyyəti hökumət və biznes dairələri birlikdə bu məsələləri müzakirə etməli, layihələr hazırlamalıdır. Hər iki tərəfdən belə layihələrin inkişafı üçün müvafiq dəstəyin göstəriləcəyi qeyd olundu.*

## «SİGNİFY» ŞİRKƏTİNİN BAŞ İCRAÇI DİREKTORU ERİK RONDOLAT İLƏ GÖRÜŞ

*Davos*

*22 yanvar 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 22-də Davosda «Signify» şirkətinin baş icraçı direktoru Erik Rondolat ilə görüşmüşdür.*

*Görüşdə Erik Rondolat təmsil etdiyi qurumun şəhər işıqlandırılması sahəsində dünyanın aparıcı şirkətlərindən biri olduğunu vurğuladı və hazırda Azərbaycanın aidiyyəti qurumları ilə birlikdə paytaxtın işıqlandırılmasına dair layihə üzərində iş aparıldığını qeyd etdi. O, layihənin pilot variantının yaxın bir neçə ay ərzində başa çatdırılacağı barədə dövlətimizin başçısına məlumat verdi.*

*Erik Rondolat bu layihə üzrə Azərbaycan tərəfi ilə birlikdə görülən işlərdən məmnunluğunu bildirdi. O, Bakı şəhərinin bütövlükdə işıqlandırma sisteminin idarə edilməsi layihəsinin «Signify» şirkəti tərəfindən hazırlanaraq, təqdim olunmasını təklif etdi.*

*Prezident İlham Əliyev «Signify» şirkətinin nümayəndələrinin Azərbaycandakı fəaliyyətini yüksək*

*qiymətləndirdi. Dövlət başçısı Bakı şəhərinin işıqlandırılma sisteminin idarə edilməsinin təkmilləşdirilmə barədə aidiyyəti dövlət qurumları ilə birlikdə müzakirələrin aparılmasının və müvafiq layihələrin hazırlanmasının önəmini vurğuladı.*

## ERMƏNİSTAN RESPUBLİKASININ BAŞ NAZİRİ NİKOL PAŞİNYAN İLƏ QEYRİ-RƏSMİ GÖRÜŞ

*Davos*

*22 yanvar 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yanvarın 22-də Davosda Ermənistan Respublikasının Baş Naziri Nikol Paşinyan ilə qeyri-rəsmi görüşü olmuşdur.*

*Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasına dair danışıqlar prosesinin cari vəziyyəti müzakirə edildi.*

## «PROCTER AND GAMBLE EUROPE» ŞİRKƏTİNİN PREZİDENTİ LOİK TASSEL İLƏ GÖRÜŞ

*Davos*

*23 yanvar 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 23-də Davosda «Procter and Gamble Europe» şirkətinin prezidenti Loik Tassel ilə görüşmüşdür.*

*Loik Tassel son illərdə Azərbaycanda həyata keçirilən iqtisadi islahatların müsbət nəticələr verdiyini vurğulayaraq qeyd etdi ki, ölkədə yaradılmış biznes mühiti və investorlar üçün şərait başqa şirkətlər kimi, «Procter and Gamble» şirkətini də Azərbaycanda öz fəaliyyətini genişləndirməyə həvəsləndirir.*

*«Procter and Gamble» şirkətinin Azərbaycandakı fəaliyyətinə toxunan Loik Tassel bildirdi ki, şirkət təkcə istehlak mallarının satışı ilə məşğul deyil, eyni zamanda, ölkədə reklam bazarının inkişafına əhəmiyyətli töhfə verir. Azərbaycanın televiziya məkanında ən böyük reklam sifarişçisi olan şirkət müxtəlif sosial layihələrə, idman yarışlarına sponsorluq və digər dəstək tədbirləri həyata keçirməklə, sosial məsuliyyət missiyasını da yerinə yetirir.*

*Loik Tassel bildirdi ki, «Procter and Gamble» şirkəti yaranmış biznes mühitindən istifadə edərək, regionda fəaliyyətini genişləndirmək istəyir. Bu məqsədlə Bakıda fəaliyyətini böyütməklə, Orta Asiya və digər region ölkələrinə öz məhsullarının satışını artırmaq marağındadır. Azərbaycandakı mövcud biznes mühiti bu şirkətin regional mərkəz kimi, Bakını seçməsinə səbəb olubdur.*

*Prezident İlham Əliyev Azərbaycanda yaradılmış biznes mühiti, gömrük, vergi və digər sahələrdə həyata keçirilən islahatlardan danışdı. Dövlət başçısı şirkətin Azərbaycandakı fəaliyyətinin genişləndirilməsi barədə qərarların düzgün olduğunu vurğuladı. Prezident İlham Əliyev Azərbaycan dövlətinin investorlara, sahibkarlara bundan sonra da dəstək verəcəyini bildirdi.*

## «THE BOSTON KONSULTİNG GROUP» ŞİRKƏTİNİN PREZİDENTİ RİÇ LESSER İLƏ GÖRÜŞ

*Davos*

*23 yanvar 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 23-də Davosda «The Boston Konsulting Group» şirkətinin prezidenti və baş direktoru Riç Lesser ilə görüşmüşdür.*

*Görüşdə Riç Lesser «The Boston* Konsulting Gro*up»un rəqəmsal iqtisadiyyatın inkişafı istiqamətində müxtəlif həll variantları işləyib hazırlayan qlobal şirkətlərdən biri olduğunu vurğulayaraq, Azərbaycan ilə əməkdaşlıqdan məmnunluğunu ifadə etdi. O, Azərbaycanda həyata keçirilən islahatları, yaradılmış biznes mühitini və sürətli inkişafı dəstəklədiklərini bildirdi. Riç Lesser həm dövlət qurumlarının, həm də özəl şirkətlərin fəaliyyətində, səhiyyə, icbari tibbi sığorta və digər sahələrdə daha yüksək idarəçiliyi təmin edəcək rəqəmsal həll variantlarına malik olduqlarını vurğuladı. Qeyd edildi ki, Azərbaycanda bu həll variantlarının tətbiqi həm yeni iş yerlərinin yaradılmasına səbəb olacaq, həm də Prezident İlham Əliyevin*

*həyata keçirdiyi idarəetmə sistemlərinin daha da təkmilləşdirilməsinə mühüm töhfə verəcəkdir.*

*Prezident İlham Əliyev «The Boston Konsulting Group» şirkətinin Azərbaycandakı fəaliyyətindən məmnunluğunu bildirdi. Dövlət başçısı Azərbaycanın müxtəlif dövlət və özəl şirkətlərlə əməkdaşlığın, biznes mühitinə dəstəyin bundan sonra da davam etdiriləcəyini bildirdi.*

## «LAZARD FRERES» ŞİRKƏTİNİN BAŞ İCRAÇI DİREKTORU METYU PİQAS İLƏ GÖRÜŞ

*Davos*

*23 yanvar 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 23-də Davosda «Lazard Freres» şirkətinin baş icraçı direktoru Metyu Piqas ilə görüşmüşdür.*

*Metyu Piqas şirkətin 2000-ci ildən Azərbaycanda müxtəlif layihələrin maliyyələşməsi və investisiya məsələlərinin həlli üzrə məsləhət xidmətləri göstərdiyini vurğuladı. O, 2017-ci ildə şirkətin Azərbaycan Beynəlxalq Bankının borclarının şaxələndirilməsində iştirak etdiyini və bankın maliyyə məsləhətçisi olduğunu bildirdi. Azərbaycan Beynəlxalq Bankının restrukturizasiyasının uğurla başa çatdığını və bunun beynəlxalq təşkilatlar tərəfindən də qəbul olunduğunu xüsusi vurğulayan Metyu Piqas respublikamızda yaradılmış biznes mühitinin, sahibkarlara göstərilən dəstəyin və ölkəmizin iqtisadi uğurlarının «Doing Business–2019» hesabatında əks olunmasının Azərbaycanda investisiya məsələlərinə dair konfransların və digər tədbirlərin keçirilməsi üçün əlverişli şərait*

*yaratdığını bildirdi. Qeyd olundu ki, qlobal şirkətlər və investorlar Azərbaycanda belə böyük tədbirlərin keçirilməsində çox maraqlıdır. Bu həm də Azərbaycan Prezidenti tərəfindən xarici investorlara göstərilən dəstəyin, sərmayələrin cəlb olunması, biznes mühitinin daha da yaxşılaşdırılması istiqamətlərində qəbul edilən qərarların və görülən tədbirlərin dəstəklənməsi baxımından çox əhəmiyyətlidir. Metyu Piqas maliyyə məsləhətçisi kimi, öz xidmətlərini təklif edərək, Azərbaycanda bu sahədə fəal əməkdaşlıq üçün böyük potensialın olduğunu diqqətə çatdırdı.*

*Prezident İlham Əliyev «Lazard Freres» şirkətinin fəaliyyətindən razılığını bildirdi. Dövlət başçısı şirkətlə əməkdaşlığın bundan sonra da davam etdiriləcəyini vurğuladı.*

## «VTB-BANK»IN PREZİDENTİ ANDREY KOSTİN İLƏ GÖRÜŞ

*Davos*

*23 yanvar 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 23-də Davosda «VTB-Bank»ın prezidenti, İdarə Heyətinin sədri Andrey Kostin ilə görüşmüşdür.*

*Görüşdə «VTB-Bank» ilə uğurlu əməkdaşlığın həyata keçirildiyi, bankın Azərbaycanda səmərəli fəaliyyət göstərdiyi qeyd olundu.*

*Söhbət zamanı Azərbaycanda bank sektorunun inkişafı, bu sahədə özəl sektorun fəaliyyəti üçün daha əlverişli mühitin yaradılması istiqamətində görülən tədbirlərin əhəmiyyəti vurğulandı, əməkdaşlığın perspektivləri barədə fikir mübadiləsi aparıldı.*

## «SUEZ GROUP» ŞİRKƏTİNİN BEYNƏLXALQ İNKİŞAF ÜZRƏ İCRAÇI VİTSE-PREZİDENTİ ERİK GEBALİ İLƏ GÖRÜŞ

*Davos*

*23 yanvar 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 23-də Davosda «Suez Group» şirkətinin beynəlxalq inkişaf üzrə icraçı vitse-prezidenti Erik Gebali ilə görüşmüşdür.*

*Görüşdə Erik Gebali «Suez Group»un Azərbaycanda su infrastrukturunun inkişaf etdirilməsi sahəsində fəaliyyətindən və ölkəmizlə əməkdaşlığın uğurlu olmasından danışdı. O, Azərbaycan ilə əməkdaşlığın daha da genişləndirilməsində maraqlı olduqlarını bildirdi.*

*Prezident İlham Əliyev «Suez Group» ilə əməkdaşlıq çərçivəsində görülən işlərin əhəmiyyətini vurğuladı, şirkətlə əməkdaşlığın ölkəmizdə su infrastrukturunun daha da təkmilləşdirilməsinə böyük töhfə verdiyini qeyd etdi.*

## «EQUİNOR» ŞİRKƏTİNİN BAŞ İCRAÇI DİREKTORU ELDAR SAETRE İLƏ GÖRÜŞ

*Davos*

*23 yanvar 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 23-də Davosda «Equinor» (keçmiş Statoyl) şirkətinin baş icraçı direktoru Eldar Saetre ilə görüşmüşdür.*

*Görüşdə «Azəri–Çıraq–Günəşli» neft yataqları bloku ilə bağlı SOCAR-la «Equinor» şirkəti arasında əməkdaşlıq məsələləri müzakirə olundu.*

*Dövlət başçısı «Equinor»un Azərbaycanda fəaliyyətini davam etdirməsindən məmnunluğunu bildirdi.*

*Söhbət zamanı «Qarabağ», «Əşrəfi», «Dan ulduzu» perspektiv layihələri və «Dədə Qorqud» qurğusunun təmiri ilə bağlı fikir mübadiləsi aparıldı.*

## İSVEÇRƏ KONFEDERASİYASININ PREZİDENTİ UELİ MAURER İLƏ GÖRÜŞ

*Davos*

*23 yanvar 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 23-də Davosda İsveçrə Konfederasiyasının Prezidenti Ueli Maurer ilə görüşmüşdür.*

*Görüşdə Azərbaycan ilə İsveçrə arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi vurğulandı.*

*Prezident Ueli Maurer bildirdi ki, İsveçrə iş adamları Azərbaycanda biznes mühiti üçün yaradılmış şəraitdən çox razıdırlar. Onlar Azərbaycanda iqtisadi inkişaf və biznes imkanlarının genişləndirilməsi üçün əlverişli şəraitin yaradıldığını bildirirlər. Azərbaycan ilə İsveçrə arasında hava əlaqəsinin açılması da əməkdaşlığın genişləndirilməsi baxımından böyük əhəmiyyət daşıyır.*

*Prezident İlham Əliyev Azərbaycanda infrastruktur sahəsində görülən işlərdən söz açdı, respublikamızın beynəlxalq daşımalarda çox mühüm tranzit ölkəyə çevrildiyini diqqətə çatdırdı. Dövlət başçısı dəmir yolu ilə yüklərin artıq Asiyadan Avropaya Azərbaycan*

*ərazisindən daşınmasına başlanıldığını qeyd etdi. Prezident İlham Əliyev İsveçrədə istehsal olunan qatarların Azərbaycanda dəmir yolunun yenilənməsinə və inkişafına töhfə verdiyini vurğuladı, bu sahədə əməkdaşlığın uğurla davam etdiyini bildirdi.*

*Görüşdə SOCAR-ın İsveçrəyə investisiya qoymasının əməkdaşlığın genişləndirilməsi baxımından əhəmiyyəti qeyd olundu.*

*Prezident İlham Əliyev bildirdi ki, biz Azərbaycanın iqtisadi inkişafına daha çox İsveçrə şirkətinin investor qismində cəlb olunmasında maraqlıyıq. Dövlət başçısı İsveçrə şirkətlərinin Azərbaycan ilə fəal əməkdaşlığı gələcəkdə də davam etdirəcəklərinə əminliyini bildirdi.*

*Söhbət zamanı qarşılıqlı ticarətin genişləndirilməsinin vacibliyi qeyd olundu. Azərbaycanda alternativ enerjinin istehsalında İsveçrə şirkətlərinin iştirakı məsələlərinə toxunuldu. Prezident İlham Əliyev Azərbaycanda bu sahədə də geniş işlərin aparıldığını və bu baxımdan İsveçrə təcrübəsinin ölkəmizdə öyrənilməsinin əhəmiyyətini qeyd etdi. Dövlət başçısı Azərbaycanda biznes mühiti üçün yaradılmış şəraitin ölkəmizdəki inkişaf proseslərinin beynəlxalq təşkilatlar tərəfindən qeyd olunduğunu və beynəlxalq reytinqlərdə əksini tapdığını vurğuladı.*

*Görüşdə Azərbaycanda «Holcim» şirkəti tərəfindən Sement zavodunun tikintisinin vaxtilə iqtisadi əməkdaşlığın əsasının qoyulmasında böyük rol oynadığı qeyd olundu. Dövlət başçısı Sement zavodunun Azərbaycanın iqtisadi inkişafında rolunu qeyd etdi.*

*Prezident Ueli Maurer bildirdi ki, Azərbaycan ilə iqtisadi əməkdaşlığın genişləndirilməsi üçün İsveçrə tərəfi də konkret addımların atılmasında maraqlıdır.*

* * *

*Daha sonra Prezident İlham Əliyev Dünya İqtisadi Forumu çərçivəsində Rusiya Federasiyasının İqtisadi İnkişaf naziri Maksim Oreşkin ilə görüşdü.*

## Səfər başa çatdı

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İsveçrə Konfederasiyasına işgüzar səfəri yanvarın 23-də başa çatdı.*

**AVSTRALİYA İTTİFAQININ GENERAL-QUBERNATORU ZATİ-ALİLƏRİ CƏNAB PİTER KOSQROVA**

Hörmətli cənab General-qubernator!

Avstraliya Günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

İnanıram ki, Azərbaycan ilə Avstraliya arasında dostluq əlaqələrinin daha da möhkəmlənməsi, qarşılıqlı maraq doğuran sahələrdə əməkdaşlığımızın dərinləşməsi daim xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Bu bayram günündə Sizə ən xoş arzularımı yetirməkdən məmnunluq duyur, dost Avstraliya xalqına sülh və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *23 yanvar 2019-cu il*

**HİNDİSTAN RESPUBLİKASININ
PREZİDENTİ ZATİ-ALİLƏRİ
CƏNAB RAM NAT KOVİNDƏ**

Hörmətli cənab Prezident!

Hindistan Respublikasının milli bayramı münasibətilə Sizə və xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

Azərbaycan–Hindistan əlaqələri tarixən təşəkkül tapmış xoş ənənələrə malikdir. İnanıram ki, ölkələrimiz və xalqlarımız arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı bu ənənələri daha da zənginləşdirəcəkdir.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Hindistan xalqına daim əmin-amanlıq və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *23 yanvar 2019-cu il*

## KƏND TƏSƏRRÜFATI NAZİRLİYİNİN ƏSASLI ŞƏKİLDƏ YENİDƏN QURULMUŞ TƏRƏVƏZÇİLİK ELMİ-TƏDQİQAT İNSTİTUTUNUN AÇILIŞI MƏRASİMİ

*24 yanvar 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 24-də Bakının Sabunçu rayonunun Pirşağı qəsəbəsində Kənd Təsərrüfatı Nazirliyinin əsaslı şəkildə yenidən qurulmuş Tərəvəzçilik Elmi-Tədqiqat İnstitutunun və «Kartof və tərəvəz toxumları istehsalı» Kompleksinin açılışında iştirak etmişdir.*

*Kənd Təsərrüfatı naziri İnam Kərimov görülən işlər barədə dövlət başçısına məlumat verdi.*

*Bildirildi ki, ərazidə inzibati-laboratoriya binası, yeməkxana, toxum saxlanılma anbarı, toxum emalı məntəqəsi, toxum təmizləmə sexi, istixanalar kompleksi, toxum satışı mərkəzi yaradılıbdır. Burada ümumilikdə 16 hektar sahədə tikinti, abadlıq və yaşıllaşdırma işləri görülübdür.*

*Prezident İlham Əliyev institut binasının rəmzi açılışını bildirən lenti kəsdi.*

*İnstitutun laboratoriyalarında ən müasir cihaz və avadanlıqlar quraşdırılıb. Bu avadanlıqlar torpaq, su, pestisid, virus, azot-protein, nişasta və bir sıra digər analizlərin həyata keçirilməsinə imkan verir. Burada,*

*həmçinin virussuz kartof toxumçuluğunun müasir səviyyədə təşkili üçün biotexnologiya laboratoriyası da qurulubdur.*

*Qeyd edək ki, bu institut Azərbaycan SSR Nazirlər Sovetinin 1965-ci il 6 may tarixli Qərarına əsasən, tərəvəz, bostan və kartof bitkilərinin seleksiyası, toxumçuluğu, aqrotexnikası, bitki mühafizə tədbirlərinin işlənib hazırlanması və həyata keçirilməsi məqsədilə yaradılıb. «Toxumçuluğun inkişaf etdirilməsi ilə bağlı tədbirlər haqqında» Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 4 iyul tarixli Sərəncamının icrası ilə əlaqədar olaraq, bu toxumçuluq kompleksi inşa olunubdur.*

*Prezident İlham Əliyevə «Elektron kənd təsərrüfatı layihəsi» barədə məlumat verildi.*

*Qeyd olundu ki, bu layihənin məqsədi kənd təsərrüfatı fəaliyyətlərinin elektronlaşdırılmasını, məlumatların elektron qaydada tərtib edilərək araşdırılmasını təşkil etməkdən ibarətdir. Sistem kənd təsərrüfatı fəaliyyətləri istiqamətində məlumatları toplamaq, təhlil etmək, bu sistemin istifadəçilərinin məlumatlandırılmasını təmin etmək üçün xüsusi modulları özündə cəmləşdirir. İnstitut və onun tabeli qurumları – Lənkəran, Qusarçay, Tovuz bölgə-zona təcrübə stansiyaları, Şəmkir dayaq məntəqəsi və Abşeron yardımçı təcrübə təsərrüfatı tərəfindən tərəvəz sortlarının ilkin toxumçuluğunun elmi əsaslarla işlənib hazırlanması, superelit və elit toxum istehsalına elmi-metodiki kömək göstərilməsi, müxtəlif çeşidli tərəvəz növlərinin emal texnologiyasının öyrənilməsi, elmi*

*nailiyyətlərin və qabaqcıl təcrübənin istehsalatda tətbiqinə metodiki rəhbərlik həyata keçirilir. İstixana və açıq sahə şəraitində tərəvəz, bostan və kartof bitkilərinin yeni sort və hibridlərinin yaradılması, onların toxumçuluğunun standartlara uyğun təşkili nəzərdə tutulur. Hazırda burada 158 nəfər çalışır ki, onlardan da 17-si elmi işçi, 2-si elmlər doktoru, 15-i isə fəlsəfə doktorudur. Kompleksə daxil olan toxum emalı məntəqələrində respublikada ilk dəfə tərəvəz toxumlarının müasir avadanlıqlarla emal olunması və paketlənməsi nəzərdə tutulubdur.*

*İnstitutun ərazisində 30 hektar açıq sahədə, 6,14 hektarda isə istixana şəraitində tərəvəz və kartof bitkilərinin toxumçuluq sisteminin təşkili məqsədilə kompleks inşa olunubdur.*

*Son illərdə Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə kənd təsərrüfatının, aqrar sahənin inkişafı istiqamətində mühüm işlər görülür. Kənd Təsərrüfatı Nazirliyinin Tərəvəzçilik Elmi-Tədqiqat İnstitutunun yenidən qurulması, «Kartof və tərəvəz toxumları istehsalı» kompleksinin yaradılması da bu istiqamətdə icra olunmuş layihələrdən biridir. Belə müasir kompleksin yaradılması ölkəmizdə yüksəkkeyfiyyətli məhsuldar bitki sortlarının toxumlarına olan ehtiyacı ödəmək, toxumluq məhsulların istehsalını artırmaq baxımından mühüm rola malikdir. Müxtəlif bitki sortlarının toxumlarının istehsalı və saxlanılması üzrə belə ixtisaslaşmış müəssisələrin yaradılması qeyri-neft sektorunun mühüm sahələrindən olan kənd təsərrüfatının inkişafında da böyük əhəmiyyət daşıyır.*

*Bundan başqa, belə tədbirlər həm də idxaldan asılılığı azaltmaqla, ölkəmizin ixrac potensialının artırılmasına, ərzaq təhlükəsizliyinin yüksək səviyyədə təmin olunmasına da töhfə verir.*

*Prezident İlham Əliyevə Aqrar İnkişaf Könüllüləri layihəsinin məqsədi barədə məlumat verildi.*

*Diqqətə çatdırıldı ki, bu layihənin həyata keçirilməsində məqsəd aqrar sektorun inkişafına ictimai dəstək göstərmək, aqrar sahədə könüllü cəmiyyəti formalaşdırmaqdır. Bununla da, məqsəd gələcəkdə bu sahədə fəaliyyət göstərəcək yüksəkixtisaslı kadrların yaranmasına təkan vermək, innovativ texnologiyaların təbliği ilə bu sahənin dayanıqlı inkişafına nail olmaqdır.*

*Sonra dövlət başçısı Aqrar İnkişaf Könüllülərinin bir qrupu ilə görüşdü.*

**Sarvan Cəbrayılzadə** (*könüllü*): Möhtərəm cənab Prezident!

Sizi aqrar inkişaf könüllüləri adından salamlayıram. Hərəkatımız aqrar sahədə inkişafa dəstək məqsədi daşıyır. Biz artıq 35 regionda təşkilatlana bilmişik. Biz 4 aydır ki, fəaliyyətə başlamışıq. Bu qısa müddətə baxmayaraq, sıralarımıza 600 gənci cəlb edə bilmişik. 3 il ərzində 10 mindən çox gənci öz sıralarımıza cəlb etməyi nəzərdə tutmuşuq. Bizim könüllülərimiz Dövlət Aqrar İnkişaf mərkəzlərində (DAİM) fəaliyyət göstərirlər. DAİM-lərdə biz fermerlərin yanında oluruq, onlara dəstək veririk, eyni zamanda, özümüz də aqrar sahədə təcrübə qazanırıq. Əminik ki, Sizin xeyir-duanızla, dəstəyinizlə biz daha

böyük nailiyyətlərə çata bilərik. Biz könüllülər olaraq, həm də fəal maarifləndirmə işi aparırıq. Könüllülərimiz regionlarda fermerlərə aparılan islahatların mahiyyəti barədə məlumat verirlər. Nəticədə fermerlərimiz bu islahatlarla tanış olurlar. Həmçinin könüllülərimiz aqrar sahədə müəyyən təcrübə qazanırlar.

**Rübabə Yusifova** (*könüllü*): Möhtərəm cənab Prezident, aqrar inkişaf könüllüləri aqrar təşəbbüsləri dəstəkləyirlər. Dövlətimizin biz gənclərə hədəflənən layihələri vardır. Könüllülərimizi bu layihələrdə iştirak etməyə çağırırıq. Bilirik ki, könüllülük fəaliyyəti bizim mütəxəssis kimi formalaşmağımıza kömək edəcək. Hədəflərimiz bəllidir. Regionlarda gənclər arasında məşğulluğu artırmaq istəyirik. Bilirik ki, könüllülük hərəkatına xüsusi dəstək verirsiniz. Göstərdiyiniz bu diqqət biz könüllüləri daha fəal çalışmağa sövq edir. Bu diqqətə görə könüllülər adından Sizə dərin təşəkkürümü bildirirəm.

**İlham Əliyev**: Çox sağ olun, mən sizi ürəkdən salamlayıram. Çox şadam ki, Azərbaycanda Aqrar İnkişaf Könüllüləri hərəkatı başlayır. Əminəm ki, bu hərəkatın çox böyük gələcəyi olacaq. Ümumiyyətlə, Azərbaycanda könüllülərin sayı artır və bu çox sevindirici haldır. Bildiyiniz kimi, Azərbaycanda könüllülər hərəkatı «ASAN xidmət» mərkəzlərində başlanılıb və çox geniş vüsət alıbdır. Bu günə qədər minlərlə könüllü «ASAN xidmət»də fəaliyyət göstərib və indi müxtəlif vəzifələrdə uğurla çalışır. Könüllülər bizə mötəbər beynəlxalq tədbirlərin keçirilməsində

yardımçı olublar, xüsusilə Avropa oyunlarında, İslam Həmrəyliyi oyunlarında. Bu oyunların hazırlanmasında və keçirilməsində könüllülərin çox böyük zəhməti, payı olub. Bildiyiniz kimi, mən onların hər birini Fəxri diplomlarla təltif etmişəm. Bu gün aqrar sahədə də könüllülər öz sözünü deməyə başlayır. Mən bu təşəbbüsü çox alqışlayıram. Çünki bölgələrdə yaşayan gənclər bu işlərə qoşularaq, aqrar sahədə böyük uğurlara nail ola bilərlər.

Aqrar sahə bizim üçün strateji sahədir. Bu həm iqtisadi, həm də sosial sahədir. Əhalimizin 47 faizi bölgələrdə yaşayır. Ona görə son illərdə kənd təsərrüfatının, regionların sosial-iqtisadi inkişafına göstərilən diqqət məhz bu məqsədi güdür ki, həm məşğulluq, həm məhsuldarlıq artsın və Azərbaycan həm öz daxili tələbatını, həm də ixrac edilən məhsulları ən yüksək səviyyəyə qaldırsın. Bu gün biz Kənd Təsərrüfatı Nazirliyinin Tərəvəzçilik Elmi-Tədqiqat İnstitutunun açılışında bu məsələləri önə çəkmişik və bu gözəl müəssisənin timsalında aqrar sahədə aparılan işləri görürük. Bu institut keçən əsrin 60-cı illərində yaradılıb və demək olar ki, son illərdə fəaliyyət göstərmirdi, bura dağınıq bir yer idi. 2016-cı ildə bu institutun müasir səviyyədə qurulması üçün müvafiq sərəncam imzalandı, işlər başlanıldı və 30 hektar ərazidə ən müasir mərkəz yaradıldı – istixanalar, institutun gözəl binası, laboratoriyalar. Bu institutun fəaliyyəti çox böyük əhəmiyyət daşıyır. Çünki ilk dəfə olaraq Azərbaycanda toxumçuluq istixanaları yaradılır. Hazırda bizdə istixanaların sayı çoxdur və

indi tərəvəzçiliyə böyük maraq vardır. Toxumçuluq istixanalarının yaradılması isə ancaq bu gündən başlayır və bu mərkəz ölkəmizin hər bir bölgəsinə dəstək olacaqdır.

Tərəvəzçilik bizim kənd təsərrüfatının ənənəvi sahəsidir, böyük gəlir gətirən sahədir. Yəqin siz bilirsiniz ki, kənd təsərrüfatı məhsulları arasında bizə ən çox gəlir gətirən pomidor ixracıdır. Fermerlər bu işlə böyük həvəslə məşğuldurlar və digər tərəvəzlərin yetişdirilməsi çox sürətlə gedir. Biz ildən-ilə istehsalı artırırıq. Bu institutun fəaliyyəti məhsuldarlığı xeyli artıracaq, eyni zamanda, xaricə gedən valyutanın qarşısını müəyyən qədər alacaqdır. Çünki bu gün bütün toxumlar xaricdən gətirilir və onların alınmasına böyük məbləğdə vəsait gedir. Bundan sonra toxumların əhəmiyyətli hissəsi ölkəmizdə yetişdiriləcək, beləliklə, valyuta gətirəcək, məşğulluq, məhsuldarlıq artacaq və biz özümüzü bundan sonra tam təmin etməklə, xarici bazarlara daha böyük ixrac imkanlarımızla çıxacağıq. Məqsədimiz bundan ibarətdir. Ölkə iqtisadiyyatının şaxələndirilməsi, qeyri-neft sektorunun, aqrar sahənin inkişafı gündəlikdə duran əsas məsələlərdən biridir. Bu sahədə də, sənaye sahəsində də müsbət meyillər vardır. Bu yaxınlarda Sumqayıtda Karbamid zavodu açılıbdır. Bu, qeyri-neft sektorunda həyata keçirilən ən böyük layihədir. Biz özümüzü azot gübrələri ilə tam təmin edəcəyik. Eyni zamanda, təqribən 150–160 milyon dollar dəyərində məhsul ixrac edəcəyik. Azərbaycanda Pivot Suvarma Sistemləri, Pestisidlər zavodları

fəaliyyət göstərir. Yəni sənaye istehsalı da kənd təsərrüfatını dəstəkləyir, ona lazımi şərait yaradır. Əlbəttə, sizin kimi gənclərin bu işlərdə fəal iştirakı hesab edirəm ki, uğurun əsas şərti, əsas amili olacaqdır.

Mən çox şadam ki, Azərbaycan gəncləri aqrar sahəyə çox böyük maraq göstərirlər. Bu, Azərbaycanda doğrudan da bir yenilikdir. Əvvəllər hesab olunurdu ki, aqrar sahə o qədər də cəlbedici, o qədər də maraqlı deyil, hətta hesab olunurdu ki, o qədər də gəlir gətirən sahə deyil. Ancaq baxır sən buna necə yanaşırsan. Əgər dövlət kənd təsərrüfatına dəstək verirsə, həm gəliri olacaq, həm marağı olacaq, həm də özünü innovasiyalarla təmin edəcək.

Azərbaycanda kənd təsərrüfatının inkişafına çox böyük dövlət dəstəyi var – subsidiyalar verilir, fermerlər torpaq vergisi istisna olmaqla, bütün vergilərdən azaddırlar. Texnika alınır, güzəştli şərtlərlə kreditlər verilir. Hazırda kənd təsərrüfatında böyük islahatlar aparılır, subsidiyaların verilməsi mexanizmi təkmilləşir, fermerlər üçün daha aydın, daha rahat mexanizm tətbiq olunur. İnstitutun binasında mənə «Elektron Kənd Təsərrüfatı layihəsi» təqdim edildi. Fermerlər üçün tam yeni şərait yaradılır və beləliklə, kənd təsərrüfatı çox cəlbedici sahə olacaqdır. Azərbaycan vətəndaşları görəndə ki, sizin kimi savadlı, bilikli gənclər bu sahəyə maraq göstərirlər, əminəm ki, maraq daha da böyük olacaqdır.

Mən çox şadam ki, bu gün sizinlə birlikdə bu gözəl institutun yenidən qurulmadan sonra açılışında iştirak

edirik. Onu da bildirməliyəm ki, hazırda Kənd Təsərrüfatı Nazirliyində və digər dövlət qurumlarında struktur islahatları aparılır. Bu islahatların bir məqsədi var ki, biz işimizi daha da yüksək səviyyədə quraq. Onu da bildirməliyəm ki, mövcud strukturlarda, ixtisar olunan strukturlarda çalışan vətəndaşlar işlə təmin olunacaqlar. Kənd təsərrüfatında heç bir ixtisar gözlənilmir və digər strukturlara da tapşırılıb ki, islahatlar ixtisarlara gətirib çıxarmasın. Yəni o müəssisələrdə, o xidmətlərdə, agentliklərdə çalışan vətəndaşlar bilsinlər ki, onların məşğulluğu daim diqqət mərkəzindədir.

Sizi bir daha salamlayıram, təbrik edirəm. Siz Azərbaycanın müxtəlif bölgələrində işləyəcəksiniz və ümumi işimizə öz töhfənizi verəcəksiniz. Sağ olun.

# «ROSSİYA-1» TELEVİZİYA KANALINA MÜSAHİBƏ

*28 yanvar 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Davosda «Rossiya-1» televiziya kanalına müsahibə vermişdir. Həmin müsahibə yanvarın 28-də «Rossiya-24» kanalında yayımlanmışdır.*

**«Rossiya-24» telekanalının aparıcısı**: Bəzi ölkələrin beynəlxalq təşkilatların qərarlarına, BMT Təhlükəsizlik Şurasının qətnamələrinə seçici yanaşması mövcud dünya quruluşuna mənfi təsir edir. Qaydaların pozulması ölkələr arasında gərginliyə gətirib çıxarır, qarşılıqlı fəaliyyətin səviyyəsi aşağı düşür və biznesi aparmaq çətinləşir. Bu fikirləri həmkarım Nailə Əsgərzadəyə müsahibəsində Davos İqtisadi Forumun kuluarlarında Azərbaycan Prezidenti İlham Əliyev bildirib. Həmin müsahibəni təqdim edirik.

**S u a l: İlham Heydər oğlu, suallarımıza cavab verməyə razılaşdığınız üçün çox sağ olun. Bu il neft bazarında hansı vəziyyəti gözləmək olar və qiymətlər necə ola bilər?**

**C a v a b:** Mən düşünürəm ki, hər şey «OPEC+» formatında birləşən ölkələr arasında razılıqların necə yerinə yetirildiyindən asılı olacaq. Azərbaycan öz tərəfindən zəruri tədbirləri görüb, neft hasilatının

azaldılması ilə bağlı öhdəliklər götürüb və biz bu öhdəlikləri icra edirik. Düşünürəm ki, əgər bütün ölkələr bu məsələyə məsuliyyətlə yanaşsalar, onda yəqin ki, qiymət bugünkü səviyyədə qalacaq. Bu, barrelə görə 60–70 dollar deməkdir. Hərçənd bütün il üçün proqnozlaşdırmaq çox çətindir. Amma düşünürəm ki, əksər təhlilçilərin qiymətləndirməsinə görə təxminən bu səviyyə real ola bilər və həmçinin o həm şirkətlər, həm ixracatçı ölkələr, həm də istehlakçılar üçün daha məqbuldur.

**S u a l: Ötən ilin sonunda məlum oldu ki, Amerikanın neft-qaz şirkətləri 25 il sonra Azərbaycanı tərk etmək qərarını qəbul ediblər. Bu qərar nə ilə əlaqədardır və onları kim əvəz edə bilər?**

**C a v a b:** Belə təcrübə əvvəllər də olub. Azərbaycan, sizin artıq qeyd etdiyiniz kimi, 25 il ərzində Xəzər dənizinin Azərbaycan sektorunda iri neft və qaz yataqlarının kəşfiyyatı və işlənilməsi üzrə beynəlxalq şirkətlərlə uğurla işləyir. Bu illər ərzində bəzi şirkətlər öz paylarını satıb, bəzi şirkətlər isə paylarını alıblar. Bu, təbii prosesdir və deməliyəm ki, Azərbaycanın neft-qaz layihələri çox gəlirlidir. Təkcə son 15 il ərzində bizim iqtisadiyyatımıza 250 milyard dollara qədər sərmayə qoyulub. Bu sərmayələrin yarısı xaricidir və bunların böyük əksəriyyəti neft-qaz sektoruna aiddir. Həmçinin bizim neftimizi bir çox istiqamətlərə nəql etməyə imkan verən ixrac neft və qaz boru kəmərləri inşa edilib. Buna görə də bu gün, əlbəttə, neft-qaz layihələrinin gəliri artır. Hər bir şirkətin öz sərmayə

siyasəti, strategiyası var, hansısa şirkət payını sataraq layihədən çıxmağa üstünlük verir. Deməliyəm ki, 25 il ərzində bizim əsas enerji tərəfdaşlarımız artıq lap çoxdandır özlərinin qoyduqları vəsaitləri sayəsində böyük qazanc əldə ediblər. Buna görə də düşünürəm ki, Amerika şirkətlərinin öz paylarını satmaq qərarı tamamilə təbiidir və onları kimlərin alacağı kimlərə təklif etmələrindən asılı olacaqdır. Əlbəttə, Azərbaycanın bu ehtiyatlara sahib ölkə kimi, həmin sövdələşməni təsdiq, yaxud inkar etmək haqqı vardır. Amma bir qayda olaraq, əvvəlki bütün sövdələşmələr tərəfimizdən təsdiqlənibdir.

**S u a l: Belə təəssürat yaranır ki, bu gün dünyada əsas qayda ölkələr arasında münasibətlərdə, beynəlxalq ticarətdə heç bir qaydanın olmamasıdır. Bunun təhlükəsi nədədir?**

**C a v a b:** Bilirsiniz, beynəlxalq təşkilatların qərarları yerinə yetirilməyəndə, yaxud qərəzli seçimlə yerinə yetiriləndə, BMT Təhlükəsizlik Şurasının qətnamələri də seçim əsasında, bəzi hallarda bir neçə gün ərzində yerinə yetiriləndə, bəzi hallarda isə 20 ildən çox müddətdə kağız üzərində qalanda – bütün bunlar dünya nizamının pozulmasına gətirib çıxarır. Qaydaların olmaması, yaxud onların pozulması da fəsadlara gətirib çıxarır, yəni etimad pozulur, ölkələr arasında qarşılıqlı fəaliyyətin səviyyəsi azalır. Bu da müəyyən münaqişələrə, bir çox ölkələr arasında müəyyən çətinliklərə, gərginliyə səbəb olur. Buna görə də yaxşı, yaxud pis olmasından asılı olmayaraq, artıq hazırlanmış mexanizm mövcuddur. Bu həm beynəlxalq müna-

sibətlərə, həm iqtisadi, həm də sərmayə ilə bağlı olan məsələlərə aiddir. Biz, Azərbaycan o ölkəyik ki, həmişə qanunun aliliyinə, beynəlxalq hüquq normalarına əməl edilməsinə, o cümlədən aparıcı beynəlxalq təşkilatların bütün qərar və qətnamələrinin qeyd-şərtsiz yerinə yetirilməsinə çalışırıq. Odur ki, bugünkü mənzərəni müşahidə etmək kədərlidir. Bu, dediyim kimi, həm beynəlxalq, həm də iqtisadi problemlərlə bağlı məsələlərə aiddir. Etimad itirilir, gözləntilər pozulur və biznesi aparmaq çətinləşir. Bizim ölkəyə gəlincə isə deməliyəm ki, biz həm beynəlxalq məsələlərdə, həm də bütün müqavilələr, investisiya layihələri üzrə öhdəliklərin icrası ilə bağlı imzaladığımız sənədləri həmişə tamamilə dəqiq yerinə yetirmək əzmindəyik.

**M ü x b i r:** Çox sağ olun.

**İ l h a m Ə l i y e v:** Sağ olun.

## ŞƏHİD AİLƏLƏRİ İLƏ GÖRÜŞ

*28 yanvar 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva yanvarın 28-də Prezident sarayında şəhid ailələri ilə görüşmüşlər.*

*Dövlət başçısı görüşdə çıxış etdi.*

### Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı

Hörmətli şəhid ailələrinin nümayəndələri!

Mən sizi bu gün görüşə dəvət etmişəm. İlk növbədə, sizə öz dərin hörmətimi ifadə etmək istəyirəm. Sizin yaxınlarınız torpaq uğrunda, Vətən uğrunda həlak olmuş, şəhidlik zirvəsinə yüksəlmişlər. Allah bütün şəhidlərimizə rəhmət eləsin.

Keçən əsrin 90-cı illərinin əvvəllərində Ermənistanın işğalçılıq siyasəti nəticəsində torpaqlarımız işğal altına, 1 milyondan çox soydaşımız qaçqın, məcburi köçkün vəziyyətinə düşübdür. Biz minlərlə şəhid verdik, on minlərlə insan yaralandı, əlil oldu. O vaxt Azərbaycanda hakimiyyətsizlik dövrü idi. Məğlubiyyətimizin əsas səbəbi ondan ibarət idi ki, o vaxt Azərbaycanda güclü lider yox idi. Müxtəlif qruplaşmalar hakimiyyət uğrunda mübarizə aparır, bir-birinə qarşı təxribat törədirdilər və Ermənistan bundan istifadə edib

torpaqlarımızın bir hissəsini zəbt etmişdir. Tam qətiyyətlə deyə bilərəm – mən bunu dəfələrlə demişəm – əgər o vaxt Heydər Əliyev Azərbaycanın rəhbəri olsaydı, torpaqlarımız heç vaxt işğal altına düşməzdi.

Keçən əsrin 90-cı illərinin əvvəllərində AXC–Müsavat cütlüyünün xəyanətkar fəaliyyəti nəticəsində xalqımız böyük faciə ilə üz-üzə qalmışdır. Siz bilirsiniz, bu gün biz çalışırıq ki, bu məsələni həll edək. Ordu quruculuğuna çox böyük diqqət göstərilir. Bizim ordumuz döyüş meydanlarında da öz gücünü göstəribdir. Aprel döyüşləri bizim şanlı tarixi qələbəmizdir. Biz bir neçə strateji mövqeni işğalçılardan azad etdik və o bölgələrdə, o yüksəkliklərdə Azərbaycan bayrağını qaldırdıq. Bu gün Lələtəpədə, Ağdərə dağlarında, Naxçıvan dağlarında – hansılar ki, işğal altında idi, Azərbaycanın Dövlət bayrağı dalğalanır.

Bildiyiniz kimi, bu məsələni danışıqlar yolu ilə həll etməyə çalışırıq. Hesab edirəm ki, ölkəmizin artan potensialı, hərbi-iqtisadi gücü, dünyadakı mövqeyi bu gün bizim xeyrimizə işləyir və bu gün danışıqlar prosesində ölkəmizin mövqeyi kifayət qədər güclüdür.

Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli bizim üçün ən başlıca vəzifədir. Ölkəmizin ərazi bütövlüyünün bərpası ən vacib məsələdir. Diplomatik müstəvidə biz maksimum nəticəyə nail ola bilmişik. Bu gün bütün dünya bu münaqişənin ölkəmizin ərazi bütövlüyü çərçivəsində həll olunmasını bildirir. Çoxsaylı qətnamələr, qərarlar, ikitərəfli formatda imzalanmış müqavilələr, bəyannamələr

ölkəmizin ərazi bütövlüyünə dəstək ifadə edir. Dünyanın aparıcı beynəlxalq təşkilatları – BMT, onun Təhlükəsizlik Şurası, «Qoşulmama Hərəkatı», ATƏT, İslam Əməkdaşlıq Təşkilatı və digər təşkilatlar bu münaqişənin ölkəmizin ərazi bütövlüyü çərçivəsində həll olunmasını tələb edir. Biz bütün vasitələrdən istifadə edirik ki, məsələni həll edək, torpaqlarımızı işğalçılardan azad edək. Onu da bilməliyik ki, bu gün dünyada güc amili ön plana çıxıb. Biz ordu quruculuğu istiqamətində bu günə qədər böyük işlər görmüşük. Qeyd etdiyim kimi, döyüş meydanlarında da öz gücümüzü göstərmişik. Bütün dünyaya göstərmişik ki, Azərbaycan xalqı və Azərbaycan dövləti bu işğalla heç vaxt barışmayacaq.

Müharibədən əziyyət çəkən vətəndaşlara daim diqqət, qayğı göstərilir. Məcburi köçkünlər üçün son illər ərzində 100-dən çox şəhərcik və qəsəbə salınıbdır. Təkcə keçən il 5900 məcburi köçkünə mənzillər, fərdi evlər verilibdir. Bu proses bu il də davam etdiriləcək. Şəhid ailələrinə dövlət tərəfindən dəstək göstərilir. Bu günə qədər 6650 şəhid ailəsinə dövlət tərəfindən mənzillər, evlər, 6000-dən çox şəhid ailəsinə minik avtomobilləri verilibdir. Bu, dövlətimizin şəhid ailələrinə olan münasibətinin təzahürüdür. Mən bilmirəm, hansı başqa ölkədə ağır vəziyyətdə yaşayan, yaxınlarını itirmiş vətəndaşlara bu qədər diqqət, bu qədər qayğı göstərilir?!

Mənim fəaliyyətimdə bu məsələ daim prioritet təşkil edir. Son illər ərzində şəhid ailələri ilə çoxsaylı görüşlərim bunu bir daha sübut edir. Biz sizinlə birlikdə bir çox evlərin açılışlarında iştirak etmişik. Mən şəhid ailə-

lərinə mənzillərin, avtomobillərin açarlarını şəxsən təqdim etmişəm və bunu özüm üçün borc bilirəm. Bu mənim borcumdur, xalqa xidmət etmək mənim ən böyük vəzifəmdir. Mənim üçün böyük şərəfdir ki, sizə bu istiqamətdə xidmətimi göstərim.

Şəhid ailələrinə diqqət eyni zamanda, keçən il özünü bir daha göstərdi. Keçən ilin aprel ayında Azərbaycan xalqı bir daha mənə etimad, inam göstərdi, məni Prezident vəzifəsinə seçdi. Mənim birinci fərmanım şəhid ailələrinin sosial müdafiəsinin gücləndirilməsi ilə bağlı idi. Təbii ki, bu, təsadüfi deyil. Mən istənilən sahə üzrə fərman imzalaya bilərdim – iqtisadi sahə üzrə, xarici siyasət, sosial məsələlərlə bağlı. Ancaq mən hesab etdim ki, birinci fərman şəhid ailələri ilə bağlı olmalıdır. Bu fərman əsasında 10 minə yaxın şəhid ailəsinə dövlət tərəfindən 11 min manat məbləğində birdəfəlik ödəmələrin verilməsi nəzərdə tutulur. Yenə də deyirəm, mən heç bir ölkə ilə Azərbaycanı müqayisə etmək istəmirəm, ancaq bu da həqiqətdir ki, Azərbaycan bir çox ölkələrə bu sahədə nümunə göstərir.

Artıq ödəmə prosesi başlanıb. Mənə verilən məlumata görə, 3000-dən çox şəhid ailəsi 11 min manatı alıb. Ancaq bu proses zamanı məlum oldu ki, vaxtilə müavinəti alan vətəndaşların aldıqları məbləğ bu gün verilən məbləğlə üst-üstə düşmür. Yəni o illərdə – keçən əsrin 90-cı illərinin əvvəllərində rəqəm böyük olsa da – o vaxt 50 min manat nəzərdə tutulurdu – o vaxtın 50 min manatı bu günün 11 min manatı ilə heç də müqayisə oluna bilməz. Mən bu məsələ ilə

bağlı ictimaiyyətə öz fikrimi bildirdim. Bildirdim ki, bu məsələ ciddi araşdırılmalıdır və burada iki əsas amil üstünlük təşkil etməlidir: qanun və ədalət. Bir tərəfdən, vaxtilə bu müavinəti alan vətəndaşlar bu siyahıya daxil edilməməlidir, bunu qanun və qaydalar tələb edir. Digər tərəfdən, biz bütün məsələləri ədalətli həll etməliyik, bütün məsələlərə sosial ədalət prizmasından yanaşmalıyıq. Bunu nəzərə alaraq, mən bu gün yeni fərman imzaladım. Bu fərman əsasında 11 min manatı alacaq vətəndaşların sayı 2725 nəfər artırıldı. Onların içərisində təbii ki, vaxtilə müavinəti az məbləğdə alan vətəndaşlardır və ümumiyyətlə, siyahıya düşməyən daxili işlər orqanlarının şəhid ailələrinin nümayəndələridir, onların da sayı 460-dan çoxdur.

Təbii ki, bu, böyük vəsait tələb edir. Bu proqramın icrası üçün dövlət büdcəsindən ümumilikdə 135 milyon manat vəsait nəzərdə tutulur. Bu, kifayət qədər böyük məbləğdir. Biz çalışırıq ki, hər bir vəsaitə çox qənaətlə yanaşaq. Biz çalışırıq ki, bu gün ölkəmizin iqtisadi, sosial inkişafını şərtləndirən istiqamətlərə böyük dəstək verək. Ancaq mən həmişə demişəm ki, bizim üçün Azərbaycan vətəndaşlarının rifahı, onların dolanışığı başlıca vəzifədir. Ona görə bu qərarın qəbul edilməsi ilk növbədə, ədalətlidir və digər tərəfdən, Prezidentin fərmanından sonra bu, artıq rəsmi sənəd olaraq qüvvəyə minir. Bu iki amili biz təmin etmişik.

Mən bir daha demək istəyirəm ki, bundan sonra da vətəndaşların sosial məsələləri daim diqqət mərkəzində olacaq. Şəhid ailələri üçün bundan sonra da

evlər tikilib istifadəyə veriləcək. Təkcə keçən il 626 şəhid ailəsinə yeni mənzillər, yeni evlər verilibdir. Bu il əlavə 800 şəhid ailəsinə yeni mənzillər, evlər veriləcəkdir. Növbəti bir neçə il ərzində bütün şəhid ailələri evlərlə, mənzillərlə təmin ediləcəklər. Bir dənə də şəhid ailəsi qalmayacaq ki, dövlət ona ev və ya mənzil verməsin.

Bu bizim siyasətimizdir, bu bizim yolumuzdur, biz bu yolu gedirik. Bu gün sizi buraya, Prezident sarayına dəvət edərək istədim ki, bu sözlərimi, bu fikirlərimi sizə özüm çatdırım. İstədim ki, bir daha sizinlə görüşüm, bir daha sizə öz təşəkkürümü, dərin hörmət və ehtiramımı bildirim. Sizə cansağlığı arzulayıram. Arzu edirəm ki, siz bundan sonra həyatda heç vaxt belə dəhşətli faciələrlə üz-üzə qalmayasınız. Sağ olun.

* * *

*Sonra dövlət başçısı birdəfəlik ödəməni almaq üçün istifadə olunan plastik kartları şəhid hərbi qulluqçularının varəsələrinə təqdim etdi.*

**İ b a d ə t  Ə l i y e v a** (*şəhid anası*): Hörmətli cənab Prezident! İlk növbədə, biz şəhid ailələri bu mötəbər görüşümüzə görə Sizə dərin minnətdarlığımızı bildiririk. Bu bir daha sübut edir ki, biz, şəhid ailələri Sizin daimi diqqətinizdəyik. Bizim dövlətimiz gündən-günə inkişaf edir, Vətənimiz, dövlətimiz möhkəmlənir, qüdrətlənir. Biz şəhid ailələri bunu gördükcə böyük qürur hissi keçiririk. Sizin rəhbərliyinizlə ordumuzun aprel

döyüşlərindəki qələbəsi mənə o qədər qürur verdi ki, hətta özüm əlimə silah alıb bu döyüşlərə getmək istəyirdim. Hər dəfə Cocuq Mərcanlının inkişafını, qısa müddətdə bu qəsəbənin belə müasir-tipli olmağını görəndə mən qürur hissi keçirirəm, çox sevinirəm. İnanıram ki, tezliklə torpaqlarımız alınandan sonra bütün bölgələrimiz, bütün şəhərlərimiz belə inkişaf edəcək, belə çiçəklənəcəkdir.

Biz şəhid ailələrinə Sizin daim diqqət və qayğınızı görürük. Biz Sizə və Birinci vitse-prezidentimiz Mehriban Əliyevaya dərin minnətdarlığımızı bildiririk. Sizin şəhid ailələrinə göstərdiyiniz qayğını biz öz üzərimizdə hiss edir və bundan qürur hissi keçiririk. Şəhid ailələrinə bu diqqət və qayğınıza, bizim sosial təminatımızla, yaxşı yaşamağımızla bağlı gördüyünüz bütün işlərə görə Sizə dərin təşəkkürümüzü bildiririk. Bu tədbirlər ildən-ilə genişlənir, çoxalır və biz bunları gördükcə sevinirik, Sizdən çox razıyıq.

Deyirlər, dərdin kiçiyi, böyüyü olmur. Amma elə deyil, dərdin ən böyüyü Vətən, torpaq, azadlıq dərdidir. Bu dərdin yolunda bizim balalarımız şəhid oldular. Vətən yaşasın deyə, onlar şəhid oldular və düşmənə qaya kimi sipər oldular, qaya kimi dayandılar onların qabağında. Mən inanıram ki, xalqımız çox vətənpərvər, qəhrəman xalqdır. Bu xalqın əli silah tutan hər bir nümayəndəsi şəhidlərin yolunu davam etdirmək üçün bir nəfər kimi, Vətənimizi qorumağa hazırdır.

Sizin şəhid ailələrinə göstərdiyiniz qayğını biz daim öz üzərimizdə hiss edirik. Şəhid ailələri mənzillərlə, pensiyalarla, müavinətlərlə təmin olunurlar. Sizin imzaladığınız humanist fərmanla verilən 11 min manat məbləğində birdəfəlik ödəməni bizim ailəmiz də alıb. Bu bizim ailəyə böyük köməkdir, dayaqdır. Biz inanırıq ki, bu tədbirlər daha da çox, daha da uzunmüddətli olacaq. Bilirik ki, müharibə edən dövlətlərdə mütləq şəhidlər də olur. İnanırıq ki, biz öz torpaqlarımızı sülh yolu ilə azad edəcəyik. Biz bilirik ki, bunun üçün bizim xalqını, Vətənini, torpağını sevən belə bir Prezidentimiz vardır. Bizim Prezidentə mən «Çox sağ ol!» – deyirəm, minnətdarlığımı bildirirəm. Sizə möhkəm cansağlığı, gördüyünüz işlərdə və gələcək fəaliyyətinizdə uğurlar arzu edirəm. Çox sağ olun.

**Ş i r v a n  N ü s r ə t o v** (*şəhid atası*): Hörmətli Prezident, cənab Ali Baş Komandan! Siz Azərbaycanı qüdrətli dövlətə çevirmisiniz. Azərbaycanın güclü ordusu vardır. Əminəm ki, biz Qarabağ məsələsini Allahın köməyi, Sizin səylərinizlə həll edəcəyik.

Cənab Prezident, mən bir şəhid atası kimi, fəxr edirəm ki, oğlum torpaqlarımızın azadlığı, suverenliyi uğrunda şəhid olubdur. Sizdən çox razıyıq ki, biz şəhid ailələrinə həmişə qayğı göstərmisiniz və göstərirsiniz. Biz Sizin xarici və daxili siyasətinizi dəstəkləyirik. Sağ olun, var olun. Allah Sizə ömür versin.

**V ə r z i y a r  Ə l i y e v a** (*şəhidin həyat yoldaşı*): Möhtərəm cənab Prezident! Bu gün vaxt ayıraraq, biz şəhid ailələrini qəbul etdiyinizə görə şəhid polislərin ailələri adından Sizə öz təşəkkürümü bildirirəm. İmzala-

dığınız fərmana görə şəhid ailələri, şəhid polislərin vərəsələri Sizə minnətdardırlar. Bu bizim ailələrə çox böyük kömək olacaq. Mən Xocalı aeroportunun müdafiəsi zamanı şəhid olmuş Əliyev Əbülfət Əli oğlunun həyat yoldaşıyam, özünümüdafiə batalyonunun döyüşçüsü Hüseynov Mürşüd Səməd oğlunun qızıyam. Mərhum Prezidentimiz – Allah rəhmət eləsin – Heydər Əliyev yoldaşımı ölümündən sonra «İgidliyə görə» medalı, atamı isə – bütün Xocalı camaatı bilir ki, o, əlindəki beşatılanla neçə-neçə düşməni məhv edib, döyüşlərdən birində ürəyindən aldığı güllə yarasından qəhrəmancasına şəhid olub – «Azərbaycan bayrağı» ordeni ilə təltif edib. Allah ona rəhmət eləsin, qəbri nurla dolsun. Bizim o məşəqqətli, yurd-yuvamızı, ailə başçılarımızı itirdiyimiz günlərdə ulu öndərimiz Heydər Əliyev bizim səsimizə, həmvətənlərimizin səsinə səs verərək, hakimiyyətə gəldi və bizi böyük bəlalardan qurtardı, ən əsası isə müstəqilliyimizi qorudu, suveren bir dövlət qurdu. Siz öz xanımınızla çiyin-çiyinə – mən Mehriban xanım Əliyevaya da öz təşəkkürümü bildirirəm – çox böyük işlər görmüsünüz. Biz, bütün şəhid polislərin ailələri bunları izləyirik, hər ikinizə «Sağ ol!» – deyirik. Sizin gördüyünüz bütün abadlıq-quruculuq işlərini təkcə Bakıda yox, bütün regionlarda müşahidə edirik. İndi bölgələrimiz Bakıdan heç də seçilmir. Buna baxmayaraq, bəzi ünsürlər nümayişə çıxır. Biz onlara qətiyyətlə «Yox!» – deyirik. Biz, şəhid polislərin ailələri Sizin arxanızda möhkəm durmuşuq. Nə yaxşı ki, Siz varsınız. Biz həmişə Sizin arxanızdayıq. Biz qadınlar,

analar istəyirik ki, torpaqlarımız sülh yolu ilə azad edilsin. Əgər sülh yolu ilə olmasa, Azərbaycanın böyük, qüdrətli ordusu var, Həcər qeyrətli qadınlarımız var. Biz Xocalıda 4 il müharibə şəraitində yaşamışıq. Atışma səsi eşidəndə biz qadınlar da həmin tərəfə yüyürürdük. 4 il mühasirədə qalandan, son gülləmiz qurtarandan sonra ermənilər sovet ordusunun 366-cı motoatıcı alayının köməyi ilə Xocalını yerlə yeksan etdilər. Cənab Prezident, biz Sizin arxanızdayıq, Sizinlə qürur duyuruq. İnanırıq ki, torpaqlarımız alınacaq və biz doğma yurd-yuvamıza qayıdacağıq. Mərhum Prezidentimiz Heydər Əliyevin dediyi kimi, biz fəxr edirik ki, azərbaycanlıyıq.

**S e v i n c  Q u l u z a d ə** (*şəhidin vərəsəsi*): Möhtərəm cənab Prezident! Bizimlə bu səmimi görüş üçün Sizə təşəkkür edirik. Sizə şəxsən təşəkkür edə bildiyim üçün bir Azərbaycan vətəndaşı, bir gənc olaraq, qürur hissi keçirirəm. Siz və Birinci vitse-prezident Mehriban xanım Əliyeva hər zaman şəhid ailələrinə xüsusi diqqət və qayğı ilə yanaşmısınız, hər zaman şəhid ailələrinin yanında olmusunuz. Buna görə Sizə təşəkkür edirəm, Sizə və ailənizə cansağlığı, uzun ömür arzu edirəm.

Mən bu gün bir vətəndaş, bir şəhid vərəsəsi kimi, bir daha əmin oldum ki, Sizin siyasətinizin əsasında ölkənin hər bir vətəndaşına münasibətdə ədalət və humanizm prinsipləri dayanır. Bir daha əmin oldum ki, bu gün ölkəmizdə sosial ədalət hər şeydən üstün tutulur və Azərbaycan vətəndaşına Azərbaycan Prezidenti qədər qayğıkeş və Azərbaycan Prezidenti qədər yaxın olan

başqa biri yoxdur. Bu gün imzaladığınız fərmana görə mən və mənim kimi minlərlə şəhid vərəsəsi birdəfəlik ödəməni ala biləcəyik. Buna görə, əlbəttə, çox şadam, sevincimin həddi-hüdudu yoxdur. Mən Sizə həm öz adımdan, ailəmiz adından, həm də digər şəhid vərəsələri adından təşəkkür edirəm. İmzaladığınız fərmana əsasən, həm də vaxtilə sığorta ödənişi almış şəhid vərəsələri də birdəfəlik ödəmə ilə təmin olunacaqlar. Belə bir humanist qərar qəbul etdiyiniz üçün çox sağ olun.

Biz hər zaman Sizin humanistliyinizə inanmışıq. Sizin humanistliyiniz bu fərmanda bir daha öz təsdiqini tapdı. Siz Azərbaycanımızı hər zaman böyük qələbələrə doğru aparmısınız. Bir vətəndaş olaraq bu inkişaf prosesini müşahidə etdikcə təbii ki, fəxr edirik. Ölkəmizi inkişafda, dövlətimizi güclənməkdə görmək bir gənc olaraq, məndə iftixar hissi doğurur. Hazırda qardaşım əsgərdir və torpaqlarımızın keşiyində böyük şərəflə durur. Mən inanıram ki, Sizin rəhbərliyinizlə ordumuz tezliklə Qarabağımızı azad edəcək və üçrəngli bayrağımız Qarabağda dalğalanacaqdır.

Şəhid vərəsələrinə göstərdiyiniz diqqət və qayğı üçün Sizə bir daha minnətdarlığımı bildirirəm. Azərbaycanın əmin-amanlıq içində inkişafı üçün apardığınız siyasətdə Sizə uğurlar arzu edirəm. Çox sağ olun, möhtərəm Prezident!

* * *

**İ l h a m  Ə l i y e v:** Deyilən bütün xoş sözlərə görə sizə minnətdaram. Bir daha demək istəyirəm ki,

Azərbaycan xalqına xidmət etmək mənim üçün böyük şərəfdir. Prezident kimi həmişə çalışmışam ki, xalqıma ləyaqətlə xidmət edim, Azərbaycanın hərtərəfli inkişafına təkan verim.

Bu gün Azərbaycan dünya miqyasında sürətlə, uğurla inkişaf edən dövlətlərdən biridir. Ölkəmizin iqtisadi, hərbi potensialı güclənir. Xüsusilə qeyd etməliyəm ki, uğurlu iqtisadi siyasət nəticəsində Azərbaycan bu gün çox böyükmiqyaslı sosial layihələri icra edə bilir. Əgər bizim maliyyə imkanlarımız olmasaydı, maddi vəziyyətimiz pis olsaydı, biz bu layihələri, bu təşəbbüsləri irəli sürə bilməzdik. Vaxtilə müavinət almış vətəndaşlar o zaman az məbləğ alıblar və əgər biz onu dollara çevirsək, müavinət təqribən 20–50 dollar ətrafında idi. Yəni imkanımız buna çatırdı, imkan yox idi. Ancaq bu gün 11 min manat tam başqa dəyər təşkil edir. Ölkəmizin iqtisadi inkişafı, maddi vəziyyətin yaxşılaşdırılması imkan verir ki, biz bir çox sosial layihələri icra edək. Biz 100-dən çox şəhərciyi öz pulumuzla tikmişik, 6650 şəhid ailəsinə mənzil verilib. Qeyd etdiyim kimi, bütün şəhid ailələri mənzillərlə təmin olunacaqlar, ardıcıllıqla, artıq proqram tutulur.

Ölkəmizin hərbi potensialının möhkəmlənməsi üçün çox böyük vəsait tələb olunur. Biz indi ordumuzu ən müasir silahlarla təchiz edirik. Nəyə görə? Çünki biz müharibə şəraitindəyik. Ona görə ki, bizim torpaqlarımız işğal altındadır. Bu məqsədlər üçün də böyük vəsait ayrılır. Ötən il Bakıda 2 hərbi parad keçirildi. Bu paradlar bizim çox güclü hərbi potensia-

lımızı göstərdi. Bu gün Azərbaycan Ordusu dünya miqyasında ən güclü ordular sırasındadır. Biz ölkə qarşısında duran problemləri hərtərəfli həll etməyə çalışırıq. Sosial məsələlərin həlli prioritetdir. Ancaq bu məsələlərin həllinə nail olmaq üçün güclü iqtisadiyyat olmalıdır. İqtisadi inkişaf bundan sonra da elə olmalıdır ki, sosial layihələri icra etməyə imkan versin. Bilirsiniz, biz indi bazar iqtisadiyyatı şəraitində yaşayırıq və bazar iqtisadiyyatının öz qanunları vardır. Bəzi hallarda bazar iqtisadiyyatı sosial siyasətlə o qədər də uzlaşmır. Hesab edirəm ki, ölkəmizin uğurlu inkişaf modeli bu iki önəmli amilin hər iki istiqamətini özündə ehtiva edir. Çünki biz iqtisadi inkişafa ona görə nail olmaq istəyirik ki, sosial məsələləri daha genişmiqyaslı həll edək və vətəndaşlarımız daha da yaxşı yaşasınlar. Ağır vəziyyətdə yaşayan vətəndaşlara biz imkan daxilində kömək göstəririk. Biz evini, eşiyini, torpağını itirmiş vətəndaşlar üçün şəhərciklər salırıq, evlər tikirik, onlara mənzillər veririk. Bu gün hələ də öz maddi imkanlarını lazımi səviyyədə təmin edə bilməyən vətəndaşlara dövlət tərəfindən ünvanlı sosial yardım göstərilir.

Azərbaycan dünya miqyasında nadir ölkələrdəndir ki, ünvanlı sosial yardım proqramı çox geniş miqyas alıb. Biz indi hələ ki, işlə özünü təmin edə bilməyən vətəndaşlar üçün yeni imkanlar axtarırıq, tapırıq, özünüməşğulluq proqramı artıq geniş vüsət alacaqdır. Təkcə bu il 7000 ailə özünüməşğulluq proqramı ilə əhatə olunacaq. Nəyə görə? Çünki imkanı olmayan

ailələr dövlət tərəfindən xüsusi vasitələrlə təmin olunsunlar ki, özləri üçün kiçik biznes qura bilsinlər. Bütün bu işləri görmək üçün, əlbəttə ki, ölkəmizdə bugünkü siyasət davam etdirilməlidir. Bu siyasət yeganə düzgün siyasətdir. Məhz bu siyasət nəticəsində Azərbaycan dünya miqyasında müstəqil ölkə kimi özünü göstərə bilibdir.

Bu gün çıxışlarda Cocuq Mərcanlıdan danışıldı. Cocuq Mərcanlı bizim əyilməz iradəmizin rəmzinə çevrilib. Cocuq Mərcanlının abadlaşdırılması, yenidən qurulması hərbi qələbə nəticəsində mümkün oldu. Biz sübut etdik ki, döyüş meydanında da düşməndən üstünük. Biz ermənilərin, Ermənistan rəhbərliyinin uzun illər ərzində yaratdıqları mifi tamamilə darmadağın etdik. Onlar sübut etməyə çalışırdılar ki, hərbi cəhətdən bizdən üstündürlər və buna görə də ötən əsrin 90-cı illərinin əvvəllərində bizim torpaqlarımızı zəbt edə biliblər. Bu işğalın səbəblərini Azərbaycan ictimaiyyəti yaxşı bilir. Onun başlıca səbəbi o vaxt Azərbaycan rəhbərliyində təmsil olunan xəyanətkar, satqın, səriştəsiz, biliksiz adamlardır. Onlar öz aralarında mübarizə, müharibə apararaq, imkan verdilər ki, düşmən torpaqlarımızı zəbt etsin. Aprel döyüşləri bütün dünyaya göstərdi ki, Azərbaycan güclü dövlətdir, Azərbaycan əsgəri, zabiti qorxmazdır, peşəkardır. Göstərdi ki, ölkəmizin güclü ordusu var və Azərbaycan xalqı heç vaxt bu işğalla barışmayıb və barışmayacaqdır. Aprel döyüşlərindən 2 il sonra uğurlu Naxçıvan əməliyyatı keçirildi. 2016-cı ilə nisbətən daha böyük, bir neçə dəfə böyük ərazi nəzarətimizə

keçdi, işğalçılardan azad edildi. Bu gün biz Ermənistan ərazisindən keçən strateji yollara, kommunikasiyalara nəzarət edirik. Biz bundan sonra da öz hərbi gücümüzü artıracağıq. Biz münaqişəni sülh yolu ilə həll etmək istəyirik. Biz istəmirik ki, şəhidlər olsun, istəmirik ki, gənclərimiz şəhid olsun. Münaqişəni sülh yolu ilə həll etmək üçün həm siyasi, həm iqtisadi, həm də hərbi güc olmalıdır. Bu gün bu üç amil var və ölkəmizi gələcəyə aparır.

Əziz bacılar, qardaşlar, nənələr, babalar, mən bir daha sizə öz dərin hörmətimi bildirmək istəyirəm. Siz Vətən üçün gözəl övladlar yetişdirmisiniz. Siz öz yaxınlarınıza arxa-dayaq olmusunuz. Siz öz şəhid olmuş övladlarınızla fəxr edə bilərsiniz. Bütün Azərbaycan xalqı şəhidlərimizlə fəxr edir. Şəhidlərimiz daim bizim ürəyimizdə yaşayır və əbədi yaşayacaqdır. Sağ olun.

* * *

*Şəhid ailələrinə diqqət və qayğı Prezident İlham Əliyevin həyata keçirdiyi siyasi kursun mühüm istiqamətlərindən biridir. İndiyə qədər bu kateqoriyadan olan vətəndaşlara 6654 mənzil, 6144 avtomobil, ötən il isə 626 mənzil verilib. Bu il də azı 800 mənzilin təqdim olunması nəzərdə tutulur. Şəhid ailələrinə və müharibə əlillərinə, Milli qəhrəmanlara verilən Prezident təqaüdünün də məbləği ötən dövrdə mütəmadi artırılıb, bu qəbildən olan insanların uşaqlarına aylıq sosial müavinətin verilməsi təmin olunubdur. Bununla*

*da şəhid ailələrinin sosial müdafiəsi ildən-ilə yaxşılaşıb, dövlət başçısının bu sahədə həyata keçirdiyi tədbirlər ictimaiyyət tərəfindən hər zaman böyük rəğbət və məmnunluqla qarşılanıbdır. 2018-ci ildə keçirilmiş Prezident seçkilərindəki qələbəsindən sonra Prezident İlham Əliyevin imzaladığı ilk fərman da bu qəbildəndir. Şəhid ailələrinə birdəfəlik ödəmənin verilməsini nəzərdə tutan bu fərman onların sosial müdafiəsinin yaxşılaşdırılması istiqamətində ən mühüm addımlardan biri kimi qəbul edilir.*

## REGİONLARIN 2014–2018-ci İLLƏRDƏ SOSİAL-İQTİSADİ İNKİŞAFI DÖVLƏT PROQRAMININ İCRASININ YEKUNLARINA HƏSR OLUNMUŞ KONFRANSDA İŞTİRAK

*29 yanvar 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 29-da «Azərbaycan Respublikası regionlarının 2014–2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı»nın icrasının yekunlarına həsr olunmuş konfransda iştirak etmişdir.*

*Dövlət başçısı konfransda giriş nitqi söylədi.*

### Azərbaycan Prezidenti İlham Əliyevin giriş nitqi

Regionların sosial-iqtisadi inkişafına dair üçüncü Dövlət Proqramının icrası təmin edildi. 5 il bundan əvvəl qəbul edilmiş proqram artıqlaması ilə yerinə yetirildi. Son 5 il ərzində qarşımıza qoyduğumuz bütün vəzifələr icra olundu. Üçüncü proqramın çox böyük əhəmiyyəti vardır. Bu proqram bizə imkan yaratdı ki, regionlarda əvvəlki illərdə aparılmış islahatlara, görülmüş işlərə yeni təkan verək.

Bildiyiniz kimi, Azərbaycan regionlarının sosial-iqtisadi inkişafı proqramlarının qəbul edilməsi mənim 2003-cü ildə Prezident seçkiləri ərəfəsində verdiyim

vədlərimdən biri idi. O vaxt demişdim ki, əgər Azərbaycan xalqı mənə etimad göstərərsə, ilk növbədə, regionların inkişafı ilə məşğul olacağam, bölgələrdə olan problemlərin həlli işində öz səylərimi əsirgəməyəcəyəm. 2004-cü ilin fevral ayında birinci proqram qəbul olundu və bu gün müzakirə etdiyimiz proqram sayca üçüncüdür.

Beləliklə, görülmüş işlər haqqında danışanda, əlbəttə ki, biz son 15 il ərzində yerinə yetirilmiş işlərə nəzər salmalıyıq. Bu işlər həm real həyatda, həm rəqəmlərdə, həm də dəyişən, abadlaşan şəhərlərdə özünü göstərir. Son 15 il ərzində Azərbaycan iqtisadiyyatı dünya miqyasında rekord templərlə inkişaf edib, ümumi daxili məhsul 3,3 dəfə artıbdır. Bir daha demək istəyirəm, bu, dünya miqyasında rekord göstəricidir. Sənaye istehsalı 2,6 dəfə artıb. İxracımız 4,7 dəfə, valyuta ehtiyatlarımız 24 dəfə artıb və bu gün 45 milyard dollar təşkil edir. Bu onu göstərir ki, Azərbaycan regionlarına və neft-qaz sektoruna, Bakı şəhərinin inkişafına böyük vəsait qoyulmasına baxmayaraq, biz öz valyuta ehtiyatlarımızı 24 dəfə artıra bilmişik. Bu bizə imkan verir ki, gələcəyə çox böyük ümidlərlə baxaq. Azərbaycan iqtisadiyyatı bu gün dayanıqlı iqtisadiyyatdır.

Aparılan uğurlu siyasət ölkəmizə böyük həcmdə vəsaitin, sərmayənin yatırılmasına gətirib çıxardı. 15 il ərzində Azərbaycana təxminən 250 milyard dollar sərmayə qoyulub və bu sərmayənin yarısı xarici investisiyadır. Yəni xarici investorlar üçün Azər-

baycan çox cəlbedici ölkədir. Azərbaycanda mövcud olan sərmayə iqlimi xarici investorları həvəsləndirir.

Bir faktı da diqqətinizə çatdırmaq istəyirəm. İlk dəfə Azərbaycan Dünya Bankının «Doing Business» hesabatında 2006-cı ildə qeyd olundu və o vaxt Azərbaycan 98-ci yerdə qərarlaşdı. Aparılmış köklü islahatlar, investisiya iqliminin yaxşılaşdırılması nəticəsində son hesabatda Azərbaycan dünya miqyasında 25-ci yerdədir. Bu, deməyə əsas verir ki, bundan sonra da həm daxili, həm xarici investorlar Azərbaycana böyük həcmdə sərmayə qoyacaqlar. Beləliklə, bu sərmayə imkan verəcək ki, bundan sonra da iş yerləri, yeni müəssisələr yaradılsın və ölkəmiz inamla inkişaf etsin.

Son 15 il ərzində 2 milyon yeni iş yeri yaradılıb. Əhalinin sayı isə 1,6 milyon artıb. Bu da çox gözəl göstəricidir. Əhali nə qədər çox olarsa, ölkəmiz də o qədər sürətlə inkişaf edər. Ancaq biz bundan sonra da işimizi elə görməliyik ki, iqtisadi inkişaf, iş yerlərinin yaradılması əhalinin artımından daha da sürətlə getsin, artan əhali işlə təmin olunsun. Yeni iş yerlərinin yaradılması regionların sosial-iqtisadi inkişafı proqramlarının tərkib hissəsi idi və qeyd etdiyim kimi, 2 milyon iş yeri yaradılıbdır. Bu iş yerlərinin böyük hissəsi bölgələrin payına düşür. Kənd təsərrüfatı 1,7 dəfə artıb və əminəm ki, bundan sonra artım daha sürətli olacaqdır.

Bir sözlə, bizim bütün iqtisadi göstəricilərimiz deməyə əsas verir ki, Azərbaycan son 15 il ərzində çox uğurla, inamla inkişaf edib. Artan iqtisadi imkanlarımız bizə şərait yaratdı ki, sosial məsələlərə də çox

böyük diqqət yetirək. Bir neçə rəqəmi səsləndirmək istərdim. Son 15 il ərzində maaşlar 7, pensiyalar 9 dəfə artıb. Son 15 ildə 3200-dən çox məktəb əsaslı təmir edilib və ya yenidən tikilib, 640 tibb müəssisəsi tikilib və yenidən qurulub, bölgələrdə 44 Olimpiya Mərkəzi yaradılıbdır. Bu bir daha onu göstərir ki, bizim siyasətimiz sosial yönümlüdür və əldə edilmiş gəlirləri biz ilk növbədə, sosial sahələrə yönəldirik.

Məcburi köçkünlərin problemləri həmişə diqqət mərkəzində olub, bu gün də belədir. Son illər ərzində 100-dən çox köçkün şəhərciyi tikilib, köçkünlərə təqdim edilibdir. Şəhid ailələri, müharibə veteranları, müharibə əlilləri üçün 6650 mənzil təqdim edilib və bu proses davam etdirilir. Bu kateqoriyadan olan vətəndaşlar evlərlə təmin olunacaqlar. Yəni Azərbaycan sosial sahəyə çox böyük diqqət göstərən ölkədir. Biz ölkəmizdə bazar iqtisadiyyatı prinsiplərini sosial ədalət prinsipləri ilə birləşdirə bildik və hesab edirəm ki, Azərbaycanın uğurlu inkişafı məhz buna söykənir.

Son 15 il ərzində dünyada müxtəlif proseslər gedib, dünya çox dəyişibdir. 15 il əvvəl vəziyyət tam fərqli idi, bu gün isə risklər, təhdidlər, münaqişə, müharibə ocaqları artır və bu meyil əfsuslar olsun ki, güclənir. Bizim bölgəmizdə, Yaxın Şərqdə, MDB məkanında, yaşadığımız regionda çox təhlükəli proseslər gedib və bu gün də gedir. Bu proseslər böyük fəlakətlərə gətirib çıxarıb. Milyonlarla insan müharibələrdən əziyyət çəkir. Milyonlarla insan həlak olub, yaralanıb, itkin düşüb, qaçqın-köçkün vəziyyətinə düşübdür. Bəzi

ölkələrin əksər hissələri tamamilə dağıdılıb. Bu, böyük humanitar fəlakətdir. Biz, demək olar ki, hər gün kütləvi informasiya vasitələrində bunu izləyirik və bu meyil əfsuslar olsun ki, davam edir. Bütün bu mənfi mənzərə fonunda bizim hökumət öz inamlı dinamik inkişaf strategiyasını icra edərək, ölkəmizi irəliyə aparır.

Azərbaycan sabitlik, təhlükəsizlik məkanıdır. Yaxın tarix əyani şəkildə göstərdi ki, sabitlik pozulanda ölkələr idarəolunmaz vəziyyətə düşür, iqtisadiyyat çökür, sənaye iflic olur, insanlar əziyyət çəkir və sonra bu vəziyyətdən çıxmaq üçün onilliklər lazım olur. Azərbaycanın uğurlu inkişaf modelinin əsas qayəsi ondadır ki, ölkəmizdə aparılan siyasət xalq tərəfindən dəstəklənir. Çünki bu siyasət xalqımızın rifah halının yaxşılaşmasına hesablanıb. Bu siyasət ölkəmizin güclü dövlətə çevrilməsinə hesablanıb. Məhz bu siyasət nəticəsində bu gün Azərbaycan dünyanın müxtəlif kürsülərindən öz sözünü açıq deyir, öz müstəqil siyasətini aparır, öz maraqlarını tam şəkildə qoruyur.

Azərbaycanda aparılan iqtisadi, siyasi islahatlar, ölkəmizin güclənməsi bizə dünyada gedən riskli proseslərdən özümüzü qorumağa imkan yaratdı. Bir daha demək istəyirəm, bizim xarici siyasətimizin əsas məqsədi ondan ibarətdir ki, xaricdən gələn mümkün risklərin idarə olunmasına, azaldılmasına, aradan qaldırılmasına imkan versin. Biz buna nail oluruq. Son 15 il ərzində Azərbaycan xalqı əmin-amanlıq şəraitində yaşayır. Azərbaycan xalqı rahat yaşayır, qurur,

yaradır. Hesab edirəm ki, hər bir vətənpərvər insan öz ölkəsi ilə, bugünkü Azərbaycan ilə haqlı olaraq fəxr edə bilər.

Qeyd etdiyim kimi, biz 15 il ərzində biznes mühitinin yaxşılaşdırılması ilə bağlı böyük addımlar atdıq. Sahibkarlığın inkişafına böyük dəstək verdik. Təkcə güzəştli şərtlərlə sahibkarlara verilən kreditlərin məbləği 2 milyard manatı ötüb. Sevindirici hal ondan ibarətdir ki, dövlət büdcəsindən bu məbləğin cəmi 1 milyard manatı ayrılıbdır. Qalan 1 milyard manatdan çox vəsait verilmiş və qaytarılmış kreditlər hesabına yenidən kredit şəklində verilibdir. Beləliklə, biz kifayət qədər böyük maliyyə resursu yaratmışıq. Bu bizə imkan verir ki, dövlət büdcəsinin yükünü azaldaq və gələcəkdə güzəştli şərtlərlə sahibkarlara maliyyə dəstəyi göstərək. Sənayeləşmə prosesi uğurla gedir. Son vaxtlar sənaye parklarının fəaliyyətə başlaması geniş vüsət alıb. İndi bu proses bir neçə şəhərdə gedir və sənaye parklarında bizim 67 rezidentimiz vardır. Onlardan 40-ı artıq fəaliyyətdədir.

Aqroparkların yaradılması çox müsbət hal kimi qiymətləndirilə bilər. Proqramda 51 aqroparkın yaradılması nəzərdə tutulub. Onlardan 17-si fəaliyyətdədir. Qalan aqroparkların işə düşməsi nəticəsində həm bölgələrdə yeni iş yerləri yaradılacaq, həm də kənd təsərrüfatı məhsullarımızın istehsalı və ixracı daha da artacaqdır.

Biz bu illər ərzində kosmik dövlətə çevrildik. Bu da bizim qürur mənbəyimizdir. Artıq 3 peykimiz vardır. Azərbaycan nadir ölkələrdəndir ki, kosmik kluba

daxil olubdur. Bu həm innovasiyadır, həm biznesdir, həm də müasirlikdir. İnnovasiyalara gəldikdə, bu gün dünyada Azərbaycan məhsulu kimi tanınan «ASAN xidmət» brendi vardır. Bunu biz yaratmışıq, bizim daxili intellektual məhsulumuzdur və iradəmizin ifadəsidir. «ASAN xidmət» bu gün bir neçə ölkədə fəaliyyət göstərir və bu sistemi tətbiq edən ölkələrin sayı artmaqdadır. Ölkəmizdə 15 «ASAN xidmət» Mərkəzi yaradılıb. Bu ilin sonuna qədər onların sayı 20-yə çatacaq. Bu mərkəzlərə 26 milyondan çox müraciət olunub. Əhali tərəfindən bəyənmə əmsalı təxminən 100 faizdir. «ASAN xidmət»də 200-dən çox xidmət göstərilir, tam şəffaf və heç bir pozuntusuz. Bu sahə, bildiyiniz kimi, həmişə böyük narahatlıq doğururdu. Vətəndaşlar haqlı olaraq şikayət edirdilər. İndi isə şikayətlər yoxdur, «ASAN xidmət»in yaradılması və uğurlu fəaliyyəti bizim siyasətimizi əks etdirir. Azərbaycanda hər şey şəffaf olmalıdır, hər şey qanun çərçivəsində olmalıdır. Bu bir daha onu göstərir ki, vətəndaşlara xidmət bizim siyasətimizin əsas məsələlərindən biridir.

Əlbəttə ki, bizim iqtisadiyyatımızın əsas sahəsi neft-qaz sektorudur. Bu, bu gün belədir, əvvəl də belə olub və bundan sonra da belə olacaqdır. Biz sadəcə olaraq, çalışırıq ki, qeyri-neft sektorunu sürətlə inkişaf etdirək, buna da nail oluruq. Ancaq hansı ictimai-siyasi formasiyada yaşamasına baxmayaraq, Azərbaycanda ilk neft tapılan dövrdən bu günə qədər bu, əsas iqtisadi potensial olub. Biz bu təbii resurslardan çox səmərəli şəkildə istifadə edirik. Bakı–

Tbilisi–Ceyhan, Bakı–Tbilisi–Ərzurum neft-qaz kəmərlərinin işə düşməsi çox böyük tarixi hadisədir. Əgər bu layihələr icra edilməsəydi, biz bu qədər vəsait əldə edə bilməzdik. Çünki bizim ixrac imkanlarımız məhduddur, açıq dənizə çıxışımız yoxdur və bizə mütləq neft-qaz kəmərləri lazımdır. Bu kəmərlərin tikintisi həm maliyyə, həm siyasi, həm də beynəlxalq əməkdaşlıq baxımından çox mürəkkəb və çətin layihələr idi. Biz bunu da bacardıq. Bu gün bu 2 kəmər vasitəsilə resurslarımız dünya bazarlarına göndərilir. Hazırda Avropada ən böyük infrastruktur layihələrindən biri olan «Cənub Qaz Dəhlizi»nin tikintisi sürətlə gedir. 4 layihədən ibarət olan bu meqalayihə artıq son mərhələdədir. 4 layihədən 3-ü istifadəyə verilib. Keçən il TANAP və «Cənub Qaz Dəhlizi»nin açılışı oldu və bunlar tarixi hadisədir.

Biz neftdən, qazdan əldə edilmiş gəlirləri nəqliyyat sektoruna yönəltdik ki, Azərbaycan nəinki bu bölgədə, Avrasiya məkanında nəqliyyat mərkəzinə çevrilsin. Bu gün biz artıq buna nail oluruq. Bakı–Tbilisi–Qars dəmir yolunun işə düşməsi tarixi layihədir. Bu həddindən artıq vacib layihədir. Çünki bu, artıq bizə imkan verir ki, Azərbaycan ərazisindən böyük həcmdə yüklər şərqdən qərbə, qərbdən şərqə göndərilsin. Bunun sayəsində həm bizim geosiyasi əhəmiyyətimiz artacaq, həm də biz bundan daim valyuta qazanacağıq. Şimal–Cənub nəqliyyat dəhlizinin yaradılması da böyük önəm daşıyır. Bu istiqamətdə də böyük işlər görülür. Əlbəttə ki, bu işlərin görülməsi genişmiqyaslı beynəlxalq əmək-

daşlıq tələb edir. Azərbaycan bu sahədə də təşəbbüskar kimi, öz müsbət rolunu oynayıb. Bu gün Şərq–Qərb və Şimal–Cənub nəqliyyat dəhlizlərində birləşən ölkələrin sayı 10-dan çoxdur və onların sayı daha da artacaqdır. Amma hər iki layihədə iştirak edən ölkə tək Azərbaycandır. Ona görə biz Avrasiyada strateji nəqliyyat mərkəzinə çevrilirik. Bakı–Tbilisi–Qars dəmir yolu, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı, bizim yol infrastrukturlarımız, müasir və müasirləşən infrastruktur – bütün bunlar son illər ərzində yaradılıb. Əgər biz infrastruktur layihələrinə diqqət yetirməsəydik, bu gün heç bir inkişafdan söhbət gedə bilməzdi.

15 il bundan əvvəl biz özümüzü elektrik enerjisi ilə təmin edə bilmirdik. Ya xaricdən idxal edirdik, ya da ki, ölkəmizin bəzi yerləri işıqsız qalırdı. Ötən 15 il ərzində 31 yeni stansiya tikilib, 2500 meqavatlıq yeni güclər yaradılıbdır. Biz indi nəinki özümüzü elektrik enerjisi ilə təmin edirik, hətta ixrac da edirik. Təbii qaz ilə təminat 15 il bundan əvvəl təxminən 50 faiz səviyyəsində idi, bu gün 95 faizdir. İçməli su 26 faiz təmin edilirdi, bu gün 70 faizdir. 15 il ərzində 15 min kilometr avtomobil yolu çəkilibdir.

Yəni görülmüş işlər haqqında danışmaq üçün saatlarla vaxt lazımdır. Əsas məqamları mən sizin diqqətinizə çatdırdım. Əminəm ki, bu gün çıxışlarda və müzakirələrdə həm görülmüş, həm də görüləcək işlər haqqında danışacağıq və gələcək inkişaf planlarımızı təmin edəcəyik.

* * *

**E m i n  A x u n d o v** *(Neftçala Sənaye Məhəlləsində «Xəzər» Avtomobil zavodunun direktoru)*: Möhtərəm cənab Prezident!

Sizin uzaqgörən və düşünülmüş uğurlu iqtisadi inkişaf strategiyanızın əsas tərkib hissələrindən biri olan sənayeləşmə siyasətinə uyğun olaraq, müasir sənaye parkları və məhəllələrinin yaradılması ölkədə rəqabətqabliyyətli və ixrac yönümlü məhsulların istehsal həcminin artmasına təkan veribdir.

Cənab Prezident, icazənizlə məruzə edim ki, «Azərmaş» ASC ilə «İran Khodro» ASC arasında 2016-cı il aprelin 21-də əməkdaşlıq Memorandumu imzalanıb və həmin ilin avqust ayının 6-da Neftçala Sənaye Məhəlləsində «Xəzər» Avtomobil zavodunun təməli qoyulubdur. 10 hektar ərazidə tikilmiş Avtomobil zavodunda Avropanın aparıcı ölkələrinin və İran İslam Respublikasının müasir texnologiyaları və avadanlıqları quraşdırılıbdır.

Çox hörmətli cənab Prezident, Sizin xüsusi diqqət və qayğınız nəticəsində zavodun tikintisinə dövlətimiz tərəfindən böyük dəstək göstərilib, zəruri infrastruktur yaradılıb, müxtəlif vergi güzəştləri və gömrük azadolmaları tətbiq edilibdir. İnvestisiya dəyəri 25 milyon manat olan zavodumuzun Neftçala Sənaye Məhəlləsində yerləşməsi və bununla da zəruri infrastruktur xərclərindən azad olması, eyni zamanda, müəssisəmizə investisiya təşviqi sənədinin verilməsi nəticəsində ümumilikdə 8 milyon manat vəsaitə

qənaət olunub. Bütün bunlar və digər güzəştlər avtomobillərin istehsalında və daha ucuz qiymətlə satışında önəmli göstəricilərdir.

Cənab Prezident, Sizin 2017-ci ilin sentyabr ayında Neftçala rayonuna səfəriniz çərçivəsində zavodumuzda olarkən verdiyiniz tövsiyələr əsasında «Xəzər» Avtomobil zavodunda işləyəcək əməkdaşlar peşəkarlıq səviyyələrini və təcrübələrini artırmaq üçün İran İslam Respublikasına ezam edildilər. Onlar avtomobil istehsalı sahəsində xüsusi təlimlər keçməklə, sertifikatlar əldə etdilər.

Möhtərəm cənab Prezident, Siz və İran Prezidenti 2018-ci ilin mart ayının 29-da Azərbaycan–İran biznes-forumunda «Xəzər» Avtomobil zavodunun rəsmi açılışını etdiniz. Bu gün zavodda 200-ə yaxın Neftçala sakini işlə təmin edilib, istehsal həcmi artdıqca, bu say 300 nəfərə çatacaqdır. «Made in Azerbaijan» brendi altında «Xəzər» Avtomobil zavodunda istehsal edilən avtomobillər «Avro-5» və beynəlxalq təhlükəsizlik standartlarına tam uyğundur. Zavod 2018-ci ilin sonuna kimi qarşısına qoyduğu məqsədi tam yerinə yetirib. Belə ki, ötən il zavodda 1000-dən artıq avtomobil istehsal olunub. Bu avtomobillərin 95 faizi satılıb. Qeyd etmək istərdim ki, Azərbaycan istehsalı olan bu avtomobillərin alışının 40 faizi dövlət qurumlarının payına düşübsə, 60 faizi əhali tərəfindən alınıb ki, bu da istehsal edilən avtomobillərin rəqabətqabliyyətli olmasının göstəricisidir.

«Xəzər» Avtomobil zavodunda 2019-cu ilin fevral ayından artıq ilk «Peugeot» markalı avtomobillər istehsal xəttindən satışa çıxacaqdır. İstehsala başlamaq üçün artıq bütün zəruri avadanlıqlar quraşdırılıb. 2019-cu ilin sonlarından etibarən isə «Khazar» avtomobillərinin ehtiyat hissələrinin bir hissəsini Azərbaycanda istehsal etməyi planlaşdırırıq.

Cənab Prezident, bir məsələni də xüsusilə vurğulamaq istərdim ki, zavodun işə düşməsi ilə ilk dəfə olaraq, Azərbaycan avtomobil istehsalı ölkəsi kimi tanınıb və «Khazar» avtomobillərinə BAN nömrə alınaraq, beynəlxalq sistemə daxil edilibdir. Bunun nəticəsi olaraq, Azərbaycan avtomobil istehsalçısı olan ölkə kimi, ilk dəfə 2018-ci ilin avqust–sentyabr aylarında Dünya Avtomobil İstehsalçıları Təşkilatının dəstəyi ilə Moskvada «Krokus Ekspo» Sərgi Mərkəzində keçirilən beynəlxalq avtomobil sərgisinə dəvət alıb və bizim «Khazar» avtomobilləri sərgidə nümayiş edilib, böyük maraqla qarşılanıbdır.

Azərbaycanda avtomobil sənayesinin inkişaf etdirilməsinin məntiqi davamı olaraq, 2018-ci il sentyabrın 1-də, cənab Prezident, Sizin Rusiya Federasiyasına rəsmi səfəriniz zamanı Soçi şəhərində Qorki Avtomobil zavodu və «Azərmaş» ASC arasında əməkdaşlıq haqqında Memorandumun imzalanmasını xüsusilə qeyd etmək istərdim. Memorandum Hacıqabul Sənaye Məhəlləsinin ərazisində QAZ markalı yüngül tonnajlı avtomobillərin və xüsusi təyinatlı texnikanın birgə istehsalına başlanılmasını nəzərdə tutur.

Möhtərəm cənab Prezident, rəhbərliyinizlə ölkədə biznes mühitinin daim yaxşılaşdırılması istiqamətində atılan addımları dəstəkləyir, Sizə çoxsaylı kollektivimiz adından təşəkkürümü bildirirəm. Əmin edirəm ki, Azərbaycanın yeni brendi olan «Khazar» avtomobilləri ölkəmiz və iqtisadiyyatımız üçün faydalı olacaq. Bunun üçün daim işləməyə və yüksək nəticələr göstərməyə hazırıq. Diqqətinizə görə çox sağ olun.

**E l x a n U s u b o v** *(Şəki Şəhər İcra Hakimiyyətinin başçısı)*: Möhtərəm cənab Prezident!

Hörmətli konfrans iştirakçıları!

Bu gün regionların sosial-iqtisadi inkişafı ilə bağlı sayca üçüncü Dövlət Proqramının icrasının yekunlarını müzakirə edirik. Qeyd etmək yerinə düşər ki, birinci Dövlət Proqramı ilə üçüncü proqram arasında çox böyük fərqlər vardır. Bu proqramlarda qarşımızda müxtəlif vəzifələr qoyulmuşdur. Nəzərdə tutulan tədbirlərin uğurlu icrası nəticəsində Şəki şəhərinin də davamlı inkişafı təmin edilib, insanların rahat yaşaması, rayonun aqrar və turizm potensialından daha səmərəli istifadə olunması üçün mühüm işlər görülübdür. Bu illər ərzində 41 məktəb, 18 uşaq bağçası, 6 səhiyyə və 11 mədəniyyət müəssisəsi tikilib və ya əsaslı təmir olunub, Şəki şəhərinin su təchizatı və kanalizasiya sisteminin yenidən qurulması davam etdirilib, yaşayış məntəqələrinin 86 faizi qazlaşdırılıb, yüksəkkeyfiyyətli yollar çəkilib, ən müasir tələblərə cavab verən mehmanxanalar, istirahət mərkəzləri və komplekslər inşa edilib, son 5 ildə 14 minə yaxın yeni

iş yeri açılıbdır. Əhaliyə göstərilən dövlət xidmətlərinin keyfiyyətinin yüksəlməsində əvəzedilməz layihəniz olan «ASAN həyat» Mərkəzinin açılması isə sakinlərimiz üçün ən böyük hədiyyə olubdur.

Sizin diqqət və qayğınız sayəsində bu gün Şəki öz qədimliyini və tarixiliyini qorumaqla, yenidən qurulur, şəhərimizin küçələri, tarixi binaları, evləri bərpa edilir. Şəkiyə gələn hər bir qonaq sanki şəhərin qədim keçmişi ilə üzləşir. Sizin tarixi şəhərlərə və burada xalqımızın yaşatdığı zəngin mədəni irsin qorunub saxlanılmasına göstərdiyiniz böyük qayğı və diqqətin nəticəsidir ki, bu gün Şəki açıq səma altında bir muzeydir. Cənab Prezident, Sizin Şəki şəhərinin tarixi hissəsinin qorunması ilə bağlı əlavə tədbirlər haqqında imzaladığınız sərəncam rayonumuzda turizmin inkişafında yeni bir mərhələnin başlanmasına təkan veribdir.

Hər il şəhərimizdə keçirilən «İpək yolu» Beynəlxalq musiqi festivalında dünya musiqi sənətinin parlaq incilərindən ibarət müxtəlif konsert proqramları bizə həmişə xoş bayram ovqatı bəxş edir. Bu möhtəşəm musiqi bayramının iştirakçıları, şəhərin qonaqları, musiqisevərlər etiraf edirlər ki, Şəki beynəlxalq festivalların, tədbirlərin keçirilməsi üçün ideal məkandır. Festival günlərində təşkil olunmuş konsert proqramları şəhər sakinlərinin dünyagörüşünün, həyat tərzinin və musiqi mədəniyyətinin zənginləşməsinə mühüm təsir göstərir. Şəkidə mütəmadi olaraq keçirilən beynəlxalq festivallar şəhərin turizm potensialının genişləndirilməsində və regionun beynəlxalq

səviyyədə tanınmasında mühüm rol oynayır. Nəticədə Şəki turistlər üçün daha da cəlbedici məkana çevrilib, son 5 ildə rayona gələn turistlərin sayı 7 dəfədən çox artaraq, 200 min nəfərə çatıbdır.

Sizin dəstəyiniz və təşəbbüsünüz nəticəsində şəhərimizin beynəlxalq səviyyədə də tanıdılması istiqamətində mühüm işlər görülür. Belə ki, Şəkinin xalq tətbiqi sənəti hər il Fransanın Kolmar şəhərində keçirilən Milad bazarında nümayiş olunur. 2008-ci ildən Dünya Tarixi Şəhərlər Liqasının üzvü olan Şəki şəhəri 2016-cı ildə «TÜRKSOY-un mədəniyyət paytaxtı» elan edilib, 2017-ci ildə isə UNESKO-nun Yaradıcı Şəhərlər Şəbəkəsinə daxil olunubdur. Hazırda Azərbaycan Respublikasının Birinci vitse-prezidenti hörmətli Mehriban xanım Əliyevanın təşəbbüsü və rəhbərliyi ilə Şərq memarlığının nadir incisi hesab olunan «Xan sarayı» ilə birgə Şəkinin tarixi mərkəzinin UNESKO-nun Ümumdünya İrs Komitəsinin siyahısına daxil edilməsi üçün iş aparılır.

Hörmətli cənab Prezident, Şəki həm də tarixən ipəkçilik diyarı kimi tanınır. Sizin «Azərbaycan Respublikasında ipəkçiliyin maddi-texniki bazasının yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında» imzaladığınız sərəncam respublikamızda ipəkçiliyin müasir infrastrukturunun yaradılması istiqamətində atılan mühüm addımdır. Məhz Sizin təşəbbüsünüzlə həyata keçirilən operativ tədbirlər nəticəsində bu sahədə ciddi dönüş yaranıb, «Azər İpək» MMC öz fəaliyyətini bərpa edib, ötən il 514 ton yaş barama tədarük olunubdur. İpəkçiliyin inkişafı sahəsində görülən

tədbirlər şəhər əhalisinin məşğulluq probleminin həll olunmasında mühüm rol oynayıb. Hazırda müəssisədə 600 nəfərə yaxın işçi çalışır ki, onun da əksəriyyətini qadınlar təşkil edir. Artıq keyfiyyətli Şəki ipəyindən istehsal olunan müxtəlif məhsulların Avropa bazarlarına çıxarılması istiqamətində iş aparılır. Milli mədəniyyətimizin ayrılmaz tərkib hissəsi olan ipəkçiliyin inkişafı barama istehsalının artırılmasını tələb edir. Bu məqsədlə yem bazasının genişləndirilməsi üçün son 3 ildə 376 min tut tingi əkilib. Rayonda 2018-ci ildə 48 ton barama istehsal edilib, 2851 nəfər işlə təmin olunub, kümçülər ümumilikdə 400 min manatdan çox gəlir əldə ediblər.

Möhtərəm cənab Prezident, Sizin tütünçülüyün inkişafına göstərdiyiniz diqqət və qayğı nəticəsində yerlərdə istehsalçılar arasında bu sahəyə maraq artıb, 2018-ci ildə 2977 ton quru tütün istehsal olunub, 2000 nəfərə yaxın insan işlə təmin edilib, orta məhsuldarlıq 33,9 sentner təşkil edibdir. Bu il 1030 hektar sahədə tütün əkini proqnozlaşdırılır. Tütün istehsalı sahəsində fərqləndiyinə görə rayonumuzun sakini Mustafayev Əlövsət Əmir oğlunun Sizin sərəncamınızla 2-ci dərəcəli «Əmək» ordeni ilə təltif olunması tütünçülərimizin əməyinə verilən ən böyük qiymətdir.

Cənab Prezident, Şəkinin hər bir sakini Sizin onlara səmimi münasibətinizi, qayğınızı yüksək qiymətləndirir. İcazə verin, Şəkiyə göstərdiyiniz yüksək diqqət və qayğıya görə Sizə bütün şəkililərin dərin minnətdarlığını çatdırım və əmin edim ki, bundan sonra da qarşımıza qoyduğunuz vəzifə və tapşırıqların

icrası üçün əlimizdən gələni edəcəyik. Allah Sizi qorusun.

**E l ç i n  B a ğ ı r o v** (*«Naxçıvan Bağları» Məhdud Məsuliyyətli Cəmiyyətin direktoru*): Möhtərəm Prezident!

Sizin rəhbərliyinizlə Azərbaycan inkişaf edərək, dünya ölkələri içərisində öz layiqli yerini tutub. Qəbul olunan dövlət proqramlarının icrası ölkəmizin bütün regionlarının tarazlı inkişafını təmin edib, əhalinin həyat səviyyəsini xeyli yüksəldibdir. Sizin qayğınızla Naxçıvan Muxtar Respublikası da davamlı inkişafa qovuşub. Bu gün muxtar respublikada inkişafın əsas göstəriciləri olan enerji və ərzaq təhlükəsizliyi tam təmin olunub. Aqrar sektora tətbiq edilən güzəştlər bu sahənin inkişafını stimullaşdırıb, innovativ texnologiyalardan istifadə məhsuldarlığını artırmaqla yanaşı, torpaqlardan səmərəli istifadə olunmasına da şərait yaradıbdır.

Ölkəmizdə yaradılmış əlverişli biznes mühiti bütün sahibkarlar kimi, bizə də fəaliyyətimizi genişləndirməyə, yeni istehsal sahələri yaratmağa imkanlar açıb. 2011-ci ildə dövlətin maliyyə dəstəyi ilə istixana kompleksi yaradıb, əhalinin keyfiyyətli tərəvəz məhsullarına olan tələbatının ödənilməsinə öz töhfəmizi verməyə başladıq. Kompleksin yaradılmasına Sahibkarlığın İnkişaf Fondundan 3 milyon 250 min manat güzəştli kredit ayrılıb, özəl investisiyamız 2 milyon manat təşkil edibdir. Bu maliyyə dəstəyi Türkiyə, İspaniya, İsrail və İtaliya istehsalı olan yeni avadanlıqların və müasir texnologiyanın tətbiqinə,

müəssisəmizin istehsal gücünün və rəqabətqabliyyətliliyinin artırılmasına şərait yaradıb. Sahibkarlığa göstərilən dövlət qayğısından bəhrələnərək, ilkin mərhələdə 12 min kvadratmetr sahədən ibarət olan istixana kompleksini genişləndirərək, 60 min kvadratmetrə, illik məhsul istehsalını isə intensiv üsullardan istifadə etməklə, 250 tondan 1200 tona yüksəltmişik.

Bundan əlavə, Kəngərli, Şahbuz, Ordubad rayonlarında 50 hektar açıq sahədə intensiv üsullarla tərəvəz və digər kənd təsərrüfatı bitkilərinin əkinini həyata keçiririk. İstehsal olunan məhsulların ixracının stimullaşdırılması istiqamətində müəyyən etdiyiniz strategiya və göstərdiyiniz qayğı ixrac imkanlarının artmasına şərait yaradıb. Hazırda mövcud istixana kompleksində istehsal etdiyimiz məhsullar muxtar respublikada əhalinin tələbatının ödənilməsi ilə yanaşı, Rusiya Federasiyasına da ixrac olunur. Gələcək hədəflərimiz ixrac coğrafiyamızı daha da genişləndirərək, digər xarici ölkələrin bazarlarına çıxmağa nail olmaqdır.

Sahibkarlığın inkişafına göstərilən dövlət qayğısı və real layihələrin icrası əhalinin məşğulluğunun təmin edilməsinə, yeni iş yerlərinin açılmasına stimul verib. Hazırda müəssisəmizdə 51 nəfər daimi işlə təmin olunubdur.

Bütün bunlar regionların sosial-iqtisadi inkişafına, sahibkarlar üçün əlverişli şəraitin yaradılmasına göstərdiyiniz qayğının nəticəsidir.

Möhtərəm Prezident, göstərdiyiniz hərtərəfli qayğıya görə muxtar respublika sahibkarları adından Sizə dərin minnətdarlığımı və ehtiramımı bildirirəm.

**Ş a h i n  M ə m m ə d ov** (*Ağcabədi Rayon İcra Hakimiyyətinin başçısı*): Möhtərəm cənab Prezident!

Hörmətli konfrans iştirakçıları!

Ölkəmizin hər yerində olduğu kimi, regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramında Ağcabədi rayonu üzrə nəzərdə tutulmuş bütün tədbirlər Sizin diqqət və qayğınız nəticəsində uğurla həyata keçirilib və rayonumuz daha da inkişaf edərək, abad bir diyara çevrilib, sakinlərimizin maddi rifah halı əhəmiyyətli dərəcədə yüksəlibdir. Aqrar sahənin inkişaf etdirilməsi üçün yaradılmış münbit şərait, Sizin çox böyük uzaqgörənliklə müəyyən etdiyiniz və həyata keçirdiyiniz iqtisadi kurs və mühüm dövlət tədbirləri rayonumuzda da öz müsbət nəticələrini verib, kənd təsərrüfatının mühüm sahəsi olan pambıqçılığın sürətli inkişafını təmin edibdir. Fermerlərin, sadə kənd adamlarının torpağa bağlılığı artdıqca, onlar Sizin qayğınızı daha çox hiss edir, dövlətin bu sahəyə dəstəyindən bəhrələnirlər. Son illərdə pambıq istehsalı 10 dəfə artaraq, 23,3 min tona çatıb, hər hektardan orta məhsuldarlıq isə 1,5 dəfə artaraq, 23,3 sentner təşkil edibdir. Mövsümi işlərə 22 min nəfərə yaxın kənd sakini cəlb olunub və onlar pambıqçılıqdan yüksək gəlir əldə ediblər. Sizin ölkənin müxtəlif regionlarında kənd təsərrüfatının ayrı-ayrı sahələri üzrə keçirdiyiniz müşavirələr aqrar sahənin inkişafına öz töhfəsini verib. Qısa müddətdə bütün sahələr üzrə çox yüksək

nəticələr əldə edilib. Bu müşavirələrdə qaldırılan problemlər dərhal həll olunur. Ağcabədinin timsalında deyə bilərəm ki, ötən il rayonumuza xeyli miqdarda kənd təsərrüfatı texnikası verilib ki, bu da uğurların əldə olunmasında mühüm rol oynayıbdır.

Kənd təsərrüfatı sahəsində xidmətləri olan şəxslərin təltif edilməsi ilə bağlı müvafiq sərəncamınızla fermerlərimiz Tofiq İsmayılov və İsgəndər Hüseynov 1-ci dərəcəli «Əmək» ordeni ilə təltif olunublar. Bu da rayonumuzun əhalisi tərəfindən pambıqçılara verilən yüksək qiymət kimi dəyərləndirilir və daha çox məhsul əldə etmək üçün sağlam rəqabət yaradır. Kənd təsərrüfatı üçün ənənəvi sahələrdən biri olan baramaçılığın inkişafına göstərilən dövlət dəstəyi bu sahənin yenidən dirçəldilməsini şərtləndirib, kümçülərdə böyük ruh yüksəkliyi yaradıbdır. Nəticədə rayonda 2018-ci ildə əvvəlki ilə nisbətən 2,2 dəfə çox – 37 ton barama istehsal olunaraq, təhvil verilib, kümçülər 330 min manatdan artıq gəlir əldə ediblər. Cari ildə isə hədəfimiz barama istehsalının 50–60 tona çatdırılmasıdır. Baramaçılığın yem bazasının yaradılması istiqamətində də işlər davam etdirilib, son 3 ildə 389 min tut tingi əkilibdir. Ötən il taxılçılıq sahəsində də çox böyük uğurlar əldə edilib. Belə ki, əhali təsərrüfatlarında buğdanın məhsuldarlığı hektarda 46,6 sentner olmaqla, rayon üzrə 107 min ton taxıl istehsal edilib. Heyvandarlıq sahəsinin də inkişafı diqqət mərkəzində saxlanılıb. Sizin qayğınız sayəsində rayonda «Aqat Aqro» MMC kimi iri heyvandarlıq kompleksi və ATENA Süd Emalı zavo-

du yaradılıb. 2018-ci ildə kənd təsərrüfatına ümumilikdə 55 min nəfərdən çox işçi cəlb olunub ki, bu da rayon üzrə məşğul əhalinin 51 faizini təşkil edir.

Ötən ilin noyabr ayında Sizin Ağcabədi pambıqçıları ilə görüşünüzü və Qarabağ Atçılıq Kompleksinin açılışında iştirakınızı ağcabədililər məmnunluqla xatırlayırlar. Hesab edirik ki, Qarabağ atlarının dünyada tanıdılması və həmin sahə üzrə turizmin inkişafı ilə bağlı tapşırıqlarınızın icrası rayonumuzun tərəqqisinə yeni töhfələr verəcəkdir. Sizin diqqət və qayğınız nəticəsində rayonumuzda abadlıq və quruculuq işləri, sosial layihələrin icrası da sürətlə davam etdirilib, 45 mindən artıq şəhər əhalisi fasiləsiz içməli su ilə təmin edilib, qazlaşdırılmanın səviyyəsi 92 faizə çatıb, kəndlərarası avtomobil yolları çəkilibdir. Bu il tikintisi başa çatdırılacaq ictimai xidmətlər sahəsində inqilabi layihə olan «ASAN xidmət» Mərkəzinin istifadəyə verilməsi nəinki rayonumuzun, həmçinin bölgənin əhalisinə böyük töhfə olacaqdır.

Bütövlükdə son 5 ildə rayona 614 milyon manat investisiya qoyulub, ümumi məhsul buraxılışı 2,7 dəfə, kənd təsərrüfatı məhsullarının istehsalı isə 1,9 dəfə artıbdır. Cənab Prezident, Sizin müntəzəm olaraq bölgələrə səfərləriniz, o cümlədən cəbhəyanı ərazilərdə olmağınız əhali arasında torpağa bağlılığı, qurub-yaratmaq həvəsini, sabaha inamı və ölkənin işıqlı gələcəyinə ümidi artırır. Biz ağcabədililər Sizin böyük diqqət və qayğınıza bundan sonra da əməli işlərimizlə cavab verəcək, ulu öndər Heydər Əliyevin müəy-

yənləşdirdiyi inkişaf strategiyasının, müstəqil dövlətimizin gələcəyi üçün apardığınız möhtəşəm siyasətin həyata keçirilməsində Sizi daim dəstəkləyəcəyik. Diqqətinizə görə sağ olun.

**T a c ə d d i n  M u s t a f a y e v** (*Ağstafa rayonunda «Saloğlu» mebel firmasının direktoru*): – Möhtərəm cənab Prezident!

Hörmətli konfrans iştirakçıları!

Müasir dünyamızın tələblərinə uyğun çevik iqtisadi siyasətiniz və bilavasitə rəhbərliyinizlə aparılan genişmiqyaslı islahatlar nəticəsində ölkədə qeyri-neft sektorunun inkişafı sürətlənib, davamlı sosial-iqtisadi inkişafa nail olunub, əhalinin həyat səviyyəsi daha da yaxşılaşıbdır. Ölkədə aparılan dayanıqlı iqtisadi siyasət, əlverişli biznes mühitinin formalaşması xarici investorların böyük marağına səbəb olub. Əldə olunan bütün bu nailiyyətlər, cənab Prezident, Sizin fədakar əməyinizin və apardığınız uğurlu siyasətin nəticəsidir.

Hörmətli cənab Prezident, rəhbərlik etdiyim «Saloğlu» firması 2002-ci ildən fəaliyyət göstərir. Məmnuniyyətlə qeyd etməliyəm ki, Sizin apardığınız iqtisadi siyasət ölkəmizdə bütün sahibkarların fəaliyyətinə stimul verdiyi kimi, mənim də sahibkarlıq fəaliyyətimin genişlənməsində müstəsna rol oynayıb. Fəaliyyətimizi diqqətdə saxlamağınızla, hər zaman yanımızda olmağınızla, verdiyiniz dəyərli məsləhətlərinizlə, xüsusilə 2004-cü ildə firmaya məxsus Yumşaq mebel fabrikinin, 2016-cı ildə isə «Modern» mebel fabrikinin açılışını etməklə, «Venzana» mebel fabrikinin təməlini qoymaqla, bizə

böyük sevinc hissi yaşatmısınız. Zamanın tələbinə uyğun olaraq, verdiyiniz müdrik qərarlar, həyata keçirdiyiniz islahatlar yerli istehsalın getdikcə daha da güclənməsinə təkan verir. Hazırda istehsal etdiyimiz məhsullar daxili bazarla yanaşı, Rusiya, Qazaxıstan və Gürcüstana da ixrac olunur. Möhtərəm cənab Prezident, hazırda 400 nəfərlik kollektivlə fəaliyyət göstəririk. Müəssisəmizə son səfəriniz zamanı verdiyiniz tövsiyələrdən sonra istehsal sahələrimizi genişləndirməklə, 2500 iş yerinin açılmasını hədəf götürdük. Bu istiqamətdə ilkin olaraq ümumi sahəsi 17500 kvadratmetr olan yeni Mebel fabrikinin tikintisinə başlamışıq. Layihənin ümumi dəyəri 25 milyon manat təşkil edir. Layihə üzrə ildə orta hesabla 31 min dəst qonaq, yataq və yumşaq mebel istehsal olunacaq. Dövlətimizin dəstəyi ilə layihəyə 10 milyon manat güzəştli kredit ayrılıb, dünyanın ən qabaqcıl texnoloji avadanlıqlarının alınması üçün Almaniyanın «HOMAG Group» şirkəti ilə müqavilə imzalanıb və tezliklə avadanlıqlar Azərbaycana gətiriləcəkdir. Sizin ölkəmizdə sahibkarlar üçün yaratdığınız əlverişli şəraitin nümunəsi olaraq, 11 milyon manat dəyərində istehsal avadanlıqlarının idxalı zamanı gömrük rüsumu və vergidən azad olunması üçün müəssisəmizə investisiya təşviqi sənədi verilib ki, bundan əldə olunan qənaət yenə də istehsal fəaliyyətimizin genişləndirilməsinə yönəldiləcəkdir. Bu da biz istehsalçılara göstərilən genişmiqyaslı dövlət dəstəyinin bir nümunəsidir. İlin sonunadək yeni Mebel fabrikinin yaradılması başa çatdırılaraq, 2020-

ci ilin ilk rübündə Avropanın bir çox ölkələrinə «made in Azerbaijan» brendi ilə mebel ixrac edəcəyik ki, bu da regionda yaşayan əhalinin məşğulluğunun təmin edilməsi, yüksəkixtisaslı kadrların hazırlanması ilə yanaşı, rayonumuzun ixrac potensialının artırılmasına şərait yaradacaqdır. Bu hədəfə nail olmaq üçün dövlətimizin bizə verdiyi dəstəyə görə Sizə dərin təşəkkürümüzü bildiririk.

Cənab Prezident, sahibkarlığın inkişafı ilə bağlı son fərman və sərəncamlarınız, yaratdığınız əlverişli biznes mühiti sahibkarları yeni layihələrin həyata keçirilməsinə ruhlandırır. Sizi əmin edirik ki, iqtisadiyyatımızın inkişafı, xalqımızın rifah halının daha da yaxşılaşdırılması və Vətənimizin qüdrətlənməsi istiqamətində göstərdiyiniz böyük diqqət və qayğıya öz əməli fəaliyyətimizlə cavab verəcəyik. Diqqətinizə görə çox sağ olun.

**R a f i l  H ü s e y n o v** (*Masallı Rayon İcra Hakimiyyətinin başçısı*): Möhtərəm cənab Prezident! Hörmətli konfrans iştirakçıları!

Ölkənin ahəngdar inkişafını təmin edən, dəqiq hesablanmış regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrası bütün bölgələrdə olduğu kimi, Masallı rayonunun da inkişafına güclü təkan verib. Sizin birbaşa köməyiniz, rayona etdiyiniz səfərlər zamanı verdiyiniz tapşırıqlar nəticəsində Dövlət Proqramında Masallı rayonu üzrə həlli nəzərdə tutulmuş tədbirlərdən qat-qat artıq işlər görülüb. Masallı Sənaye Məhəlləsi kimi böyük bir kompleksin Sizin sərəncamınızla 2016-cı ildə inşasına başlanılması və

xeyir-duanızla keçən il istifadəyə verilməsi bunun ən bariz nümunəsidir. İndi rayonun bütün inkişaf parametrlərinə ciddi təsir göstərən, 10 hektar sahədə salınmış məhəllədə rezidentlərin hamısı uğurla fəaliyyətə başlayıb, ən əsası, ilkin olaraq 200 nəfərdən çox gənc müasir texnologiya, yüksək istehsal şəraiti və əməkhaqqı ilə təmin olunubdur. Yaxın vaxtlarda onların sayının bir neçə dəfə artacağı gözlənilir.

Şüşə, yağ-pendir və digər məhsulların istehsalı məqsədilə öz vəsaitləri hesabına 2 yeni korpusun tikilməsi üçün müraciət etmiş digər sahibkarların təklifləri qəbul edilib. Ölkə iqtisadiyyatının şaxələndirilməsi ilə qeyri-neft sektorunun və regionların inkişaf etdirilməsi siyasətinizin məntiqi nəticəsi olaraq, hesabat dövründə 572 istehsal və xidmət obyekti istifadəyə verilib, müasir Çəltik zavodu işə salınıb, «Embavood» mebel fabrikində və Masallı Kərpic zavodunda yeni istehsal sahələri yaradılıb, sənaye məhsulları istehsalı ümumilikdə 77 faiz artıbdır. Azərbaycan brendi ilə hər il Masallıdan xarici ölkələrə 15 milyon manatlıqdan artıq sənaye məhsulları ixrac olunur.

Respublikanın ən aztorpaqlı rayonları sırasında olan Masallıda bu gün də iqtisadiyyatın və əhalinin məşğulluğunun əsasını aqrar sahə təşkil edir. Bu sahədə qəbul etdiyiniz qərarların, imzaladığınız sərəncamların verdiyi imkanlardan bəhrələnən torpaq mülkiyyətçilərində həm də əsl sahibkarlıq, təsərrüfatçı psixologiyası formalaşmaqdadır. Onlar artıq öz gəlirçıxarlarını hesablamağa, daha faydalı sahələrə üstünlük verməyə başlayıblar. Sizin tapşırığınızdan

sonra mütəxəssislərin və mülkiyyətçilərin təklifi ilə əkin strukturunda qeyri-rentabelli sahələr azaldılıb, əməktutumlu, daha gəlirli, bazarda çox tələbat duyulan və Masallının torpaq-iqlim şəraitinə uyğun olan tərəvəz, faraş kartof, çəltik, giləmeyvə kimi bitkilərin əkinləri xeyli genişləndirilib, 100 hektar sahədə çay plantasiyası salınıbdır.

Aqrar bölmədə böyük canlanma yaranıb, kəndlərdən şəhərlərə gedən insanlar artıq yenidən torpağa üz tuturlar. Son 2 ildə rayon üzrə əkin sahələri 18 min hektara çatdırılıb ki, bu da sovet dönəmindəki ən yüksək göstəricidən çoxdur. Nəticədə təsərrüfatda çalışanların sayı 2,5 dəfə artıb, bütün istehsal olunan məhsulların isə üçdəbiri ixrac edilir.

Ötən il Masallıya səfəriniz zamanı kənd əməkçilərinin xahişini nəzərə alaraq, 3000 hektardan artıq əkin sahəsinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması məqsədilə 37 sututarda təmir-bərpa işlərinin aparılmasına dair verdiyiniz sərəncamla ayrılmış vəsait hesabına işlərə başlanılıb, əlavə 8 milyon kubmetr suvarma suyu əldə etməyə və elə bu il həmin ərazilərdə çəltik və çay əkinləri aparmağa imkan yaranacaqdır.

Sizin diqqət və qayğınız sayəsində rayonumuzda tikinti-abadlıq işləri də geniş vüsət alıb, böyük infrastruktur layihələri həyata keçirilibdir. Sizin tapşırığınızla tikilmiş və açılışında iştirak etdiyiniz, masallılıların qürur duyduğu «ASAN həyat» Kompleksi indi bütün regionun əhalisinə xidmət göstərir. Çoxsaylı təhsil, səhiyyə, mədəniyyət, idman obyektləri tikilib, parklar, meydanlar, prospektlər salınıb, şəhərin su-kanalizasiya sistemi

yenidən qurulubdur. Rayonun Muğan zonası kəndlərinə tapşırığınızla çəkilən içməli su artıq ilkin olaraq 5 yaşayış məntəqəsinə verilib. Yüz illər boyu içməli suyu uzaq məsafədən nəqliyyatla daşımaq məcburiyyətində qalan sakinlər Sizə öz sonsuz minnətdarlıqlarını bildirirlər.

Rayonda qazlaşdırılma 97 faizə, kənd yollarının asfaltlaşdırılması işləri 85 faizə çatıb, 22 yaşayış məntəqəsində elektrik təsərrüfatı tam yenidən qurulubdur. Bir rayonun timsalındakı bu faktlar bütövlükdə respublikada gedən əzəmətli inkişafın mənzərəsini qısa da olsa, xarakterizə edir. Bütün bunlar ardıcıl surətdə apardığınız siyasətin təntənəsi və masallılılara göstərdiyiniz diqqət və qayğının bəhrəsidir. Göstərdiyiniz bu böyük qayğıya görə Sizə və Mehriban xanım Əliyevaya dərin minnətdarlığımızı çatdırmaq istəyirəm.

Möhtərəm cənab Prezident, Sizi əmin etmək istəyirəm ki, müstəqil Azərbaycanın tərəqqisi naminə qarşıya qoyduğunuz vəzifələrin həyata keçirilməsi üçün bundan sonra da biz masallılılar bütün qüvvə və bacarığımızı sərf edəcəyik. Diqqətinizə görə sağ olun.

**R ə c ə b  O r u c o v** (*İmişli rayonunda «Muğan Aqroservis» iri toxumçuluq təsərrüfatının direktoru*):

Möhtərəm cənab Prezident!

Hörmətli konfrans iştirakçıları!

Əvvəlcə rəhbərliyinizlə əhalinin ərzaq məhsulları ilə etibarlı təminatı və regionların sosial-iqtisadi inkişafı sahəsində həyata keçirilən ardıcıl və genişmiqyaslı işlərə, hər zaman hiss etdiyimiz diqqət və qayğınıza görə iş adamları adından, cənab Prezident,

Sizə dərin minnətdarlığımı bildirirəm. Sizin tapşırıqlarınıza uyğun olaraq, ölkəmizdə qabaqcıl texnologiya və elmi əsaslara söykənən təcrübənin tətbiqinə əsaslanan, rəqabətqabliyyətli məhsul istehsalında, emal sənayesinin davamlı olaraq yüksəkkeyfiyyətli və maya dəyəri aşağı xammalla təmin olunmasında, ərzaq bolluğu ilə yanaşı, regionlarda məşğulluğun artırılmasında əhəmiyyətli rola malik olan aqroparklar və iri fermer təsərrüfatları yaradılır. Belə təsərrüfatlardan biri də İmişli rayonu ərazisində 572 hektar sahədə yaradılmış «Muğan Aqroservis» MMC-yə məxsus taxıl toxumçuluğu təsərrüfatıdır. Məqsədimiz rayonlaşdırılmış, xəstəliklərə və ziyanvericilərə qarşı daha dözümlü və yüksək məhsuldarlığa malik taxıl toxumçuluğu üzrə ixtisaslaşmış innovativ təsərrüfatın yaradılması olubdur.

Ötən təsərrüfat ilində 1200 tondan artıq birinci və ikinci reproduksiyalı, yüksək kondisiyalı, torpaq və iqlim şəraitinə tam uyğunlaşdırılmış yerli sortlarla bərabər, Fransa və İtaliya mənşəli buğda və arpa sortlarından da toxum materialları istehsal edilib. İstehsal olunmuş toxum materialları ölkəmizin müxtəlif regionlarında fəaliyyət göstərən torpaq mülkiyyətçilərinə satılıb və onlar tərəfindən hər hektardan orta hesabla 50 sentnerdən artıq yüksəkkeyfiyyətli məhsul əldə edilibdir.

Təsərrüfatımızın ərazisinin 200 hektarında ABŞ istehsalı olan 4 müasir pivot suvarma sistemi quraşdırılıb və 352 hektar ərazidə 5 müasir pivot suvarma sisteminin quraşdırılması üzrə layihələndirmə işləri

yekunlaşdırılıbdır. Dövlətimizin sahibkarlığın inkişafına yönələn genişmiqyaslı dəstək mexanizmlərindən yararlanaraq, gələcəkdə əkin sahələrimizin daha da genişləndirilməsi istiqamətində müvafiq işlər aparırıq.

Təsərrüfatımız ümumi sahəsi 2000 kvadratmetr olan anbar binası, 3 kombayn, 8 traktor, 22 müxtəlif çeşidli aqreqat, 2 toxumtəmizləyən və çeşidləyən avadanlıqlarla təchiz edilib ki, bu da texnika parkımızın mövcud imkanlarından istifadə etməklə, öz təsərrüfatımızla yanaşı, digər fermerlərə də aqroservis xidməti göstərməyə imkan yaradır.Taxıl toxumçuluğu üzrə ixtisaslaşmış təsərrüfatımızda günün tələblərinə uyğun milli kadrların hazırlanması, qabaqcıl beynəlxalq təcrübənin geniş tətbiqi və elmi araşdırmaların aparılması üçün mövcud bazamızda «Fermerlərə xidmət və aqroinformasiya məsləhət mərkəzi»nin yaradılması nəzərdə tutulur. Kənd təsərrüfatı məhsullarının istehsalı məqsədilə ölkəyə gətirilən texnika və avadanlıqlara gömrük vergi və rüsumları üzrə güzəştlərin tətbiqi üçün təşviq sənədinin verilməsi, dövlətin güzəştli kreditləri, texnika və avadanlıqların uzun müddətə və güzəştli şərtlərlə torpaq mülkiyyətçilərinə lizinq yolu ilə verilməsi, yanacaq-sürtkü materiallarına, mineral gübrələrə tətbiq olunan güzəştlər aqrotexniki tədbirlərin optimal müddətlərdə və yüksək keyfiyyətlə həyata keçirilməsinə, istehsalçıların maddi maraqlarının qorunmasına çox böyük stimul yaradır.

Möhtərəm cənab Prezident, göstərdiyiniz diqqət və qayğıya görə kollektivimiz adından dərin minnətdarlığımı bildirməklə, Sizi əmin etmək istəyirəm ki, iqtisadiyyatımızın inkişafı, xalqımızın rifah halının daha da yaxşılaşdırılması istiqamətində göstərdiyiniz fədakar fəaliyyətinizdə həmişə Sizin yanınızdayıq. Bundan sonra da əzmlə çalışaraq, üzərimizə düşən bütün vəzifələri layiqincə yerinə yetirəcək, ölkəmizdə rəqabətqabliyyətli və ixrac yönümlü məhsul istehsalının artırılmasına öz töhfəmizi verəcəyik. Diqqətinizə görə təşəkkür edirəm.

**Ş a i r A l x a s o v** (*Qusar Rayon İcra Hakimiyyətinin başçısı*): Möhtərəm cənab Prezident!

Hörmətli konfrans iştirakçıları!

Regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarının uğurlu icrası bütün bölgələrdə, o cümlədən Qusar rayonunda iqtisadiyyatın dirçəldilməsinə, əhalinin məşğulluq səviyyəsinin yüksəlməsinə və onların sosial problemlərinin həllinə güclü təkan verib. Sizin yorulmaz fəaliyyətiniz sayəsində gündən-günə yeniləşərək görkəmini tamamilə dəyişən Qusar rayonu da indi ən gözəl illərini yaşayır və inkişaf edir.

Cənab Prezident, füsunkar bir guşədə, dağlıq ərazidə yerləşən Qusar geniş turizm potensialına malikdir. Bu gün Qusarda yeni turizm və istirahət obyektləri yaradılır, hotellər inşa olunur, turizmin inkişafını sürətləndirən digər layihələr həyata keçirilir. Rayonun geniş imkanlarını nəzərə alaraq, məhz Sizin təşəbbüsünüz, möhkəm iradəniz və qətiyyətiniz sayəsində «Şahdağ» Turizm Mərkəzi kimi nəhəng kompleksin istifadəyə

verilməsi bu gün Qusarı ölkənin turizm mərkəzinə çevirib. Təsəvvür edə bilməzdik ki, heç bir infrastrukturu olmayan, sərt iqlimə malik bir yerdə belə möhtəşəm turizm kompleksi yaradılacaq. Bu gün Şahdağın ətəklərində yaradılmış belə bir kompleksi, rahat şəraiti görən insanlar böyük qürur hissi keçirirlər. Bu gün bura dünyanın bir çox ölkələrindən, həmçinin respublikamızın bütün bölgələrindən çoxlu sayda turistlər gəlir.

Müqayisə üçün bildirmək istəyirəm ki, rayonumuza gələn turistlərin sayı son 5 ildə 3 dəfədən çox artaraq, keçən il 200 min nəfərə çatıb. Önəmlisi isə odur ki, onların 20 min nəfəri xarici ölkələrdən gələn turistlərdir. Turizmin inkişafı isə öz növbəsində, ölkəmizin dünyada tanıdılmasında, iqtisadiyyatımızın güclənməsində və bölgədə vətəndaşların məşğulluğunun təmin olunmasında çox mühüm əhəmiyyətə malikdir.

Möhtərəm cənab Prezident, Dövlət Proqramının uğurla icrasının nəticəsidir ki, bütün respublikada olduğu kimi, rayonumuzun da iqtisadiyyatı yüksək templə inkişaf edir, əhalinin rifahı ilbəil yaxşılaşır, regionlarda müasir infrastruktur layihələri, yeni sosial obyektlərin tikintisi həyata keçirilir. Son illər rayonumuzun iqtisadiyyatının önəmli sahəsi olan kənd təsərrüfatının inkişafına xüsusi diqqət göstərilib, həyata keçirilmiş tədbirlər sayəsində kənd təsərrüfatının xüsusi çəkisi daha da yüksəlibdir. Göstərilən dövlət qayğısı sayəsində sahibkarların bu sahəyə marağı artıb, rayonda bir çox bağçılıq, bitkiçilik və heyvandarlıq təsərrüfatları yaradılıb və nəticədə 2013-

cü illə müqayisədə kənd təsərrüfatı məhsulları istehsalının həcmi 1,5 dəfə artıbdır.

Bu gün Qusar tarixi ənənələrini bərpa edir, rayonumuz bağlar diyarına çevrilir. Sizin regionlarda kənd təsərrüfatının müxtəlif sahələrinin inkişaf etdirilməsinə dair tapşırıqlarınızı rəhbər tutaraq, ixrac qabiliyyəti və bazar qiyməti yüksək olan, rayonun iqlim şəraitinə daha çox uyğun gələn fındıqçılığın inkişaf etdirilməsi ilə bağlı bir sıra mühüm tədbirlər həyata keçirilib. Münasib torpaq sahələri müəyyənləşdirilib, sahibkarlara zəruri təşkilati-texniki dəstək göstərilibdir. Nəticədə son 3 ildə rayonda mövcud fındıq bağlarının sahəsi 2 dəfədən çox artaraq, 6250 hektara çatıb, fındıq istehsalçılarının sayı 3,2 dəfə artıbdır. Bundan əlavə, son 5 ildə 2000 hektardan çox alma, gilas və digər meyvə bağları salınıb və rayon üzrə bu növ bağların sahəsi 4700 hektara çatdırılıbdır. Bu istiqamətdə tədbirlər davam etdirilməkdədir. Ötən il rayon üzrə ümumilikdə 24 min nəfər kənd təsərrüfatı sahəsində işlə təmin olunubdur.

Cənab Prezident, həyata keçirilən Dövlət Proqramına uyğun olaraq, ötən illər ərzində rayonda sutkalıq istehsal gücü 15 ton olan Çörək zavodu, illik istehsal gücü 300 min litr olan «Qusar-Şərab-1» MMC kimi sənaye müəssisələri və digər təsərrüfatlar yaradılıb. Nəticədə bu illər ərzində rayonda 5465-i daimi olmaqla, 6523 yeni iş yeri açılıb. Bunlardan əlavə, rayon ərazisində bir çox avtomobil yolları əsaslı təmir edilib, onlarla yaşayış məntəqəsi qazlaşdırılıb, Qusar şəhərinin içməli su və kanalizasiya şəbəkəsinin yenidən qurulması

işləri başa çatdırılıb, elektrik enerjisi təsərrüfatında əsaslı yenidən qurulma tədbirlərinə başlanılıbdır. Bütün bunlar son illər ərzində Qusar rayonunda iqtisadiyyatın inkişafı istiqamətində, eləcə də quruculuq sahəsində görülmüş işlərin yalnız bir qismidir.

Möhtərəm cənab Prezident, Qusar rayonuna göstərdiyiniz diqqət və qayğıya görə Sizə və Mehriban xanım Əliyevaya rayon ictimaiyyətinin dərin minnətdarlığını çatdırır və Sizi əmin edirəm ki, qusarlılar respublikamızın çiçəklənməsi, qüdrətlənməsi və abad bir diyara çevrilməsi naminə həyata keçirilən tədbirlərdə ön sıralarda olacaq, qarşıya qoyulan vəzifələrin öhdəsindən layiqincə gələcəklər. Diqqətinizə görə təşəkkür edirəm.

**N e m ə t  B a b a ş o v** (*«Hacıqabul Quşçuluq» MMC-nin direktoru*): Möhtərəm cənab Prezident!

Hörmətli konfrans iştirakçıları!

Müstəqil Azərbaycanın son illərdə qazandığı böyük uğurlar, hərtərəfli inkişafı biz sahibkarları ürəkdən sevindirir. Bu inkişaf hər sahədə hiss olunduğu kimi, kənd təsərrüfatında, o cümlədən ölkəmizin ərzaq təhlükəsizliyinin təmin olunmasında vacib rol oynayan quşçuluğun inkişafında da müşahidə edilir.

Cənab Prezident, tərəfinizdən qəbul edilmiş regionların sosial-iqtisadi inkişafı, eyni zamanda, digər sahəvi dövlət proqramlarına uyğun olaraq, son illərdə quşçuluğun inkişaf etdirilməsi məqsədilə verilmiş qərarlar, o cümlədən ölkəyə gətirilən quşçuluq məhsullarına spesifik rüsumların tətbiqi, quşçuluq

avadanlıqlarının idxal rüsumundan azad olunması, investisiya təşviqi sənədlərinin, quşçuluq təsərrüfatlarının yaradılmasına dövlətin güzəştli kreditlərinin verilməsi nəticəsində quş əti və əmtəəlik yumurta üzrə daxili tələbatın ödənilməsi ilə yanaşı, ixraca imkan verən istehsal gücü yaranıbdır. Belə quşçuluq təsərrüfatlarından biri də Hacıqabul rayonunda daxili imkanlarımızla yanaşı, dövlətin güzəştli kreditləri hesabına yaradılmış «Hacıqabul quşçuluq» Məhdud Məsuliyyətli Cəmiyyətdir.

Hörmətli cənab Prezident, regionların inkişaf etdirilməsi ilə bağlı Sizin tövsiyələrinizə uyğun olaraq, yaratdığımız quşçuluq təsərrüfatı müasir avadanlıqlarla təchiz edilib və regionda böyük istehsal gücünə malik kompleksə çevrilibdir. Azərbaycanda ən böyük əmtəəlik yumurta istehsalçılarından biri olan təsərrüfatımızda 600 işçi çalışır. Quşçuluq təsərrüfatımız 110 fermadan, birdəfəlik yumurta tutumu 1 milyon ədəd olan inkubator sahəsindən, ümumi tutumu 100 min ton olan müasir taxıl anbarından, saatda 45 ton istehsal gücü olan yem zavodlarından və digər köməkçi sahələrdən ibarətdir. Təsərrüfatın müasir texnologiyaların tətbiqi ilə qurulması və istehsal proseslərinin tam avtomatlaşdırılması yüksəkkeyfiyyətli və rəqabətqabliyyətli məhsul istehsalına zəmin yaradır. Nəticədə istehsalımız ildən-ilə artır. Məhsullarımız daxili bazarın təmin edilməsi ilə yanaşı, xarici bazarlara da ixrac olunur.

2018-ci ildə təsərrüfatımızda 2200 ton quş əti və 300 milyon ədəddən artıq əmtəəlik yumurta istehsal

olunub ki, bundan 15 milyonu xarici ölkələrə ixrac edilibdir. İl ərzində 15 min baş damazlıq fərə Gürcüstana ixrac olunub. Cari ildə də keyfiyyətli toyuq yumurtası ixrac etmək məqsədilə yeni müqavilələr bağlayır, marketinq və logistika araşdırmaları aparırıq. Bununla bağlı, İran İslam Respublikasına 50 milyon ədəd yumurta ixrac olunması üçün müqavilə bağlanılıb və bundan 1,8 milyon ədədinin ixracı ötən həftə həyata keçirilibdir.

Möhtərəm cənab Prezident, 2017-ci ildə «Hacıqabul Quşçuluq» MMC-nin törəmə müəssisəsi olan «Sabirabad Quşçuluq» şirkətinin Əmtəəlik Yumurta və Quş Əti İstehsalı fabrikinin fəaliyyəti ilə tanış olmağınız bizi ruhlandırdı və yeni investisiyaların qoyulması üçün stimul yaratdı.

Cənab Prezident, qeyd etmək istərdim ki, aidiyyəti dövlət qurumları tərəfindən operativ olaraq bizə dəstək göstərilir, quşçuluğun inkişafı ilə bağlı tərəfimizdən qaldırılan məsələlər iştirakımızla müzakirə olunur və həlli istiqamətində əməli tədbirlər görülür. Bu da Sizin biz sahibkarlara dəstək məqsədilə dövlət qurumları qarşısında qoyduğunuz yüksək tələbkarlığın nəticəsidir.

Çıxışımın sonunda regionlarda sahibkarlığın inkişafını daim diqqətdə saxladığınıza və biz sahibkarlar üçün yaratdığınız əlverişli şəraitə görə Sizə bir daha minnətdarlığımızı bildiririk. Çoxsaylı kollektivimiz adından Sizi əmin edirəm ki, əməli fəaliyyətimizlə iqtisadiyyatımızın davamlı inkişafına bundan sonra da töhfəmizi verəcəyik. Diqqətinizə görə minnətdaram.

## YEKUN NİTQİ

Biz bu gün görüləcək işlərlə bağlı fikirlərimizi bildirəcəyik. Proqramların uğurlu icrası deməyə əsas verir ki, onların qəbulu tam məntiqə uyğundur. Bizim iqtisadi göstəricilərimiz, bölgələrdə gedən quruculuq-abadlıq işləri bunun əyani sübutudur. Ancaq hələ də həll olunmamış məsələlər vardır. Hələ də elə məsələlər var ki, onların həlli üçün imkanlar olmayıb, yaxud da onların növbəsi gəlməyib. Biz isə görülmüş işlərlə kifayətlənməməliyik, daim irəli baxmalıyıq. Baxmalıyıq ki, harada nə çatışmır, harada hansı məsələ öz həllini tapmalıdır.

Prinsip etibarilə, infrastrukturla bağlı bütün əsas məsələlər öz həllini tapıbdır. Ancaq bu proses davam etdiriləcək. Elektrik enerjisi ilə bağlı, qeyd etdiyim kimi, biz indi özümüzü tam təmin edirik, böyük həcmdə də ixrac edirik. Ancaq yeni elektrik stansiyalarının tikilməsinə ehtiyac vardır. Çünki bizim sənaye potensialımızın, əhalimizin artımı, kənd təsərrüfatının inkişafı, böyük sənaye klasterlərinin yaradılması tələb edir ki, elektrik enerjisinin istehsalı artsın. Bu il biz Bakıda böyük elektrik stansiyasının açılışını planlaşdırırıq. 400 meqavat gücündə olan «Şimal-2» stansiyasının açılışı gözlənilir. Bakı şəhərində yeni, 300, 350, bəlkə də 400 meqavat gücündə stansiyanın tikintisi ilə bağlı işlər aparılıbdır. İndi dəqiqləşmələr gedir və bu stansiyanın tikintisi bizim enerji potensialımızı daha da möhkəmləndirəcəkdir. Bununla

paralel olaraq, mövcud stansiyalarda bərpa və təmir işləri aparılaraq, onların potensialını yüksək dərəcədə artıra bilərik. İlkin hesablamalar göstərir ki, biz təqribən 500 meqavat əlavə güc əldə edə bilərik. Beləliklə, əgər bu üç məsələ öz həllini taparsa – mən əminəm ki, bu belə də olacaq – biz əlavə 1500 meqavat elektrik enerjisi istehsal edəcəyik və həm artan daxili tələbatımızı ödəyəcəyik, həm də ki, ixrac edib ölkəmizə valyuta gətirəcəyik. Bununla paralel olaraq, bərpaolunan enerji mənbələrinin yaradılması istiqamətində işlər getməlidir. İlk növbədə, su-elektrik stansiyalarının, günəş və külək stansiyalarının tikintisi. İndi bu sahəyə xarici investorlardan maraq vardır. Dünya İqtisadi Forumu çərçivəsində keçirdiyim görüşlər bir daha göstərdi ki, böyük şirkətlər bu sahəyə investisiya qoymağa hazırdır, bu barədə düşünülür. Hesab edirəm ki, bu çox müsbət bir haldır. Çünki bu gün bu sahədə yeni texnologiyalar yaradılıb və bu texnologiyalar səmərəliliyi xeyli artırır. Hesab edirəm ki, yerli şirkətlər də bu işlərə mütləq fikir verməlidir.

Ölkədə qazlaşdırılmanın səviyyəsi 95 faizdir. Ancaq, əlbəttə, bu o demək deyil ki, bu bizi qane edir. Elə kəndlər var ki, oraya hələ də qaz çəkilməyib. Ona görə bu proses davam etdiriləcək. Baxmayaraq ki, dünya miqyasında bu qədər qazlaşdırılma aparan ölkələr o qədər də çox deyil. Biz son illər ərzində qazlaşdırılma ilə bağlı əsas problemləri həll etmişik. Əsas məsələ indi bu prosesi davam etdirmək və qazın keyfiyyətini artırmaqdır. Bəzi hallarda fasilələr baş

verir, bəzi hallarda qaz lazımi həcmdə gəlmir. Bu məsələ daim diqqət mərkəzində olmalıdır ki, burada heç bir çatışmazlıq olmasın. İçməli su layihələri davam etdirilir. Giriş sözümdə qeyd etdiyim kimi, təminat 70 faizə çatıb. Hazırda 38 şəhərdə içməli su layihələrinin icrası başa çatıb. Bu il 5 şəhərdə başa çatacaqdır, 12 şəhərdə işlər artıq başlanılıb, gedir və bir neçə şəhərdə isə layihənin icrasına hələ ki, başlanılmayıbdır. Bu məsələlər daim gündəlikdədir və qəbul ediləcək dördüncü proqramda öz əksini tapacaq. Meliorativ tədbirlərin görülməsi prosesi davam etdiriləcək. Son 2 il ərzində biz hər il 100 min hektar torpağa suyun verilməsini təmin etmişik. Bunların böyük hissəsi o torpaqlardır ki, heç vaxt suvarılmayıb, bir hissəsində suvarma olub, amma lazımi səviyyədə yox. İlkin hesablamalara görə, bu il 80 min hektarda bu işlər aparılacaq. Bu bizə imkan verəcək ki, məhsuldarlığı və suvarılan torpaqların həcmini artıraq. Bu çox böyük rəqəmdir və fermerlər, əminəm ki, bunu hiss edirlər.

Son illərdə 4 böyük su anbarı tikilib – Taxtakörpü, Şəmkirçay, Göytəpə, Tovuzçay. Onların tutumu 470 milyon kubmetrdir. Bir neçə anbarda tikinti və bərpa işləri aparılıb. Kiçik su anbarlarının tikintisi də gündəlikdə duran məsələlərdən biridir. Hər il dövlət vəsaiti ilə minimum 300 subartezian quyusu qazılır, bunun da çox böyük səmərəsi vardır.

Giriş sözümdə qeyd etdiyim kimi, 15 ildə 15000 kilometr avtomobil yolu çəkilib və bu proses davam etdirilir. Builki Dövlət İnvestisiya Proqramına əsasən,

yüzlərlə kənd yolları abadlaşdırılacaq, o cümlədən magistral yolların tikintisi təmin ediləcəkdir. Davos Dünya İqtisadi Forumun hesablamalarına əsasən, avtomobil yollarının keyfiyyətinə görə Azərbaycan dünyada 34-cü yerdədir.

Sosial infrastrukturun yaradılması prosesi davam etdiriləcək. Baxmayaraq ki, 3272 məktəb tikilib və təmir edilibdir. Bu məktəblər mövcud məktəb fondunun 73 faizi deməkdir. Ancaq təmirə ehtiyacı olan məktəblər var və bu işlər də növbəti dövlət proqramında nəzərdə tutulacaq. Həmçinin xəstə-xanaların, olimpiya komplekslərinin tikintisi davam etdiriləcək. Təkcə bu il 3 Olimpiya Kompleksinin açılışı gözlənilir. Bu da bölgələrdə idmanın inkişafına xidmət göstərir. Bildiyiniz kimi, hər il 5 milyondan çox insan pulsuz tibbi müayinədən keçir. Bu da bizim təşəbbüsümüzdür, çox müsbət təşəbbüsdür. Hazırda bizdə vətəndaşların tibbi müayinədən keçmələri üçün hər bir yerdə müasir avadanlıqlar quraşdırılmış xəstəxanalar vardır. Bu da çox ciddi sosial layihədir və Azərbaycan bu sahədə də gözəl nümunə göstərir.

Məcburi köçkünlərin problemləri daim diqqət mər-kəzindədir. Keçən il 5800 köçkün ailəsi üçün evlər tikilib, o cümlədən 1000 ailə üçün özəl sektor evlər tikibdir. Mən bu təşəbbüsü alqışlayıram. Bu il bu proses davam etdiriləcək. İlkin hesablamalara görə, ən azı 5000 ailə üçün evlər tikiləcək, o cümlədən yenə də özəl sektorun çox ciddi payı ilə.

Şəhid ailələrinin və Qarabağ müharibəsi əlillərinin problemləri də həll olunur. Keçən il 626 şəhid və

Qarabağ müharibəsi əlilinin ailəsinə evlər verildi. Bu il isə 800 ailəyə ev veriləcək. Növbəti illərdə bu proses davam etdiriləcək ki, bütün şəhid ailələri, Qarabağ müharibəsi əlilləri evlərlə təmin olunsunlar. Bu günə qədər bu qəbildən olan 6650 ailə ev alıb.

Keçən il 118 min yeni iş yeri yaradılıbdır. Bu, yaxşı rəqəmdir. İş yerlərinin yaradılması daimi proses olmalıdır və bu sahədə, əlbəttə ki, özəl sektor əsas rol oynamalıdır. Dövlətin dəstəyi ilə verilən hər bir kreditin tərkibində mütləq nə qədər iş yeri yaradılacaq məsələsi də vardır. Məşğulluğun artırılması çox ciddi məsələdir. Bəzi ölkələrdə əhali artmır, bəzi ölkələrdə əhali azalır, Azərbaycanda isə əhali artır. Mən qeyd etdim ki, son 15 il ərzində əhalimizin sayı 1,6 milyon nəfər artıbdır. Bu, əlbəttə ki, bizdən çox ciddi iş tələb edir. Bir daha demək istəyirəm ki, iş yerlərinin yaradılması prioritet məsələlərdən biridir. O bölgələrdə ki, işsizlik var, biz o bölgələrdə işsizliklə mübarizə aparmaq üçün ictimai işlər açmışıq. Bir neçə ildir ki, bu təşəbbüs reallaşır və ictimai işlərdə minlərlə insan işləyir və əməkhaqqı alır. Əlbəttə, son illərdə bir çox müəssisələr yaradılıb və orada iş yerləri açılıb. Sahibkarlara tövsiyəm ondan ibarətdir ki, iş yerlərini ixtisar etməsinlər. Çünki bu gün dünyada ümumi meyil ondan ibarətdir ki, daha çox texnologiyalara üstünlük verilir, elmi-texniki tərəqqi yeni texnologiyalar ortaya çıxarır, robotlar insanları əvəzləyir, bütün bunlar reallıqdır. Biz bu reallıqla hesablaşmalıyıq. Ancaq biz Azərbaycanda mütləq iş yerlərini qorumalıyıq – həm dövlət qurumlarında,

həm özəl sektorda. Dövlət qurumlarında aparılan struktur islahatları – bütün dövlət qurumlarına artıq bildirilib – iş yerlərinin ixtisarına gətirib çıxarmamalıdır. Bu struktur islahatları sadəcə olaraq, idarəetmə mexanizminin təkmilləşməsinə yönəlib. Əlbəttə, dövlət müəssisələrində işləyən vətəndaşlar öz işlərində qalacaqlar. Özəl sektor da heç bir ixtisar aparmamalıdır, əksinə, dövlətin bu qədər dəstəyi müqabilində daha çox iş yerləri açmalıdır. Yenə də deyirəm, bu istiqamətdə proses müsbət gedir. Keçən il 118 min daimi iş yeri yaradılıb və təbii ki, bu, özəl sektorda yaradılmış iş yerləridir.

Özünüməşğulluq proqramının icrası böyük ümidlər verir. Bu il 7000 ailə bu proqramla əhatə olunacaq. Baxarıq, imkan olarsa, daha çox ailə bu proqramla əhatə olunar. Beləliklə, hələ ki, iş tapa bilməyənlər özünüməşğulluq hesabına ailə büdcəsini təmin edəcəklər. Ailə Biznesinə Asan Dəstək – ABAD mərkəzləri yaradılır. Bu da çox müsbət haldır. Mən bu mərkəzlərin açılışında olmuşam və bu, «ASAN xidmət»in bir qoludur və çox müsbət təşəbbüsdür. Ailə biznesi bir istiqamət kimi, Azərbaycanda hesab edirəm ki, geniş vüsət ala bilər və almalıdır. Dövlət öz dəstəyini mütləq göstərir və göstərəcək. «ASAN xidmət» mərkəzlərinin fəaliyyəti ilə bağlı mən giriş sözümdə öz fikirlərimi bildirdim. Bu il 5 mərkəzin açılması nəzərdə tutulur. Yerli icra orqanları vətəndaşlara daim diqqət və qayğı göstərməlidir. Yaddan çıxarmamalıdır ki, onlar vətəndaşlar üçün çalışır, vətəndaşlara xidmət edirlər. Bütün dövlət

məmurları – Prezidentdən başlayaraq, lap aşağı səviyyəli məmura qədər hər kəs bilməlidir ki, bizim əsas vəzifəmiz xalqa xidmət etməkdir. Yerli icra orqanları diqqətli olmalı, problemləri həll etməlidir. Hansı problemləri özləri həll edə bilmirlərsə, mərkəzi icra orqanlarına, Prezident Administrasiyasına məlumat verməlidir ki, biz problemləri operativ qaydada həll edək. Biz problemləri həll edə bilərik və əlbəttə ki, buraxılan nöqsanlar tamamilə aradan qaldırılmalıdır.

Regionların sosial-iqtisadi inkişafına dair dördüncü Dövlət Proqramının tərkibi əsasən yerlərdən gələn xahişlər nəticəsində formalaşıb. Mənim bölgələrə çoxsaylı səfərlərim və vətəndaşlarla söhbətlərim bu sahədə çox gözəl bir ünsiyyət yaradıb. Çünki vətəndaşların təklifləri mütləq nəzərə alınır və bölgələrdə bir çox layihələr məhz vətəndaşların təklifləri əsasında reallaşıb. Bu təmas daimi olmalıdır ki, insanları narahat edən, bu gün hələ həllini tapmayan məsələlər həll olunsun. Bizim buna imkanımız da, iradəmiz də vardır. Sahibkarlıqla bağlı siyasətimiz davam etdiriləcək. Sahibkarlara dövlət tərəfindən böyük dəstək verilir – həm mənəvi, həm siyasi, həm də maddi dəstək. Fermerlərə kreditlər, subsidiyalar verilir. Bu sahədə də təkmilləşmə gedir, texnika, gübrələr, yanacaq güzəştli şərtlərlə verilir. Bu sahədə də Azərbaycan nadir ölkələrdəndir ki, öz sahibkarına, öz fermerinə bu qədər diqqət göstərir. Biz sahibkarlardan daha böyük nəticələr gözləyirik.

Ümidvarıq ki, onlar bundan sonra da ölkə iqtisadiyyatına öz töhfələrini verəcəklər.

Kənd təsərrüfatı və sənaye istehsalı dördüncü proqramda xüsusi yer tutur. Əlbəttə, infrastruktur layihələri də diqqətdədir. Ancaq onların böyük hissəsi ya başa çatıb, yaxud da ki, başa çatmaqdadır. Ona görə iqtisadiyyatın real sektoru, kənd təsərrüfatı, sənaye potensialının gücləndirilməsi əsas məsələlərdən biridir. Müxtəlif mexanizmlər işə salınıb, müxtəlif təşəbbüslər irəli sürülüb. Onlardan biri investisiya təşviqi mexanizmidir. Biz bu məsələni həll etməyə başlayandan sonra çox gözəl nəticələrlə üzləşdik. İnvestisiya təşviqi proqramı üzrə 107 layihə həyata keçirilib. Ümumiyyətlə, 332 layihənin icrası nəzərdə tutulub. Bu layihələrin həyata keçirilməsinə qoyulacaq sərmayə 2,8 milyard manatdır. Əgər biz investisiya təşviqi mexanizmini işə salmasaydıq, bu vəsait də qoyulmazdı. Bu layihələr çərçivəsində əlavə 12 min yeni iş yeri açılacaqdır. Sənaye potensialının inkişafı üçün, əlbəttə, sənaye zonalarının, sənaye parklarının çox böyük rolu vardır. Azərbaycan indi müasir sənaye mərkəzinə çevrilibdir. Bu sahədə görüləcək işlər əminəm ki, ölkəmizin qeyri-neft sektorunun inkişafını təmin edəcək, qeyri-neft ixracının həcmini yüksək dərəcədə artıracaqdır.

Əlbəttə, neft sənayesində də işlər daim diqqət mərkəzindədir. Giriş sözümdə qeyd etdim, burada meqalayihələr icra edilir. Ancaq bununla paralel olaraq, daxili istehsal, yəni SOCAR tərəfindən neft və qaz hasilatı sabit qalmalıdır. Keçən il Azərbaycanda

38,8 milyon ton neft və 30 milyard kubmetr qaz hasil edilib, böyük layihələr icra olunub. Əminəm ki, 2020-ci ildə istifadəyə verilməsi nəzərdə tutulan «Cənub Qaz Dəhlizi» layihəsinin icrası bizə əlavə böyük gəlir gətirəcək.

Sənaye sahəsində bizim diqqətimiz eyni zamanda, qeyri-neft sektoruna yönəlib. Bu sahədə də yaxşı nəticələr vardır. Keçən il qeyri-neft sənayemiz 9,1 faiz artıb. Bu həmin sahədə işlərin yüksək səviyyədə aparıldığını göstərir. Sumqayıt Kimya Sənaye Parkı, Sumqayıt Texnologiya Parkı, Mingəçevir Yüngül Sənaye Parkı, Gəncə şəhərində sənaye müəs-sisələrinin, Neftçala, Hacıqabul, Masallı, Sabirabad sənaye məhəllələrinin yaradılması bu sahədə atılan çox ciddi addımlardır. Gələcəkdə digər şəhərlərdə də sənaye zonaları yaradılacaqdır.

Biz son vaxtlar ənənəvi xalçaçılıq sənətinin inkişafı ilə bağlı çox ciddi iş aparırıq. Artıq 20 Xalça fabriki fəaliyyətdədir. Hər fabrikdə orta hesabla 100, yaxud 150 iş yeri yaradılır, xüsusilə qadınlar üçün. Mən fab-riklərin əksəriyyətinin açılışlarında iştirak etmişəm və görmüşəm ki, buna nə qədər böyük ehtiyac vardır. Bu, qadınları işlə təmin etmək, qədim milli sənətimizi yaşatmaq üçün çox düşünülmüş bir addımdır. Bütöv-lükdə isə bizdə 31 Xalça fabrikinin tikilməsi nəzərdə tutulur və burada təqribən 5000-ə yaxın iş yeri açı-lacaqdır. Bu il Sumqayıt şəhərində Əyirici-Boyaq fabrikinin açılışı gözlənilir. Beləliklə, biz artıq xalça istehsalında xarici xammaldan asılılığı aradan götürəcəyik.

İplik və Hazır Tekstil fabriklərinin tikilməsinə də ehtiyac vardır. Bizdə İplik fabrikləri vardır. Verilən məlumata görə, tədarük edilən pambığın təxminən 50 faizi artıq Azərbaycanda emal olunur və bu, əlavə dəyər yaradır. Bu çox yaxşı haldır. Ancaq sahibkarlar bilməlidirlər ki, potensial daha böyükdür. Azərbaycanda pambıq istehsalı artır. Ona görə hesab edirəm ki, sahibkarlar İplik fabriklərinin tikilməsinə çox ciddi baxmalıdırlar. Bu çox gəlirli və ölkəmiz üçün çox faydalı bir işdir. Eyni zamanda, ipəkçiliyin inkişafı ilə bağlı çox ciddi addımlar atılır. Artıq Qax rayonunda Damazlıq Baramaçılıq Mərkəzi yaradılır. Bu da imkan verəcək ki, biz idxaldan asılılığı azaldaq və gözəl bir zəncir yaradaq, tingdən hazır ipək parçasına qədər. Yenə də dövlət əsas işi öz üzərinə götürüb. Ancaq sahibkarlar da mütləq bu sahəyə maraq göstərməlidirlər. Hesab edirəm ki, bu onlar üçün faydalı ola bilər. Ölkəmizdə yeni meyvə-tərəvəz emalı müəssisələrinin yaradılmasına ehtiyac var, bunu xüsusilə qeyd etmək istəyirəm. Çünki meyvə və tərəvəz istehsalı artır. Biz bunu daha çox meyvə-tərəvəz kimi ixrac edirik. Ancaq xarici bazarlarda emal olunmuş məhsullara da böyük tələbat vardır. Biz kənd təsərrüfatında islahatları dərinləşdirməliyik. Kənd təsərrüfatı elmi əsaslarla inkişaf etməlidir. Müasir texnologiyalar, yanaşmalar tətbiq olunmalıdır. Biz ərzaq təhlükəsizliyi ilə bağlı bundan sonra da mütləq ciddi iş aparmalıyıq, bu, prioritet məsələdir. Məhsuldarlığın artırılması istiqamətində işlər görülür. Hesab edirəm ki, bu, yaxın gələcəkdə özünü

göstərəcək. Biz kənd təsərrüfatı məhsullarının ixracını artırmalıyıq. Düzdür, son 15 il ərzində kənd təsərrüfatı məhsullarının ixracı təxminən 6 dəfə artıb. Ancaq potensial da böyükdür və biz yeni bazarlara çıxmalıyıq. Ticarət evləri açılır, ixrac missiyaları göndərilir, dövlət tərəfindən sahibkarlara çox böyük dəstək verilir ki, onlar öz məhsullarını xaricdə sata bilsinlər. Əlbəttə ki, aqroparkların da çox böyük əhəmiyyəti vardır. Artıq 250 min hektarda 51 aqropark yerləşir. Bu torpaqlarda əvvəllər ya iş getmirdi, ya da çox ləng gedirdi. Kənd təsərrüfatı məhsulları ilə bağlı bəzi rəqəmləri gətirmək istərdim. Misal üçün, taxılçılıqda 2004-cü ildə 2 milyon ton məhsul yığılmışdı, keçən il 3 milyon 200 min ton. Yəni artım yaxşıdır.

Xüsusilə iri fermer təsərrüfatlarında və aqroparklarda məhsuldarlıq hektardan 50 sentnerə bərabərdir. Bəzi yerlərdə daha çoxdur. Çox gözəl göstəricidir. Bu, Avropanın inkişaf etmiş ölkələrinin səviyyəsində olan göstəricidir. Ancaq hektardan orta məhsuldarlıq təxminən 29-30 sentnerdir. Bizdə buğdanın məhsuldarlığı ilə bağlı cədvəl qarşımdadır. 4 rayon – Saatlı, Bərdə, Tərtər, Sabirabad hektardan 40 sentnerdən çox məhsul götürüb. 28 rayon 30 sentnerdən 40 sentnerə qədər. Qalan rayonlar isə 30 sentnerdən az tədarük ediblər. Bu cədvəllər İqtisadiyyat Nazirliyi və Prezident Administrasiyası tərəfindən hazırlanıb və indi sizə veriləcək. Sahibkarlar bu cədvəllərə baxsınlar və birlikdə düşünək ki, hansı rayonlarda məhsuldarlığı necə artıra bilərik.

Məlumat üçün bildirim ki, dünya üzrə hektardan orta məhsuldarlıq 34 sentnerdir, Azərbaycanda 30, Avropa İttifaqında 53 sentnerdir. Bizdə iri fermer təsərrüfatlarında 50 sentnerdir. Biz Avropa İttifaqının səviyyəsinə çatmışıq, ancaq iri fermer təsərrüfatlarında. Heyvandarlıqla bağlı bəzi rəqəmləri gətirmək istərdim. 2004-cü ildə 196 min ton ət tədarük edilmişdir, keçən il 326 min ton. Bu sahədə də artım vardır. Cins mal-qaranın idxalı təmin edilir, Süni Mayalanma Mərkəzi fəaliyyət göstərir. Hesab edirəm ki, bu sahədə irəliləyiş sürətli olacaq. Biz növbəti 5 il ərzində mal ətinin istehsalını 15 faiz artırmalıyıq.

Süd istehsalı 2004-cü ildə 1 milyon 200 min ton, 2018-ci ildə 2 milyon ton olub. Burada da artım çox böyükdür, amma biz hələ də özümüzü süd və süd məhsulları ilə tam təmin edə bilmirik. Növbəti 5 ildə görüləcək işlər nəticəsində süd istehsalı təxminən 15–20 faiz artmalıdır. Quş əti 2004-cü ildə 44 min ton istehsal olunub, keçən il 109 min ton. Tərəvəz 2004-cü ildə 1 milyon ton, keçən il 1 milyon 500 min ton istehsal olunub. Ən çox valyuta gətirən kənd təsərrüfatı məhsulları – pomidor 177 milyon dollar, xurma 114 milyon dollar, pambıq və pambıq məmulatları 108 milyon dollar, fındıq 100 milyon dollara yaxın və alma 38 milyon dollar. Meyvə istehsalı 2004-cü ildə 420 min ton, 2018-ci ildə 1 milyon ton olub. Yəni artım 2 dəfədən çoxdur. Bütün bu məlumatları mən sahibkarlara və ictimaiyyətə ona görə verirəm ki, onlar bilsinlər nə qədər artım olub və bizim hələ

artıma nə qədər ehtiyacımız vardır. Biz bazarlara çıxışı dövlət dəstəyi ilə təmin edirik.

Son vaxtlar fındıqçılığa çox böyük diqqət yetirilir. Biz fındıq bağlarının sahəsini qısa müddətdə yüksək dərəcədə artırmışıq. 2016-cı ildə bizim 40 min hektar fındıq bağlarımız olub, bu gün artıq 75 min hektara çatıb və bu il 9 min hektar da əkiləcək. Beləliklə, biz 84 min hektarda fındıq yetişdirəcəyik. Yeni salınmış bağlar bar gətirənə qədər bir neçə il keçəcək. Amma ondan sonra fındıq ixracının həcmi 2 dəfədən çox artacaq və fermerlərə indikindən 2 dəfə çox vəsait gələcək. Hazırda fındıqçılıqda 20 min nəfər işləyir.

Son vaxtlar badam və qoz bağlarının salınması geniş vüsət alıb. Bu məhsullar da çox gəlirlidir və ixrac yönümlüdür. Azərbaycanda Badam və Qoz Emalı fabriklərinin tikintisi mütləq nəzərdə tutulmalıdır. Sahibkarlara məsləhət görürəm ki, bu işlə məşğul olsunlar. Xüsusilə Bakı, Abşeron və digər bölgələr üçün ənənəvi olan zeytunçuluğun inkişafı da sürətlə gedir. Yeni zeytun bağlarının salınması geniş vüsət alıbdır.

Pambıqçılıqda çox ciddi dönüş yaradılıb. Müqayisə üçün bildirməliyəm ki, 2015-ci ildə cəmi 35 min ton pambıq tədarük edilmişdir, keçən il isə 233 min ton. Görün biz nə qədər böyük irəliləyiş əldə etmişik. Pambıqçılığın bütün sahələrində 190 min insan işləyir. Məhsuldarlıq bizdə hələ ki, lazımi səviyyədə deyil. Hektardan orta məhsuldarlıq 17,4 sentnerdir. Bu, prinsipcə bizi qane edə bilməz, biz məhsuldarlığı artırmalıyıq. Ancaq bu məhsuldarlıq orta məhsuldarlıqdır. Harada ki, işlərə ciddi yanaşırlar, məh-

suldarlıq yüksəkdir. Məlumat üçün bildirməliyəm ki, MKT təşkilatının pambıq tarlalarında məhsuldarlıq hektardan 27 sentnerdir, «Azərpambıq»da 19, amma digər kiçik təsərrüfatlarda aşağıdır. Ona görə bu, orta məhsuldarlığı da aşağı salır. Bu sahədə də təftiş aparılmalıdır. Pambıqçılıq üçün yararlı torpaqlar seçilməlidir və harada məhsuldarlıq aşağıdır, orada başqa məhsullar yetişdirilməlidir. Dövlət xətti ilə 470 pambıqyığan kombayn və pambıqçılıq üçün 12 minə yaxın texnika alınıbdır.

Tütünçülükdə də çox ciddi irəliləyiş vardır. Tütün 2015-ci ildə cəmi 3 rayonda əkilirdi. Tütünçülük demək olar ki, artıq sıradan çıxırdı. Cəmi 3 rayonda 3400 ton, keçən il artıq 13 rayonda 6200 ton tütün yığılıb. Bu sahəyə də dövlət dəstək göstərir. Qurutma kameraları, tədarüklə bağlı texnika – bütün bunları dövlət təmin edir. Cəmi 3 il ərzində tütünçülükdə 9500 nəfər işlə təmin olunub. Yenə də deyirəm, əgər dövlət öz dəstəyini göstərməsəydi, real yardım etməsəydi, bu sahələr bu qədər inkişaf edə bilməzdi. Mənim sədrliyimlə tütünçülüklə bağlı xüsusi müşavirə keçirildi. Bütün tapşırıqlar o müşavirədə verildi və onlar icra edilir. Baramaçılıq üzrə də müşavirə keçirilmişdir. Burada mənzərə, ümumiyyətlə, çox maraqlıdır. Sovet vaxtında baramaçılığın çox böyük ənənələri olub. Xüsusilə Heydər Əliyevin təşəbbüsü ilə bir çox rayonlarda barama istehsalı ən yüksək səviyyədə idi. Ancaq 2015-ci ildə biz gördük ki, cəmi bir rayonda barama tədarük edilir, özü də 230 kiloqram. Qısa müddət ərzində çox ciddi tədbirlər

görüldü. Keçən il 38 rayonda artıq 513 ton barama tədarük edildi. Biz barama tədarükünü 230 kiloqramdan 513 tona çatdırdıq. Bu il 800 ton planlaşdırılır. Şəkidəki İpək kombinatının daha böyük həcmlə işləməsi, orada daha çox sayda iş yerlərinin yaradılması üçün bu, əsas şərtdir. Təkcə keçən il 2 milyon 600 min tut tingi əkilibdir.

Digər sahələr üzrə də işlər gedir. Mən çayçılıq, çəltikçilik, sitrusçuluq üzrə müşavirə keçirmişəm. Bu sahədə də irəliləyiş vardır. Arıçılığın həm daxili bazar, həm də ixrac üçün çox böyük potensialı vardır. Bizim balımız çox keyfiyyətlidir, xarici bazarlarda yüksək qiymətləndirilir. Biz indi həm ailə biznesi çərçivəsində arıçılığa dəstək oluruq, həm subsidiyalar verilir ki, bu da yaxınlarda artırılıbdır. Arıçılığın böyük perspektivləri var, bu çox gəlirli sahədir. Fermerlər, vətəndaşlar üçün çox gözəl nəticələr verə bilər.

Üzümçülüyə, şərabçılığa gəldikdə isə, 2004-cü ildə 55 min ton üzüm yığılmışdır, keçən il 167 min ton, yəni 3 dəfə çox. Burada da dövlət dəstəyi ön plandadır. Üzümçülüyün, şərabçılığın Azərbaycanda çox böyük ənənələri var idi. Ancaq sovet dövründə, ötən əsrin 80-ci illərinin sonlarında sovet rəhbərliyinin və Azərbaycandakı rəhbərlərin birgə bəd əməlləri nəticəsində üzüm bağlarımızın, demək olar ki, qırılması prosesi başlanmışdı. Əksər bağlar məhv edilib. Onların bərpası böyük vəsait və zəhmət tələb edir. Üzüm çoxillik bitkidir. Ona görə 3 dəfə artım, əlbəttə

ki, çox yaxşı nəticədir. Şərab istehsalı isə 15 il ərzində 5 dəfə artıbdır.

Regionların sosial-iqtisadi inkişafı məsələlərinə baxanda biz mütləq ekoloji vəziyyətə nəzər salmalıyıq. Biz ekoloji vəziyyəti yaxşılaşdırmalıyıq, ekoloji tarazlığı pozan amillərdən özümüzü qorumalıyıq. Bu sahədə son illər ərzində işlər aparılıb. Hesab edirəm ki, bu məsələ daim diqqət mərkəzində olmalıdır. Xüsusilə Bakıda, Sumqayıtda, digər böyük şəhərlərdə ekoloji tarazlığı pozan müəssisələrə çox ciddi xəbərdarlıq edilməlidir ki, onlar təmizləyici cihazları quraşdıraraq, havanın çirklənməsinin qarşısını alsınlar. Bu, çətin məsələ deyil. Ekologiya ilə bağlı digər məsələlər də öz həllini tapmalıdır. Dəmir yolu layihələri ilə bağlı mən giriş sözümdə qeyd etdim. Şimal–Cənub, Şərq–Qərb nəqliyyat dəhlizləri fəaliyyətdədir, bu işlərə yeni tərəfdaşlar qoşulur. Mənim bir neçə ölkənin dövlət başçısı ilə apardığım danışıqlar nəticəsində indi Orta Asiya respublikalarından əlavə yüklərin Ələt limanına gəlməsi və oradan dəmir yolu ilə dünya bazarlarına çatdırılması təmin edilib. Biz bir neçə ölkə ilə artıq çox səmərəli əməkdaşlıq edirik. Bu ölkələrin sayı artır və biz yeni mənbələrdən yükləri cəlb edib Azərbaycan ərazisindən göndəririk. Ölkə daxilində bir neçə dəmir yolu layihəsi gündəlikdədir. Biz Şimal–Cənub nəqliyyat dəhlizinin bərpası ilə məşğuluq. Düzdür, bu yol var, fəaliyyət göstərir, ancaq onun sürəti aşağıdır. Ona görə Yalamadan Astaraya qədər yeni dəmir yolu xətti çəkilməlidir. Artıq keçən ildən bu prosesə start verilib və beləliklə, Azərbaycan–Rusiya və

Azərbaycan–İran sərhədlərini birləşdirən Şimal–Cənub nəqliyyat dəhlizi yüksəksürətli dəhliz olacaq və yüklərin mənzil başına çatdırılma müddəti də, əlbəttə ki, qısalacaqdır.

Şəhərlərarası dəmir yollarının tikintisi də aparılır. İndi Ləki–Qəbələ dəmir yolu tikilir. Qəbələ turizm mərkəzlərindən biridir və Bakı–Yalama dəmir yolunun tikintisi ilə paralel olaraq, həmin yolun da çəkilməsi təmin etdirilməlidir. «Şahdağ» dağ-xizək kurortuna dəmir yolu çəkilməlidir. Beləliklə, Qusar rayonuna da dəmir yolu ilə getmək mümkün olacaq. Bu da proqramda nəzərdə tutulur.

Tikinti sektoru ilə bağlı biz indi dövlət xətti ilə böyük layihələri icra edirik. Mənzil İnşaatı Dövlət Agentliyi 2 böyük layihəni Yasamal rayonunda və Hövsanda icra edir. Bu prosesə də dövlət tərəfindən start verilib. Sosial evlərin tikintisi çox böyük əhəmiyyət daşıyır, vətəndaşlar bundan istifadə edirlər, eyni zamanda, bu, tikinti sektoruna da çox ciddi təkan verir. Həm inşaat materialları sektoruna, həm də tikinti sektoruna bunun çox böyük dəstəyi ola bilər.

Bildiyiniz kimi, son illərdə Azərbaycana gələn turistlərin sayı getdikcə artır və bu çox müsbət haldır. Keçən il gələn turistlərin sayı təqribən 6 faizə yaxın artıbdır. Əvvəlki illərdən daha çox – 2 milyon 850 min turist gəlmişdir. Aparılan hesablamalara görə, bu turistlər ölkəmizdə 2 milyard dollara yaxın pul xərcləyiblər. Bu belə demək olarsa, əlavə 2 milyard dollar ixrac deməkdir. Artıq bu rəqəm göstərir ki, turizmin nə qədər böyük əhəmiyyəti vardır. Bu pullar xidmət

sektoruna gedir, vətəndaşlar, sahibkarlar bundan faydalanırlar. Bu pullar birbaşa o şirkətlərə gedir ki, onlar bölgələrdə turistlərə müxtəlif xidmətlər göstərir. Çünki turistlərin böyük hissəsi artıq Azərbaycanın bölgələrinə gedir. Bütün lazımi şərait yaradılır və turizm sənayesi Azərbaycanda çox geniş imkanlara malik olmalıdır. Bunun üçün bütün lazımi ilkin şərtlər vardır. Azərbaycanda təhlükəsizlik, sabitlik hökm sürür, xalqımız çox qonaqpərvərdir. İqlimimiz də çox gözəldir və müxtəlif iqlim tipləri vardır. Müasir infrastruktur yaradılıb, 6 beynəlxalq aeroport, müasir yollar, dəmir yolları, hotellər, gözəl təbiət, kurortlar, yay-qış xizək, dəniz kurortları, müalicəvi turizm inkişaf edir. Misal üçün, Naftalan indi böyük turizm mərkəzinə çevrilib. Digər müalicəvi yerlərə – Naxçıvanda «Duzdağ» Fizioterapiya Mərkəzinə turistlər çox gəlir, Qalaaltıya müalicəyə gəlirlər. Tarixi abidələrimiz kifayət qədər çoxdur. Bu da böyük maraq doğurur. Coğrafi vəziyyətimiz də əlverişlidir. Bakı dünyanın ən gözəl şəhərlərindən biridir. Yəni bütün bu amillər deməyə əsas verir ki, turizm sənayesi Azərbaycanda çox sürətlə inkişaf edəcək. Əlbəttə, bir çıxışda proqramda nəzərdə tutulan bütün istiqamətləri əhatə etmək mümkün deyil. Sadəcə olaraq, mən əsas istiqamətləri ictimaiyyətin diqqətinə çatdırdım.

Bütövlükdə isə deməliyəm ki, ilkin hesablamalara görə, regionların sosial-iqtisadi inkişafına dair dördüncü Dövlət Proqramının icrası üçün ən azı 17 milyard manatdan çox vəsait nəzərdə tutulur. Hesablanıb ki, bunun 4,6 milyard manatı özəl sektor

tərəfindən indi icra edilən və hazırlığı gedən layihələrə investisiya şəklində qoyulacaq. Dövlət tərəfindən təxminən 13 milyard manata yaxın kapital qoyuluşu gözlənilir. Ancaq, əlbəttə, bu, ilkin rəqəmdir. Mən tam əminəm ki, bu rəqəm daha böyük olacaq. Çünki əvvəlki üç proqramın icrası bunu göstərir. Üç proqramın hər biri artıqlaması ilə icra edilmişdir. Əminəm ki, dördüncü proqram da eynilə icra ediləcək. Nəzərə almalıyıq ki, indi bizdə investisiya iqlimi daha əlverişlidir. Mən giriş sözümdə qeyd etdim ki, Dünya Bankı «Doing Business» hesabatında Azərbaycanı 25-ci yerə layiq görüb. Lakin xarici investisiyalar bu rəqəmdə öz əksini tapmır. Hələ xarici investisiyalar qoyulacaq. Ona görə bu çox böyük rəqəmdir və bu investisiyalar hesabına Azərbaycan bundan sonra da uğurla, inamla inkişaf edəcək. Mən tam əminəm ki, bundan sonra da ölkəmiz ancaq inkişaf, tərəqqi və qələbələr yolu ilə gedəcəkdir. Sağ olun.

## GÖRKƏMLİ ALİM TOĞRUL BAĞIROVUN VƏFATI İLƏ ƏLAQƏDAR BAŞSAĞLIĞI

*31 yanvar 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakı Nobel İrsi Fondunun sədri, BMT-nin qlobal enerji üzrə aparıcı eksperti, siyasi elmlər doktoru, professor Toğrul Adil oğlu Bağırovun vəfatından kədərləndiyini bildirmiş, mərhumun ailəsinə dərin hüznlə başsağlığı vermişdir.*

*Allah rəhmət eləsin.*

## ALMANİYA FEDERATİV RESPUBLİKASININ FEDERAL İQTİSADİYYAT VƏ ENERGETİKA NAZİRLİYİNİN DÖVLƏT KATİBİ TOMAS BARKLAYIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*31 yanvar 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 31-də Almaniya Federativ Respublikasının Federal İqtisadiyyat və Energetika Nazirliyinin Dövlət katibi Tomas Barklayın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlət başçısı belə geniş tərkibdə nümayəndə heyətinin ölkəmizə səfərini Azərbaycanla Almaniya arasında əməkdaşlığın və tərəfdaşlığın yaxşı göstəricisi kimi dəyərləndirərək, ölkələrimizin və biznes dairələrinin əlaqələrimizin genişləndirilməsi üçün qarşılıqlı maraq göstərməsindən məmnunluğunu ifadə etdi. Prezident İlham Əliyev Almaniya Federativ Respublikasının Federal Kansleri xanım Angela Merkelin Azərbaycana səfərini məmnunluqla xatırladaraq, həmin səfər çərçivəsində biznes nümayəndələri arasında çox səmərəli görüşlərin keçirildiyini vurğuladı. Dövlət başçısı Tomas Barklayın rəhbərlik etdiyi nümayəndə heyətinin Azərbaycana səfərinin*

*əməkdaşlıq prosesinin davam etdirilməsi işinə töhfə verəcəyinə əminliyini bildirdi. Almaniya şirkətlərinin uzun illərdir Azərbaycanda uğurlu fəaliyyət göstərdiklərini vurğulayan Prezident İlham Əliyev ölkələrimiz arasında tərəfdaşlıq və əməkdaşlıq əlaqələrinin bundan sonra da genişlənəcəyinə və möhkəmlənəcəyinə əmin olduğunu söylədi.*

*Almaniya Federativ Respublikasının Federal İqtisadiyyat və Energetika Nazirliyinin Dövlət katibi Tomas Barklay qəbula görə nümayəndə heyətinin adından dövlət başçısına minnətdarlığını bildirdi və Almaniyanın Federal Kansleri xanım Angela Merkelin salamlarını dövlətimizin başçısına çatdıraraq, bu səfəri Federal Kanslerin Azərbaycana səfərinin davamı kimi dəyərləndirdi. Tomas Barklay səfərdən öncə Angela Merkellə görüşdüyünü qeyd edərək bildirdi ki, xanım Kansler Azərbaycanla ikitərəfli iqtisadi əlaqələrin davam etdirilməsindən çox məmnundur. Ölkələrimizin ortaq tarixə malik olduğunu deyən Tomas Barays Cənubi Qafqaz regionunda alman məskənlərinin salınmasının 200 illiyinin qeyd edildiyini vurğulayaraq, Prezident İlham Əliyevin bu mühüm tədbirə böyük töhfə verdiyini bildirdi. O, rəhbərlik etdiyi nümayəndə heyətinin tərkibinə müxtəlif sahələri təmsil edən nümayəndələrin daxil olduğunu qeyd edərək, onların Azərbaycanın əsl dostları olduğunu vurğuladı və bu səfərin əməkdaşlığımızın daha da genişləndirilməsi işinə töhfə verəcəyinə əminliyini ifadə etdi.*

*Görüşdə ölkələrimiz arasında əməkdaşlığın müxtəlif istiqamətlərdə, o cümlədən energetika, neft-kim-*

*ya, qeyri-neft sektoru, təhsil, peşə təhsili və digər sahələrdə inkişafı ilə bağlı fikir mübadiləsi aparıldı, alman şirkətlərinin Azərbaycandakı sənaye zonalarına maraq göstərdikləri qeyd olundu, onların Sumqayıt Kimya Sənaye Parkında iştirakına dair məsələlər müzakirə edildi.*

*Prezident İlham Əliyev Almaniya Federativ Respublikasının Federal Kansleri xanım Angela Merkelin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Almaniyanın Federal Kanslerinə çatdırmağı xahiş etdi.*

**ŞRİ-LANKA DEMOKRATİK SOSİALİST RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MAYTRİPALA SİRİSENAYA**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Müstəqillik Günü münasibətilə Sizə və xalqınıza öz adımdan və Azərbaycan xalqı adından təbriklərimi yetirirəm.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Şri-Lanka xalqına sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *1 fevral 2019-cu il*

## RUSİYA FEDERASİYASI QARAÇAY-ÇƏRKƏZ RESPUBLİKASININ BAŞÇISI RAŞİD TEMREZOVUN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*1 fevral 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 1-də Rusiya Federasiyası Qaraçay-Çərkəz Respublikasının başçısı Raşid Temrezovun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlət başçısı Azərbaycan–Rusiya ikitərəfli münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyini vurğulayaraq, iki ölkə prezidentləri arasında yüksək səviyyədə qarşılıqlı etimadın mövcud olduğunu bildirdi və bunun əlaqələrimizin genişlənməsində xüsusi rol oynadığını diqqətə çatdırdı. Prezident İlham Əliyev Azərbaycan Respublikasının Rusiya Federasiyasının ayrı-ayrı regionları, o cümlədən ümumi tarixi-mədəni dəyərlərə malik olduğumuz Şimali Qafqaz regionu və eləcə də Qaraçay-Çərkəz Respublikası ilə sıx əməkdaşlığının həyata keçirilməsinin Azərbaycan–Rusiya münasibətlərinin inkişafına töhfə verdiyini ifadə etdi. Dövlət başçısı Azərbaycan ilə Rusiyanın müxtəlif regionları arasında əlaqələrin uğurlu inkişafında ötən il iki ölkə prezidentlərinin iştirakı ilə Bakıda keçirilmiş*

*IX Azərbaycan–Rusiya Regionlararası Forumun önəmini qeyd etdi. Prezident İlham Əliyev Raşid Temrezovun ölkəmizə səfərinin səmərəli və uğurlu keçəcəyinə əminliyi ifadə etdi.*

*Azərbaycan Prezidenti ilə görüşdən böyük məmnunluq duyduqlarını bildirən Qaraçay-Çərkəz Respublikasının başçısı Raşid Temrezov Azərbaycan–Rusiya ikitərəfli münasibətlərinin inkişafında regionlararası qarşılıqlı fəaliyyətin rolunu qeyd edərək, bu gün Bakıda biznes nümayəndələri arasında keçiriləcək görüşün əhəmiyyətini vurğuladı. O bildirdi ki, Rusiyanın Qaraçay-Çərkəz regionu ilə Azərbaycan arasında iqtisadi əməkdaşlığın həyata keçirilməsi üçün qarşılıqlı maraq mövcuddur və bunun üçün yaxşı imkanlar vardır. Raşid Temrezov mədəni və humanitar əlaqələrin də yüksək səviyyədə olduğunu bildirərək, bunun münasibətlərimizin inkişafına öz töhfəsini verdiyini vurğuladı.*

## UKRAYNADA YAŞAYAN SOYDAŞLARIMIZ UMUD VƏ SABİR ŞİRİNOV QARDAŞLARINI «İGİDLİYƏ GÖRƏ» MEDALI İLƏ TƏLTİFETMƏ MƏRASİMİ

*Bakı Konqres Mərkəzi*

*1 fevral 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva fevralın 1-də Bakı Konqres Mərkəzində Azərbaycan Gəncləri Gününə həsr olunmuş respublika toplantısı çərçivəsində Ukraynada yaşayan soydaşlarımız Umud və Sabir Şirinov qardaşları ilə görüşmüşlər.*

*Dövlət başçısı həyatları təhlükəyə məruz qalan insanların xilası zamanı göstərdikləri şəxsi şücaətə görə onları «İgidliyə görə» medalı ilə təltif etdi.*

**İlham Əliyev**: Vətənə xoş gəlmisiniz! Sizi təbrik edirəm. Çox böyük şücaət göstərmisiniz. Köməksiz vəziyyətdə olan insanları xilas etmisiniz. Öz həyatınızı risk altına salmısınız. Bu doğrudan da çox böyük əks-səda doğurub. Əlbəttə, sizin bu qəhrəmanlığınız Azərbaycan xalqı haqqında daha da dolğun təsəvvür yaradılmasına xidmət göstərir. Siz xalqımızı ləyaqətlə təmsil etmisiniz. Mən sizi dəvət etdim və dövlət mükafatı – «İgidliyə görə» medalı ilə təltif edirəm.

*Prezident İlham Əliyev medalları təqdim etdi.*

*Sonra Şirinov qardaşları hadisə barədə danışdılar.*

**U m u d  Ş i r i n o v**: İşdən qayıdırdıq, yolda yük maşınının qoşqusu aşmışdı, amma elə bildik ki, yolu tutmayıb. Yaxınlaşanda gördük ki, artıq gecdir, yol təmiz tutulmuşdur. Biz birtəhər keçdik, az qala özümüz də qəzaya düşəcəkdik. Yanan KİA maşınını görməmişdik. Biz avtomobilimizi saxlayıb buraya yığılmış adamlara iradımızı bildirdik ki, niyə xəbərdaredici nişan qoymamısınız. Heç yarım dəqiqə keçməmişdi ki, mən uşaq səsi eşitdim. Yolun kənarı çox çökəklik idi, görünmürdü. Uşaq səsi eşidəndə baxıb gördüm ki, bir maşın yanır, səs də oradan gəlir. Artıq salon təmiz yanmışdı. Dedim bəs niyə dayanmısınız? Dedilər ki, qapıları aça bilmədik, maşına baxdıq, qazla işləyir, qaz balonu var, partlaya bilər, cəhd edə bilmədik, sizə də məsləhət görmürük. Biz də qapını aça bilmədik, sonradan sürücü özü bizə dedi ki, uşağa görə qapıların mərkəzi qıfılını bağlayıbmış. Biz maşının qapılarını heç cür aça bilmədik. Gördük maşın təmiz yanır. Uşağın atası və anası yıxılı vəziyyətdə idi. Üçyaşlı uşaq qışqırırdı. Biz avtomobilin yük yerinin qapısını qırdıq, uşağı və anasını tələsik çıxartdıq. Ehtiyat edirdik ki, qaz balonu partlaya bilər. Mən uşağı çıxaranda kömək istədim. Yolda 25–30 nəfər dayanmışdı. Kömək istədim, heç kim yaxın durmadı. Qardaşıma dedim ki, bizim də övladımız var, indicə balon partlayacaq. Alovun ona çatmasına bir qarış qalıb. Sürücü komada idi, tərpənmirdi, oturacaqların arasında sıxılmış vəziyyətdə qalmışdı. Biz outracaqları qırdıq. Sağ olsun qardaşım, dedi ki, gəl risk

edək, onu da çıxaraq. Qadın yalvarırdı ki, ərini də çıxaraq. Uşaq da deyirdi ki, xahiş edirəm atamı da xilas edin. Artıq biz özümüz haqqında düşünmürdük, həyatımızı riskə qoyub kişini də çıxardıq. Bundan dəqiqə yarım sonra qaz balonu partladı.

**İlham Əliyev:** Siz doğrudan da qəhrəmanlıq göstərmisiniz. Mən bunu eşidəndə dedim ki, mütləq sizi dəvət etsinlər, görüşək, sizi «İgidliyə görə» medalı ilə təltif edim.

**Şirinov qardaşları:** Çox sağ olun, cənab Prezident.

**İlham Əliyev:** Sizin kimi gənclər bizim fəxrimizdir.

**Şirinov qardaşları:** Siz də bizim fəxrimizsiniz.

## AZƏRBAYCAN GƏNCLƏRİ GÜNÜNƏ HƏSR OLUNMUŞ RESPUBLİKA TOPLANTISINDA İŞTİRAK

*Bakı Konqres Mərkəzi*

*1 fevral 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva fevralın 1-də Bakı Konqres Mərkəzində keçirilən Azərbaycan Gəncləri Gününə həsr olunmuş respublika toplantısında iştirak etmişlər.*

*Dövlət başçısı tədbirdə nitq söylədi.*

**Azərbaycan Prezidenti İlham Əliyevin nitqi**

Əziz gənclər, mən sizi qarşıdan gələn Gənclər Günü münasibətilə ürəkdən təbrik edirəm.

Azərbaycanda Gənclər Günü 22 ildir ki, qeyd olunur. Bildiyiniz kimi, 1997-ci ildə ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycanda Gənclər Günü təsis edilib. Ulu öndər gənclərə həmişə böyük qayğı, sevgi ilə yanaşırdı, bilirdi ki, ölkəmizin gələcəyi gənclərin əlində olacaq.

Azərbaycanda müasir gənclər siyasəti isə 1994-cü ildə başlamışdır. O il ulu öndər Gənclər və İdman Nazirliyini yaratdı. Gənclər və İdman Nazirliyinin yaradılması çox əlamətdar hadisə idi. Azərbaycanda gənc-

lər siyasəti məhz 1994-cü ildən icra edilməyə başlanıldı. O illər çox ağır illər idi. Azərbaycan böhrandan təzə-təzə çıxırdı. Ölkəmizdə iqtisadi vəziyyət çox ağır idi, islahatlara start verilirdi. Bütün bu çətinliklərə baxmayaraq, ulu öndərin çox düzgün qərarı Azərbaycanda gənclər üçün yeni imkanlar açdı, yeni şərait yaratdı. Ondan sonra da müvafiq qərarlar qəbul edildi, göstərişlər verildi. 1999-cu ildə dövlət gənclər siyasəti haqqında Fərman imzalandı. Ondan sonrakı dövrdə də biz həmişə gənclərə dəstək olmağa çalışmışıq. 2005-ci ildən bu günə qədər 3 Dövlət Proqramı qəbul edilibdir. Bölgələrdə 40-a yaxın Gənclər Mərkəzi yaradılıb, 44 Olimpiya İdman Mərkəzi vardır ki, orada məşq edənlərin əksəriyyəti gənclərdir.

Bizim beynəlxalq əlaqələrimiz genişlənir. Gəncə şəhəri 2016-cı ildə «Avropa gənclər paytaxtı» adına layiq görüldü. Biz Azərbaycanda müxtəlif beynəlxalq tədbirlər, o cümlədən 170 ölkədən nümayəndənin iştirak etdiyi Dünya Skaut Hərəkatı Təşkilatının konfransını keçirdik. Bütün bunlar onu göstərir ki, bu istiqamətdə düzgün addımlar atılır və bundan sonra da atılacaqdır. Azərbaycanda gənclərlə bağlı dövlət siyasəti başlayanda mən də gənc idim. O vaxt mənim 32 yaşım var idi. Fürsət düşmüşkən, gənclik illərimdən bir qədər danışmaq istərdim. Mən orta məktəbi Bakıda bitirdikdən sonra, 1977-ci ildə Moskvaya oxumağa getdim. Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutuna daxil oldum. 5 il orada təhsil aldım, ondan sonra 3 il aspiranturada oxudum, dissertasiya müdafiə

etdim və mən institutda dərs deməyə başlayanda 23 yaşım var idi. İşimdən də çox razı idim. Mənim işimə heç bir irad yox idi, ta 1990-cı ilə qədər. Həmin il xalqımıza qarşı qanlı cinayət törədildi, Qanlı Yanvar faciəsi baş verdi. O vaxt atam Heydər Əliyev təqaüdçü idi. Yanvarın 21-də Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək, öz səsini bütün dünyaya çatdırdı. Mən də onun yanında idim. Orada mətbuat konfransı keçirdi və Sovet İttifaqını, Kommunist Partiyasını və onun rəhbərliyini qətiyyətlə pislədi, bu dəhşətli cinayəti bütün dünyaya çatdırdı. Çünki o vaxt bizim sözümüz dünyaya çatmırdı. Hələ Sovet İttifaqı dövrü idi. Sovet İttifaqının dağılmasına isə 2 il vaxt var idi. Heydər Əliyev kimi tanınmış şəxsiyyətin bu məsələ ilə bağlı dediyi sözlər dərhal dünyaya çatdırıldı və dünya ictimaiyyəti bundan xəbər tutdu. Bu addım həm təbii, həm də çox cəsarətli idi. Çünki Azərbaycan xalqı, onun maraqları Heydər Əliyev üçün hər şeydən üstün idi. Bir daha bildirməliyəm ki, Sovet İttifaqının dağılmasına hələ 2 il vaxt var idi və heç kimin ağlına gələ bilməzdi ki, Sovet İttifaqı nə vaxtsa dağılacaq. Yəni Heydər Əliyev sovet sistemini dərindən bilən insan kimi, bu addımı şüurlu şəkildə atdı. Bilirdi ki, ona qarşı çox böyük təzyiqlər, təqiblər başlanacaq. Belə də oldu. Bizdə olan məlumata görə, Moskvada sovet rəhbərliyi onun çıxışından çox hiddətlənmişdi və göstəriş vermişdi ki, o, həbs olunsun.

Biz müxtəlif yollarla çalışırdıq ki, o, Moskvadan Bakıya gəlsin. İndi tarixin bu səhifəsini tam açıqla-

maq istəmirəm. Ancaq Bakıya gələ bildi, lakin Bakıda da yaşamağa qoymadılar, ona qarşı çox böyük təzyiqlər göstərildi və o, Naxçıvana gedərək, orada yaşamağa başladı. Bir müddətdən sonra xalq onu Naxçıvan Ali Məclisinin Sədri vəzifəsinə seçdi.

Müstəqilliyə gedən yol məhz Naxçıvandan başlandı. Çünki Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağını Dövlət bayrağı kimi, məhz Heydər Əliyev Naxçıvan parlamentində qaldırdı və təsis etdi. Azərbaycan Milli Məclisi – o vaxt Ali Sovet adlandırılırdı – qarşısında vəsatət qaldırılmışdı ki, bu bayraq Dövlət bayrağı kimi qəbul edilsin.

Mənim taleyimdə bundan sonra dəyişiklik baş verdi. Mən oxuduğum və dərs dediyim institutdan çıxarıldım. Mənim işimə heç bir irad yox idi. Məni işdən çıxaranda rəhbərlik dedi ki, Sizə bizim iradımız yoxdur. Ancaq Heydər Əliyev artıq Sovet İttifaqında düşmən kimi tanınır və düşmənin oğlu belə institutda dərs deyə bilməz. Mənim üçün işsizlik dövrü başlandı. Bir neçə ay işsiz qaldım. Müxtəlif yerlərdə iş axtarırdım, müraciət edirdim. Amma biləndə ki, Heydər Əliyevin oğluyam, əlbəttə ki, məni heç kim işə götürmürdü. O vaxt Sovet İttifaqının tarixində iqtisadi sahədə də müəyyən liberallıq müşahidə olundu, özəl biznesə icazə verildi. Mən məcbur qalıb özəl bizneslə məşğul olmağa başladım. Qısa müddət ərzində çox uğurlu fəaliyyət göstərdim və öz həyatımı yenidən qurmuş oldum. İşimdən razı idim. Moskvada yaranmaqda olan Azərbaycan icmalarının fəaliyyətinə dəstək verirdim. Yadımdadır ki, o vaxt Moskvada

Azərbaycan Vətəndaş Assambleyası yaradılmışdı. O Assambleyanın qurucularından biri də mənəm. Bir biznesmen kimi, Assambleyanın fəaliyyətinə ən çox maliyyə dəstəyi verən mən olmuşam. O vaxt Moskvada Azərbaycan məktəbi təsis edilmişdi. Moskvada yaşayan azərbaycanlılardan o məktəbə maliyyə dəstəyi verən də birinci mən olmuşam.

Mən bunları ona görə demirəm ki, özümü tərifləyim. Sadəcə olaraq, bu tarixdir və mən istərdim ki, bizim gənclərimiz bunu bilsinlər. Bilsinlər ki, hətta ən ağır dövrdə, ən çıxılmaz vəziyyətdə onlar həmişə ümidli olmalıdırlar, naümid olmamalıdırlar. Həmişə bilməlidirlər ki, onların taleyi onların öz əllərindədir. Yenə də deyirəm, o vaxt Sovet İttifaqının dağılması haqqında heç kim düşünmürdü. Mən çox yaxşı başa düşürdüm ki, əgər sovet rəhbərliyi atamı düşmən kimi tanıyırsa, mənim üçün bu cəmiyyətdə yer tapmaq çox çətin olacaq. Ancaq tale belə gətirdi ki, vəziyyət dəyişdi və bu gün Azərbaycan müstəqil dövlətdir. Bu bizim ən böyük xoşbəxtliyimizdir. Bir daha demək istəyirəm ki, insanlar ən ağır vəziyyətdə də həmişə ümidli olmalıdırlar.

Bu gün Azərbaycan gəncləri müstəqillik dövründə yaşayırlar. Bu, böyük xoşbəxtlikdir. Bu gün hər bir vətənpərvər azərbaycanlı haqlı olaraq fəxr edir ki, o, müstəqil Azərbaycan Respublikasının vətəndaşıdır. Ölkəmizin hərtərəfli inkişafında gənclərimizin çox böyük rolu vardır. Gənclər müxtəlif sahələrdə çox uğurla fəaliyyət göstərir, ölkəmizin ümumi inkişafına böyük töhfə verirlər. Gənclər üçün əsas istiqamət təh-

sildir. Mən bütün gənclərə üz tutub deyirəm ki, təhsilə çox böyük fikir versinlər. Çünki bugünkü dünyada bilik, savad ön plandadır. Bu gün dünya o qədər sürətlə inkişaf edir, texnologiyalar o qədər sürətlə qabağa gedir ki, bilik, savad olmadan həyatda öz layiqli yerini tapmaq çox çətindir. Gənclər peşəkar olmalıdırlar. İstənilən sahədə işləyən gənclər çalışmalıdırlar ki, öz peşəkarlıqlarını artırsınlar. Bizim gənclərimiz milli ruhda, vətənpərvərlik ruhunda tərbiyə almalıdırlar. Əsrlərboyu bizim xalqımız başqa dövlətlərin, imperiyaların tərkibində yaşamışdır. Ancaq biz milli mənsubiyyətimizi, adət-ənənələrimizi qorumuşuq. Nəyə görə?! Ona görə ki, biz həmişə öz dəyərlərimizə bağlı olmuşuq və bugünkü gənclər daim bu məsələyə çox böyük diqqət yetirsinlər. Azərbaycan dəyərləri bizim üçün ən başlıca dəyərlərdir. Bizi bir xalq kimi, millət kimi əsrlərboyu assimilyasiyadan qoruyan məhz bizim dəyərlərimiz, ana dilimiz, mədəniyyətimiz, ədəbiyyatımız, incəsənətimiz olubdur. Azərbaycan gəncləri mütləq milli ruhda tərbiyə almalıdırlar ki, gələcəkdə dövlət maraqlarını, xalqımızın milli maraqlarını layiqincə qoruya bilsinlər. Hesab edirəm ki, bu iki əsas amil hər bir gənc üçün çox vacibdir.

Mən bir daha demək istəyirəm ki, bu gün Azərbaycan gəncləri cəmiyyətimizin fəal hissəsidir. Biz haqlı olaraq gənclərimizlə fəxr edə bilərik. Bizim gənclərimiz torpaq uğrunda, Vətən uğrunda vuruşurlar. Bizim şəhidlərimizin böyük əksəriyyəti gənclərimiz olubdur. Allah bütün şəhidlərimizə rəhmət eləsin.

Bizim gənclərimiz hərbi qələbələrimizi şərtləndiriblər. Aprel döyüşləri bizim şanlı tarixi qələbəmizdir və bu əməliyyatlarda iştirak edənlərin mütləq əksəriyyəti gənclərdir. Biz bu əməliyyat nəticəsində uzun illər ərzində işğal altında qalan torpaqları işğalçılardan azad etdik. O torpaqlarda – Lələtəpədə, Füzuli, Cəbrayıl, Ağdərə rayonlarının dağlarında Azərbaycan bayrağını ucaltdıq. Bu, böyük tarixi qələbədir. Bu qələbə bir daha onu göstərdi ki, Azərbaycan xalqı işğalla heç vaxt barışmayacaq, Azərbaycan əsgəri, Azərbaycan zabiti Vətən uğrunda, torpaq uğrunda canından keçməyə hazırdır. Bu qələbə ermənilərin uzun illər ərzində yaratdıqları mifi tamamilə darmadağın etdi. Bu qələbə göstərdi ki, biz döyüş meydanında da onlardan üstünük. Bu qələbə göstərdi ki, ən əlverişsiz hərbi mövqelərdən əks hücum əməliyyatı apararaq, biz strateji mövqelərə sahib olduq. Bu gün ordu quruculuğu istiqamətində atılan addımlar təbiidir, zəruridir. Çünki biz müharibə şəraitində yaşayırıq, müharibə hələ bitməyib. Biz hər an hazır olmalıyıq ki, torpaqlarımızı işğalçılardan azad edək.Bizim gənclərimiz bu gün sərhədlərimizi qoruyur. Sərhədçilərimizin böyük əksəriyyəti gənclərdir. Bizim gənclərimiz ictimai asayişi qoruyur. Bu gün Azərbaycan dünya miqyasında ən təhlükəsiz ölkələrdən biridir. Bizim gənclərimiz müxtəlif sahələrdə uğurla fəaliyyət göstərir. Azərbaycanda könüllülər hərəkatı geniş vüsət alıbdır. Mən bunu alqışlayıram. Təxminən 20 min gənc könüllü olaraq çalışmış və indi müxtəlif təşkilatlarda müxtəlif vəzifələrdə işləyir, xeyir gətirir. Könüllülər hərəkatının xüsusi

əhəmiyyəti vardır. Bu, cəmiyyətdə xeyirxahlıq, yeni davranış qaydalarını təbliğ edir və təsadüfi deyil ki, bu sahədə gənclər öz rolunu oynayır. Könüllülər hərəkatı «ASAN xidmət»dən başladı və «ASAN xidmət»də işləyənlərin mütləq əksəriyyəti gənclərdir. Bu gün «ASAN xidmət» bizim milli intellektual, innovasiya məhsulumuzdur. Artıq bir neçə ölkə bizim köməyimizlə bu sistemi tətbiq etməyə başlayıb. «ASAN xidmət» yeni bir xidmət növüdür və təsadüfi deyil ki, vətəndaşların bəyənmə əmsalı 100 faizə yaxınlaşır.

Bizim gənclərimiz idmanda böyük qələbələr qazanır, başımızı uca edirlər. Hər bir idman qələbəsi hər bir vətənpərvər vətəndaşı sevindirir, ruhlandırır. Görün biz hansı böyük nailiyyətlərə çatdıq. Son Yay Olimpiya oyunlarında medalların sayına görə Azərbaycan dünya miqyasında 14-cü yerdə idi. Bu, tarixi qələbədir. Bu qələbəni müstəqillik dövründə doğulmuş və boya-başa çatmış gənclər əldə ediblər. Biz bunu heç vaxt təsəvvür edə bilməzdik. İndi burada əyləşən gənclər sovet dövrünü xatırlamırlar, çoxları o vaxt heç doğulmamışdı. O vaxt Azərbaycan idmanı sovet məkanında ön planda deyildi, amma bu gün biz dünya miqyasında belə tarixi qələbələr qazanmışıq. Avropa oyunlarında komanda hesabında 2-ci yeri, İslam Həmrəyliyi oyunlarında 1-ci yeri tutmuşuq. Bu bir daha göstərir ki, bizim gənc idmançılarımız nə qədər peşəkar, iradəli, vətənpərvərdirlər.

Bizim gənclərimiz bu gün iqtisadiyyatın müxtəlif sahələrində, dövlət təşkilatlarında işləyirlər. Mənim

də tövsiyəm ondan ibarətdir ki, dövlət təşkilatları gəncləri önə çəksin. Çünki gənclərin həm potensialı, həm fəallığı, həm də məsələlərə yeni baxışları cəmiyyət üçün çox lazımdır. Bütün dövlət təşkilatlarına tövsiyə etmişəm ki, könüllüləri cəlb etsinlər. Qoy könüllülər dövlət qurumlarında, nazirliklərdə, digər dövlət təşkilatlarında təcrübə yığsınlar. Özəl sektora da tövsiyəm bundan ibarətdir. Biz özəl sektora çox gözəl şərait yaratmışıq. Azərbaycanda fəaliyyət göstərən özəl müəssisələrin sayı son 15 il ərzində 60 mindən 130 minə qalxıbdır. Bu, iqtisadi sahədə islahatların təzahürüdür. Onlar da mütləq gəncləri işə cəlb etsinlər ki, gənclər həm təcrübə keçsinlər, həm də hazırlıq prosesi sürətlə getsin.

Yəni gənc alimlərimiz müxtəlif sahələrdə bizim elmi potensialımızı gücləndirirlər. Mənim təşəbbüsümlə bir neçə il bundan əvvəl Elmin İnkişafı Fondu, Gənclər Fondu yaradılıbdır. Bu fondlar vasitəsilə istedadlı gənclərə qrantlar verilir, müxtəlif tədqiqat proqramlarının həyata keçirilməsi üçün vəsait ayrılır. Yəni bizim gənclərimiz bu gün cəmiyyətdə çox fəal rol oynayırlar və gələcəkdə siz ölkəmizi idarə edəcəksiniz. Bir daha demək istəyirəm ki, ilk növbədə, milli vətənpərvərlik yüksək səviyyədə olmalıdır. Hər bir gənc bilməlidir ki, bizim hamımızın əsas vəzifəsi dövlət müstəqilliyini möhkəmləndirmək, onu qorumaqdır. Biz xoşbəxtik ki, müstəqillik dövründə yaşayırıq. Əsrlərboyu Azərbaycan xalqı müstəqillik eşqi ilə yaşayıb. Nəsillər gəlirdi-gedirdi, biz başqa ölkələrin tərkibində yaşayırdıq, öz bayrağımızı

qaldıra, öz himnimizi səsləndirə bilmirdik. Amma bu gün böyük xoşbəxtlikdir ki, biz müstəqillik dövründə yaşayırıq və əsl müstəqil siyasət həyata keçiririk. Bizim gənclərimiz həmişə yadda saxlamalıdırlar ki, Azərbaycanın dövlət müstəqilliyi hər şeydən üstündür, Azərbaycan xalqının maraqları hər şeydən üstün olmalıdır. Bir daha demək istəyirəm ki, müstəqilliyi qorumaq üçün mütləq bilik, savad, vətənpərvərlik və milli təfəkkür olmalıdır.

Bu gün gənclərə ölkə qarşısında duran bəzi vəzifələr haqqında qısaca öz sözlərimi demək istəyirəm. Ölkəmizin sürətli və uğurlu inkişafı davam edir, ölkə qarşısında duran bütün vəzifələr icra olunur. Bu gün Azərbaycan dünyada çox sürətlə inkişaf edən ölkə kimi tanınır. Biz isə əldə edilmiş uğurlarla kifayətlənməməliyik, daim irəliyə baxmalıyıq və ilk növbədə, bu gün həll edə bilmədiyimiz məsələləri həll etməliyik, nöqsanları, problemləri aradan qaldırmalıyıq. Əlbəttə ki, gənclər bu sahədə bizim ən birinci yardımçılarımız ola bilər və olmalıdırlar. Ona görə ictimai nəzarətin gücləndirilməsi çox önəmli məsələdir. Mən öz çıxışlarımda dəfələrlə demişəm ki, mütləq ictimai nəzarət olmalıdır. Çünki ictimai nəzarət olan yerdə işlər daha yaxşı gedir. Mən gəncləri bu məsələyə diqqət yetirməyə dəvət edirəm.

Ölkəmizdə daxili vəziyyət sabitdir. Daxili sabitlik hər bir ölkənin inkişafı üçün əsas şərtdir. Biz görürük ki, dünyanın müxtəlif yerlərində sabitlik pozulanda çox böyük faciələr baş verir, o ölkələrin başına çox böyük bəlalar gətirilir, ölkələr dağılır, milyonlarla

insan həlak olur, qaçqın, köçkün vəziyyətinə düşür. Ona görə daxili sabitliyin qorunması hər birimizin əsas vəzifəsidir və bu gün Azərbaycan dünya miqyasında ən sabit ölkələrdən biridir.

Sosial problemlərin həlli daim diqqət mərkəzində olmalıdır. Bu sahəyə çox böyük diqqət göstərilir, çox böyük vəsait ayrılır. Xüsusilə məcburi köçkünlərin, şəhid ailələrinin, Qarabağ müharibəsi əlillərinin sosial problemlərinin həlli üçün böyük vəsait ayrılır. Onlar üçün şəhərciklər salınır, minlərlə ev tikilib və tikiləcəkdir. Ünvanlı sosial yardım alanların da problemləri daim diqqət mərkəzindədir. Onlar hələ də ehtiyaclarını özləri təmin edə bilmirlər. Ona görə təbiidir ki, Azərbaycan dövləti onlara dəstək göstərir. Onu da bildirməliyəm ki, Azərbaycan ünvanlı sosial yardım göstərən nadir ölkələrdəndir və bu, tam ədalətlidir. Biz çalışmalıyıq ki, hələ də öz maddi durumunu lazımi səviyyəyə qaldıra bilməyən vətəndaşlar dövlətdən dəstək alsınlar. Bundan sonrakı dövrdə özünüməşğulluq proqramı da geniş vüsət alacaq və dövlət hələ də yaxşı vəziyyətdə yaşamayan vətəndaşları müxtəlif vasitələrlə, aktivlərlə təmin edəcəkdir. Hesab edirəm ki, Azərbaycan xarici siyasətlə bağlı nümunəvi ölkə sayıla bilər. Bizim xarici siyasətimiz daxili siyasətimizin məntiqi davamıdır. Uğurlu xarici siyasət aparmaqla, biz özümüzü mümkün olan xarici risklərdən qoruyuruq və buna nail oluruq. Bəzən bizim xarici siyasətimizi tarazlaşdırılmış siyasət kimi qələmə verirlər. Ancaq mən hesab edirəm ki, bizim xarici siyasətimiz milli maraq-

lar üzərində qurulub. Milli maraqlar diktə edir ki, biz bütün ölkələrlə – qonşularımızla, İslam Əməkdaşlıq Təşkilatına üzv ölkələrlə, eyni zamanda, Avropa ölkələri ilə işgüzar, bərabərhüquqlu, bir-birinin işinə qarışmamaq şərti ilə münasibətlər quraq və qurmuşuq da. Biz buna nail ola bilmişik, öz milli maraqlarımızı həmişə lazımi səviyyədə qoruyuruq və qoruyacağıq. Bizim dünyadakı rolumuzu və bizə olan münasibəti əks etdirən çox parlaq bir nümunə vardır. Bir neçə il bundan əvvəl Azərbaycan 155 ölkənin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasına üzv seçilmişdir. Bu da beynəlxalq aləmin mütləq əksəriyyətidir. Azərbaycana göstərilən hörmət, rəğbət, dəstək bu səsvermədə özünü büruzə verdi. Ən başlıca vəzifə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllidir. Azərbaycan bu istiqamətdə hüquqi cəhətdən, siyasi cəhətdən və bütün başqa cəhətlərdən öz mövqelərini möhkəmləndirir. Bizim ərazi bütövlüyümüz danışıqlar mövzusu deyil, heç vaxt olmayıb və heç vaxt da olmayacaqdır. Azərbaycanın ərazi bütövlüyü bütün dünya tərəfindən tanınıb və son illərdə bu istiqamətdə əlavə addımlar atılıbdır. Mənim bir çox xarici həmkarlarımla imzaladığım sənədlərdə Azərbaycanın ərazi bütövlüyünə böyük dəstək göstərilib. Avropa İttifaqı ilə keçən il imzalanmış «Tərəfdaşlıq prioritetləri» sənədində Azərbaycanın ərazi bütövlüyü, suverenliyi, sərhədlərinin toxunulmazlığı haqqında xüsusi bənd vardır. Beynəlxalq təşkilatlar, BMT, onun Baş Assambleyası, Təhlükəsizlik Şurası bizim xeyrimizə, yəni ədaləti əks etdirən qətnamələr qəbul

ediblər. «Qoşulmama Hərəkatı»nın, İslam Əməkdaşlıq Təşkilatının, ATƏT-in və digər təşkilatların qəbul etdiyi qərarlar münaqişənin həlli üçün hüquqi baza, hüquqi əsas yaradır və bu da bizim mövqemizi möhkəmləndirir. Biz çox böyük təbliğat işi aparırıq, yəni həqiqətləri dünyaya çatdırırıq – müxtəlif ölkələrdə təqdimatlar keçirilir, Xocalı soyqırımının tanıdılması prosesi uğurla gedir, müharibə ilə bağlı həqiqətləri çatdırırıq. Beləliklə, beynəlxalq ictimaiyyətdə düzgün fikir yaradırıq, çünki onlar həqiqəti bilməlidirlər. Bunun üçün bütün lazımi tədbirlər görülübdür.

Bununla yanaşı, bizim iqtisadi və hərbi gücümüz də artır. Aprel döyüşləri və ötən il keçirilmiş uğurlu Naxçıvan əməliyyatı bizim gücümüzü, peşəkarlığımızı göstərdi. Biz strateji yüksəklikləri azad etdik, strateji kommunikasiyalara nəzarət edirik. Bütün bunlar münaqişənin həlli üçün çox önəmli zəmin yaradır. Ona görə biz bu məsələ ilə bağlı öz siyasətimizi davam etdirəcəyik. Biz daha güclü olmalıyıq. Ölkə qarşısında duran vəzifələrdən biri də iqtisadi gücümüzü artırmaqdır və bu istiqamətdə işlər aparılır. İqtisadiyyatımızın şaxələndirilməsi istiqamətində işlər görülür. Biznes mühitinin yaxşılaşdırılması istiqamətində yaxşı nəticələr vardır. Dünya Bankının son «Doing Business» hesabatında Azərbaycan 32 pillə irəliləyərək, 25-ci yerə layiq görülüb. Baxın, dünya miqyasında biznes şəraitinə görə Azərbaycan 25-ci yerdədir. Biz bunu nəyin hesabına əldə etmişik? Ancaq islahatlar hesabına. İslahatlar davam etdiriləcək. Bu islahatlar nəticə verir. Biz islahat naminə

islahat aparmırıq. Biz məqsədyönlü, düşünülmüş addımlar atırıq ki, ölkəmizin inkişafına yeni təkan verək, hələ də həll olunmamış problemləri həll edək, nöqsanları, xoşagəlməz halları, çatışmayan məqamları aradan götürək və bunu edirik. Buna nail olmaq üçün gənclərin çox böyük dəstəyi olmalıdır. Biz bunu hiss edirik və görürük.

İqtisadi müstəqillik siyasi müstəqilliyin əsas şərtidir. Təsəvvür edin, əgər biz iqtisadi cəhətdən asılı olsaydıq, müstəqil siyasət apara bilərdikmi? Əlbəttə ki, yox. Dünyada o qədər ölkə var ki, bu məsələ ilə bağlı çətinlik çəkir. Biz iqtisadi gücümüzə arxalanaraq, müstəqil siyasət aparırıq və öz prinsipial sözümüzü deyirik, xalqımızın maraqlarını bütün tədbirlərdə qoruyuruq.

İqtisadi müstəqillik və dayanıqlılıq mütləq bundan sonra da təmin edilməlidir. Biz xarici dövlət borcumuzu çox aşağı səviyyədə saxlayırıq. Bizim valyuta ehtiyatlarımız xarici borcumuzdan 4-5 dəfə çoxdur. Çox az ölkə tapılar ki, bu göstərici ilə fəxr edə bilsin. Yəni biz iqtisadi cəhətdən heç kimdən asılı deyilik və heç vaxt asılı olmamalıyıq. Mən gənclərə deyirəm, siz də bunu bilməlisiniz ki, biz heç vaxt heç kimdən asılı olmamalıyıq. Biz azad xalq kimi yaşamalıyıq, biz öz həyatımızı özümüz qururuq. Əgər kimsə bizə məsləhət vermək, kömək göstərmək istəyirsə – əgər bu təmənnasızdırsa – biz bunu alqışlayırıq. Ancaq biz özümüz hər şeyi bilirik, öz həyatımızı özümüz qururuq. Müstəqilliyimizin son 25 ili bunu göstərir ki, biz düzgün yoldayıq. Biz 1993-cü ildən başlayaraq,

ancaq inkişaf və tərəqqi yolu ilə gedirik. Amma baxın, 1993-cü ilə qədər nələr baş verirdi. Azərbaycan, demək olar ki, dünya xəritəsindən silinirdi. Müstəqilliyimizin ilk illəri ağır, faciəli illər idi. Ölkə idarəolunmaz vəziyyətə düşmüşdü. Xüsusilə 1992-ci ildə AXC–Müsavat cütlüyünün hərbi çevrilişindən sonra vəziyyət daha da ağırlaşdı. Xaos, anarxiya, özbaşınalıq, quldur dəstələri çiyinlərində avtomat küçələri gəzirdilər. Siz gənclər bunları görməmisiniz, bəlkə də televiziya kadrlarında görmüsünüz. Biz isə bunları görmüşük – özbaşınalıq, rüşvətxorluq, korrupsiya. Səriştəsiz adamlar vəzifəyə gəldilər, ölkəmizi bərbad vəziyyətə saldılar, vətəndaş müharibəsinə təkan verdilər və Azərbaycanda vətəndaş müharibəsi başlandı. Məhz o hakimiyyətin xəyanətinə görə torpaqlarımız işğal altına düşdü. Bütün bunları biz görmüşük. Əgər Azərbaycan xalqı 1993-cü ildə müdriklik göstərməsəydi, Heydər Əliyevi hakimiyyətə dəvət etməsəydi, bizim taleyimizin necə olacağını bilmək olmazdı. Ona görə bütün bunları görərək, biz bugünkü sürətli inkişafı daha da yüksək qiymətləndirməliyik və bu inkişafı dayanıqlı etməliyik.

Biz Azərbaycanın dövlət maraqlarının keşiyində nə-yin bahasına olursa olsun durmuşuq. Bu yolda təzyiqlər də, yalanlar da, böhtanlar da, iftiralar da olub. Bunların heç biri bizi öz yolumuzdan döndərə bilməyib. Ona görə ki, biz düzgün yoldayıq, bilirik ki, bizim siyasətimiz xalqın maraqlarına cavab verir. Əldə etdiyimiz nəticələr, nailiyyətlər, gözəlləşən şəhərlər bütün bədxahlara, bizə zərbə vurmaq istəyənlərə, paxıllıq edənlərə ən gözəl cavabdır. Bu proses daimi olmalıdır, davam etməlidir.

Buna görə siz gənclər buna hazır olmalısınız, hər şeyi bilməlisiniz. Sizin üçün ən başlıca vəzifə müstəqilliyi, milli maraqları qorumaq, Azərbaycanı yad təsirlərdən qorumaq və xalqımızın rahat həyatını təmin etməkdir. Mən şübhə etmirəm ki, siz buna hazırsınız. Azərbaycan gəncləri fəal, vətənpərvər, bilikli, savadlıdırlar. Gənclər, mən sizə inanıram, güvənirəm. Sizi qarşıdan gələn Gənclər Günü münasibətilə bir daha təbrik edirəm və gənclərə «Eşq olsun!» – deyirəm. Sağ olun.

* * *

*Sonra gənclər siyasətinə həsr olunmuş film nümayiş olundu.*

*Daha sonra gənclərin nümayəndələri çıxış etdilər.*

**Məryəm Məcidova** (*Azərbaycan Gənclər Təşkilatları Milli Şurasının sədri*): Möhtərəm cənab Prezident!

Hörmətli Mehriban xanım!

Əziz gənc dostlarım!

Əvvəla, hamınızı 2 fevral – Gənclər Günü münasibətilə təbrik edir, fəaliyyətinizdə daim uğurlar arzulayıram. Biz tarixi hadisələrlə zəngin bir dövrü yaşayırıq. Azərbaycan öz tarixində heç vaxt olmadığı qədər müstəqil və güclü dövlətə malikdir. O, regionda və dünyada sayılır və dövlətimizlə hesablaşırlar. Bunun arxasında əzmkarlıq, mübarizlik və düşünülmüş uzaqgörən siyasət dayanır. Ümummilli liderimiz Heydər Əliyev öz zəngin təcrübəsi, nüfuzu və dahilərə xas zəkası ilə gələcəyimiz üçün güclü əsaslar yaradıb. Azərbaycan 28 ildir ki, müstəqil dövlətdir.

Ölkəmizdə uğurla həyata keçirilən gənclər siyasətinin bu il 25 ili tamam olur. 25 ildir ki, Azərbaycan gənci tarixi, milli və mədəni mənsubiyyətinin qorunması yolunda daha ciddi addımlar atmaqdadır. Biz beynəlxalq tribunalarda çıxış edərkən «Mən müstəqil respublikanın vətəndaşıyam» – deyə özümüzü təqdim edirik.

Bəli, bu sözləri biz fəxrlə deyirik. Çünki bizim arxalandığımız güclü dövlətimiz və güclü liderimiz vardır! Sədri olduğum Gənclər Təşkilatları Milli Şurası 1995-ci ildə 11 təşkilatla yaradıldı. Bu gün sıralarımızda 128 təşkilat birləşir. Təşkilatımız Azərbaycanın ictimai-siyasi həyatında fəal iştirak edərək, gənclərin ictimai idarəetmə məktəbi kimi də formalaşıb. Gənclər Təşkilatları Milli Şurasının sıralarından çıxmış gənclər bu gün mərkəzi və yerli icra orqanlarında, o cümlədən beynəlxalq təşkilatlarda və şirkətlərdə çalışaraq, bilik və bacarıqlarını dövlətimizin möhkəmlənməsinə və inkişafına yönəldirlər. Bu amilin əhəmiyyətini nəzərə alaraq, gəncləri ölkəmizin həyatında daha da fəal iştiraka çağırıram. Çünki bu bizim Vətənimizdir, bizim Azərbaycanımızdır. Bir məqamı da xüsusi qeyd etmək istərdim. Gənclər təşkilatlarının təşəbbüsləri, onların cəmiyyətin və gəncliyin inkişafına yönəlmiş layihələri, həmçinin beynəlxalq əməkdaşlığı dövlət tərəfindən dəstəklənir. Gənclər təşkilatları üzvlərinin fəaliyyəti ən ali səviyyədə qiymətləndirilir. Məsələn, mən beynəlxalq tədbirlərdə iştirak edərkən, öz həmyaşıdlarıma gənclər üçün Prezident mükafatçısı olduğumu bildirəndə bunu təəccüblə qarşılayır, dövlət gənclər

siyasətimizə həsəd aparırlar. Budur gənclərə olan qayğı və diqqət, budur gənclərə olan inam!

Gənclər siyasətinin vacib istiqamətlərindən biri də beynəlxalq təmsilçilikdir. Dövlətimizin yürütdüyü xarici siyasət nəticəsində biz gənclər Azərbaycanın inkişafı və həqiqətlərini dünya ictimaiyyətinə yüksək tribunalardan çatdırırıq. Əminliklə deyə bilərəm ki, bundan sonra da belə olacaq. Azərbaycan əhalisinin əksəriyyətinin gənclərdən ibarət olması ölkəmizin davamlı inkişafının təminatıdır. Bizim yeganə yolumuz Prezidentimizin ətrafında daha da sıx birləşərək, azərbaycançılıq ideologiyasına sədaqətlə xidmət etməkdir.

Möhtərəm cənab Prezident, Siz Azərbaycan gənclərinin IV Forumunda çıxış edərək, belə bir fikir bildirdiniz: «Siz bütün işlərdə mənə arxalana bilərsiniz. Mən də sizə arxalanıram». Biz də bütün fəaliyyətimizdə Sizə arxalanır və qayğınızı hər zaman hiss edirik.

On minlərlə gənci birləşdirən 128 gənclər təşkilatı adından bizə verilən bu dəyəri yüksək qiymətləndirir və Sizi əmin edirik ki, etimadınızı doğrultmaq üçün daim səylə çalışacağıq. Diqqətinizə görə minnətdaram.

**K a m i l  M u s a v i** (*Qarabağ qazisi, baş leytenant*): Möhtərəm Prezident!

Cənab Ali Baş Komandan!

Hörmətli tədbir iştirakçıları!

Hər birinizi salamlayıram. Gənclər Günü münasibətilə bütün gənc bacı və qardaşlarımızı təbrik edir, həyatda uğurlar arzulayıram.

Azərbaycan gəncləri Azərbaycanın gələcəyidir. Bu gün Azərbaycanın gələcəyi olaraq biz gənclərin üzərinə çox böyük vəzifələr düşür. Onlardan biri və birincisi vətənpərvər olmağımızdır. Hər bir gənc vətənpərvər olmalıdır, Vətənini sevməlidir. Vətənpərvər olmaq təkcə hərbi forma geyinib hərbçi olmaq, səngərdə dayanmaq deyil. Hər bir insanın vətənpərvərliyi öz sahəsində Vətəninə, xalqına, millətinə vicdanla xidmət etməsidir. Mən bu gün burada həm Azərbaycan Ordusunu, həm Qarabağ qazilərini təmsil edirəm. Bildirmək istəyirəm ki, biz hər zaman döyüş əhval-ruhiyyəsi ilə yaşayırıq. Biz hər zaman öz doğma torpaqlarımızı düşmən tapdağından azad etmək arzusundayıq.

Cənab Baş Komandan, bir zamanlar hücum əmri sanki yaddaşımızdan silinmişdi. Amma aprel döyüşlərində gözlənilməyən anda Sizin «irəli» əmri verməyiniz cəsarətli qərarlarınızdan oldu. Siz çıxışlarınızın birində belə bir fikir söyləmişdiniz: «Biz öz doğma torpaqlarımızı heç kimə verməyəcəyik və heç bir zaman bu vəziyyətlə barışmayacağıq». Bu fikirlərinizi dünyaya sübut etmək və öz doğma torpaqlarımızı düşmən tapdağından azad etmək üçün Azərbaycanın qeyrətli oğulları Sizin «irəli» əmrinizə hazırdırlar.

Möhtərəm cənab Prezident, «irəli» əmri verdiyiniz zaman biz qazilər də bu əmrdən kənarda qalmaya-

cağıq. Düzdür, kimlərsə düşünər ki, bədənin hər hansısa bir üzvünü itirmiş insanlar necə döyüşə bilər? Amma ayağı olmayanlar sürünərək, gözləri görməyənlər hiss edərək döyüşə gedəcəklər. Yetər ki, xalqımız yaşasın, yetər ki, müstəqil Azərbaycanımız var olsun. Çox sağ olun.

**Fəridə Əsgərzadə** (*Azərbaycan Dövlət İqtisad Universitetinin müəllimi, «Human Foundation» Fondunun Azərbaycan üzrə təsisçisi*): Möhtərəm cənab Prezident! Hörmətli gənclər!

Sizin və bu böyük gənclər auditoriyasının qarşısında çıxış etmək, fikirlərimi sizinlə bölüşmək mənim üçün şərəfdir. Biz bu gün dördüncü sənaye inqilabı dövründə yaşayırıq. Genetika, «süni intellekt», robototexnika, nanotexnologiya və biotexnologiya sahələri artıq yenilik deyil. Bir çox peşə və ixtisaslar 5 və ya 10 il əvvəl heç mövcud deyildi. Bu səbəbdən də gənclərin yeni yaranan peşələr və əmək bazarına uyğunlaşması baxımından sahibkarlıq düşüncəsinin inkişaf etdirilməsi çox aktualdır. Sizin apardığınız uğurlu iqtisadi siyasət nəticəsində Azərbaycanda biznes mühiti davamlı olaraq yaxşılaşır, istehsal, emal sahələri inkişaf edir və iqtisadiyyatın şaxələnməsi təmin edilir. Azərbaycanda kiçik və orta sahibkarlıq subyektlərinin inkişafına dəstək göstərilir, qanunvericilik bazası təkmilləşdirilir və güzəştli kreditlər verilir. Startap infrastrukturunun inkişafı üçün böyük addımlar atılır. Yüksək texnologiyalar parkları, innovasiya mərkəzləri, biznes inkubasiya mərkəzləri açılır. Gənclər üçün biznes məsləhət xidmətlərinin təşkili və metodiki

tövsiyələrin verilməsi mühüm əhəmiyyət kəsb edir. Gənc sahibkarlığın inkişafının ən vacib komponentlərindən biri beynəlxalq təcrübənin öyrənilməsi, mentallıq və innovasiya xidmətlərinin göstərilməsidir. İnnovativ ideyalara gəldikdə isə, sosial sahibkarlığı xüsusi vurğulamaq lazımdır. Bu sahə gəlir gətirməklə yanaşı, cəmiyyətə fayda verən, yerli və qlobal problemlərin həlli yollarını tapmağa təsir göstərməyə malik sahibkarlıq konsepsiyasıdır. Mənim «Human Foundation»u yaratmağıma bu düşüncə səbəb olub. Bizim məqsədimiz sosial sahibkarlıq platforması vasitəsilə gənclərə sosial biznes, mədəni layihələrin həyata keçirilməsi üçün şərait yaratmaq, hər kəs üçün bərabər imkanları dəstəkləməkdir. Dövlətin dəstəyi bizi ətrafımızda çox sadə gəncləri toplamağa həvəsləndirdi və bu qarşılıqlı dəstək dairəsi bu gün getdikcə genişlənir. Son dövrlərdə yaradılmış sahibkarlıq subyektlərinə diqqət yetirəndə burada qadınların sayının artdığını müşahidə edirik. Azərbaycan çox azsaylı ölkələrdən biridir ki, qadınların sahibkarlıq fəaliyyəti dövlət tərəfindən tam dəstəklənir və inkişaf üçün bütün şərait yaradılır. Mənim fəaliyyətim bunun bir nümunəsidir. 21 yaşımdan etibarən sahibkar kimi, 23 yaşımdan isə universitetdə müəllim kimi çalışmağa başlamışam. Sevindirici haldır ki, mənim fəaliyyətim və ideyalarım müxtəlif təşkilat və dövlət qurumları tərəfindən dəstəklənib. Sahibkarlıq sahəsində həm elmi, həm praktiki fəaliyyət göstərməyim dövlətimizin yaratdığı şərait nəticəsində mümkün olubdur.

Əziz Mehriban xanım, Sizin ictimai fəaliyyətiniz, sosial sahədə gördüyünüz işlər, insanpərvərliyiniz və işgüzarlığınız nəinki mənə, bütün gənc azərbaycanlı qadınlara örnəkdir.

Hörmətli gənclər, bu gün ölkəmizdə cənab Prezident tərəfindən həyata keçirilən sosial-iqtisadi siyasət nəticəsində gənclərin sahibkarlıq fəaliyyəti ilə məşğul olması və məşğulluğun təmin olunması üçün münbit şərait yaranıbdır. Biz gənclər bu işdə cənab Prezidentin bizə göstərdiyi etimadı doğrultmalı və yeni ideyalarla Azərbaycanın daha da inkişafı üçün birlikdə çalışmalıyıq. Azərbaycanda hər bir gənc parlaq uğura nail ola bilər. Biz hər zaman uğur qazanmaq istəyiriksə, fəaliyyətə elə bu gün başlamalıyıq. Gənclər Günümüzü təbrik edirəm.

Hörmətli cənab Prezident, bizə yaratdığınız şərait və dəstək üçün Sizə gənc sahibkarlar adından dərin minnətdarlığımı bildirirəm. Sizi əmin etmək istəyirəm ki, biz Azərbaycanın daha da güclənməsi naminə əzmlə çalışacağıq. Diqqətinizə görə təşəkkür edirəm.

**Seymur Orucov** (*Yeni Azərbaycan Partiyası Gənclər Birliyinin sədri*): Möhtərəm cənab Prezident! Çox hörmətli Mehriban xanım!

Hörmətli tədbir iştirakçıları!

Əvvəla, ulu öndərin biz gənclərə hədiyyəsi olan Gənclər Günü münasibətilə hər birinizi səmimi-qəlbdən təbrik edirəm. Bu gün bu yüksək kürsüdən ulu öndərin qurduğu Yeni Azərbaycan Partiyasının nümayəndəsi kimi çıxış edib fikirlərimi sizinlə bölüşmək istəyirəm.

Cənab Prezident, Sizin rəhbəri olduğunuz Yeni Azərbaycan Partiyası cəmiyyətin aparıcı qüvvəsidir. Müdriklərdən biri deyib: «Haradan gəldiyini, harada olduğunu, haraya gedəcəyini müəyyən edən xalqlar heç zaman uğursuzluğa düçar olmurlar». Bəli, biz bu yolda iri addımlarla irəliləyirik. Biz ona görə xoşbəxtik ki, bu yolun təməlini ulu öndərimiz Heydər Əliyev qoyub. Bu gün Azərbaycan gəncliyi xoşbəxtdir ki, Azərbaycanın lideri, Prezidenti gənclərimizə daha güclü, daha zəngin bir Azərbaycan bəxş edib. Siz çıxışlarınızda demişdiniz ki, Azərbaycan tarixində bu qədər güclü olmayıb. Bu gücün mənbəyi Heydər Əliyev yoludur, bu gücün mənbəyi xalqla iqtidarın birliyidir, bu gücün mənbəyi Azərbaycan xalqının, Azərbaycan gəncinin Sizə olan ehtiramıdır, məhəbbətidir. Bu gün hər bir Azərbaycan gənci Ali Baş Komandanın əsgəridir. Səngərdə əsgəridir, orduda əsgəridir, təhsildə əsgəridir. Əgər Azərbaycanın müstəqilliyinə qarşı hər hansı bir təhdid olarsa, inanın kı, cənab Prezident, bu gənclər həmin qüvvələri tarixin siyasi səhnəsindən bir anda silərlər. Təbiidir ki, bu gün dünyada sosial şəbəkələrlə bağlı baş vermiş xaosdan bəzi antimilli qüvvələr sui-istifadə etməyə çalışırlar. Bir çox dövlətlər artıq bununla bağlı qanunvericilikdə dəyişikliklər edib, düşünürük ki, artıq bu, Azərbaycanda da zərurətə və tələbata çevrilibdir.

Bu gün xalq tərəfindən tarixin arxivinə atılmış siyasətin tör-töküntüləri, bax, həmin bu sosial medianın vermiş olduğu imkanlardan sui-istifadə edərək, xalqı çaşdırmağa, səhv, yalan, böhtan xarakterli məlumatlar

yayaraq, insanlardakı Azərbaycana olan inamı itirməyə, ictimai-siyasi sabitliyi pozmağa cəhdlər göstərirlər. Amma bu gün Yeni Azərbaycan Partiyasının gənc üzvləri – Prezidentini, Vətənini sevən gənclər onları sosial şəbəkələrdə də iflasa uğradıb, bütün həqiqətləri açıqlayaraq, Azərbaycan cəmiyyətinə onların kim olduqlarını göstəriblər. Azərbaycan xalqı onsuz da onların kim olduğunu çox gözəl bilir. Mən buradan üzümü həmin antimilli qüvvələrə tutub deyirəm: təkcə Yeni Azərbaycan Partiyası Gənclər Təşkilatının bir rayondakı üzvlərinin sayı sizdən qat-qat çoxdur. Təkcə ötən il Yeni Azərbaycan Partiyasına 24 mindən çox üzv qəbul edilib. Onların əksəriyyəti gənclərdir. Bu da ondan xəbər verir ki, Azərbaycan cəmiyyəti bu siyasi kursa böyük dəstək verir, bu siyasi kursla həmfikirdir.

Cənab Prezident, Siz qısa müddət ərzində yeni Azərbaycan qurdunuz. Azərbaycanı dünyada bir çox dövlətlərin heyranlıqla izlədiyi bir səviyyəyə gətirib çıxardınız. Biz gənclərin də, Yeni Azərbaycan Partiyası gənclərinin də əsas işi ondan ibarətdir ki, Sizin və çox hörmətli Birinci vitse-prezidentimiz Mehriban xanım Əliyevanın gördüyü işləri gənclərimizə çatdıraq, bunun təbliğatını aparaq. Təbiidir ki, Siz bu işdə bizə çox kömək göstərirsiniz. Çünki Sizin gördüyünüz işlər o qədər möhtəşəmdir, cəmiyyət tərəfindən o qədər müsbət qarşılanır və Azərbaycanı o qədər qüdrətli edir ki, həmin işlər özü-özünü təbliğ edir. Müqayisə üçün deyim ki, məsələn, Ermənistan gəncləri öz rəhbərlərini necə təbliğ edə bilərlər? İş yoxdursa, əhali səfil vəziyyətdə yaşayırsa, hər şeydən

məhrumdursa, hansı təbliğatdan söhbət gedə bilər?! Amma Azərbaycan gəncinin deməyə sözü çoxdur.

Cənab Prezident, Sizi bir daha əmin etmək istəyirəm ki, biz istər regionlarda, istərsə də paytaxtda gənclərlə görüşlərimiz zamanı gənclər Sizə hər zaman öz məhəbbət, sevgi və ehtiramlarını ifadə edirlər. Bu gün Siz əmin ola bilərsiniz ki, Azərbaycan gəncliyi Sizin çağırışınızı gözləyir, Azərbaycan gəncliyi Sizinlədir. Çünki bizim dəmir iradəli Prezidentimiz vardır. Biz çox sürətlə inkişaf edirik. Bu yoldan bizi heç kim, heç bir qüvvə döndərə bilməz.

Yaşasın müstəqil Azərbaycan! Yaşasın Heydər Əliyev yolu! Yaşasın Prezidentimiz İlham Əliyev!

Çox sağ olun.

**Aydan Ramazanova** (*«Regional İnkişaf» İctimai Birliyinin nümayəndəsi*): Möhtərəm cənab Prezident, hörmətli Mehriban xanım!

2016-cı ildə Heydər Əliyev Fondu tərəfindən təsis olunmuş «Regional İnkişaf» İctimai Birliyinin məqsədi regionlarda ictimai nəzarəti həyata keçirmək, ölkəmizin sosial, ictimai və mədəni həyatında fəal iştirak etmək, dövlətimiz tərəfindən regionların inkişafı sahəsində həyata keçirilən tədbirlərə geniş dəstək göstərməkdən ibarətdir. Bu istiqamətdə İctimai Birlik bölgələrdə mütəmadi görüşlər keçirir, insanların qayğıları ilə maraqlanır, müraciətlərini araşdıraraq, həlli yollarını axtarır.

Cənab Prezident, bu günədək biz Sizin və Mehriban xanımın bilavasitə dəstəyi sayəsində əhalinin sosial, infrastruktur, özünüməşğulluq, səhiyyə və digər mə-

sələlərlə bağlı çoxsaylı müraciətlərinin müsbət həllinə nail olmuşuq. İcazənizlə, görülmüş işlərdən bəzi nümunələri qeyd etmək istəyirəm. Əhalinin özünüməşğulluğunun təmin olunması ilə bağlı Sizin tapşırığınıza uyğun olaraq, «Sosial bağlar» layihəsi həyata keçirildi. Layihə çərçivəsində 125 şəhid ailəsi, əlil və aztəminatlı ailələr üçün intensiv meyvə bağları salındı. Bu bağlar onların yaşayış səviyyəsinin yaxşılaşdırılmasında əhəmiyyətli rol oynayacaq. Bu yaxınlarda Ağsu rayonundan qayıtmışıq. Əhalinin Sizə salamlarını çatdırmaq istərdim. Ağsu rayonunun Elabad kəndində sakinlərə verilmiş pay torpaqlarının sərhədləri uzun müddət qeyri-müəyyən olduğundan, insanlar torpağı əkib-becərməkdə və dövlət tərəfindən verilmiş imtiyazlardan istifadədə çətinlik çəkirdilər. İctimai Birliyin təşəbbüsü ilə aidiyyəti qurum tərəfindən qısa müddət ərzində torpaqların dəqiq sərhədləri müəyyənləşdirildi, vətəndaşlara müvafiq mülkiyyət sənədləri verildi. Əkin üçün torpaqların şumlanması və məhsulun yığılmasında da onlara lazımi kömək göstərildi. Belə nümunələr kifayət qədərdir. Bildirmək istərdim ki, bütün bu işlər regionlarda əhali, xüsusilə gənclər tərəfindən böyük məmnunluqla qarşılanır, onlarda ruh yüksəkliyi yaradır və dövlətə olan inamı daha da gücləndirir.

Cənab Prezident, bütün bu işlərdə həmişə Sizin və Mehriban xanımın dəstəyinə arxalanırıq. Sizin insanlara belə qayğı göstərməyiniz, onların problemlərinə həssaslıqla yanaşmağınız bizə və bütün gənclərə stimul verir. Gənclərimiz bütün sahələrdə gedən

inkişaf proseslərini yaxından izləyir və dövlətimizin əldə etdiyi nailiyyətlərlə qürur duyurlar. Sizin rəhbərliyiniz altında dövlətçiliyimiz, siyasi və iqtisadi müstəqilliyimiz daha da möhkəmlənib. Bu gün ölkəmiz beynəlxalq tədbirlərin, forumların, mötəbər idman yarışlarının keçirildiyi məkana çevrilib. Xalqımızın rifahı naminə gördüyünüz bütün bu işlər Azərbaycan gənclərində xoşbəxt gələcəyə olan inam və əminliyi daha da artırır. Regionlarda gənclərimizin sosial fəallığının artırılması, onların bilik və bacarıqlarının inkişaf etdirilməsi, həyata keçirilən layihələrdə iştirakının təmin olunması məqsədilə biz geniş fəaliyyətimizə könüllüləri də cəlb etmişik. Hazırda 500-ə yaxın könüllü İctimai Birliyin bütün təşəbbüslərinə dəstək verərək, müxtəlif idman yarışlarında, marafonlarda, səhiyyə aksiyalarında, eləcə də əhalinin tibbi, hüquqi və ekoloji maarifləndirilməsində fəal iştirak edir.

Möhtərəm cənab Prezident, «Regional İnkişaf» İctimai Birliyi olaraq, biz regionlara, o cümlədən cəbhə bölgələrinə müntəzəm səfərlər edirik. Bu səfərlər zamanı şahidi oluruq ki, xalqımızda böyük ruh yüksəkliyi, milli birlik və həmrəylik vardır. Bu hisslər onların Sizə və Mehriban xanıma olan inamından irəli gəlir. Siz bayramları, xoş günlərinizi, hətta doğum günlərinizi xalqla, qaçqın və məcburi köçkünlərlə, şəhid ailələri və əsgərlərlə qeyd edirsiniz. Bu biz gəncləri bir daha hədsiz qürurlandırmaqla yanaşı, Sizdən humanizm və vətənpərvərlik dərsi alaraq, dövlətimizə layiqli vətəndaş kimi yetişməyimizdə

böyük rol oynayır. Bizim qarşımıza konkret məqsədlər qoyulub. Region gəncləri adından bildirmək istəyirəm ki, bu məqsədlərə nail olmaq üçün bundan sonrakı fəaliyyətimizdə də dövlətimizə və Prezidentimizə sadiq qalaraq, Sizin ətrafınızda sıx birləşəcək, ölkəmizin inkişafı naminə daha böyük əzmlə çalışacağıq.

Möhtərəm cənab Prezident, regionların inkişaf etdirilməsi istiqamətindəki fəaliyyətinizdə biz gənclər Sizin bir nömrəli köməkçilərinizik. Diqqətinizə görə minnətdaram.

**Ayxan Hüseynli** (*Naxçıvan Müəllimlər İnstitutunun müəllimi, Tələbə Gənclər Təşkilatının sədri*): Möhtərəm cənab Prezident!

Bu gün Azərbaycan vətənpərvər və istedadlı gənclər ölkəsidir. Bu, əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş dövlət gənclər siyasətinin real bəhrəsidir. Dahi rəhbərimizin təşəbbüsü ilə hələ sovetlər birliyi dövründə Azərbaycan gəncliyinin inkişafı istiqamətində ardıcıl tədbirlər görülürdü, milli dəyərlərə, tarixi və mədəni irsə bağlı gənc nəslin formalaşdırılmasına başlanılmışdı. O dövrdə gənclərin təhsili sahəsində həyata keçirilən tədbirlər, onların ixtisaslı kadr kimi yetişdirilməsi, xüsusilə milli hərbçi kadrların hazırlanması ölkəmizin gələcək müstəqilliyinə hesablanmışdı.

Ümummilli lider ölkəmizdə ikinci dəfə siyasi hakimiyyətə qayıtdıqdan sonra da gənclərlə bağlı dövlət siyasətini əsas vəzifələr sırasına çəkmiş, gənclərin ölkənin sosial-iqtisadi, ictimai-siyasi həyatında fəal

iştirakının təmin olunması, onların problemlərinin həlli və gələcəyin layiqli vətəndaşları kimi yetişməsi üçün lazımi şərait yaratmışdı. Bütün bunlar da gənc nəslin mütəşəkkil qüvvə kimi formalaşması, sosial problemlərinin həlli və məşğulluqlarının təmin olunması baxımından mühüm əhəmiyyətə malikdir.

Ulu öndər Heydər Əliyev deyirdi: «Bizim hamımızın vəzifəsi Azərbaycan gənclərini milli vətənpərvərlik ruhunda tərbiyə etmək, bilikli etmək, müasir dünyanın əldə etdiyi nailiyyətlər səviyyəsinə qaldırmaq, Azərbaycanda müstəqil, demokratik, hüquqi, sivilizasiyalı dövlət quruculuğu işinə cəlb etməkdir». Bu gün ulu öndərimizin müəyyənləşdirdiyi və Sizin rəhbərliyinizlə davam etdirilən yolla gedən Azərbaycan gəncləri cəmiyyətin fəal sosial təbəqəsinə çevrilibdir. İnsan kapitalının yetişdirilməsi sahəsində irəli sürdüyünüz düzgün yol və əldə olunan nəticə Azərbaycanda gənclər siyasətini yeni mərhələyə çıxarıb. Görülən işlərin nəticəsidir ki, bu gün Azərbaycan gəncləri öz intellektual səviyyələri, bilik və bacarıqları ilə dünyada tanınır və qəbul olunurlar. Artıq gənclərimiz diplomatiya, iqtisadiyyat, mədəniyyət, incəsənət, idman və digər sahələrdə ölkəmizi layiqincə təmsil edirlər.

Dünyada Azərbaycan kimi ikinci bir dövlət göstərmək çətindir ki, müharibə şəraitində ola-ola, gənclərin problemləri ilə bu qədər yaxından məşğul olsun. Müstəqil ölkəmizin hər yerində olduğu kimi, Naxçıvan Muxtar Respublikasında da gənc nəsil hərtərəfli qayğı ilə əhatə olunub. Muxtar respublikada gənclərin

yüksək səviyyədə təhsil alması, intellektual səviyyəsinin yüksəldilməsi, dünyagörüşünün formalaşması və asudə vaxtlarının səmərəli təşkili məqsədilə ardıcıl tədbirlər görülür. Ötən dövrdə muxtar respublikada 200-dən çox məktəb binası, 5 peşə məktəbi, 23 uşaq bağçası, məktəbdənkənar tərbiyə müəssisələri, musiqi məktəbləri, Gənclər Mərkəzi, elektron kitabxanalar, Mədəniyyət sarayları, Tələbə evləri, 50-dən artıq idman obyekti, universitet şəhərcikləri tikilərək və ya yenidən qurularaq, istifadəyə verilib. Naxçıvan Muxtar Respublikası Gənc İstedadlarının «Qızıl kitab»ının təsis edilməsi, Gənclər Fondunun yaradılması muxtar respublikada gənclərin cəmiyyətin aparıcı qüvvəsinə çevrilməsi istiqamətində atılan mühüm addımlardandır. Həyata keçirdiyiniz dövlət gənclər siyasətinin, gələcəyimiz olan gənclərə göstərdiyiniz qayğının və yaradılmış şəraitin nəticəsidir ki, Naxçıvan şəhəri 2018-ci ildə ölkəmizin «Gənclər paytaxtı» seçilmişdir.

Müdriklər deyirlər ki, bir ölkənin gələcəyini bilmək üçün onun gəncliyinə nəzər salmaq lazımdır. Çünki gənclər mənsub olduğu xalqı təmsil edir. Azərbaycan gənci xalqına, dövlətinə və rəhbərinə sədaqətlidir. Azərbaycan gənci ulu öndərimiz Heydər Əliyevin ideyalarına sadiq qalaraq, öz həyat yolunu müstəqil Azərbaycanın gələcək yolu kimi seçən əsl vətəndaşdır. Bu gün Azərbaycan gəncinin simasını Avropa, dünya və olimpiya çempionu olan idmançılarımız, beynəlxalq reytinqli şahmatçılarımız, istedadlı gənc alimlərimiz, musiqiçilərimiz, mühəndislərimiz, doğma Azərbaycanı-

mızın mənafeyini müdafiə edən diplomatlarımız, Lələtəpədə, Günnütdə Azərbaycan bayrağını vüqarla dalğalandıran əsgərlərimiz müəyyən edirlər. Budur Azərbaycan gəncliyi, budur müstəqil Azərbaycanın gələcəyi! Çıxışlarınızın birində qeyd etmişdiniz ki, gələcəkdə gənclər ölkəmizi idarə edəcəklər. Bunun yeganə yolu ondan ibarətdir ki, gənclər vətənpərvərlik ruhunda tərbiyə alsınlar, öz Vətəninə bağlı olsunlar, öz Vətənini sevsinlər və dövlət müstəqilliyini hər şeydən üstün tutsunlar. Biz Sizin etimadınızı və bundan irəli gələn məsuliyyəti başa düşərək, potensialımızı müstəqil Azərbaycanın ictimai-siyasi, sosial-iqtisadi və mədəni inkişafına sərf edirik. Bizim bir yolumuz vardır. O da müdrik rəhbərimiz tərəfindən uğurla davam etdirilən ulu öndər Heydər Əliyev yoludur.

Cənab Prezident, ölkəmizin gələcəyi olan gənclərin inkişafına göstərdiyiniz hərtərəfli qayğıya görə Sizə muxtar respublika gəncləri adından dərin minnətdarlığımı bildirirəm.

**Ülkər Əsədova** (*Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının tələbəsi*): Hörmətli cənab Prezident!

Əziz tədbir iştirakçıları!

Bu gün burada Azərbaycanın böyük tələbə ordusu adından çıxış etmək mənim üçün çox böyük məsuliyyət və şərəfdir. Mən Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının dördüncü kurs tələbəsiyəm. Bir çox yuxarı kurs tələbələri kimi, mən də artıq magistratura imtahanlarına hazırlaşmağa başlamışam. Mən magistr diplomunu diplom üçün deyil, bilik və

bacarıq üçün almaq istəyirəm. İnanıram ki, belə də olacaq. Mən istəyirəm ki, aldığım təhsil sayəsində ölkəmin inkişafına töhfə verim və mənim də həmin inkişafda payım olsun. Yəqin ki, burada əyləşən hər bir kəs Antuan de Sent-Ekzüperinin «Balaca şahzadə» əsərini xatırlayır. Orada balaca şahzadə deyir ki, «Böyüklər rəqəmləri çox sevirlər. Onlara deyəndə ki, özünə təzə dost tapmısan, heç vaxt soruşmazlar ki, onun səsi necədir? O hansı oyunları sevir? O, kəpənəkləri xoşlayırmı? Bu suallar əvəzinə soruşacaqlar ki, onun neçə yaşı var? Neçə bacı-qardaşdırlar?»

Biz tələbələr üçün isə vacib olan rəqəmlər deyil, tələbəlik illərində qazandığımız biliklər, dostluqlar, ən əsası isə xatirələrdir. Biz hər səhər dərsə qaçmağa, axşamlar sosial şəbəkələrdə günün hesabatı formatında statuslar yazmağa, gecələr isə kollokvium və imtahanlara hazırlaşmağa öyrəşmişik. Yadımdadır ki, dərsə gecikdiyim vaxtlarda auditoriyanın qapısı ağzında arzulayırdım ki, müəllim hələ auditoriyaya girməmiş olsun – bəzən bu arzularım gerçəkləşirdi, bəzən isə yox. Təqaüdlər köçürüləndə və hamı bu xəbəri bir-birinə sevinclə ötürəndə, biz əsl bayram ab-havasını yaşayırdıq. Dövlətimiz bizim üçün dünya standartlarına cavab verən auditoriyalar, məşq zalları, yeni kitabxana və laboratoriyalar yaradıb. Biz tələbələr bu imkanlardan çox yaxşı faydalanırıq. 4 il əvvəl mənə yad olan insanlar bu gün mənim ən yaxın və ən doğma dostlarıma çevriliblər və biz bir-birimizdən artıq ayrıla bilmirik. Çünki biz artıq bir ailəyik.

Tələbələr istənilən ölkənin aparıcı qüvvəsidir. Ölkənin inkişafı və nailiyyətləri birbaşa tələbələrin nə qədər sağlam, savadlı, xoşbəxt və uğurlu olmasından asılıdır. Biz, Azərbaycan tələbələri əlimizdən gələni edəcəyik ki, uğur qazanaq. Uğur qazanaq ki, ölkəmiz də uğur qazansın, biz xoşbəxt olaq ki, ölkəmiz də xoşbəxt olsun. Biz çalışacağıq ki, müstəqil dövlətimizdə yaradılmış bütün imkanlardan tam şəkildə istifadə edək və növbəti dəfə, cənab Prezident, siz robot «Sofiya» ilə deyil, məhz azərbaycanlı mühəndis tələbələr tərəfindən yaradılmış robotla danışasınız. Biz çalışacağıq ki, Nobel mükafatçıları arasında gənc azərbaycanlı alimlər olsun – niyə də olmasın axı?! Bizim tərəfdaşlıq etdiyimiz universitet dünyaya 29 Nobel mükafatçısı bəxş edib. Biz çalışacağıq ki, azərbaycanlı tələbə Harvard və Oksford tələbəsi kimi bir brendə çevrilsin, ölkəmiz xoşbəxtlik reytinqlərində ən ön yerləri tutsun.

Ola bilsin ki, dediklərim bir az qeyri-real səslənir. Amma bu gün mən, sadə bir tələbə ölkə başçısının qarşısında necə çıxış edirəmsə, inanın ki, sizin də hər bir arzunuz həyata keçə bilər. Əziz gənclər və tələbələr, biz Azərbaycan kimi keçmişi zəngin və gələcəyi parlaq bir ölkədə yaşadığımıza və təhsil aldığımıza görə həqiqətən də çox şanslıyıq. Azərbaycan tələbələri beynəlxalq əmək bazarında rəqabət gücünə malikdirlər. Bu gücü biz tələbələr ilk növbədə, ölkəmizin inkişafına sərf etməliyik, çünki bizim hər addımımızda dövlət bizə dəstək olmağa hazırdır və dəstək olur da.

Hörmətli cənab Prezident, belə imkanları bizə yaratdığınız üçün Sizə bütün tələbələrin minnətdarlığını çatdırmaq istərdim. Siz bizim üçün ən böyük nümunəsiniz və ən böyük örnəksiniz.

Sonda bütün tələbələr adından onu da diqqətinizə çatdırmaq istəyirəm ki, cənab Prezident, biz Sizi həqiqətən də çox sevirik. Ulu Tanrı Sizi və ailənizi qorusun. Çox sağ olun.

**Aqşin Oruclu** (*şəhid polkovnik-leytenant Raquf Orucovun oğlu*): Möhtərəm cənab Prezident!

Əziz həmyaşıdlar!

İşinizin gərgin olmasına baxmayaraq, vaxt ayırıb biz gənclərlə görüşdüyünüz üçün Sizə çox təşəkkür edirik. Mən aprel döyüşlərində qəhrəmanlıqla şəhid olmuş polkovnik-leytenant Raquf Orucovun oğluyam və şəhid oğlu olmağımla fəxr edirəm.

Aprel döyüşlərində atamın Vətənimiz uğrunda qəhrəmancasına şəhid olması bizə böyük qürur hissi yaşadır. Ordumuzun aprel döyüşlərindəki qələbəsi yalnız ordunun deyil, həm də Sizin qələbəniz idi. Aprel döyüşləri bütün dünyaya Azərbaycan Ordusunun gücünü, əzmini və qətiyyətini göstərdi. Azərbaycan Ordusu bu gücü, bu ilhamı məhz Sizdən alır. Lakin hamıya məlumdur ki, torpaqların qorunması, azadlıq və müstəqillik itkisiz əldə edilmir. Buna baxmayaraq, Vətən, torpaq uğrunda şəhid olan igid və qəhrəmanlarımız Azərbaycan var olduqca yaddaşlarda yaşayacaq. Mən bir gənc kimi, dövlətimizə layiqli vətəndaş olmaq məqsədilə ADA Universitetinə qəbul oldum. Hazırda ölkəmizin ən nüfuzlu universitetlərindən

birində təhsil alıram və dövlətim bizə dəstək olur. Digər sosial müdafiəyə ehtiyacı olan ailələr kimi, mənim də təhsil haqqım dövlətimiz tərəfindən ödənilir.

Cənab Prezident, Sizin 4 gün öncə şəhid ailələri ilə keçirdiyiniz görüş, orada yaşlı şəhid valideynlərinə göstərdiyiniz qayğı və nəvaziş xalqımız tərəfindən qürur hissi ilə qarşılandı. Bu biz gənclər üçün gözəl nümunə oldu. Siz bu görüşdəki çıxışınızda qeyd etdiyiniz kimi, təkcə keçən il 5900 məcburi köçkün ailəsi, 6600 şəhid ailəsi dövlətimiz tərəfindən mənzillərlə təmin olunub, 6000-dən çox şəhid ailəsinə isə minik avtomobilləri verilib. Bu Sizin şəhid ailələrinə göstərdiyiniz münasibətin təzahürüdür. Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar şəhid ailələrinin sosial-məişət şəraitinin yaxşılaşdırılması üçün verdiyiniz sərəncama uyğun olaraq, 2016-cı ildə biz də digər şəhid ailələri kimi, 11000 manat vəsaiti almışıq. Qərara gəldik ki, Qarabağ döyüşçüləri və qazilərinin, şəhidlərin təbliği işinə biz də qoşulaq. Bu məqsədlə 2016-cı ilin aprel döyüşlərində şəhid olanların ailə üzvləri birləşərək, İctimai Birlik yaratdıq. Ümid edirik ki, gördüyümüz işlərlə dövlətin bu sahədə həyata keçirdiyi siyasətə kiçik töhfə vermiş oluruq. Güman edirik ki, bu iş valideynlərimizin ruhlarını da şad edib. Biz gənclər düşünürük ki, verdiyimiz hər itki əvəzinə minlərlə gənc onların keçdiyi şərəfli yolu davam etdirməyə hazırdır. Mən bu gün bir gənc, bir şəhid övladı kimi, bir daha əmin oldum ki, həyata keçirdiyiniz siyasətin əsasında

sosial ədalət prinsipi hər şeydən yüksəkdə dayanır. Siz və Mehriban xanım Əliyeva sosial müdafiəyə ehtiyacı olanlara hər zaman xüsusi diqqət və qayğı ilə yanaşmısınız, hər zaman şəhid ailələrinin yanında olmusunuz. Azərbaycan vətəndaşları hər zaman Sizin şəfqət və mərhəmətinizi hiss edib. Sizin gəncliyə dəstəyiniz və sosial siyasətiniz bizdə özünəinam və əminlik yaradır.

Şəhid vərəsələrinə göstərdiyiniz diqqət və qayğı üçün Sizə bir daha minnətdarlığımızı bildiririk. İnanırıq ki, Sizin rəhbərliyiniz ilə Azərbaycan gəncliyi sabaha daha inamla addımlayacaq. Azərbaycanın əmin-amanlıq şəraitində inkişafı üçün apardığınız siyasətdə Sizə uğurlar arzulayırıq. Əmin ola bilərsiniz ki, bir qəhrəman övladı olaraq, hər zaman Sizin yanınızdayıq. Sizin apardığınız daxili və xarici siyasəti dəstəkləyirik. Çox sağ olun, möhtərəm Prezident.

**E m i l i y a  B a y r a m o v a** (*«ASAN» könüllüsü*): Möhtərəm cənab Prezident!

Sizi 17 minlik «ASAN könüllüləri» hərəkatının üzvü kimi salamlamaqdan qurur duyuram. Sizin xeyir-duanızla 15 nəfərlə çıxdığımız bu yola Sizin dəstəyinizlə davam edirik. Gənclərlə görüşlər zamanı nəcib bir fəaliyyət kimi dəyərləndirdiyiniz könüllülük fəaliyyəti bu gün ölkəmizdə geniş vüsət alıb. Sizin də dediyiniz kimi, ölkəmizdə könüllülük hərəkatı var və bu hərəkat yaşayır. Dövlətimizə olan sonsuz sevgimizin nəticəsi olaraq, «ASAN xidmət» mərkəzlərində vətəndaşlarımıza təmənnasız xidmətlə yanaşı, ev sahibliyi etdiyimiz dünya əhəmiyyətli tədbirlərdə,

idman yarışlarında könüllü olaraq aktiv iştirak etdik, ölkəmizi ən yüksək səviyyədə təbliğ etməyə çalışdıq. Könüllülük fəaliyyəti zamanı Sizin və hörmətli Mehriban xanımın dəstəyini daim hiss edirik.

Təşəbbüskarı olduğunuz «ASAN könüllüləri» haqqında fikirlərinizi hər zaman böyük fəxrlə dinləyir və ruhlanırıq. Biz gənclər olaraq, fəaliyyətimizdə hər zaman Sizin Azərbaycan gəncliyi qarşısında qoyduğunuz ən ümdə vəzifələri, vətənpərvərlik və insanpərvərlik prinsiplərini, məsuliyyətli vətəndaş tələblərinizi rəhbər tuturuq. Diqqətinizə çatdırmaq istərdim ki, bu günə qədər «ASAN könüllüləri» tərəfindən 30 mindən çox gənci əhatə edən 500-dən çox sosial-mədəni, ekoloji, maarifləndirici layihələr icra edilib, o cümlədən «ASAN məktub» layihəsi çərçivəsində 3000 aztəminatlı və ya kimsəsiz uşağın əlçatan arzularının gerçəkləşməsində vasitəçi olmuşuq. «Əsgərə məktub» layihəsi çərçivəsində vətəndaşlarımızın xeyir-duasını, arzu və diləklərini əsgərlərimizə çatdırmışıq, aprel döyüşləri zamanı qəhrəman əsgərlərimizə mənəvi dəstək olmuşuq. Azərbaycanın hərbi uğurları bu gün biz gəncləri çox qürurlandırır və əminik ki, Ali Baş Komandan kimi, Sizin rəhbərliyinizlə işğal altında olan bütün torpaqlarımızın geri qayıdacağı gün uzaqda deyil. Ən böyük arzumuz isə o zəfər bayramının təşkilində könüllü olaraq iştirak etməkdir. Könüllülük həyatımıza hədsiz dinamiklik qatdı və heç şübhəsiz ki, fərdi inkişafımıza böyük təkan oldu. Valideynlərimiz, böyüklərimiz onların dövründə gənclər üçün belə şəraitin olmamasından şikayətlənəndə biz onları da

könüllülüyə dəvət etdik və bu gün artıq ölkəmizdə «Könüllülüyün yaşı yoxdur» şüarı heç kəsi təəccübləndirmir.

Möhtərəm Prezident, biz çox yaxşı dərk edirik ki, Sizin siyasətiniz ölkəmizin təbii sərvətlərinin insan kapitalına çevrilməsinə, dövlətimizin dayanıqlı inkişafına yönəlib. Bu gün biz gənclərin ən böyük xoşbəxtliyi, ən dəyərli sərvəti məhz ölkəmizin müstəqilliyi, sabitliyi və tərəqqisidir.

Sonda bir məsələyə də xüsusi olaraq toxunmaq istəyirəm. Bu gün dövlətimizin uğurlu inkişafını gözü götürməyən qüvvələr bəzən gəncləri də öz oyunlarında alət etməyə çalışır. Lakin gəncliyimizin mütləq əksəriyyəti həmin təsisatların əsl niyyətlərindən xəbərdardır və biz Sizin yanınızdayıq, Sizin sadiq, könüllü əsgərlərinizik.

Möhtərəm cənab Prezident, Sizi əmin edirik ki, ümummilli liderimiz Heydər Əliyevin əvəzsiz xidmətləri sayəsində öz müstəqilliyini qorumuş, güclü, öz sözünü deməyə qadir dövlətimizin dayanıqlı inkişafı üçün daim çalışacağıq. Bir daha biz gənclərə olan sevginiz üçün Sizə minnətdarıq. Biz Sizi çox sevirik, könüllülərin könlü Sizinlədir.

* * *

*Sonra bir qrup gəncin təltif edilməsi mərasimi keçirildi.*

*Tədbir Azərbaycan Respublikasının Dövlət himninin səsləndirilməsi ilə yekunlaşdı.*

## MALAYZİYANIN XVI ALİ BAŞÇISI ƏLAHƏZRƏT ƏL-SULTAN ABDULLAH RİAYATUDDİN ƏL-MUSTAFA BİLLAH ŞAH İBNİ SULTAN HACI ƏHMƏD ŞAH ƏL-MUSTAİN BİLLAHA

Əlahəzrət!

Malayziyanın XVI Ali Başçısı seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Malayziya arasındakı münasibətlər xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da dostluq və əməkdaşlıq zəminində inkişaf edəcək və genişlənəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Malayziya xalqının rifahı naminə qarşıdakı fəaliyyətinizdə uğurlar arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *4 fevral 2019-cu il*

## BEYNƏLXALQ ASTRONAVTİKA FEDERASİYASININ İCRAÇI DİREKTORU KRİSTİAN FAYTHİNGER İLƏ GÖRÜŞ

*4 fevral 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 4-də Beynəlxalq Astronavtika Federasiyasının icraçı direktoru Kristian Faythingeri qəbul etmişdir.*

*Beynəlxalq Astronavtika Federasiyasının icraçı direktoru Kristian Faythinger dövlət başçısına onu qəbul etdiyinə görə minnətdarlığını bildirdi. Kristian Faythinger ölkəmizə ilk dəfə səfərindən məmnunluğunu ifadə edərək, Bakıda gördüyü inkişaf proseslərinin onda dərin təəssürat yaratdığını bildirdi. Rəhbərlik etdiyi təşkilatın fəaliyyəti barədə məlumat verən Kristian Faythinger bildirdi ki, bu gün Beynəlxalq Astronavtika Federasiyasına 68 ölkədən 368, o cümlədən Azərbaycandan olan 3 təşkilat daxildir. Qonaq rəhbərlik etdiyi qurumun hər il Beynəlxalq Astronavtika Konqresini keçirdiyini vurğuladı və belə bir önəmli faktı xatırladaraq qeyd etdi ki, belə tədbirlərdən biri 1973-cü ildə Bakıda keçirilib. Daha sonra o, Azərbaycanda kosmik sənayenin uğurla inkişaf etdiyini və bu sahədə ölkəmizin son vaxtlar əldə*

*etdiyi nailiyyətlərin beynəlxalq səviyyədə yüksək qiymətləndirildiyini diqqətə çatdırdı.*

*Dövlət başçısı 1973-cü ildə ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrdə Beynəlxalq Astronavtika Federasiyasının Bakıda keçirilmiş XXIV konqresini məmnunluqla xatırlatdı və o zaman həmin tədbirin beynəlxalq əhəmiyyətli bir hadisəyə çevrildiyini, konqresdə məşhur kosmonavtların və astronavtların iştirak etdiyini vurğuladı. Azərbaycanda kosmik sənayenin inkişafına toxunan Prezident İlham Əliyev bu sahənin ölkədə ən prioritet istiqamətlərdən biri olduğunu və Azərbaycanın dünya kosmik ailəsinə daxil olmasını məmnunluqla qeyd etdi.*

*Söhbət zamanı əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.*

## «FORMULA-1» QRUPUNUN BAŞ İCRAÇI DİREKTORU ÇEYZ KERİ İLƏ GÖRÜŞ

*5 fevral 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 5-də «Formula-1» qrupunun baş icraçı direktoru Çeyz Kerini qəbul etmişdir.*

*«Formula-1» qrupunun baş icraçı direktoru Çeyz Keri Azərbaycana növbəti səfərindən məmnunluğunu ifadə edərək bildirdi ki, «Formula-1» çərçivəsində ötən il keçirilmiş 21 yarışın təhlili nəticəsində Bakıda keçirilən bu yarış ən yaxşısı hesab edilibdir.*

*Dövlət başçısı Bakıda keçirilən «Formula-1» yarışına yüksək qiymətin verilməsindən məmnunluğunu ifadə etdi. Ölkəmizə gələn turistlərin sayının ildən-ilə sürətlə artdığını diqqətə çatdıran Prezident İlham Əliyev ötən il xarici turistlərin Azərbaycanda 2 milyard dollardan çox vəsait xərclədiklərini qeyd etdi və bildirdi ki, yarım milyarda yaxın tamaşaçı auditoriyasına malik olan «Formula-1»in Bakıda keçirilməsi ölkəmizə turist axınının təmin olunması işinə böyük töhfə verir. Dövlət başçısı qeyd etdi ki, bütün bunlar öz növbəsində, Azərbaycanda turizm sənayesinə cəlb olunmuş kiçik və orta sahibkarlığın inkişafı üçün geniş imkanlar yaradır, eyni zamanda, dünyada daha çox insan Azərbaycan haqqında məlumat alır. Be-*

*ləliklə, ölkəmizdə «Formula-1» yarışlarının keçirilməsi həm Azərbaycanın dünyada təqdimatı, həm də eyni zamanda, iqtisadi mənfəət baxımından böyük əhəmiyyət daşıyır.*

*Çeyz Keri dövlət başçımızın fikirləri ilə tam şərik olduğunu vurğulayaraq qeyd etdi ki, bu yarışı izləmək üçün Bakıya gələn insanlar paytaxtımızda gördüklərini yüksək qiymətləndirir və Bakını çox sevdiklərini bildirirlər. Çeyz Keri bildirdi ki, «Formula-1» yarışının Azərbaycanda keçirilməsi ölkəyə potensial turistlərin cəlb olunması ilə yanaşı, eyni zamanda, Bakının dünyada daha çox tanınması işinə də öz töhfəsini verir.*

*Görüşdə Bakıda təşkil edilmiş «İrimiqyaslı idman yarışlarının keçirilməsinin ölkəyə faydaları» adlı III Beynəlxalq konfransın əhəmiyyətinə toxunuldu, əməkdaşlığımızın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.*

## MOSKVANIN VƏ BÜTÜN RUSİYANIN PATRİARXI KİRİLL İLƏ GÖRÜŞ

*5 fevral 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 5-də Moskvanın və bütün Rusiyanın patriarxı Kirill ilə görüşmüşdür.*

*Dövlət başçısı Moskvanın və bütün Rusiyanın patriarxı Kirili qarşıladı.*

*Sonra Prezident İlham Əliyev Moskvanın və bütün Rusiyanın patriarxı Kirill ilə söhbət etdi.*

**İ l h a m  Ə l i y e v**: Zati-müqəddəsləri, Sizi Azərbaycanda səmimi-qəlbdən salamlayıram, Sizi yenidən görməyimə çox şadam. Fürsətdən istifadə edərək, ilk növbədə, Sizi patriarx tacqoyma mərasiminin 10 illiyi münasibətilə təbrik etmək istərdim. Mənə çox xoşdur ki, Siz bu əlamətdar hadisədən az sonra bizim ölkəmizə səfər etmisiniz. Biz bunu Azərbaycana hörmət əlaməti hesab edirik. Həmçinin demək istəyirəm ki, Azərbaycanda Sizə, Sizin fəaliyyətinizə böyük hörmətlə yanaşırlar. Sizi Azərbaycanda tanıyırlar. Siz ilk dəfə deyil ki, bizim ölkəmizə gəlirsiniz. Sizə dərin hörmət bəsləyirlər. Dünyada təhlükəsizliyin, əməkdaşlığın və qarşılıqlı anlaşmanın möhkəmləndirilməsi işində Sizin rolunuz bütün dünyada, o cümlədən bizim ölkəmizdə çox yüksək qiymətləndirilir. Siz dinlərarası

dialoqun, müxtəlif konfessiyaların, müxtəlif millətlərin, ölkələrin nümayəndələri arasında qarşılıqlı anlaşmanın möhkəmlənməsi işində çox mühüm rol oynayırsınız. Biz də Azərbaycanda Sizin işlərinizi, sözlərinizi çox diqqətlə izləyirik. Əlbəttə, bir daha qeyd etmək istərdim ki, Sizin bütün fəaliyyətiniz öz xalqınıza xidmət işinə yönəlib. Sizin dərin biliklərə, prinsipial mövqeyə əsaslanan müdrik sözləriniz gənclərin ənənəvi dəyərlər ruhunda tərbiyə edilməsində çox mühüm rol oynayır. Əlbəttə, bizim üçün xoşdur ki, Siz bizim ölkəyə çox xeyirxah münasibət bəsləyirsiniz. Artıq qeyd etdiyim kimi, Siz ilk dəfə deyil ki, Azərbaycana gəlirsiniz və Sizin budəfəki səfəriniz də münasibətlərimizin – həm dinlərarası əməkdaşlıq sahəsində, həm də bütövlükdə çox uğurla və dinamik inkişaf edən Rusiya–Azərbaycan əlaqələrinin möhkəmlənməsi işinə xidmət edəcəkdir. Bizdə qarşılıqlı etimad prezidentlərdən başlamış adi vətəndaşlara qədər bütün səviyyələrdə çox yüksəkdir. Keçən il rekord sayda – 900 minə yaxın rusiyalı Azərbaycana səfər edib. Bu onu göstərir ki, insanlar və ölkələr arasında münasibətlər ən yüksək səviyyədədir. Ona görə ki, onlar özlərini evlərindəki kimi hiss edir, buraya yaxşı niyyətlərlə gəlir və burada onlara doğma münasibət bəsləyirlər.

Həmçinin qeyd etmək istərdim ki, keçən il Rusiya və Azərbaycan prezidentləri arasında 6 görüş olub. Düşünürəm ki, bu da bizim münasibətlərimizin mahiyyətini və xarakterini, yaxınlığımızı əks etdirən rekord göstəricidir. Əlbəttə, Vladimir Vladimiroviç Putinin Azərbaycana səfəri və mənim Rusiyaya

səfərim bizim münasibətlərimizin daha da möhkəmlənməsi işində çox mühüm rol oynayıb. Düşünürəm ki, bizim münasibətlərimiz qonşular arasında münasibətlərə nümunə ola bilər. Bizi tarixi baxımdan bağlayan səbəblər çoxdur və bu gün – biz bütün istiqamətlərdə fəal qarşılıqlı əlaqə saxladığımız bir vaxtda bu əməkdaşlıq, əlbəttə, bizim regionda, Qafqazda sülhün möhkəmlənməsi işində xüsusi əhəmiyyət kəsb edir. Buna görə də biz dövlətlərarası münasibətlərin bütün palitrasına nəzər salanda müsbət dinamika görürük. Bu baxımdan Sizin bugünkü səfəriniz xüsusi rol oynayır.

Ölkəmizə səfər etdiyinizə görə Sizə bir daha dərin təşəkkürümü bildirmək və nəcib işinizdə uğurlar arzu etmək istərdim.

**Patriarx Kirill:** Çox hörmətli cənab Prezident, mən Sizinlə görüşmək imkanına görə təşəkkür edirəm. Azərbaycana səfər mənim üçün hər zaman mühüm mənəvi və mədəni hadisədir. Zəngin və qədim tarixi olan, mürəkkəb sivilizasiya qovuşuğunda yerləşən ölkəniz həm ətraf xalqların müdrikliyini, həm də, əlbəttə ki, özünün sadə olmayan, amma şübhəsiz, xalqı gözəl mədəniyyət və mənəviyyatla zənginləşdirən tarixi təcrübəsini əxz edib. Mən Azərbaycana səfər edərkən həmişə dinlərarası münasibətlərin yüksək səviyyəsinə diqqət yetirirəm. Həm də bu münasibətlər yalnız hansısa rəsmi səviyyədə göstərici deyil. Bütün bunlar birbaşa sadə insanların həyatına aiddir. Azərbaycandakı pravoslavlar da müsəlman əksəriyyəti kimi, bütün imkanlardan

istifadə edirlər. O cümlədən Azərbaycanda millətlərarası, dinlərarası sülhün möhkəmlənməsində həm də çox müsbət işlər görən dostum şeyxülislam Paşazadənin rolunu xüsusi qeyd etmək istərdim. O həm də şübhəsiz, rus kilsəsi ilə, təkcə Azərbaycanın müsəlmanları ilə deyil, həm də Qafqazın ali dini rəhbəri olduğuna görə Rusiya müsəlmanları ilə münasibətlərin inkişafında da böyük işlər görür. Biz də onun sülhməramlı rolunu, dinlərarası münasibətlər sahəsində mürəkkəb məsələləri həll etmək bacarığını çox yüksək qiymətləndiririk. Azərbaycanda pravoslav kilsəsinin vəziyyəti ilə əlaqədar Sizə xüsusilə təşəkkür etmək istərdim. Həmişə zatimüqəddəsləri Aleksandr ilə görüşəndə o bu münasibətləri çox nikbin təsvir edir və mən dəqiq bilirəm ki, bu reallıqdır və həqiqətən, belədir. Azərbaycanda yaşayan pravoslavlar heç bir narahatlıq hiss etmirlər. Onlar öz ölkələrinin həm vicdanlı vətəndaşlarıdır, eyni zamanda, pravoslavdırlar. Onları həm dini əqidələrinə, həm də ənənəyə görə tarixi vətəni – Rusiya ilə bağlayan çox şey vardır.

Ölkələrimiz arasında münasibətlərin inkişafına Azərbaycan çox sanballı töhfələr verir. Sizin bu münasibətlərin inkişafına xoş məramınız, səmimiyyətiniz bizim xalqımız tərəfindən yüksək qiymətləndirilir. Bir məqamı da vurğulamaq istərdim ki, bu gün Moskvada, ümumiyyətlə, Rusiyada Sizin xalqınızın çoxsaylı övladları yaşayır. Onlar müasir Rusiyanın həyatında – həm biznes sahəsində, həm də mədəniyyət aləmində mühüm rol oynayırlar. Moskva şəhərinin müsəlman

və pravoslav icmaları arasında münasibətlər də çox uğurlu və dinc şəkildə qurulur. Ulu Tanrıya şükür edirəm ki, çoxmillətli Rusiyada, ümumiyyətlə, hər hansı dinlərarası gərginlik yoxdur və bu, əlbəttə, çox cəhətdən pravoslavların dünya duyumu və onların başqa dinlərə münasibəti ilə şərtlənir. Lakin bu həm də o cümlədən əslən Azərbaycandan olan müsəlmanların mövqeyi ilə bağlıdır. Başqa sözlə desək, bizim ölkələrimiz, xalqlarımız arasında münasibətlərdə müsbət cəhətlər çoxdur. Mən bu münasibətlərin inkişafını alqışlayıram. Hesab edirəm ki, bu münasibətlər çox cəhətdən həm Rusiya, həm Azərbaycan üçün, həm də xalqlarımız üçün vacibdir. Fikrimcə, bu münasibətlərin potensialı hələ tükənməyib. Sizi əmin etmək istəyirəm ki, Rus Pravoslav Kilsəsi tərəfindən mənim şəxsimdə, Rus Pravoslav Kilsəsinin iyerarxiyasının, o cümlədən Azərbaycandakı ruhanilərin şəxsində Azərbaycan ilə Rusiya arasında münasibətlərin daha da inkişafına səmimi-qəlbdən çalışan etibarlı tərəfdaşlarınız vardır.

Sizinlə bu gözəl görüş imkanına görə təşəkkür edirəm və bir daha vurğulamaq istəyirəm ki, Azərbaycanda baş verən bütün dəyişiklikləri görəndə sevinirəm. Biz Sizinlə bir neçə il bundan əvvəl burada görüşmüşdük və deməliyəm ki, Bakıya hətta ötəri nəzər salanda burada çox böyük dəyişikliklərin baş verdiyi görünür. Bakı əla infrastruktura malik olan çox gözəl şəhərə çevrilir. Burada çoxlu gözəl binalar ucaldılıb. Paytaxtdakı böyük dəyişikliklər münasibətilə Sizi təbrik etmək istərdim, lakin burada yaşayan xeyirxah dostlarımdan eşitmişəm ki, müsbət dəyişikliklər təkcə

paytaxtı yox, bütün ölkəni əhatə edir. Buna görə də Sizə ulu Tanrıdan kömək, ruhani və cismani qüvvə, Azərbaycan xalqına firavanlıq diləmək istərdim.

**İ l h a m  Ə l i y e v:** Çox sağ olun.

**İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB HƏSƏN RUHANİYƏ**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – İslam İnqilabının Qələbəsi Günü münasibətilə Sizə və xalqınıza şəxsən öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasındakı münasibətlər tarixən dostluq və mehriban qonşuluq şəraitində yaşamış xalqlarımızın iradəsindən qaynaqlanır. Əminəm ki, ikitərəfli əlaqələrimiz, müxtəlif sahələri əhatə edən qarşılıqlı faydalı əməkdaşlığımız bundan sonra da müvəffəqiyyətlə inkişaf edəcək və genişlənəcəkdir.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost və qardaş İran xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *7 fevral 2019-cu il*

## ŞAMAXIDA BAŞ VERMİŞ ZƏLZƏLƏDƏN ZƏRƏR ÇƏKƏN TİKİLİLƏRƏ BAXIŞ VƏ SAKİNLƏRLƏ GÖRÜŞ

*7 fevral 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 7-də Şamaxı rayonuna gəlmişdir.*

*Dövlət başçısı burada zəlzələdən zərər çəkən tikililərə baxdı və sakinlərlə görüşüb söhbət etdi.*

*Fevralın 5–6-da Azərbaycan ərazisində yeraltı təkanlar qeydə alınıb. Fevralın 5-də yerli vaxtla saat 23:31-də Pirqulu stansiyasından 11 kilometr cənub-qərbdə İsmayıllı ərazisində zəlzələ baş veribdir. Respublika Seysmoloji Xidmət Mərkəzinin məlumatına görə, zəlzələ episentrdə 6 bal, ətraf rayonlarda 3–5 bala qədər hiss edilib. Əsasən dağıntılar Şamaxı rayonunda qeydə alınıb. Fevralın 6-da yerli vaxtla saat 02:34-də Pirqulu stansiyasından 8 kilometr cənub-qərbdə, İsmayıllı rayonu ərazisində 3 bal gücündə zəlzələ baş verib. Daha bir yeraltı təkan yerli vaxtla saat 04:25-də qeydə alınıb. Hadisə nəticəsində xəsarət alanlara təcili tibbi yardım göstərilib və onlar evə buraxılıb, insan tələfatı qeydə alınmayıbdır.*

*Fövqəladə Hallar naziri, general-polkovnik Kəmaləddin Heydərov və Şamaxı Rayon İcra Hakimiyyətinin başçısı Tahir Məmmədov dövlət başçısına fevralın 5-*

*də və 6-da təbii fəlakətin törətdiyi fəsadlar barədə yerində məlumat verdilər.*

*Şamaxı şəhərinin Salman Mümtaz küçəsində Rasim Həsənova məxsus 33 saylı evə baş çəkən Prezident İlham Əliyevə məlumat verildi ki, ikimərtəbəli, 5 otaqlı evin 2 otağı tamamilə dağılıb, ev qəzalı vəziyyətə düşübdür.*

**S a k i n:** Xoş gəlmisiniz, Allah Sizi var eləsin. Çox sağ olun, Sizdən çox razıyıq.

**İ l h a m Ə l i y e v:** Sağ olun. Yeni ev tikiləcək, narahat olmayın.

**S a k i n:** Allah Sizə uzun ömür, cansağlığı versin, ailənizlə xoşbəxt olasınız. Allah o bir oğlunuzu gözünüzə çıraq eləsin. Nə yaxşı ki varsınız. Biz Sizinlə qürur duyuruq.

**İ l h a m Ə l i y e v:** Çox sağ olun. Biz evləri bərpa edəcəyik, yenidən tikəcəyik, müvafiq göstəriş verilibdir. Fövqəladə Hallar Nazirliyinin əməkdaşları dünəndən Şamaxıdadırlar, yaxşı işləyirlər. Bütün müraciətlər nəzərə alınır, evlərə baxış keçirilir. Harada ki, bərpa etmək mümkündür, bərpa olunacaq. Harada ki, mümkün deyil, yeni ev tikiləcək. Dövlət bu işi öz üzərinə götürür. Əlbəttə, məncə bu evin bərpası mümkün deyil. Ev tikilənə qədər hansı kömək göstəriləcək?

**K ə m a l ə d d i n H e y d ə r o v** (*Fövqəladə Hallar naziri*): Cənab Prezident, kimin imkanı, həyətində başqa bir yeri var orada məskunlaşıb, qalanlarını rayon icra hakimiyyəti ilə birgə müvəqqəti yerləşdiririk. Sizin tapşırığınızla, cənab Prezident, artıq dünəndən 73 evə baxış keçirilib. Bunlardan hələlik

26-sının qəzalı olduğu müəyyənləşdirilib, amma müraciətlərin sayı çoxdur, 750 müraciət olunub. 10 komissiya Şamaxı rayonunda, 2 komissiya Ağsu rayonunda, 2 komissiya isə İsmayıllı rayonunda işləyir. Komissiyaların sayını artıracağıq ki, Sizin tapşırığınızı daha tez icra edək.

**İlham Əliyev:** Tezliklə bu ev yenidən tikiləcək. Müvəqqəti olaraq lazımi kömək göstərilməlidir, tapşırıqlar verilib. Siz narahat olmayın.

**Sakin:** Allah işinizi avand eləsin.

*Sonra Prezident İlham Əliyev Vidadi Məmmədov küçəsində Mailə Quliyevaya məxsus 7 saylı evdə oldu. Bu evin 1 otağının divarı zəlzələ nəticəsində tam dağılıb və ev qəzalı vəziyyətə düşübdür. Qəzalı evlərdən biri də Səttar Bəhlulzadə küçəsində Vüqar Teyfurova məxsus 10 saylı evdir. Birmərtəbəli kürsülü evin otaqlarından biri tamamilə dağılıb. Evə dəymiş ziyanla tanış olan İlham Əliyev sakinlərlə söhbət etdi.*

**Sakinlər:** Xoş gəlmisiniz, cənab Prezident! Dar gündə dadımıza çatdınız. Allah Sizi sağ eləsin.

**Xatirə Rəhimzadə** (*sakin*): Cənab Prezident, bir daha xoş gəlmisiniz! Biz Sizin gələcəyinizə inanırdıq. Çünki həmişə xalqının ağır günündə onun yanında olan, xalqına dəstək olan Prezidentin bu təbii fəlakət zamanı şamaxılıların yanında olacağına çox-çox inanırdıq. Nə yaxşı ki, varsınız. Xalqa göstərdiyiniz dəstəyə, köməyə görə Sizə həmişə minnətdarıq, çox sağ olun. Nə yaxşı ki, bizim Prezidentimizsiniz. Biz Sizinlə fəxr edirik. Həmişə Sizin yanınızdayıq, Sizə inanırıq. Azərbaycanın gələcəyinin etibarlı əllərdə olduğuna

inanırıq və biz bunu görürük. Bu gün bir daha bunun sübutudur. Çox sağ olun ki, gəlmisiniz.

**İ l h a m  Ə l i y e v:** Sağ olun, təşəkkür edirəm. Siz bilirsiniz ki, mən Şamaxıda tez-tez oluram. Dəfələrlə olmuşam. Burada yaxşı tədbirlərdə bərabər iştirak etmişik, infrastruktur layihələrinin, sosial obyektlərin, kənd təsərrüfatı obyektlərinin açılışlarında olmuşuq. Şamaxının inkişafı daim diqqət mərkəzindədir. Təbii ki, belə hadisə baş verəndə mən mütləq burada, yanınızda olmalı idim ki, ilk növbədə, sizə öz dəstəyimi göstərim, digər tərəfdən, vəziyyətlə tanış olum. Dağıntılar var, xoşbəxtlikdən insan ölümü olmayıb. Onu da bildirməliyəm ki, bütün qəzalı evlər qısa müddət ərzində ya bərpa ediləcək, ya da yenidən tikiləcəkdir. Komissiya işləyir, Fövqəladə Hallar Nazirliyinin əməkdaşları dünəndən buradadır, yerli icra hakimiyyəti də işləyir. Hələ ki, bu vəziyyətdən əziyyət çəkən vətəndaşların məskunlaşması ilə bağlı məşğuldurlar. Tezliklə bu evlərin bərpası, yenidən tikilməsi nəzərdə tutulur. Müvafiq sərəncam imzalanacaq, Prezidentin ehtiyat fondundan vəsait ayrılacaq. İndi yüzlərlə müraciət vardır. Mənə verilən məlumata görə, hələ ki, 70-dən çox müraciətə baxılıb və müvafiq aktlar tərtib edilibdir. Bu aktlar əsasında bütün təmir-bərpa işləri aparılacaq. Vətəndaşlar narahat olmasınlar. Azərbaycan dövləti həmişə öz vətəndaşının yanındadır.

**S a k i n l ə r:** Çox sağ olun. Biz də Sizi dəstəkləyirik, hamımız Sizin arxanızdayıq, Sizə güvənirik.

**X a t i r ə  R ə h i m z a d ə:** Biz bu dəstəyi gördük. Bu dəstəyi Sizdən və Mehriban xanımdan gördük.

Bizim minnətdarlığımızı Mehriban xanıma çatdırmağı xahiş edirik. Könüllüləri göndərdi, çox böyük dəstək oldu. Nazir də, rayon rəhbəri də bütün gecəni burada idilər. Çox sağ olsunlar.

**Xanlar Rəhimzadə:** Cənab Prezident, yerli hakimiyyətin nümayəndələri gecəyarısı bütün evləri gəzirdilər. Hamısı yanımızda idi. Ona görə də heç bir narahatlıq yoxdur.

**Xatirə Rəhimzadə:** Sağ olun ki, varsınız. Biz Sizə arxalanırıq. Xalqı bu qədər sevirsiniz. Sağ olun ki, xalqa bu qədər dəstəksiniz. Dəstəyinizə görə minnətdarıq. Sizinlə qürur duyuruq. Prezidentimizin belə qayğıkeşliyi, xalqa xidməti ilə çox qürur duyuruq. Azərbaycan etibarlı əllərdədir.

**İlham Əliyev:** Çox sağ olun. Mən də sizinlə qürur duyuram ki, hətta belə ağır günlərdə nikbinliklə yaşayırsınız və inanırsınız ki, Azərbaycan dövləti, Azərbaycan hakimiyyəti həmişə sizin arxanızdadır. Bütün dövrlərdə belə olub, bundan sonra da belə olacaq. Həm könüllülərin, həm yerli icra orqanlarının, həm Fövqəladə Hallar Nazirliyinin əməkdaşlarının bir amalı var: vətəndaşlara kömək etmək. Mən hesab edirəm ki, bərpa işləri tezliklə başlanmalıdır. Vəsait də ayrılacaqdır.

**Kəmaləddin Heydərov:** Cənab Prezident, artıq layihələr vardır. Həm Zaqatala zonasındakı zəlzələdən, həm də Kür–Araz bölgəsindəki daşqından hazır layihələrimiz vardır. Ona görə də Sizin tapşırığınızla təcili olaraq bu işlərə başlanılacaqdır.

**İlham Əliyev:** Bəli, təbii fəlakət olur. Bir neçə il bundan əvvəl Zaqatala, Qax rayonlarında zəlzələ oldu, orada minlərlə ev dağılmışdı. Biz o zəlzələnin fəsadlarını aradan qaldırdıq. Bir neçə il bundan əvvəl daşqın olmuşdu, minlərlə evi su basmışdı. Orada da lazımi tədbirlər görüldü. Bütün evlər dövlət vəsaiti hesabına yenidən tikildi, bərpa edildi. Bu zəlzələnin fəsadlarını da tezliklə aradan qaldıracağıq. Mən gəlmişəm bunu sizə şəxsən deyim ki, vətəndaşlar tam əmin olsunlar, bütün lazımi işlər görüləcəkdir.

**Sakinlər:** Çox sağ olun. Minnətdarıq. Sizə cansağlığı, işlərinizdə müvəffəqiyyətlər arzulayırıq, cənab Prezident, Allah Sizi qorusun.

**İlham Əliyev:** Çox sağ olun. Sizə də cansağlığı, uğurlar arzulayıram. Bizim hələ görüşlərimiz çox olacaq. Çünki Şamaxı rayonunda bundan sonra da gözəl işlər görüləcəkdir.

**Xanlar Rəhimzad**ə: İnşallah. Sizə inanırıq. Sizin siyasətiniz sayəsində gələcəyimiz daha yaxşı, daha nurlu olacaqdır. Təşəkkür edirik.

**İlham Əliyev:** Sağ olun.

# RUSİYA FEDERASİYASININ İQTİSADİ İNKİŞAF NAZİRİ MAKSİM OREŞKİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*9 fevral 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 9-da Rusiya Federasiyasının İqtisadi İnkişaf naziri, Azərbaycan–Rusiya hökumətlərarası birgə Komissiyasının həmsədri Maksim Oreşkinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlət başçısı Maksim Oreşkinlə bu yaxınlarda Davosda keçirilən görüşü xatırlatdı və onun ölkəmizə bu səfərinin əlaqələrimizin daha da genişləndirilməsi işinə töhfə verəcəyinə əminliyini ifadə etdi. Prezident İlham Əliyev səfər zamanı ölkələrimiz arasında ticarət dövriyyəsi, nəqliyyat, birgə müəssisələrin yaradılması və digər sahələrdə iqtisadi əməkdaşlığın daha da genişləndirilməsi ilə bağlı səmərəli müzakirələrin aparılacağına əminliyini bildirdi. Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında ikitərəfli münasibətlərin bütün sahələrdə uğurla inkişaf etdiyini vurğulayan dövlət başçısı iki ölkənin prezidentləri arasında əldə edilmiş razılaşmaların və eləcə də ötən ilin sentyabrında Rusiyaya rəsmi səfəri zamanı imzalanmış sənədlərin icrası ilə bağlı artıq konkret*

*işlərin həyata keçirildiyini bildirdi, bunun əməkdaşlığımızın yüksək səviyyəsinin göstəricisi olduğunu diqqətə çatdırdı. Prezident İlham Əliyev bu il Samur çayı üzərində körpünün istifadəyə veriləcəyini qeyd edərək, bunun hər iki ölkə vətəndaşlarının gediş-gəlişi üçün yaxşı imkanlar yaradacağını və əməkdaşlığımızın daha da genişləndirilməsi işinə xidmət edəcəyini bildirdi. Dövlət başçısı bu gün Hacıqabulda QAZ Avtomobillərinin İstehsalı zavodunun təməlinin qoyulacağının əhəmiyyətini qeyd etdi. Prezident İlham Əliyev Maksim Oreşkinin rəhbərlik etdiyi nümayəndə heyətinin ölkəmizə səfəri zamanı iqtisadi sahədə əməkdaşlıqla bağlı yol xəritəsi çərçivəsində əlaqələrin perspektivlərinə dair səmərəli müzakirələrin aparılacağına əmin olduğunu vurğuladı.*

*Azərbaycana səfərindən məmnunluğunu bildirən Rusiya Federasiyasının İqtisadi İnkişaf naziri, Azərbaycan–Rusiya hökumətlərarası birgə Komissiyasının həmsədri Maksim Oreşkin ölkəmizə hər gəlişi zamanı Azərbaycanın ayrı-ayrı bölgə və şəhərləri, çoxlu sayda gözəl rəngarəng yerləri ilə tanış olduqlarını nəzərə çatdırdı. Maksim Oreşkin Azərbaycan Prezidentinin ötən il Rusiyaya rəsmi səfəri zamanı təsdiq olunmuş «Yol Xəritəsi» üzrə Azərbaycanla fəal əməkdaşlığın həyata keçirildiyini qeyd edərək, ticarət dövriyyəsi, investisiya və birgə layihələrin reallaşdırılması ilə bağlı müsbət dinamikanın mövcud olduğunu vurğuladı. Rusiyalı nazir Azərbaycan–Rusiya sərhədinə səfər etdiklərini və Samur çayı üzərində körpünün inşası ilə bağlı işlərin gedişi ilə tanış*

*olduqlarını qeyd etdi. O, Azərbaycanla Rusiya arasında nəqliyyat sahəsində əməkdaşlığın uğurla inkişaf etdiyini vurğuladı. Qonaq bildirdi ki, hazırda sərhədboyu 3 buraxılış məntəqəsinin təkmilləşdirilməsi ilə bağlı gedən işlər Azərbaycanla Rusiyanın qarşılıqlı nəqliyyat bağlantısının inkişafına kompleks yanaşmanın tətbiq olunduğunu göstərir.*

*Söhbət zamanı infrastruktur, investisiya, nəqliyyat və digər sahələrdə əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı, hökumətlərarası birgə Komissiyanın səmərəli fəaliyyət göstərdiyi qeyd olundu.*

**EL-SALVADOR RESPUBLİKASININ
YENİ SEÇİLMİŞ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB NAYİB BUKELEYƏ**

Hörmətli cənab Bukele!

El-Salvador Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə El-Salvador arasında əlaqələrin inkişafı və genişlənməsi yolunda birgə səylər göstərəcəyik.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, qarşıdakı məsul fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *11 fevral 2019-cu il*

## NİDERLAND–AZƏRBAYCAN DOSTLUQ QRUPUNUN SƏDRİ RENE VAN DER LİNDEN İLƏ GÖRÜŞ

*11 fevral 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 11-də Niderland Krallığı Senatının sabiq Sədri, Avropa Şurası Parlament Assambleyasının fəxri sədri, Niderland–Azərbaycan Dostluq Qrupunun sədri Rene Van der Lindeni qəbul etmişdir.*

*Görüşdə Azərbaycan ilə Niderland arasında kənd təsərrüfatı, bərpa olunan enerji, nəqliyyat, logistika və digər sahələrdə əməkdaşlığın inkişaf etdirilməsinə dair fikir mübadiləsi aparıldı, Azərbaycanda yaradılan nəqliyyat infrastrukturunun, xüsusilə Ələtdəki Bakı Beynəlxalq Dəniz Ticarət Limanının logistika sahəsində əməkdaşlığın inkişaf etdirilməsi baxımından önəmi vurğulandı.*

*Söhbət zamanı Azərbaycan–Avropa əməkdaşlığına toxunuldu, Azərbaycanın Avropa İttifaqı ilə əlaqələrinin uğurla inkişaf etdiyi qeyd olundu.*

*Rene Van der Linden Azərbaycanın sabit ölkə kimi, regionda çox mühüm bir dövlət olmasının əhəmiyyətini qeyd etdi.*

*Görüşdə, həmçinin Azərbaycanın Avropanın enerji təhlükəsizliyinə verdiyi töhfə xüsusi qeyd olundu,*

*əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.*

**TÜRKİYƏ RESPUBLİKASININ**
**PREZİDENTİ ZATİ-ALİLƏRİ**
**CƏNAB RƏCƏB TAYYİB ƏRDOĞANA**

Hörmətli cənab Prezident!

Əziz qardaşım!

İstanbulda yaşayış binasının çökməsi və helikopter qəzası nəticəsində insan tələfatı barədə xəbər məni son dərəcə kədərləndirdi.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, qardaş Türkiyə xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara və xəsarət alanlara şəfa diləyirəm.

Allah rəhmət eləsin.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *12 fevral 2019-cu il*

**SERBİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ALEKSANDR VUÇİÇƏ**

Hörmətli cənab Prezident!

Serbiya Respublikasının milli bayramı münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

İnanıram ki, Azərbaycan ilə Serbiya arasındakı strateji tərəfdaşlıq münasibətləri, istər ikitərəfli qaydada, istərsə də beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı etimad və dəstəyə əsaslanan əməkdaşlığımız bundan sonra da xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Serbiya xalqına sülh və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *12 fevral 2019-cu il*

## «REAL» TELEVİZİYASINA MÜSAHİBƏ

*12 fevral 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 12-də «Real» televiziyasının rəhbəri Mirşahin Ağayevə geniş müsahibə vermişdir.*

**M i r ş a h i n  A ğ a y e v:** Cənab Prezident, müsahibəyə vaxt ayırdığınız və bizi qəbul etdiyiniz üçün Sizə minnətdarlığımı bildirirəm və bunu biz Azərbaycan mətbuatına, mediasına Sizin diqqətiniz kimi qəbul edirik, təşəkkür edirəm.

**İ l h a m  Ə l i y e v:** Sağ olun. Siz bilirsiniz ki, mən Azərbaycan mediasına həmişə böyük dəstək göstərmişəm. Mənim media nümayəndələri ilə çoxsaylı görüşlərim bunun əyani sübutudur və həmişə çalışmışam ki, öz işimlə medianın inkişafına dəstək verim. Şadam ki, Azərbaycan mediası bu gün ölkəmizin həyatında önəmli rol oynayır. Deyə bilərəm ki, mən də öz işimdə mediadan gələn xəbərlərə istinad edirəm, bəzi hallarda mediadan bir çox məsələləri öyrənirəm, dərhal reaksiya verirəm. Bu barədə mən bir neçə dəfə öz fikirlərimi bildirmişəm və hesab edirəm ki, gələcəkdə Azərbaycan mediası ölkəmizin həyatında bundan da böyük rol oynayacaqdır. Onu da bildirməliyəm ki, bəzən belə bir sual verilir, nə üçün Prezident xarici mediaya daha çox müsahibə verir?

Bunun iki səbəbi vardır. İstərdim bu barədə öz fikrimi bildirim, Azərbaycan mediası da bunu bilsin. Birincisi, Azərbaycan həqiqətlərini dünyaya çatdırmaq xüsusi əhəmiyyət daşıyan bir məsələdir. Çünki bu gün dünyada informasiya mübarizəsi gedir. Azərbaycana qarşı bir sıra hallarda çox əsassız ittihamlar irəli sürülür, qərəzli, saxta məlumatlar dərc edilir. Bunun məqsədi ölkəmizin imicinə zərbə vurmaq, ölkəmizi inkişaf, müstəqillik yolundan döndərmək və Azərbaycanı geridə qalmış ölkə kimi təqdim etməkdir. Ona görə xarici mediada bizim mövcudluğumuz, sözlərimizin çatdırılması xüsusi əhəmiyyət daşıyır. Yəni bizə qarşı aparılan bütün bu təbliğatın qarşısında öz həqiqətlərimizi ortaya qoyuruq, Azərbaycanı müasir, güclü dövlət kimi tanıtdırırıq və ölkə haqqında həqiqətləri çatdırırıq. Bu, birinci səbəbdir. İkinci səbəb ondan ibarətdir ki, mən ölkə daxilində gedən işlərlə bağlı öz fikirlərimi müntəzəm olaraq müxtəlif formatda bildirirəm. Mənim çıxışlarımın bir çoxu hesabat xarakterlidir.

Nazirlər Kabinetinin müntəzəm olaraq keçirilən toplantılarında həm görülmüş işlərə qiymət verilir və ən önəmlisi görüləcək işlər haqqında danışılır. Regional inkişaf proqramlarının icrası ilə bağlı tədbirdə il ərzində görüləcək işlər haqqında çox aydın ifadələr ortaya qoyulur. Beləliklə, Azərbaycan vətəndaşları həm məndən eşidirlər ki, hansı işlər görülüb, biz harada uğurlara nail olmuşuq, harada hələ ki, həll olunmamış problemlər, nöqsanlar var, həm də görüləcək işlərlə bağlı fikirlər ortaya qoyulur.

Müxtəlif mövzularla bağlı müntəzəm olaraq öz fikirlərimi çatdırıram. Yenə də deyirəm ki, bu həm hesabat xarakterli, həm də görüləcək işlər, istiqamətlərlə bağlı, istiqamətverici çıxışlardır. Ona görə bu məsələ ilə bağlı iki amil mövcuddur və istərdim ki, Azərbaycan mətbuatı bunu bilsin. Ancaq bugünkü müsahibəmiz onu göstərir ki, mən həmişə Azərbaycan mətbuatına da açıq olmuşam, bundan sonra da belə olacaqdır.

**S u a l: Təşəkkür edirəm, cənab Prezident, biz bunu hiss edirik, qiymətləndiririk. Ümidvaram ki, bu ənənə davamlı olacaq. Azərbaycanda 2019-cu il islahatların yeni və daha genişmiqyaslı dalğası ilə başlandı. Biz islahatların əhatə dairəsini və əsas hədəflərini mahiyyət etibarilə inqilabi adlandırırıq. Sizcə, yanılmırıq ki?**

**C a v a b:** Mən hesab edirəm ki, siz çox düzgün təhlil apararaq, belə bir qənaətə gəlmisiniz. Doğrudan da 2019-cu ildən bizim islahatlarımızın yeni mərhələsi başlayır. Bu da təbiidir. Çünki ötən il keçirilmiş Prezident seçkilərində Azərbaycan xalqı mənə bir daha böyük etimad göstərdi və mən bu seçkilərə islahatlar gündəliyi ilə getmişəm. Təbii ki, keçən ilin ikinci yarısından başlayaraq, islahatların dəqiqləşdirilməsi, müəyyən edilməsi və ardıcıllığı haqqında çox geniş işlər aparılırdı və bu ilin əvvəlindən yeni islahatlara start verildi.

Onu da deməliyəm ki, Azərbaycanda islahatlar müntəzəm olaraq keçirilir. İslahatların əsasını ulu öndər Heydər Əliyev 1993-cü ildə qoymuşdur. Məhz o

ildən başlayaraq, Azərbaycan sabitlik və inkişaf dövrünə qədəm qoyubdur. Əgər biz o illəri xatırlasaq görərik ki, ən böyük siyasi islahatlar məhz Heydər Əliyevin adı ilə bağlıdır. O, hakimiyyətə gələnə qədər Azərbaycanda senzura mövcud idi. Siz də o vaxt gənc jurnalist kimi, bu senzura şəraitində fəaliyyət göstərirdiniz. Senzuranın ləğv edilməsi Heydər Əliyev tərəfindən aparılmış çox ciddi islahat idi. Azərbaycana xarici sərmayə qoyuluşunun cəlb edilməsi işində çox böyük islahatlar aparıldı. «Əsrin müqaviləsi» – o vaxt postsovet məkanında bunun tayı-bərabəri yox idi. Məhz Heydər Əliyevin təşəbbüsü ilə bu islahatlar aparıldı. Torpaq islahatı, hansı ki, biz bu gün də onun qoyduğu yolla gedirik və Azərbaycanda fermerlər torpaq vergisi istisna olmaqla, heç bir başqa vergi ödəmirlər. Bilmirəm, dünyanın hansı ölkəsində buna oxşar mənzərə vardır?!

2003-cü ildən islahatların yeni mərhələsi başlandı və hesab edirəm ki, o vaxt ən böyük islahat regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının qəbul edilməsi idi. Çünki bu proqram bizə imkan verdi ki, ölkəmizin müxtəlif istiqamətlər üzrə inkişaf strategiyasını müəyyənləşdirək və qısa müddət ərzində çox güclü infrastruktur bazasının yaradılması işində nəticələr əldə edək. Əgər həmin illəri xatırlayırsınızsa, o vaxt biz infrastruktur baxımından çox geridə idik. Elektrik enerjisi ilə bağlı böyük problemlər, fasilələr var idi, elektrik enerjisi saatlarla verilirdi. Bu gün Azərbaycan nəinki özünü elektrik enerjisi ilə təmin edir, eyni zamanda, böyük həcmdə

ixrac edir. Bölgələrdə qaz təchizatı yox idi. Bakı şəhərində qaz təchizatı təqribən 50 faiz səviyyəsində idi. Bu gün ən ucqar rayonlara, hansılar ki, heç sovet vaxtında qazlaşdırılmamışdı, təbii qaz verilir və qazlaşdırılmanın səviyyəsi 95 faizə çatıb. İçməli su layihələrinin icrası böyük əhəmiyyət daşıyır, böyük sosial məsələdir. 2003-cü ildə dayanıqlı və keyfiyyətli içməli su ilə təminat cəmi 20 faiz idi. Bu gün bu, 70 faizə çatıb. Düzdür, 70 faiz də bizi qane edə bilməz. Bakı şəhərində 80 faizdən çoxdur. Ancaq bu, böyük bir islahat idi. Digər infrastruktur layihələrinə gəlincə, misal üçün, biz artıq bir neçə ildir ki, 5 milyon insana pulsuz tibbi müayinə xidməti göstəririk. Bu nəyə görə mümkün olub? Ona görə ki, son illərdə ölkəmizin hər bir yerində müasir xəstəxanalar, diaqnostika mərkəzləri yaradılıb. Yəni bu imkanlar yaradılıb ki, biz onlardan istifadə edək. İqtisadi sahədə aparılmış islahatlar, ölkə iqtisadiyyatının şaxələndirilməsi ilə bağlı islahatlar bu yeni reallıqları ortaya qoydu.

Biz birinci dəfə Dünya Bankının «Doing Business» hesabatına 2006-cı ildə düşmüşük. O vaxt təqribən 90-cı, 95-ci və ya 96-cı yerdə idik. Bu gün biz 25-ci yerdəyik. Bu, ciddi islahatdır. Bu, biznes mühitinin yaxşılaşdırılması, sərmayə qoyuluşu üçün yeni imkanların yaradılması istiqamətində inqilabi islahatdır. Baxın, biz bir çox inkişaf etmiş ölkələrdən öndəyik. Bu çox ciddi məsələdir. İslahatların bugünkü mərhələsi əvvəlki dövrlərdə aparılmış islahatların məntiqi nəticəsidir. Bu gün isə qarşımızda yeni vəzifələr durur, yeni çağırışlar dayanır. Dünya dəyişir, dünyada gedən

proseslər narahatlıq doğurur. Beynəlxalq hüquq prinsipləri artıq belə görünür ki,  o qədər də böyük rol oynamır. Ona görə hər bir ölkə çalışmalıdır ki, maksimum öz daxili resurslarına arxalansın. Əslində biz bu siyasəti uzun illərdir ki, aparırdıq. Əsas hədəf ondan ibarət idi ki, biz iqtisadi cəhətdən heç kimdən asılı olmayaq. Biz iqtisadi müstəqilliyi əldə edəndən sonra, əlbəttə ki, öz siyasi addımlarımızı daha inamla atırıq və ölkəmizin maraqlarını daha yüksək dərəcədə qoruyuruq.

2019-cu ildən başlanan islahatların əsas hədəfi Azərbaycanı müasir, inkişaf edən ölkəyə çevirmək, ölkədə mövcud olan nöqsanları aradan qaldırmaq, vətəndaşları narahat edən problemləri tamamilə gündəlikdən çıxarmaq, insanların rifah halını yaxşılaşdırmaq, daha güclü, qüdrətli dövlət qurmaqdır. Biz bu istiqamətdə məqsədyönlü, hərtərəfli siyasət aparırıq, həm beynəlxalq mövqelərimizi möhkəmləndiririk, həm də regional əməkdaşlıq təşəbbüsləri ilə çıxış edirik. Bu gün Azərbaycan Avrasiyanın nəqliyyat mərkəzinə çevrilib. Yəni nəqliyyat mərkəzlərindən birinə yox, məhz nəqliyyat mərkəzinə çevrilib. Çünki Şimal–Cənub və Şərq–Qərb nəqliyyat dəhlizləri ölkəmizin ərazisindən keçir. Biz bu coğrafi vəziyyətdən çox səmərəli istifadə etdik, güclü infrastruktur yaratdıq. Bu gün Şimal–Cənub və Şərq–Qərb nəqliyyat dəhlizlərində 10-dan çox ölkə əməkdaşlıq edir. Yalnız bir ölkə hər iki layihədə iştirak edir, o da Azərbaycandır. Yəni bugünkü reallıqlar, dünyada baş verən və bölgəmizdə yaşanan hadisələr diktə edir ki, biz daha səmərəli iş aparmalıyıq və

şəffaflıq əsas prinsip olmalıdır. Deyə bilərəm ki, keçən il hazırlanan və bu il başlanan, xüsusilə iqtisadi, sosial və kənd təsərrüfatı sahələrində aparılan islahatlar imkan verir ki, biz əlavə maliyyə resursları əldə edək. Siz bilirsiniz ki, bu yaxınlarda minimum əməkhaqqının qaldırılması ilə bağlı çox ciddi addım atılıb, digər sosial yönümlü addımlar da atılıbdır. Biz nəyin hesabına buna nail ola bildik? Ona görə ki, bu ilin birinci ayında biz əlavə gəlirlər əldə etmişik. Gəlirlər məhz şəffaflıq, düzgün yanaşma hesabına əldə olunub. Bu gəlirlər bizə əlavə maliyyə resurslarının yaranmasına imkan verdi. Biz bu maliyyə resursunu müxtəlif istiqamətlərə – ehtiyatların artırılmasına, infrastruktur layihələrinin icrasına yönəldə bilərdik. Amma mən qərar verdim ki, əldə edilmiş bu əlavə maliyyə resursları ilk növbədə, vətəndaşların rifah halının yaxşılaşdırılmasına yönəldilməlidir və biz bunu da etdik. Güclü sosial siyasət bizim gündəliyimizdə bundan sonra da ən vacib, ən ümdə məsələlərdən biri olaraq qalacaqdır.

**S u a l: Şəhid ailələri, təqaüdçülər, aztəminatlı ailələr, yığcam şəkildə desək, sadə azərbaycanlılar islahatların mərkəzində dayanır. Özü də mən burada heç də yalnız şəhid vərəsələrinə verilən birdəfəlik müavinətləri, minimum əməkhaqqının, təqaüdlərin artırılmasını nəzərdə tutmuram. Mənə elə gəlir ki, söhbət daha dərin, daha böyük mətləbdən gedir. Söhbət vətəndaş–dövlət təmasının yeni formatına keçiddən gedir.**

**C a v a b:** Tamamilə haqlısınız. Əlbəttə, bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Mən dəfələrlə bu barədə öz fikirlərimi bildirmişəm və bizim atdığımız addımlar dediklərimi sübut edir. Bizim imkanlarımız artdıqca ilk növbədə, bu gün hələ də ağır vəziyyətdə, çətin şəraitdə yaşayan insanların yaşayış səviyyəsini yaxşılaşdırmağa çalışırıq. Son illər bu istiqamətdə çox böyük işlər görülübdür. Baxın, köçkünlər üçün 100-dən çox şəhərcik salınıbdır. Yəni mən bilmirəm, hansı başqa ölkədə buna rast gəlinir?! Bilirəm ki, bu məsələ ilə məşğul olan beynəlxalq təşkilatlar həmişə Azərbaycanı nümunə kimi göstərirlər. Şəhid ailələrinə, Qarabağ müharibəsi əlillərinə 6500-dən çox mənzil verilib. Mən eşitməmişəm, hansı ölkədə bu kateqoriyadan olan insanlara bu qədər dəstək göstərilir?! Şəhid vərəsələrinə 11000 manat məbləğində birdəfəlik maddi yardım verilib. Bu da dünya praktikasında analoqu olmayan bir yanaşmadır. Bütün bunlar bizim niyyətimizi, siyasətimizi göstərir. Onu göstərir ki, bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı, onun maraqları, onun rifahıdır. Dediyiniz kimi, bu yanaşma daha böyük yanaşmanın tərkib hissəsidir – dövlət–vətəndaş münasibətlərinin. Hesab edirəm ki, bu münasibətlər Azərbaycanda sağlam zəmində qurulub. Vətəndaş bu gün bilir ki, dövlət güclü olarsa, onun da həyatı təhlükəsiz, risksiz, rahat olar və ildən-ilə artan maddi rifah daha da çoxalar.

Azərbaycan vətəndaşı çox yaxşı bilir ki, biz hələ müstəqilliyimizin ilk illərindəyik. Bizim müstəqilliyi-

mizin cəmi 27 yaşı vardır. Ona görə də hər bir vətəndaş öz işi, əməyi, dövlətə olan sədaqəti ilə dövlət müstəqilliyini möhkəmləndirməlidir. Hesab edirəm ki, Azərbaycan bu sahədə də nümunəvi ölkədir. Çünki Azərbaycanda vətənpərvərlik hissləri, dövlətçiliyə bağlılıq çox yüksək səviyyədədir. Vətəndaş dövlət qarşısında öz vəzifə borcunu yerinə yetirir və yetirməlidir. Dövlət də həmişə ən ağır vəziyyətdə olan vətəndaşın yanında olmalıdır. Yəni bizim prinsiplərimiz bundan ibarətdir. Gətirdiyim misallar buna əyani sübutdur.

Bütün çətin anlarda dövlət vətəndaşın yanındadır. Təbii fəlakət baş verdiyi zaman dövlət vətəndaşın yanındadır. Bu yaxınlarda Şamaxıda zəlzələ baş verdi. İlk növbədə, dövlət qurumları mənim tapşırığımla öz dəstəyini göstərdilər və bundan sonra da göstərəcəklər. Bundan əvvəl şimal-qərb bölgəsində bundan daha böyük zəlzələ olmuşdur. Daşqın olmuşdur, minlərlə sakin evsiz-eşiksiz qalmışdır. İnkişaf etmiş ölkələrdə belə olan hallarda nə baş verir? Öz evini sığortalamış vətəndaş gedir sığorta şirkətindən uzun prosesdən sonra pulunu alır – əgər ala bilsə və o pulla özü üçün yeni ev tikir. Yəni aylarla, bəlkə də illərlə vətəndaş öz məişət problemini həll edə bilmir. Azərbaycanda nələr baş verir? Dərhal bütün dövlət qurumları səfərbər olunur, dövlət maliyyə vəsaiti ayırır və evini itirmiş vətəndaşa dövlət xətti ilə ev tikilir. Hansı ölkədə bunlar vardır?! Bunu deməklə, mən öyünmək istəmirəm, sadəcə olaraq, həqiqətləri deyirəm.

Dövlət–vətəndaş münasibətləri sağlam zəmində qurulub. Azərbaycan vətəndaşı bilir ki, ən ağır vəziyyətdə Azərbaycan dövləti onun yanında olacaq. Dövlət isə tam əmindir ki, vətəndaş hər zaman dövlətin arxasında olacaqdır.

**Mirşahin Ağayev:** Şamaxıya gedəndə 92 yaşlı Saray nənə ilə görüşdük. Cənab Prezident, o bu saat da Sizinlə görüşün təəssüratları altındadır.

**İlham Əliyev:** Saray nənəni xatırlatdınız. Hesab edirəm ki, Saray nənə Azərbaycan qadınının ən yüksək keyfiyyətlərini özündə təcəssüm etdirir. Saray nənə kimi nənələr, analar bizim milli-mənəvi dəyərlərimizi əsrlərboyu qoruyan insanlar olublar. Hər bir Azərbaycan qadını Saray nənəyə oxşamaq istəyir. Məncə, bu belədir. Baxın, evi dağılmış 92 yaşında bir qadında nə qədər nikbinlik vardır. Çünki Saray nənədə inam var ki, dövlət onun yanında olacaq. Sözün düzü, mən Şamaxıya gedəndə bilmirdim ki, Saray nənə ilə rastlaşacağam. Mən gedib zəlzələdən ziyan çəkmiş evlərə baxırdım, oradakı vəziyyətlə tanış olurdum. Saray nənəni görəndə mən bir daha əmin oldum ki, Azərbaycan xalqı nə qədər böyük xalqdır. Biz xalqımızla fəxr edə bilərik. Ən ağır vəziyyətdədir, evi uçub, sözün düzü, yəqin heç bilmirdi ki, kimsə onun köməyinə gələcək, onun evi təmir olunacaq, ya olunmayacaq, yeni ev tikiləcək, yoxsa yox. Amma bu insanda nə qədər inam, nikbinlik, xeyirxahlıq vardır. Saray nənə kimi nənələr Azərbaycan xalqının əyilməz ruhunu təcəssüm etdirir. Biz əsrlərboyu yaşayan,

inkişaf edən bir millət olaraq, Saray nənə kimi nənələrə borcluyuq. Bu görüş məndə də çox böyük təəssürat yaratdı, böyük bir iz buraxdı. Ümid edirəm ki, tezliklə Saray nənə ilə bir daha görüşəcəyəm və onun yeni evinin açarını ona təqdim edəcəyəm.

**S u a l: Biz artıq məzmunca yeni bir Azərbaycanda yaşadığımızın fərqindəyik. Xeyli köhnə vərdişlər var idi ki, onlardan qurtulmuşuq. «ASAN xidmət»in təsiri ilə başlanan yeni həyat tərzinə, müasir, halal, şəffaf dövlətdə yaşamağa artıq öyrəşmişik. İslahatların yeni qanadı da bizdən təfəkkür modelimizi tamam dəyişməyi tələb edir. Köhnə təfəkkür artıq bugünkü Azərbaycana yaramır. Son nəticədə hədəfiniz nədir?**

**C a v a b:** Əlbəttə ki, bugünkü Azərbaycan əvvəlki Azərbaycandan çox fərqlənir. Bugünkü Azərbaycan müasir dövlət kimi özünü artıq təsdiqləyib. Ölkədə aparılan islahatlar bizim niyyətimizi, siyasətimizi əks etdirir. Siz «ASAN xidmət»i yada saldınız. «ASAN xidmət» əslində ictimai xidmətlər sahəsində böyük bir inqilabdır. «ASAN xidmət»in əhəmiyyətini bəlkə də bu gün biz tam dərk etmirik. Bu sadəcə olaraq, vətəndaşlara gözəl, rahat xidmət mərkəzi deyil, həm də yüksək dərəcədə dəyişikliklərə gətirib çıxardı.

«ASAN xidmət» mənim təşəbbüsümlə yaradıldı. Ancaq onu da bildirməliyəm ki, orada çalışan gənclər «ASAN xidmət»i çox yüksək dərəcədə inkişaf etdirdilər, zənginləşdirdilər, yeni, kreativ ideyaları ilə «ASAN xidmət»i doğrudan da nadir bir ictimai xidmət mərkəzinə çevirdilər. Hər bir yeni mərkəzə

gedəndə – mən 15 mərkəzin açılışının hər birində olmuşam – görmüşəm ki, edilən təqdimatlarda hansısa bir yenilik vardır. Bu onu göstərir ki, orada çalışan insanlar – onların mütləq əksəriyyəti gənclərdir – çox böyük həvəslə, böyük sevgi ilə bunu edirlər. Onlarda böyük ruh yüksəkliyi vardır. Onlar istəyirlər ki, ölkəmizdə işlər daha yaxşı getsin, istəyirlər ki, bu işlərə öz töhfələrini versinlər. Yəni «ASAN xidmət» çox geniş və müsbət bir təşəbbüsün təzahürüdür. Orada işləyən gənclər bizim gələcəyimizdir. «ASAN xidmət»də korrupsiya, rüşvətxorluq, kobudluq, bürokratiya sıfırdır. Yəni mənfi halların qarşısını almaq mümkündür. Bunu biz özümüz etmişik. Hansısa bir xarici təşkilat bunu bizə tövsiyə etməyibdir. Qərar da bizimdir, icraçılar da Azərbaycan vətəndaşlarıdır, gənclərdir və nəticəni də Azərbaycan vətəndaşları görür. Ona görə bu, ictimai davranış sahəsində, ictimai xidmətlər sahəsində, məmur–vətəndaş münasibətlərində inqilabdır. Sirr deyildir ki, «ASAN xidmət»ə qədər bizim vətəndaşlar hər hansı bir arayışı almaq üçün nə qədər böyük əziyyət çəkirdilər. Günlərlə, bəlkə həftələrlə vaxt itirirdilər, digər xoşagəlməz hallarla üzləşirdilər. İndi biz bunu bacardıq, bu, artıq keçmişdə qaldı. «ASAN xidmət»də təlim keçmiş 17 min könüllü tam yeni təfəkkürlü insanlardır. Onların amalı vətəndaşlara xidmət etməkdir, özü də təmənnasız. Gələcəkdə bu könüllülər – artıq onların bir çoxu indi müxtəlif təşkilatlarda işləyirlər – vətəndaşlarla təmasda tam yeni bir mövqe, tam yeni bir yanaşma nümayiş etdirəcəklər.

Mən demişəm ki, hər bir dövlət məmuru vətəndaşların xidmətçisidir – Prezidentdən tutmuş, aşağı səviyyəli məmura qədər. «ASAN könüllüləri», bax, bu prinsiplərlə yaşayırlar. Bu, böyük bir hərəkatdır. Məhz buna görə bu il 5 yeni «ASAN xidmət» Mərkəzi açılacaq. «ASAN xidmət» mərkəzlərində xidmətlərin sayı da gündən-günə artır, 200-dən çox xidmət göstərilir. Əlbəttə, bu çox qürurverici bir məsələdir.

O ki qaldı «hədəfimiz nədir» sualınıza, deməliyəm ki, hədəfimiz qüdrətli, müasir dövlət qurmaqdır. Hədəfimiz xoşagəlməz hallara qarşı siyasətimizi bundan sonra da aparmaqdır. Burada mübarizənin bir neçə istiqaməti var, həm inzibati yollar, həm də institusional. Yəni sistem xarakterli islahatlar. İndi «ASAN xidmət» elə qurulub ki, artıq bu sistem müstəqil formada yaşayır. Gələcəkdə orada çalışacaq vətəndaşlar bu prinsiplərə əməl edəcəklər. Əsas məsələ, əsas hədəf güclü, müasir dövlət qurmaqdır ki, vətəndaşlar özlərini rahat hiss etsinlər, dövlət məmurları vətəndaşlara təmənnasız və sədaqətlə xidmət göstərsinlər.

**S u a l: Cənab Prezident, 1992-ci ildə Əbülfəz Elçibəy haqqında belə bir söz demişdim: «Zəif Prezident, əliboş komandan». Mənim qarşımda indi güclü Prezident və gerçək Ali Baş Komandan vardır. Elə bilirəm ki, buradan Dağlıq Qarabağ ətrafındakı vəziyyət mövzusuna keçək. Həm də ona görə ki, bizim ortada 2016-cı ilin aprel rəşadəti, 2018-ci ilin Naxçıvan uğurları var və elə**

**gizlətməyək, 2019-cu ildən də uğurlar gözləyənlərimiz var, mən daxil olmaqla. Nəyə əsaslanırıq?**

**C a v a b:** Bilirsiniz, mən Dağlıq Qarabağ münaqişəsi ilə bağlı dəfələrlə öz fikirlərimi bildirmişəm. Bir daha demək istəyirəm ki, tam əminəm, əgər müstəqilliyimizin ilk illərində Heydər Əliyev Azərbaycan Prezidenti olsaydı, heç vaxt torpaqlarımız işğal altına düşməzdi. Tam əminliklə bunu deyirəm. Əfsuslar olsun ki, o vaxt Azərbaycana rəhbərlik etmiş şəxslər öz məsuliyyətini dərk edə, ölkəmizin maraqlarını qoruya bilməmişlər. Xüsusilə 1992-ci ildə baş vermiş çevriliş nəticəsində hakimiyyətə gəlmiş AXC–Müsavat cütlüyü və onun xəyanətkar siyasəti işğalı şərtləndirən əsas amil olmuşdur. O vaxt hakimiyyət uğrunda mübarizə gedirdi və çevriliş ərəfəsində Şuşa, Laçın işğal altına düşdü. Çevrilişdən bir il keçmədən – 1993-cü ilin aprel ayında Kəlbəcər işğal altına düşdü və beləliklə, Dağlıq Qarabağla Ermənistan arasında coğrafi əlaqə yarandı. Heydər Əliyev buna heç vaxt imkan verməzdi. Çünki onun siyasəti, onun qətiyyəti, xalqın ona olan inamı heç vaxt imkan verə bilməzdi ki, bizim torpaqlarımız işğal altına düşsün. Dağlıq Qarabağ münaqişəsi və torpaqlarımızın işğalı, 1 milyondan artıq qaçqın, köçkünün ağır vəziyyəti AXC–Müsavat cütlüyünün ağır mirasıdır. Bu gün Azərbaycan həm danışıqlar masasında, həm də döyüş meydanında üstün mövqedədir. Biz son illər ərzində münaqişənin həlli üçün güclü hüquqi baza yaratdıq. Dünyanın bir çox mötəbər aparıcı beynəlxalq təşkilatları münaqişə ilə

bağlı həqiqəti əks etdirən, bizim mövqemizi dəstəkləyən qətnamələr, qərarlar qəbul etmişlər – BMT Baş Assambleyası, ondan əvvəl Təhlükəsizlik Şurası, ATƏT, «Qoşulmama Hərəkatı», İslam Əməkdaşlıq Təşkilatı, digər təşkilatlar. Avropa İttifaqı ilə Azərbaycan arasında imzalanmış Tərəfdaşlıq Prioritetləri sənədində ərazi bütövlüyümüz, suverenliyimiz, sərhədlərimizin toxunulmazlığı haqqında dəstək ifadə olunub. Yəni bu, münaqişə üçün hüquqi baza yaradır. Hüquqi baza ondan ibarətdir ki, Dağlıq Qarabağ – bunu biz hamımız yaxşı bilirik – Azərbaycanın ayrılmaz hissəsidir. Münaqişənin həlli yalnız və yalnız ölkəmizin ərazi bütövlüyü çərçivəsində mümkündür.

Biz güclü iqtisadi potensial yaradaraq, güclü ordu da yaratmışıq. Bu gün Azərbaycan Ordusu dünyada güclü ordular sırasındadır. Bizim döyüş qabiliyyətimiz, imkanlarımız artır. Biz ordumuzu ən müasir texnika ilə təchiz edirik. Aprel döyüşləri bizim gücümüzü göstərdi. Ən əlverişsiz hərbi mövqelərdən əks-hücum əməliyyatı apararaq, biz strateji yüksəklikləri əldə etdik. Torpaqlarımızı işğalçılardan azad etdik. Bu gün Ağdərə, Füzuli, Cəbrayıl rayonlarında Azərbaycan bayrağı dalğalanır. Aprel döyüşləri bizim şanlı tarixi qələbəmizdir. Mən Lələtəpədə olanda, orada Azərbaycan bayrağını görəndə qürur hissi keçirirəm. Hər bir Azərbaycan vətəndaşı qürur hissi keçirir. Bizim əsgər və zabitlərimiz əsl qəhrəmanlıq göstərdilər. Aprel döyüşləri tarixi hadisədir. Bu döyüşlər Ermənistanın uzun illər ərzində yaratdığı mifi tamamilə darmadağın etdi. Ermənilər elə bir rəy

formalaşdırmağa çalışırdılar ki, guya onların ordusu güclü və yenilməzdir. Azərbaycan əsgəri, zabiti göstərdi ki, kimin ordusu güclü, kimin ordusu yenilməzdir. O mif tamamilə dağıdıldı. Aprel döyüşləri milli ruhumuzu yüksəltdi, zirvələrə qaldırdı. Bu hadisə bir daha göstərdi ki, Azərbaycan xalqı və dövləti heç vaxt işğalla barışmayacaq. Aprel döyüşlərindən 2 il sonra uğurlu Naxçıvan əməliyyatı keçirildi. O, taktiki baxımdan fərqli əməliyyat idi, ancaq nəticə etibarilə çox uğurlu idi və bizə imkan verdi ki, strateji yüksəklikləri, dağları tam nəzarətə götürək və bu dağlardan düşmənin strateji kommunikasiyalarına nəzarət edək. Yəni bütün bunlar ordumuzun qüdrətini, peşəkarlığını əks etdirən önəmli hadisələrdir. Bütün bunlar onu göstərir ki, münaqişə Azərbaycanın ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır.

Ermənistanın yeni hökuməti birinci mərhələdə çox ziddiyyətli bəyanatlar verirdi ki, Azərbaycan Ermənistanla yox, qondarma «Dağlıq Qarabağ respublikası» ilə danışıqlar aparmalıdır. Biz, əlbəttə ki, bu ziddiyyətli və anlaşılmaz bəyanatları dərhal rədd etdik. O cümlədən vasitəçilər də belə bir mövqe ilə razılaşa bilməzdilər. Öz prinsipial mövqemizdə qalaraq, biz danışıqlar prosesinə sadiqik. Bu gün danışıqlar Ermənistan və Azərbaycan Xarici İşlər nazirləri arasında aparılır. Artıq bir neçə raund danışıqlar aparılıb. Biz ümid edirik ki, bu danışıqların nəticəsi olacaqdır. Ona görə danışıqların aparılması, əlbəttə ki, müsbət hal kimi qiymətləndirilə bilər. Bu bir daha onu

göstərir ki, Ermənistanın yeni rəhbərliyinin ilk mərhələdə bəyan etdiyi prinsiplər tamamilə qəbuledilməzdir.Digər tərəfdən, mən həmişə demişəm ki, bu gün dünyada güc amili ön plana çıxır. Baxın, dünyanın müxtəlif yerlərində beynəlxalq hüquq kobudcasına pozulur. Əgər əvvəlki dövrlərdə bunu müəyyən formada gizlətmək istəyirdilərsə, bu gün heç buna ehtiyac da görmürlər. Bu gün dünyada «kim güclüdür, o da haqlıdır» prinsipi hökm sürür. Bu, yeni reallıqdır. Biz bu reallığa hazır olmalıyıq. Dünya dəyişir və biz bu dəyişikliyə hazır olmalıyıq. Xoşbəxtlikdən biz öz iqtisadi və hərbi gücümüzü uzun illərdir ki, artırırıq. Sanki özümüzü bugünkü vəziyyətə hazırlayırdıq və bu gün biz hazırıq. Güc amili həmişə gündəlikdə olub və olacaqdır. Biz bunu nəinki bizim münaqişə, bir çox başqa münaqişələrlə bağlı da görürük. Ona görə biz müxtəlif imkanlardan istifadə edəcəyik və Azərbaycanın ərazi bütövlüyünün bərpası bizim əsas vəzifəmizdir. Azərbaycan vətəndaşları bunu bilməlidirlər ki, bu hər bir vətəndaşın əsas vəzifəsidir, dövlətin əsas vəzifəsidir. Biz bu istiqamət üzrə öz siyasətimizi bundan sonra da aparacağıq.

**S u a l: Keçən əsrin 90-cı illərində yəqin ki, Azərbaycanı hətta turistin gözündən gizlətmək lazım idi ki, gəlib görməsinlər. Amma indi vəziyyət o dərəcədə dəyişib ki, gəlsinlər də, görsünlər də. Belə olanda kosmik kluba üzvlüyümüzün də təbii ki, əsası məntiqli olur, təbii ki, «Formula-1» yarışlarının Bakının küçələrində keçirilməsi də əsaslı olur. Bir zamanlar Siz deyəndə ki, Azərbaycanda**

**beşulduzlu, yeddiulduzlu hotellər tikilməlidir, bəlkə də bunlara bir az anlaşılmaz, hətta mümkün olmayan bir şey kimi baxırdılar. Amma bu gün görürük ki, belə hotellərin sayı azlıq edir, artırmaq lazımdır. Belə deyək, qonaqlarımızın ölkəmizə «xoş gəlib, səfa gətirmələrindən» ötrü daha nələri etmək niyyətindəsiniz, cənab Prezident?**

**C a v a b:** Bilirsiniz, turizm hər bir ölkə üçün çox önəmli bir sahədir. Elə ölkələr var ki, onların ümumi daxili məhsulunda əsas hissə turizmlə bağlıdır. Biz də çalışırıq ki, Azərbaycanın turizm imkanlarını genişləndirək və bu istiqamətdə müxtəlif addımlar atırıq. İlk növbədə, infrastruktur yaradılmalı idi. Əgər infrastruktur yoxdursa, heç bir turist buraya gəlməz. Azərbaycanda hazırda 6 beynəlxalq aeroport fəaliyyət göstərir. Gözəl yollar, dəmir yolları, xidmət infrastrukturu, hotellər, ictimai yerlər yaradılmalı idi. Əlbəttə, hər bir turist üçün təhlükəsizlik məsələləri, xüsusilə indiki zamanədə ön plandadır. Azərbaycan dünyanın bəlkə də ən təhlükəsiz ölkələrindən biridir. Xalqımızın qonaqpərvərliyi, gözəl iqlim, gözəl şərait – bütün bunlar turizmin inkişafı üçün əsas şərtlər idi ki, biz bunları yaratdıq. İkinci məsələ ondan ibarət idi ki, biz turistləri necə cəlb edək, Azərbaycanı dünyaya necə təqdim edək? Burada xüsusi rol oynayan Azərbaycanda keçirilmiş beynəlxalq tədbirlər oldu. 2015-ci ildə keçirilmiş Avropa oyunlarından və 2016-cı ildə keçirilmiş birinci «Formula-1» yarışından sonra Azərbaycana gələn turistlərin sayı 22 faiz artdı. Yaxşı, nəyə görə bu vaxta qədər artmırdı? Bu vaxta qədər də biz

turistləri cəlb etmək üçün səylər göstərirdik. Məhz Avropa oyunları, «Formula-1» yarışları turistlərin sayını 22 faiz artırdı. Ondan sonra, 2017-ci ildə İslam Həmrəyliyi oyunları keçirildi. Biz gördük ki, müsəlman ölkələrindən gələn turistlərin sayı kəskin artdı. Bəzi ölkələrdən 3-4 dəfə. Bu oyunların da çox böyük təsiri oldu. 2017-ci ildə turistlərin sayı 20 faiz artdı. Amma o 22 faizin üstündə olan rəqəmdir. Təsəvvür edin nə qədər. Deməli, keçən il 6 faiz artdı. Artım böyük deyil, amma artıq baza yüksəkdir. Bu ilin yanvar ayında yenə də artır. Təkcə «Formula-1» yarışı birbaşa ölkəmizə, ölkəmizin xidmət sektoruna təxminən 300 milyon dollara yaxın vəsaitin daxil olmasına şərait yaratdı. Yarım milyard auditoriyası olan bu yarış, əlbəttə ki, Azərbaycan üçün çox böyük fayda gətirir. Bu yarışlar 21 şəhərdə keçirilir. Əgər bu yarışlar səmərəsizdirsə, əgər bu yarışlar iqtisadi itkilərə gətirirsə, inkişaf etmiş şəhərlərdə bu yarışlar keçirilərdimi? Əlbəttə ki, yox.

Biz xidmət sektorunda bundan çox böyük xeyir götürürük. Azərbaycanı dünyada tanıtmaq üçün bunun çox böyük əhəmiyyəti vardır. Turizm ixracın bir növüdür. Mən bir müqayisə gətirim sizin üçün. Keçən il kənd təsərrüfatı məhsullarının ixracından Azərbaycan turizmdən gələn vəsaitdən daha az vəsait əldə edib. Yəni turizm ixrac növüdür. Keçən il Azərbaycana turizmdən 2 milyard dollar vəsait daxil olub. Bu vəsait vətəndaşlara, xidmət sektoruna, vergilərə və ümumi inkişafa xidmət göstərir. Ona görə biz qabaqcıl ölkələrin təcrübəsini öyrənirik və çalışırıq ki,

Azərbaycanda turizm sənayesi daha da sürətlə inkişaf etsin. Keçən il ölkəmizə 2 milyon 800 min xarici qonaq gəlib. Bu il daha çox gələcək. Bu bizim iqtisadi inkişafımızın çox önəmli istiqamətidir.

**S u a l: Mən istəyirəm Azərbaycan Gəncləri Gününə həsr olunmuş respublika toplantısındakı çıxışınıza toxunaq. Ona görə ki, bu sadəcə, çıxış deyildi, Azərbaycan gəncləri üçün dövlət başçısının elan etdiyi platforma idi. Ümumiyyətlə, kadr siyasətinizdə gənclərə verilən xüsusi önəm də diqqət mərkəzindədir. Bütün bunları nəzərə alaraq, Sizin gənclərlə bağlı xəttinizi təxminən belə elan etmək olarmı ki, müstəqil dövlət üçün sağlam, kreativ və güclü gənclik?**

**C a v a b:** Bəli, bu forum çox möhtəşəm bir tədbir idi. Orada toplaşmış 3500 gənc öz iradəsini, dövlətə olan sədaqətini göstərdi. Forum mənə çox böyük, gözəl təəssürat bağışladı. Bir daha gördüm ki, Azərbaycan gəncləri dövlətə, Vətənə nə qədər sədaqətli, nə qədər cəsarətli, nə qədər biliklidirlər. Gənclərin gələcəkdə həyatda layiqli yerini tutmaları üçün Azərbaycanda bütün şərait vardır. Gənclər üçün imkanlar açılır, gənclər dövlət işinə dəvət olunurlar. Mən göstəriş vermişəm ki, Azərbaycanın müxtəlif təşkilatları, dövlət qurumları könüllüləri işə cəlb etsinlər. Təkcə «ASAN xidmət»də yox, başqa qurumlarda da. İndi Aqrar Könüllülər Təşkilatı yaradıldı. Hesab edirəm ki, bizim bütün dövlət təşkilatlarında könüllülər fəaliyyət göstərməli, təcrübə qazanmalı və özlərini gələcəyə hazırlamalıdırlar. Mən çıxışımda gənclərə öz sözümü

dedim. Dedim ki, bilikli, savadlı olmalıdırlar. Çünki hər bir ölkənin inkişafı vətəndaşların intellektual səviyyəsindən asılıdır, təbii sərvətlərdən yox, hansısa başqa qaynaqlardan yox, məhz intellektual səviyyədən. Baxın, inkişaf etmiş ölkələrin təcrübəsinə. Onlar nəyin hesabına inkişaf ediblər? Texnologiyaların, innovasiyaların, biliyin, savadın. Ona görə Azərbaycan gəncləri də mütləq bilikli, savadlı olmalıdırlar. Mən forumda da bunu dedim, gənclərimiz milli ruhda tərbiyə almalıdırlar. Biz əsrlərboyu başqa ölkələrin, imperiyaların tərkibində yaşamışıq, ancaq öz milli mənliyimizi qorumuşuq. Halbuki bu, çətin idi. Nəyin hesabına? İlk növbədə, ona görə ki, biz həmişə milli-mənəvi dəyərlərə sadiq olmuşuq, həmişə Azərbaycan dəyərlərini ən əlverişsiz mühitdə belə, qorumuşuq və bu gün də qorumalıyıq. Bunu qoruyan nəsillərdir – yaşlı nəsil, gənc nəsil. Bu gün biz bunu qoruyuruq və Azərbaycanın müstəqilliyinin, xalqımızın milli maraqlarının keşiyində durmuşuq. Bax, bu gün yetişən gənclər gələcəkdə eyni addımları atmalıdırlar. Bunu etmək üçün onlarda milli təfəkkür, milli düşüncə, milli ruh olmalıdır. Biz çalışırıq gəncləri bu istiqamətə yönləndirək ki, onlar böyüyəndə həmişə Azərbaycanın dövlət müstəqilliyinin keşiyində dursunlar. Hesab edirəm ki, bilik, savad, müasirlik, vətənpərvərlik, milli ruh gənclərimizin əsas prinsipləri olmalıdır. Mən şadam ki, Azərbaycan gəncləri məhz bu meyarlara cavab verirlər.

**Mirşahin Ağayev:** Forumda Sizin çıxışınızdan bir sitat gətirmək istəyirəm. Mənə elə gəlir ki, bu,

yeni redaksiyada təqdimat idi: «Bəzən bizim xarici siyasətimizi tarazlaşdırılmış siyasət kimi qələmə verirlər. Ancaq mən hesab edirəm ki, bizim xarici siyasətimiz milli maraqlar üzərində qurulub». Bu bəyanatınızı bir az açıqlamağınızı xahiş edirəm.

**İlham Əliyev:** Bəli, bu açıqlama təsadüfən verilmədi. Çünki yenə də deyirəm, bəzi xarici mətbu orqanlarda, ekspert cəmiyyətlərində belə bir fikir söylənilir ki, Azərbaycan balanslaşdırılmış, tarazlaşdırılmış siyasət aparır və elə bil ki, bu regionda balans axtarır. Bu belə deyil. Biz balans axtarmırıq. Biz sadəcə olaraq, xarici siyasətimizlə öz milli maraqlarımızı qoruyuruq və mümkün olan riskləri azaldırıq. Bizim xarici siyasətimiz məhz milli maraqlar üzərində qurulub. Milli maraqlar nəyi diktə edirsə, biz xarici siyasətdə onu da etməliyik və edirik. Deyə bilərəm ki, buna müvəffəq olmuşuq.

Biz bu coğrafiyada, bu regionda yaşayırıq. Hər bir ölkə üçün olduğu kimi, bizim üçün də qonşularla əlaqələrimiz xüsusi əhəmiyyət daşıyır. Məncə, hər bir ölkə istəyər ki, onun qonşuluğunda dost ölkələr olsun. Biz son illər ərzində bütün qonşularla – təbii ki, Ermənistan istisna olmaqla – dostluq münasibətlərimizi daha da gücləndirmişik, yeni səviyyəyə qaldırmışıq. Həm ikitərəfli formatda, həm də bizim təşəbbüsümüzlə qonşularla üçtərəfli və hətta dördtərəfli əməkdaşlıq formatı mövcuddur. Onu da bildirməliyəm ki, bunun təşəbbüskarı da Azərbaycandır. Qonşularla yaxşı münasibətlər olmadan biz enerji, nəqliyyat layihələrimizi icra edə bilərdikmi? Əlbəttə,

yox. Mən qeyd etdim ki, bu gün Azərbaycan Avrasiyanın nəqliyyat mərkəzinə çevrilib. Biz qonşularsız buna nail ola bilərdikmi? Əlbəttə ki, yox. Nəinki yaxın qonşularımızla, biz daha böyük coğrafiyanı əhatə edən əməkdaşlıq formatı yaradırıq. Məhz bu əməkdaşlıq formatı imkan verir ki, biz öz nəhəng, transmilli layihələrimizi uğurla və vaxtında icra edək. Ona görə bu bizim üçün strateji əhəmiyyət daşıyan bir yanaşmadır. Mən şadam ki, bu gün qonşularımızla bizim əlaqələrimiz dostluq, mehriban qonşuluq, əməkdaşlıq üzərində qurulub. Bu əməkdaşlığın çox böyük gələcəyi vardır.

Azərbaycan müsəlman aləminin bir parçasıdır. Müsəlman ölkələri ilə əlaqələr bizim üçün xüsusi əhəmiyyət daşıyır. Onu da bildirməliyəm ki, beynəlxalq təşkilatlarda bizi ən çox dəstəkləyən müsəlman ölkələridir. Azərbaycan İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində çox müsbət rol oynayır və bu rol yüksək qiymətləndirilir. Bilirsiniz, müsəlman aləmində bəzi ölkələr bir-biri ilə hələ ki, lazımi səviyyədə, yumşaq desək, əlaqələr qura bilməmişlər. Ancaq Azərbaycan bu ziddiyyətlərin azaldılmasında öz rolunu oynayır və bu rol yüksək qiymətləndirilir. Təsadüfi deyil ki, İslam Əməkdaşlıq Təşkilatının rəhbərləri Azərbaycanın rolunu çox yüksək qiymətləndirirlər. Biz islam həmrəyliyinin gücləndirilməsinə böyük töhfə veririk. Bakıda İslam Həmrəyliyi oyunlarının keçirilməsi sadəcə, bir idman yarışı deyildi. Bu, bütün müsəlman ölkələrinin gənclərini, idmançılarını bir araya gətirən dostluq, həmrəylik bayramı idi. Bu oyunların yüksək

səviyyədə keçirilməsi müsəlman aləmində bizim rolumuzu daha da gücləndirdi. Ona görə xarici siyasətimizin önəmli istiqaməti müsəlman ölkələri ilə əməkdaşlıqla bağlıdır.

Azərbaycan Avropa İttifaqı ilə sıx əlaqələr qurub. Avropa İttifaqına üzv olan 9 ölkə ilə strateji tərəfdaşlıq haqqında sənədlər imzalanıb – Avropa İttifaqının üçdəbir hissəsi ilə. Keçən il Avropa Komissiyası ilə Azərbaycan arasında «Tərəfdaşlıq prioritetləri» sənədi imzalanıb. Bu çox ciddi sənəddir, bir çox məsələləri əhatə edir, o cümlədən münaqişə ilə bağlı ölkəmizin ərazi bütövlüyü, suverenliyi, sərhədlərimizin toxunulmazlığına açıq-aydın dəstək göstərilir. Bu, böyük diplomatik uğurumuzdur. Bu, xarici siyasətimizin əsas istiqamətləridir. Biz «Qoşulmama Hərəkatı»na bir neçə il bundan əvvəl üzv olmuşuq. «Qoşulmama Hərəkatı» – BMT-dən sonra ikinci böyük təşkilat – dərhal münaqişə ilə bağlı çox ədalətli qətnamə qəbul etdi. Biz «Qoşulmama Hərəkatı»na sədrlik edəcəyik. Yəni bizim beynəlxalq nüfuzumuz artır. Biz 155 ölkənin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasına üzv seçilmişik. Özü də çox çətin bir mübarizədə. 16 turdan sonra biz buna nail ola bilmişik. Bu nəyi göstərir? Onu göstərir ki, bizə inam, rəğbət var, bizim müstəqil siyasətimizə dəstək vardır. Bu gün Azərbaycan dünyada çox etibarlı tərəfdaş kimi tanınır. Tərəfdaşlar bilirlər ki, bizim sözümüzün imzamız qədər qüvvəsi, dəyəri vardır. Ona görə hesab edirəm ki, xarici siyasətlə bağlı aparılan işlər təqdirəlayiqdir. Xarici siyasət daxili siyasətin məntiqi

davamıdır. Ümid edirəm ki, bundan sonra da biz bu istiqamətdə uğurlar yolu ilə gedəcəyik.

**S u a l: Elə məntiqi davam olaraq, mən Azərbaycanın daxili siyasəti barədə də soruşmaq istəyirəm, cənab Prezident. Mən nəinki Qafqazda, MDB-də, Avropada, hətta dünyada Azərbaycan kimi ikinci sabit, əmin-aman bir ölkə tanımıram ki, orada dinlər və dillər, dünyanın bütün dinləri və dilləri normal ünsiyyətdə olsun. Buna necə nail olursunuz?**

**C a v a b:** Yəqin ki, bunun da bir çox səbəbləri vardır. Xüsusilə son illər ərzində dünyada, bizim regionumuzda, MDB məkanında, Yaxın Şərqdə, Avropada vəziyyət gərginləşir. Biz bunu gündəlik formatda televiziyadan başqa, kütləvi informasiya vasitələrindən görürük, izləyirik. Münaqişələr, qanlı toqquşmalar, müharibələr alovlanır, milyonlarla yeni köçkün dalğası yaranır. Ölkələr arasında ziddiyyətlər kəskinləşir, müttəfiqlər arasında münasibətlər pozulur. Yəni biz dünyanın müxtəlif yerlərində bunu görürük. Təhdidlər, risklər artır. Bütün bu mənfi mənzərə fonunda, əlbəttə ki, Azərbaycanın tutduğu mövqe daha da böyük maraq doğurur, özünə daha da böyük rəğbət qazandırır. Çünki sabitlik dövründə deyə bilərlər ki, elə hər yerdə sabitlikdir. Amma bu gün, qeyd etdiyiniz kimi, Azərbaycan bu coğrafiyada sabitlik məkanıdır. Bunun bir çox səbəbləri var, ilk növbədə, hesab edirəm ki, bizim düzgün siyasətimiz, digər tərəfdən, Azərbaycanda bütün xalqların, bütün konfessiyaların bir ailə kimi yaşaması, dini-milli

zəmində heç vaxt ayrı-seçkiliyin olmamasıdır. Bu həm bizim siyasətimizdir, həm də ki, xalqdan gələn bir niyyət, təşəbbüs, sifariş, aparılan işlərə xalq tərəfindən göstərilən dəstəkdir. Əsas səbəblər, məncə, bunlardan ibarətdir.

Xalq–iqtidar birliyi hər bir ölkənin inkişafı üçün əsas şərtdir. Sabitliyin qorunmasının təminatçısı Azərbaycan xalqıdır. Son Prezident seçkilərində mənə göstərilən böyük etimad dediyim sözlərin məntiqi sübutudur. Sabitlik olmayan yerdə ölkələr dağılır, insanlar əziyyət çəkir, fəlakətlər baş verir. Biz bunu yaxın tarixdə görürük. Ona görə Azərbaycanda sabitliyin möhkəmləndirilməsi hər bir vətəndaşın işi olmalıdır, ilk növbədə, dövlətin. Mən çox şadam ki, bu gün Azərbaycan dünyada sabitlik adası kimi tanınır. Bu bizim böyük üstünlüyümüzdür. Bu bizə imkan verir ki, Azərbaycan islahatlar yolu ilə uğurla getsin. Bu bizə imkan verir ki, öz iqtisadi imkanlarımızdan istifadə edib, xalqımızın rifah halının yaxşılaşdırılmasına yönəlmiş növbəti addımlar atılsın. Bu bizə imkan verir ki, Azərbaycan xalqı bundan sonra da sülh və əmin-amanlıq şəraitində yaşasın.

**M i r ş a h i n  A ğ a y e v:** Cənab Prezident, təşəkkür edirəm. Bizə səxavətlə vaxt ayırdınız, suallarımıza cavab verdiniz. Bütün Azərbaycan mətbuatı və mediası adından minnətdaram.

**İ l h a m  Ə l i y e v:** Sağ olun.

**LİTVA RESPUBLİKASININ PREZİDENTİ XANIM DALYA QRİBAUSKAYTEYƏ**

Hörmətli xanım Prezident!

Ölkənizin milli bayramı münasibətilə Sizə və xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

İnanıram ki, Azərbaycan ilə Litva arasındakı mövcud dostluq və tərəfdaşlıq münasibətləri, ikitərəfli və çoxtərəfli qaydada səmərəli əməkdaşlığımız xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da müvəffəqiyyətlə davam edəcəkdir.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirməkdən məmnunluq duyur, dost Litva xalqına daim əmin-amanlıq və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *13 fevral 2019-cu il*

## BEYLƏQAN RAYONUNA SƏFƏR

*13 fevral 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 13-də Beyləqan rayonuna səfərə gəlmişdir.*

*Dövlət başçısı xalqımızın ümummilli lideri Heydər Əliyevin Beyləqan şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək, önünə gül dəstəsi qoydu.*

*Beyləqan Rayon İcra Hakimiyyətinin başçısı Asif Ağayev rayonda görülən işlər haqqında dövlət başçısını məlumatlandırdı.*

*Prezident İlham Əliyev müvafiq tapşırıqlarını verdi.*

### Mingəçevir–Aran–Bəhrəmtəpə– Beyləqan avtomobil yolunun açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 13-də Mingəçevir–Aran–Bəhrəmtəpə–Beyləqan avtomobil yolunun açılışında iştirak etmişdir.*

*Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi İdarə Heyətinin sədri Saleh Məmmədov dövlət başçısına yolun göstəriciləri barədə məlumat verdi.*

*Regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarına uyğun olaraq, son illərdə yol infrastrukturunun müasirləşdirilməsi istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilir. Avtomobil yollarının tikintisi və yenidən qurulması işlərinin həcmi ildən-ilə artır. Hazırda respublikanın yol infrastrukturunun yenidən qurulması və təkmilləşdirilməsi ilə bağlı beynəlxalq maliyyə qurumlarının əsaslı vəsait qoyuluşları ilə yanaşı, dövlət büdcəsi vəsaiti hesabına da irimiqyaslı layihələr uğurla icra olunur. Prezident İlham Əliyevin sərəncam və göstərişlərinə əsasən, indi əsas diqqət regionlarda kənd və qəsəbələri birləşdirən, həmçinin yaşayış məntəqələrinin daxili yollarının təmirinə və yenidən qurulmasına yönəldilib. Bu tədbirlər ilk növbədə, Azərbaycan iqtisadiyyatının gücünü göstərməklə yanaşı, vətəndaşların rifahının yaxşılaşdırılmasına yönələn layihələrin davamlı olduğunu nümayiş etdirir. Belə layihələrdən biri də Mingəçevir–Aran–Bəhrəmtəpə–Beyləqan avtomobil yolunun tikintisidir.*

*Məlumat verildi ki, bu yol 26 min nəfər əhalinin yaşadığı 7 yaşayış məntəqəsini birləşdirir. Mingəçevir–Stansiya Mingəçevir–Bəhrəmtəpə–Beyləqan avtomobil yolunun tikintisinə dövlət büdcəsinin inves-*

*tisiya xərclərindən 14,6 milyon manat ayrılıb. Uzunluğu 20,5 kilometr olan yolun hərəkət hissəsinin eni 6–14 metrdir. 2 və 4 hərəkət zolaqlı yol yüksək keyfiyyətlə tikilib. Yol boyunca 3 avtobus dayanacağı, suötürücü borular, 78 yol nişanı və göstərici lövhələr quraşdırılıb. Uzunluğu 73 min metr olan yol-cizgi xətləri çəkilib, 4 körpü əsaslı təmir edilibdir.*

*Prezident İlham Əliyevə Beyləqan rayonunun Kəbirli–Eyvazlılar–Birinci Aşıqlı–Əlinəzərli avtomobil yolunun yenidən qurulması layihəsi barədə də məlumat verildi. Bildirildi ki, 4-cü texniki dərəcəli yolun ümumi uzunluğu 39,4 kilometrdir. 2 hərəkət zolaqlı yolun hərəkət hissəsinin eni 6 metrdir. 22 min nəfər əhalinin yaşadığı 8 yaşayış məntəqəsini birləşdirən yolun təmiri yük və sərnişindaşımanın daha da yaxşılaşdırılmasına imkan verəcəkdir.*

*Dövlət başçısı Mingəçevir–Aran–Bəhrəmtəpə–Beyləqan avtomobil yolunun rəmzi açılışını bildirən lenti kəsdi. Ölkəmizdə yol infrastrukturunun yenilənməsi və müasirləşdirilməsi istiqamətində aparılan işlərin ardıcıl və keyfiyyətlə davam etdirilməsi Azərbaycanın iqtisadi inkişafının göstəricilərindən biridir. Bu işlər davamlı tərəqqinin əsas amillərindəndir. Son illər Prezident İlham Əliyevin birbaşa tapşırıq və sərəncamlarına əsasən, yolların müasir səviyyədə yenilənməsi işinə xüsusi diqqət göstərilir. Mühüm məqamlardan biri də odur ki, bu*

*layihələr qısa müddətdə və yüksək keyfiyyətlə icra olunur.*

*Dövlət başçısı yol inşaatçıları ilə görüşdü.*

## QEYDLƏR

**1. Avropa İttifaqı** (Aİ) – Avropa dövlətlərinin ən iri inteqrasiya birliyi. Avropa İttifaqına 28 dövlət daxildir.

Avropa İttifaqının yaradılması haqqında müqavilə 1993-cü ildə Maastrixtdə imzalanmışdır. Aİ azadlıq, demokratiya, insan hüquqları və azadlıqlarına hörmət, həmçinin hüququn aliliyi prinsiplərinə – üzv dövlətlər üçün ümumi olan prinsiplərə əsaslanır.

Aİ Avropada iqtisadi inteqrasiyanın daha da inkişaf formasıdır. İqtisadi və valyuta ittifaqı 1999-cu ildən fəaliyyətə başlamış və vahid valyuta – avro dövriyyəyə buraxılmışdır. Aİ üzvləri yalnız Avropa dövlətləri ola bilər. Avropa İttifaqı ilə əməkdaşlıq Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətlərindəndir. Təşkilatın mənzil-qərargahı Brüsseldə yerləşir. – 8, 247, 313

**2. Dağlıq Qarabağ Muxtar Vilayəti** – Azərbaycan Respublikası ərazisində muxtar vilayət. 1923-cü il iyulun 7-də təşkil edilmişdir. Dağlıq Qarabağda 1988-ci ilə qədər 170 min əhali yaşayırdı. Sahəsi 4,4 min $km^2$-dir. Mərkəzi Xankəndidir.

1988-ci ildən muxtar vilayətin erməni separatçıları və millətçiləri Ermənistan silahlı qüvvələri ilə birlikdə bu ərazidə yaşayan azərbaycanlıları doğma torpaqlarından çıxararaq, Dağlıq Qarabağın işğalına başladılar. Dağlıq Qarabağın və ətraf rayonların işğaldan azad edilməsi üçün BMT-nin 822, 853, 874, 884 saylı qətnamələri olmasına baxmayaraq, Ermənistan silahlı qüvvələri hələ də Azərbaycan torpaqlarını işğal altında saxlayırlar. – 8, 9, 13, 14, 23, 128, 157, 163, 210, 246, 247, 253, 270, 306, 311, 312.

**3. İslam Əməkdaşlıq Təşkilatı** (İƏT) – 1969–2011-ci illərdə İslam Konfransı Təşkilatı adlanırdı. Müsəlman ölkələrinin çoxunu birləşdirir. Nizamnaməsinə görə İslam Əməkdaşlıq Təşkilatının fəaliyyəti müsəlmanların həmrəyliyinin möhkəmlənməsinə, üzv dövlətlər arasında əməkdaşlığa yönəlmişdir. İqamətgahı Ciddədə yerləşir. Azərbaycan 1991-ci ildən İƏT-in üzvüdür. – 8, 158, 247, 312, 321.

**4. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası** (BMTTŞ) – BMT-nin daimi fəaliyyət göstərən mühüm orqanı. BMT-nin Nizamnaməsinə görə, beynəlxalq sülhün və təhlükəsizliyin qorunmasında əsas məsuliyyət daşıyır. 15 üzvü var: 5  daimi (Çin, Fransa, Rusiya, Böyük Britaniya, ABŞ), 10 üzvü isə 2 il müd-

dətinə seçilir. Şuranın hər bir üzvü 1 səsə malikdir. Prosedura məsələlərinə dair qərarlar Şuranın 9 üzvü səs verdikdə qəbul olunmuş sayılır. – 9, 88, 89, 152, 154, 158, 247, 312, 322.

**5. NATO** (Şimali Atlantika Müqaviləsi Təşkilatı) – hərbi-siyasi ittifaq. 1949-cu il aprelin 4-də Vaşinqtonda ABŞ, Böyük Britaniya, Fransa, Belçika, Niderland, Lüksemburq, Kanada, İtaliya, Portuqaliya, Norveç, Danimarka, İslandiyanın imzaladıqları Şimali Atlantika müqaviləsi əsasında yaradılmışdır. 1952-ci ildə Yunanıstan və Türkiyə, 1955-ci ildə Almaniya Federativ Respublikası, 1982-ci ildə İspaniya NATO-ya qoşulmuşlar. Varşava Müqaviləsi Təşkilatı dağıldıqdan (1991) sonra əvvəllər sosialist ölkələri düşərgəsinə daxil olmuş ölkələrin bir qismi NATO-ya üzvlüyə qəbul edilmiş, digər qismi isə ilkin mərhələ kimi, NATO-nun «Sülh naminə tərəfdaşlıq» Proqramına qoşulmuşlar. Ali orqanı NATO Şurasının sessiyasıdır. Mənzil-qərargahı Brüsseldə yerləşir. – 9.

**6. Naxçıvan əməliyyatı** – 2018-ci ilin may ayında Azərbaycan və Ermənistan arasında hərbi münaqişə. Azərbaycan Respublikasının Əlahiddə Ümumqoşun Ordusunun əks-hücumu nəticəsində Naxçıvan MR Şərur rayonunun Günnüt kəndi, «Ağbulaq» yüksəkliyi,

Qızılqaya və Qaraqaya dağları – ümumilikdə 11 min hektar ərazimiz erməni işğalından azad edilmişdir. – 12, 13, 157, 169, 248, 311, 314.

**7. Dünya Bankı** – BMT-nin hökumətlərarası ixtisaslaşdırılmış idarəsi. 1944-cü ildə ABŞ-da Bretton-Vuds konfransında təsis olunmuşdur. İdarə Heyəti Vaşinqtondadır. Məqsədi inkişaf etməkdə olan ölkələrin iqtisadi və sosial dirçəlişinə kömək etməkdir. Səhmdar cəmiyyəti formasındadır və iştirakçıları yalnız Beynəlxalq Valyuta Fondunun üzvləridir. Banka 188 dövlət daxildir. 1992-ci ildən Azərbaycan Respublikası Dünya Bankının üzvüdür. – 16, 24, 58, 84, 109–112, 116, 224, 248, 303.

**8. «Cənub Qaz Dəhlizi»** – Azərbaycanda hasil olunan enerjidaşıyıcılarını Gürcüstan və Türkiyə vasitəsilə Qərb bazarlarına nəql edir. – 18, 20, 97, 179, 214.

**9. TANAP –** Trans – Anadolu qaz boru kəməri. Kəmər 2018-ci ildə istifadəyə verilmişdir. Kəmərin uzunluğu 2000 km-dir. Borudan ildə təxminən 16 milyard $m^3$ qaz ötürüləcək. Qaz Türkiyə – Bolqarıstan və Türkiyə –Yunanıstan sərhədindən Avropa ölkələrinə nəql ediləcəkdir. – 18, 20, 179.

**10. Azərbaycan Xalq Cümhuriyyəti** – Müsəlman Şərqində ilk dəfə dünyəvi, demokratik respublikanın əsasını qoymuş müstəqil Azərbaycan dövləti. Cəmi 23 ay ( 1918-ci il mayın 28-də yaradılmış, 1920-ci il aprelin 28-də bolşeviklərin və daşnakların səyi ilə devrilmişdir) yaşamışdır. Paytaxtı əvvəlcə Gəncə (1918, 16 iyun – 17 sentyabr), sonra Bakı şəhəri (1918, 17 sentyabr–1920, 28 aprel) idi. Azərbaycan hökuməti yeni suveren milli dövlətin müxtəlif problemlərinin həlli yollarında böyük əzmlə çalışırdı. Nazirlər Şurasının 27 iyun 1918-ci il tarixli Fərmanı ilə respublikada dövlət dili türk (Azərbaycan) dili elan edildi. Azərbaycan Respublikasının parlamenti 1919-cu il avqustun 11-də «Azərbaycan vətəndaşlığı haqqında» Qanun qəbul etdi. Xalq maarifi sahəsində qısa müddətdə böyük tədbirlər həyata keçirildi. Qori müəllimlər seminariyasının Azərbaycan şöbəsi Qazaxa köçürüldü, Bakı Dövlət Universiteti təsis edildi, xarici ölkələrdə kadr hazırlığı məqsədi ilə 1919–20-ci tədris ilində 100 gənc Avropanın müxtəlif təhsil müəssisələrinə göndərildi. Məktəblərin xeyli hissəsi milliləşdirildi, kitabxanalar açıldı, savadsızlığın ləğvi üçün kəndlərdə kurslar yaradıldı. Azərbaycan Xalq Cümhuriyyətinin dövlət rəmzləri (üçrəngli bayraq, gerb, himn) milli Azərbaycan rəmzləri kimi tanındı. Azərbaycan

Dövlət Bankı yaradıldı, 1918-ci ilin martında dağıdılmış neft sənayesi və Bakı–Batum neft kəməri bərpa edildi. – 19, 239.

**11. Türkiyə,** T ü r k i y ə C ü m h u r i y y ə t i – Qərbi Asiyada və Avropanın cənub-şərqində dövlət. Sahəsi 783,5 min km$^2$, əhalisi 80,8 milyon nəfərdir. İnzibati cəhətdən 81 ilə (vilayətə) bölünür. Dövlət başçısı Prezident, ali qanunverici orqanı Türkiyə Böyük Millət Məclisidir. Paytaxtı Ankara şəhəridir. – 20, 96, 118, 188, 297.

**12. Samir Şərifov,** S a m i r R a u f o ğ l u (d.1961) – hüquqşünas. 2001–2006-cı illərdə Azərbaycan Respublikası Dövlət Neft Fondunun icraçı direktoru olmuşdur. 2006-cı ildən isə Azərbaycan Respublikasının Maliyyə naziridir. Eyni zamanda, Qara Dəniz Ticarət və İnkişaf Bankında Azərbaycan Respublikası üzrə təməlçi direktordur. – 19–26.

**13. Sahil Babayev,** S a h i l R a f i q o ğ l u (d.1980) – hüquq elmləri üzrə fəlsəfə doktoru, 1999–2006-cı illərdə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Xarici Sərmayələr İdarəsinin baş mütəxəssisi və şöbə rəisi vəzifələrində çalışıb. 2009-cu ildən İqtisadi İnkişaf Nazirliyinin Xarici İnvestisiyalar və Yardımların

Əlaqələndirilməsi şöbəsinin müdiri olmuş, Azərbaycan Respublikası Prezidentinin 13 mart 2014-cü il tarixli Sərəncamı ilə Azərbaycan Respublikasının İqtisadiyyat və Sənaye nazirinin müavini, 30 yanvar 2016-cı il tarixli Sərəncamı ilə Azərbaycan Respublikasının İqtisadiyyat nazirinin müavini vəzifəsinə təyin edilib. 2018-ci ildən isə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi naziridir. Yeni Azərbaycan Partiyasının üzvüdür. – 26–31.

**14. Heydər Əliyev,** H e y d ə r Ə l i r z a o ğ l u (1923–2003) – Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın ümummilli lideri, görkəmli dövlət xadimi, Azərbaycan Respublikasının Prezidenti (1993–2003), 2 dəfə Sosialist Əməyi Qəhrəmanı.

1964-cü ildə Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizlik Komitəsi sədrinin müavini, 1967-ci ildə isə sədri vəzifəsinə irəli çəkilmişdir.

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin iyul (1969) plenumunda Heydər Əliyev MK-nın Büro üzvü, Azərbaycan KP MK-nın Birinci katibi seçilmişdir.

H.Əliyevin respublikaya rəhbərlik etdiyi ilk illərdən əhatəli iqtisadi konsepsiya hazırlanmış, yeni istehsal sahələri yaradılmış, Azərbaycanın iqtisadi

potensialı güclənmişdir. H.Əliyevin respublikaya bilavasitə rəhbərlik etdiyi dövrdə (1969–82-ci illər) idarəetmə mexanizminin və metodlarının təkmilləşdirilməsi, əmək və ictimai-siyasi fəallığın artırılması, kənd təsərrüfatının inkişafında yüksək göstəricilər əldə edilməsi, azərbaycançılıq məfkurəsinin, milli ruhun, milli özünüdərkin yüksəlişi, müstəqil dövlətçilik ideyalarının güclənməsi və reallaşması üçün dəyərli işlər görülmüşdür.

H.Əliyev 1971-ci ildə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin üzvü, 1976-cı ilin martında Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, 1982-ci ilin noyabrında isə Siyasi Büro üzvü seçilmiş və eyni zamanda, SSRİ Nazirlər Soveti Sədrinin Birinci müavini təyin edilmişdir.

H.Əliyev Moskvada işlədiyi dövrdə də həmişə Azərbaycanı düşünmüş, onun taleyi ilə yaşamış, doğma respublikanın dünyada tanıdılması üçün əlindən gələni etmişdir.

H.Əliyev 1990-cı ilin 20 yanvarında sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciəni qətiyyətlə pisləmiş və Azərbaycanın Moskvadakı nümayəndəliyində kəskin bəyanatla çıxış etmişdir.

H.Əliyev 1990-cı ilin iyulunda Azərbaycana qayıtmış, əvvəlcə Bakıda, sonra isə Naxçıvanda yaşamışdır. O, 1991–93-cü illərdə Naxçıvan Muxtar Respublikası

Ali Məclisinin Sədri, Azərbaycan Respublikası Ali Sovetinin Sədr müavini olmuş, Ali Sovetin sessiyalarında fəal iştirak etmiş, Azərbaycanda mövcud ictimai-siyasi vəziyyəti həmişə obyektiv təhlil etmiş, mühüm prinsipial fikirlər söyləmiş, Dağlıq Qarabağ münaqişəsinin səbəblərini aşkara çıxarmış və təqsirkarların dəqiq ünvanını göstərmişdir. 1993-cü ilin may–iyununda dövlət böhranının, hakimiyyətsizliyin, başıpozuqluğun kulminasiya nöqtəsinə çatması ilə ölkədə vətəndaş müharibəsi və müstəqilliyin itirilməsi təhlükəsi yarandıqda Azərbaycan xalqı H.Əliyevin hakimiyyətə gətirilməsi tələbi ilə ayağa qalxdı və Azərbaycanın ozamankı dövlət rəhbərliyi onu rəsmən Bakıya dəvət etməyə məcbur oldu. H.Əliyev iyunun 15-də Azərbaycan Ali Sovetinin Sədri seçildi, iyulun 24-də Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı.

1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində H.Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi. H.Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial, iqtisadi, elmi-mədəni həyatında böyük dönüş oldu, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başlandı. Dövlətimizin xarici siyasəti, eləcə də dünyanın aparıcı dövlətləri və beynəlxalq təş-

kilatları ilə əlaqələri milli maraqlara əsaslanan xətlə inkişaf etməyə başladı. Dağlıq Qarabağ münaqişəsinin həllində ilk mərhələ kimi, cəbhə xəttində atəşkəs elan edilməsinə nail olundu. H.Əliyevin fəal diplomatiyası nəticəsində ATƏT-in Lissabon sammitində (1996) bu beynəlxalq təşkilatın 54 üzvündən 53-ü (Ermənistandan başqa) Dağlıq Qarabağ probleminin həllində Azərbaycanın mənafeyinə uyğun prinsipləri açıq şəkildə müdafiə etdi.

1994-cü ilin sentyabrında Bakıda dünyanın aparıcı neft şirkətləri ilə «Əsrin müqaviləsi» adı almış mühüm müqavilələr bağlandı.

1999-cu ilin aprelində GUÖAM birliyinin geniş bir məkanda yaranmasında H.Əliyevin önəmli xidməti olmuşdur.

H.Əliyevin «İnsan hüquq və azadlıqlarının təmin edilməsi haqqında» fərmanı Azərbaycanın dünyaya və Avropaya inteqrasiyası prosesinin sürətləndirilməsinə geniş imkanlar yaratdı. Məhz bunun nəticəsində Azərbaycan 1996-cı ilin iyunundan Avropa Şurasına «Xüsusi qonaq» statusu almış, 2001-ci il yanvarın 25-də isə onun tamhüquqlu üzvü olmuşdur.

H.Əliyev 1998-ci il oktyabrın 11-də xalqın yüksək siyasi fəallığı şəraitində keçirilən seçkilərdə yekdilliklə yenidən Prezident seçildi.

H.Əliyev bir sıra beynəlxalq mükafatlara, o cümlədən Beynəlxalq Atatürk Sülh Mükafatına, müxtəlif ölkə universitetlərinin Fəxri doktoru adına və digər yüksək nüfuzlu fəxri adlara layiq görülmüşdür. – 26, 29, 31, 75, 76, 157, 164, 165, 220, 230, 238, 239, 250, 251, 263, 264, 265, 266, 273, 276, 301, 302, 312, 326.

**15. Mehriban Əliyeva,** M e h r i b a n A r i f q ı z ı (d.1964) – ictimai və siyasi xadim, fəlsəfə doktoru, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Prezident İlham Əliyevin həyat yoldaşı. 1988-ci ildə M.Seçenov adına 1-ci Moskva Dövlət Tibb İnstitutunu bitirmişdir. 1988–92-ci illərdə akademik M.Krasnovun rəhbərliyi altında Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda işləmişdir. 1995-ci ildə «Azərbaycan Mədəniyyətinin Dostları» xeyriyyə fondunu yaratmışdır. Fəaliyyətə başladığı ilk gündən fond milli mədəniyyətimizin inkişafı, təbliği, tanınması üçün xeyli işlər görmüşdür. 1996-cı ildə fond Azərbaycan mədəniyyətini xarici ölkələrdə geniş təbliğ etmək üçün 3 dildə – Azərbaycan, rus və ingilis dillərində çıxan «Azərbaycan–İrs» jurnalını təsis etmişdir. 2004-cü ildən Azərbaycan xalqının ümummilli liderinin zəngin irsinin öyrənilməsi və həmçinin Heydər Əliyevin milli dövlətçilik ideyalarını yeni nəsillərə

aşılamaq məqsədilə yaranmış Heydər Əliyev Fonduna başçılıq edir.

Mehriban Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondu respublikanın bir çox şəhər, rayon və kəndlərində yeni məktəb binaları tikdirmiş və təmir etdirmişdir. Onun keçirdiyi xeyriyyə aksiyaları şəkər, talassemiya və anemiya xəstəliklərindən əziyyət çəkən Azərbaycan uşaqlarına yardım məqsədilə təşkil olunur.

Azərbaycanın şifahi xalq yaradıcılığı və musiqi irsinin qorunub saxlanılması və inkişaf etdirilməsi sahəsindəki yorulmaz işlərinə görə UNESKO və İSESKO-nun Xoşməramlı səfiri seçilmişdir.

Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, 2005–2017-ci illərdə Milli Məclisin üzvü olmuşdur. Mehriban Əliyeva ölkəmizdə təhsil sisteminin inkişafına, milli mədəni irsimizin qorunub saxlanılmasına və dünyada təbliğinə, xarici ölkələrdə xalqımızın müsbət imicinin möhkəmlənməsinə, genişmiqyaslı xeyriyyəçilik işlərinə xüsusi diqqət yetirir. 2015-ci ildə Bakıda keçirilən ilk Avropa oyunlarının Təşkilat Komitəsinin sədri olmuş, oyunların yüksək səviyyədə keçirilməsində müstəsna xidmətlərinə görə «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 26, 29, 60, 66, 67, 68, 74, 77, 156, 162, 164, 165, 186, 198, 204, 236, 251, 256, 259, 260, 261, 262, 270, 271.

**16. Heydər Əliyev Fondu** – qeyri-hökumət, qeyri-kommersiya təşkilatı. Rəsmi açılışı 10 may 2004-cü ildə olmuşdur. Heydər Əliyev Fondunun prezidenti UNESKO və İSESKO-nun Xoşməramlı səfiri, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevadır.

Fondun yaradılmasında məqsəd ümummilli lider Heydər Əliyevin xatirəsinə ehtiramı ifadə etmək, Heydər Əliyev siyasi məfkurəsinin həmişəyaşar səciyyəsini əks etdirmək, Heydər Əliyevin yaratdığı milli dövlətçilik ideyalarını yeni nəsillərə daima aşılamaq olmuşdur.

Fondun prezidenti onun səlahiyyətli qanuni nümayəndəsidir. Fondun işinə bilavasitə rəhbərlik icraçı direktora aiddir. Fondun nəzdində Ekspert Şurası və digər qurumlar fəaliyyət göstərir. – 31, 62, 260.

**17. Səfər Mehdiyev,** Səfər Məmməd oğlu (d.1973) – Gömrük xidməti general-leytenantı. 2004–2006-cı illərdə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi sədrinin müavini, 2006-cı ildən isə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini vəzifəsində çalışmışdır. 2018-ci ildən Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədridir. – 31–37.

**18. Dövlət Neft Fondu –** 1999-cu ildə yaradılmışdır. Əsas fəaliyyəti neft və qaz ehtiyatlarına dair sazişlərin həyata keçirilməsi ilə bağlı Azərbaycan Respublikasının əldə etdiyi gəlirlərin toplanmasını, səmərəli idarə edilməsini, gələcək nəsillər üçün saxlanılmasını təmin edən xüsusi məqsədli dövlət qurumudur. – 32.

**19. Dünya İqtisadi Forumu,** D a v o s İ q t i s a d i F o r u m u – İsveçrənin kurort şəhəri Davosda keçirilən Forum. 1995-ci il yanvarın 26–30-da Azərbaycan Prezidenti Heydər Əliyev başda olmaqla, Azərbaycan nümayəndə heyəti ilk dəfə bu Forumda iştirak etmişdir. – 40, 42, 152, 208, 209.

**20. Rusiya,** R u s i y a F e d e r a s i y a s ı – Avropanın şərqində, Asiyanın şimalında dövlət. Sahəsi 17,125 milyon $km^2$, əhalisi 146,5 milyon nəfərdir. Rusiya Federasiyasına 22 respublika, 9 diyar, 46 vilayət, federal əhəmiyyətli Moskva və Sankt-Peterburq şəhərləri, 4 muxtar vilayət və mahal daxildir.

Dövlət başçısı Prezident, qanunverici orqanı ikipalatalı Dövlət Duması və Federasiya Şurasıdır. Paytaxtı Moskva şəhəridir. – 43, 48, 140, 152–155, 183, 189, 194, 231–232, 279–284, 292–294.

**21. Gürcüstan** – Cənubi Qafqazın mərkəzi və qərb hissəsində dövlət. Sahəsi 69,7 min km$^2$, əhalisi 3,7 milyon nəfərdir. Dövlət başçısı Prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Tbilisi şəhəridir. – 44, 95, 96, 113, 194, 205.

**22. Ukrayna** – Cənub-Şərqi Avropada dövlət. Sahəsi 603,5 min km$^2$, əhalisi 42,4 milyon nəfərdir. Dövlət başçısı Prezident, qanunverici orqanı Radadır. Paytaxtı Kiyev şəhəridir. – 48, 233–235.

**23. Çin Xalq Respublikası** (ÇXR) – Mərkəzi və Şərqi Asiyada dövlət. Sahəsi 9,6 milyon km$^2$, əhalisi 1,4 milyard nəfərdir. İnzibati cəhətdən 22 əyalətə (Tayvansız), 5 muxtar rayona və mərkəz tabeliyində olan 3 şəhərə (Pekin, Şanxay, Tyantszin) bölünür. Ali dövlət hakimiyyəti orqanı Ümumçin Xalq Nümayəndələri Məclisidir. Dövlət başçısı Çin Xalq Respublikasının Sədridir. Paytaxtı Pekin şəhəridir. – 48, 83–101.

**24. Əfqanıstan,** Əfqanıstan İslam Respublikası – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 652,8 min km$^2$, əhalisi 31,6 milyon nəfərdir. İnzibati ərazisi 34 vilayətə bölünür. Dövlət başçısı Prezidentdir. Paytaxtı Kabil şəhəridir. – 54.

**25. Bakı–Tbilisi–Qars** – Azərbaycan, Gürcüstan və Türkiyəni dəmir yolu ilə birləşdirən nəqliyyat dəhlizi. 30 oktyabr 2017-ci ildə istifadəyə verilmişdir. Yolun uzunluğu 826 km-dir. – 54, 85, 95, 96, 115, 179, 180.

**26. Türkmənistan** – Orta Asiyanın cənub-qərbində dövlət. Sahəsi 491,2 min $km^2$, əhalisi 5,8 milyon nəfərdir. İnzibati ərazisi 5 vilayətə bölünür. Dövlət başçısı Prezident, qanunverici orqanı Məclisdir. Paytaxtı Aşqabad şəhəridir. – 54, 55.

**27. Nəsimi,** S e y i d Ə l i (1369–1417) – Azərbaycan şairi və mütəfəkkiri. İmadəddin Nəsimi adı ilə də məşhurdur. Əsərlərini Azərbaycan, ərəb, fars dillərində yazmışdır. – 56.

**28. UNESKO –** BMT-nin maarif, elm və mədəniyyət üzrə hökumətlərarası təşkilatı. 1945-ci ilin noyabrında yaradılmış, 1946-cı ildən fəaliyyətə başlamışdır. Ali orqanı 2 ildən bir çağırılan konfransdır. Katibliyi Parisdədir. Azərbaycan 1992-ci ildən UNESKO-nun üzvüdür. – 68, 186.

**29. Qobustan qayaüstü rəsmləri** – Azərbaycanın şərqində alçaq dağlıq sahə, uzunluğu 100 km, eni 80 km-ə yaxındır. Qobustan yaxınlığında, Qobustan qoruğu ərazisində zəngin qayaüstü rəsmlərlə yanaşı, Daş dövründən başlamış orta əsrlərədək çoxlu ibtidai insan düşərgəsi, qədim yaşayış məskəni, kurqanlar və s. arxeoloji abidələr vardır. Onların 5-ində Mezolit, 4--ündə Neolit, 7-ində Tunc, 1-ində Antik və 5-ində orta əsrlər dövründə yaşayış olduğunu göstərən mədəni təbəqə və maddi qalıqlar aşkar edilmişdir. – 68.

**30. Fransa,** F r a n s a  R e s p u b l i k a s ı – Qərbi Avropada dövlət. Sahəsi 643,8 min km$^2$, əhalisi 67 milyon nəfərdir. İnzibati cəhətdən 101 departamentə bölünür. Qanunverici orqanı iki palatadan ibarət parlamentdir. İcra hakimiyyəti Prezident və Nazirlər Şurasına məxsusdur. Paytaxtı Paris şəhəridir. – 69, 186, 199.

**31. Nikola Sarkozi** (d.1955) –Fransanın dövlət xadimi. 2007–2012-ci illərdə Fransa Respublikasının Prezidenti olmuşdur. – 69.

**32. İran,** İ r a n  İ s l a m  R e s p u b l i k a s ı – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 1,65 milyon km$^2$, əhalisi 81 milyon nəfərdir. İnzibati cəhətdən 24 ostana

bölünür. Ali qanunverici orqanı 4 il müddətinə seçilən Xalq Şurası Məclisidir. Hökuməti Baş Nazir təşkil, Prezident isə təsdiq edir. Paytaxtı Tehran şəhəridir. – 43, 70–71, 181, 182, 205, 222, 285.

**33. Məhəmməd Baqeri** (d.1960) – general. 2016-cı ildən İran İslam Respublikası Silahlı Qüvvələrinin Baş Qərargah rəisidir. – 70–71.

**34. Həsən Ruhani** (d.1948) –İranın siyasi və dövlət xadimi. 2013-cü ildən İran İslam Respublikasının Prezidentidir. – 70, 71, 285.

**35. Zimbabve,** Zimbabve Respublikası (1980-ci ilə qədər Cənubi Rodeziya) – Afrikanın cənubunda dövlət. Sahəsi 390,7 min km$^2$, əhalisi 16,2 milyon nəfərdir. Dövlət başçısı Prezidentdir. Paytaxtı Harare şəhəridir. – 72–73.

**36. Emmerson Mnanqaqva** (d.1942) – Zimbabvenin siyasi xadimi. 2017-ci ildən Zimbabve Respublikasının Prezidentidir. – 72–73.

**37. 1990-cı il 20 Yanvar hadisələri –** 1990-cı ilin yanvarında Azərbaycanda faciə baş verdi. Yanvarın 19-dan 20-nə keçən gecə fövqəladə vəziyyət elan

edilmədən sovet ordusunun xüsusi təyinatlı cəza dəstələri, dəniz donanmasının və daxili qoşunların bölmələri Bakı şəhərinə yeridildi. Sovet ordusunun bu kütləvi zorakılıq aktı nəticəsində 131 nəfər öldürülmüş, 744 nəfər yaralanmış, yüzlərlə adam qanunsuz həbs edilmiş və itkin düşmüş, dövlət əmlakına, ictimai və şəxsi əmlaka, şəhər təsərrüfatına və vətəndaşlara böyük maddi ziyan dəymişdi. 1990-cı ilin qanlı yanvarı Azərbaycanın ərazi bütövlüyü uğrunda aparılan mübarizə tariximizdə Vətənin şəhid övladlarının qanı ilə yazılmış şərəfli səhifə oldu. – 74–77, 238.

**38. Novruz Məmmədov** (d.1947) – Azərbaycanın siyasi və dövlət xadimi, filoloq. 1997–2017-ci illərdə Azərbaycan Respublikası Prezident Administrasiyasında Xarici Əlaqələr üzrə şöbə müdiri, 2017–2018-ci illərdə Azərbaycan Prezidentinin Xarici Siyasət məsələləri üzrə köməkçisi – şöbə müdiri, 2018–2019-cu illərdə Azərbaycan Respublikasının Baş Naziri olmuşdur. Azərbaycan Respublikasının «Şöhrət» və «Şərəf» ordenləri ilə təltif edilmişdir. – 77.

**39. Oqtay Əsədov,** O q t a y S a b i r o ğ l u (d.1955) – ictimai xadim, mühəndis. 1996–2004-cü illərdə Abşeron Regional Səhmdar Su Cəmiyyətinin,

2004–2005-ci illərdə «Azərsu» Səhmdar Cəmiyyətinin prezidenti olmuşdur. 2005-ci ildən Azərbaycan Respublikası Milli Məclisinin Sədridir. Azərbaycan Respublikasının «Şərəf» və Rusiya Federasiyasının «Dostluq» ordenləri ilə təltif edilmişdir. – 77.

**40. Ramiz Mehdiyev,** R a m i z Ə n v ə r o ğ l u (d.1938) – Azərbaycanın görkəmli siyasi və dövlət xadimi, fəlsəfə elmləri doktoru, professor. Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü. 1978–80-ci illərdə Rayon Partiya Komitəsinin birinci katibi, 1980–81-ci illərdə Azərbaycan KP MK-da elm və təhsil şöbəsinin müdiri, 1981–83-cü illərdə Azərbaycan KP MK-da partiya-təşkilat işi şöbəsinin müdiri, 1983–88-ci illərdə Azərbaycan KP MK-da katib, 1988–94-cü illərdə Azərbaycan EA-nın İctimai-Siyasi Tədqiqatlar və İnformasiya İnstitutunda şöbə müdiri, 1994-cü ildə Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının şöbə müdiri, 1995-ci ildən Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəridir. 1995–2000-ci illərdə Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur. Müasir siyasi problemlərə, dövlət quruculuğuna aid bir çox kitab və monoqrafiyaların müəllifidir. Beynəlxalq Nyu York Akademiyasının və Türk Dünyası Araşdırmalar Uluslararası Elmlər Akademiyasının üzvüdür. Azərbaycan Respublikasının

«Şöhrət», «Şərəf», «İstiqlal», Rusiya Federasiyasının isə «Dostluq» və «Şərəf» ordenləri ilə təltif edilmişdir. – 77.

**41. Meksika,** M e k s i k a B i r l ə ş m i ş Ş t a t l a- r ı – Şimali Amerikanın cənubunda dövlət. Sahəsi 1,97 milyon km$^2$, əhalisi 133,1 milyon nəfərdir. Meksika federasiyadır, inzibati ərazisi 31 ştata və federal mərkəzi əyalətə bölünür. Dövlət və hökumət başçısı Prezident, qanunverici orqanı ikipalatalı Milli Konqresdir. (Deputatlar Palatası və Senat). Paytaxtı Mexiko şəhəridir. – 78.

**42. Andres Obrador** (d.1953) – Meksikanın siyasi xadimi. 2018-ci ildən Meksika Birləşmiş Ştatlarının Prezidentidir. – 78.

**43. İsveçrə,** İ s v e ç r ə K o n f e d e r a s i y a s ı – Mərkəzi Avropada dövlət. Sahəsi 41,3 min km$^2$, əhalisi 8,6 milyon nəfərdir. İsveçrə federativ, 23 kantona bölünmüş respublikadır. Dövlət başçısı Prezidentdir, Prezidenti parlament Federal Şura üzvlərindən 1 il müddətinə seçir, yenidən seçilmək hüququ yoxdur. Prezident, həmçinin hökumət başçısıdır. Qanunverici hakimiyyət iki palatadan ibarət Federal Məclisə məxsusdur. Paytaxtı Bern şəhəridir. – 79–140.

**44. Amerika Birləşmiş Ştatları** (ABŞ) – Şimali Amerikada dövlət. Şimaldan Kanada, cənubdan Meksika, şərqdən Atlantik okeanı və qərbdən Sakit okeanla əhatə olunur. Sahəsi 9,5 milyon km$^2$, əhalisi 327,6 milyon nəfərdir. İnzibati cəhətdən 50 ştat və Kolumbiya federal paytaxt dairəsinə bölünür. Ali qanunvericilik orqanı ikipalatalı (Nümayəndələr Palatası və Senat) ABŞ Konqresidir. Dövlət başçısı Prezidentdir. Paytaxtı Vaşinqton şəhəridir. – 92, 119, 199.

**45. Si Cinpin** (d.1953) – Çinin dövlət və siyasi xadimi, fəaliyyətdə olan Çin Kommunist Partiyasi Mərkəzi Komitəsinin Baş katibi, 2013-cü ildən Çin Xalq Respublikasının, ÇXR Mərkəzi Hərbi Şurasının Sədridir. – 94.

**46.** ***bp,*** «B r i t i s h  P e t r o l e u m» – dünyanın ən iri neft şirkətlərindən biri. 1909-cu ildən bir çox ölkələrdə neftin kəşfiyyatı, çıxarılması, emalı və satışı ilə məşğuldur. *bp* 1994-cü ildən Azərbaycanda fəaliyyət göstərir. Hazırda ABƏŞ-in əsas operatorudur. – 104.

**47. Robert Dadli** (d.1955) – mühəndis. 2009-cu ildən *bp*-nin icraçı direktoru, 2010-cu ildən isə baş di-

rektorudur. Azərbaycan Respublikasının «Dostluq» ordeni ilə təltif edilmişdir. – 104.

**48. «Azəri–Çıraq–Günəşli» –** Xəzərin Azərbaycan sektorunda ən iri neft yataqları bloku. Bakıdan təxminən 120 km şərqdə yerləşən bu yataqlar Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti (ABƏŞ) adından *bp* şirkəti tərəfindən işlənilir. – 104.

**49. Cisco** – əsasən böyük təşkilatlar və telekommunikasiya müəssisələri üçün rabitə şəbəkə avadanlığını hazırlayıb satan transmilli amerikan kompaniyası. Dünyada yüksək texnologiyalar sahəsində ixtisaslaşan ən iri kompaniyadır. Kompaniyanın xüsusiyyətlərindən biri biznes modelində mühəndislərin kompüter şəbəkəsində çoxəhatəli sertifikasiya sisteminə yiyələnmələridir. – 105–106.

**50. Avropa Yenidənqurma və İnkişaf Bankı –** Qərbi və Şərqi Avropa, MDB ölkələrini uzunmüddətli kreditlə təchiz edən regional dövlətlərarası bank. 1990-cı ildə yaradılmışdır. Londonda yerləşir. Bankın 61 üzvü var, eləcə də

Avropa İnvestisiya Bankı və Avropa İttifaqı ora daxildir. – 110.

**51. Mamuka Baxtadze** (d.1982) – Gürcüstanın siyasi və dövlət xadimi. 2018-ci ildən Gürcüstanın Baş Naziridir. – 113.

**52. Klaus Şvab** (d.1938) – alman iqtisadçısı, Davosda keçirilən Dünya İqtisadi Forumun yaradıcısı və icraçı sədri. – 114.

**53. LUKoyl** – neft şirkəti. 1993-cü ildə Rusiya Federasiyası Hökumətinin qərarı ilə yaradılmışdır. Nəhəng sənaye-maliyyə kompleksinə malik olan şirkət Rusiya, MDB və dünyanın bir çox ölkələrində neft məhsullarının kəşfiyyatı, hasilatı, emalı və satışı ilə məşğul olur. Şirkət 1993-cü ildən Azərbaycanda fəaliyyət göstərir. – 122.

**54. Vahid Ələkbərov**, V a h i d Y u s i f o ğ l u (d.1950) – 1993-cü ildən Rusiyanın ən böyük neft şirkətlərindən olan LUKoyl şirkətinin prezidentidir. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 122.

**55. Total S.A.** – Fransanın neft şirkəti. 1954-cü ildə təşkil olunmuşdur. Bir çox ölkələrdə neftin kəşfiyyatı, emalı və satışı ilə məşğul olur. – 123.

**56. «Mikrosoft»** – müxtəlif hesablama texnikası – şəxsi kompüterlər, oyun konsolları, KPK, mobil telefonlar, dünyada daha çox yayılmış platforma proqramları, «Vindovs» əməliyyat sistemləri istehsal edən ən böyük transmilli kompaniya. 1975-ci ildə yaradılmışdır. Texnikası 80-dən çox ölkəyə ixrac, proqramları isə 45 dilə tərcümə edilmişdir. Mənzil-qərargahı Redmondda yerləşir. – 124–125.

**57. «VTB Bank»** – Rusiyanın universal kommersiya bankı. Ölkədə aktivlərin çoxluğuna görə 20-ci, Nizamnamə kapitala görə birincidir. Əsas qərargahı Moskvada yerləşir. – 135.

**58.** «**Suez Group**» – Fransada ən böyük enerji və qaz şirkəti. 2008-ci ildə «Gaz de France» və «Suez» şirkətlərinin birləşməsi nəticəsində yaranmışdır və əsasən Fransa hökumətinə (35,7% səhmlərinə) məxsusdur. Şirkət elektrik enerjisinin ötürülməsi, neftin çıxarılması, təbii qazın nəqli ilə alternativ enerji mənbələrinin fəaliyyətini həyata keçirir. Hal-hazırda şirkət Engie S.A. adlanır. – 136.

**59. Ueli Maurer (**d.1950) – İsveçrənin dövlət və siyasi xadimi. 2019-cu ilin yanvarından İsveçrənin Prezidentidir. – 138–140.

**60. Avstraliya,** A v s t r a l i y a İ t t i f a q ı – Avstraliya qitəsində dövlət. Sahəsi 7,7 milyon km$^2$, əhalisi 25,2 milyon nəfərdir. Avstraliya İttifaqı inzibati cəhətdən 6 ştata və 2 əraziyə bölünür. Dövlət başçısı Böyük Britaniya Kraliçasıdır. Ölkədə kraliçanı General-qubernator təmsil edir. Qanunverici orqanı ikipalatalı (Senat və Nümayəndələr Palatası) parlamentdir. Paytaxtı Kanberra şəhəridir. – 141.

**61. Piter Kosqrov** (d.1947) – general. 2014–2019-cu illərdə Avstraliya İttifaqının general-qubernatoru olmuşdur. – 141.

**62. Hindistan,** H i n d i s t a n R e s p u b l i k a -s ı – Cənubi Asiyada dövlət. Sahəsi 3,3 milyon km$^2$, əhalisi 1 milyard 330 milyon nəfərdir. Hindistan inzibati cəhətdən 22 ştata və 7 müttəfiq əraziyə bölünür. Dövlət başçısı Prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Nyu-Dehli şəhəridir. – 142.

**63. Ram Natx Kovind** (d.1945) – Hindistanın dövlət və siyasi xadimi. 2017-ci ildən Hindistan Respublikasının Prezidentidir. – 142.

**64. İnam Kərimov,** İ n a m İ m d a d o ğ l u (d.1977) – 2012–2018-ci illərdə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri olmuşdur. 2018-ci ilin aprelindən Azərbaycan Respublikasının Kənd Təsərrüfatı naziridir. – 143.

**65.** «**OPEC+**» (Neft ixrac edən ölkələrin təşkilatı) – 1960-cı ildə yaradılmışdır. Tərkibinə İran, Venesuela, Küveyt, Səudiyyə Ərəbistanı, Qətər, İndoneziya, Əlcəzair, Nigeriya, Ekvador, Qabon daxildir. Mənzil-qərargahı Vyanada yerləşir. – 152.

**66. ATƏT –** Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı. Əsası 1973-cü ilin iyulunda Helsinkidə qoyulmuşdur. Burada Avropanın 33 dövlətinin, ABŞ və Kanadanın dövlət və hökumət rəhbərləri iştirak edir. ATƏT «soyuq müharibə»nin qurtarmasından sonra Ümumavropa təhlükəsizlik sistemini formalaşdıran, yeni Avropanın si-

yasi və iqtisadi həyatının sivil birgəyaşayış qaydalarını müəyyən edən, dövlətlərarası münasibətləri rəqiblik və münaqişə yolundan əməkdaşlıq və qarşılıqlı mənafe istiqamətlərinə yönəldən bir təşkilat funksiyasını icra edir.

Azərbaycan 1992-ci ildən ATƏT-in üzvüdür və 1993-cü ilin ikinci yarısından ATƏT-in zirvə görüşlərində Azərbaycan nümayəndə heyəti fəal iştirak edir. – 158, 248, 312.

**67. Aprel döyüşləri –** 2016-cı il aprelin 1-dən 2-nə keçən gecə Azərbaycan və Ermənistan silahlı qüvvələri arasında işğal olunmuş bəzi ərazilərimizin azad olunması əməliyyatı. Döyüşlər Azərbaycan Silahlı Qüvvələrinin qələbəsi ilə nəticələnmiş – Tərtər rayonunun Talış kəndi ətrafındakı yüksəkliklər və Seysulan kəndi, Cəbrayıl rayonunun Lələtəpə yüksəkliyi və Cocuq Mərcanlı, Goranboy rayonunun Gülüstan kəndi və Tərtər rayonunun Madagiz kəndi tərəfindəki yollar tamamilə erməni tapdağından azad edilmişdir. – 157, 169, 248, 311, 314.

**68. Cocuq Mərcanlı –** Azərbaycan Respublikasının Cəbrayıl rayonu Çaxırlı inzibati ərazi vahidində kənd. 1993-cü ildə Ermənistan silahlı

qüvvələri tərəfindən işğal edilmişdir. 1994-cü ilin əvvəlində kənd Azərbaycan Ordusu tərəfindən erməni işğalından azad edilmişdir. Cocuq Mərcanlı cəbhə xəttinə çox yaxın olduğuna görə əhali kəndə qayıda bilməmişdir. 2016-cı ildə Cocuq Mərcanlı kəndinə yaxın yerləşən Lələtəpə yüksəkliyi Azərbaycan Ordusu tərəfindən işğaldan azad edilmişdir. Kənd tamamilə bərpa olunmuş, azərbaycanlılar öz doğma kəndlərinə qayıtmışlar. – 162, 169.

**69. Xocalı soyqırımı** – 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri və Xankəndidə yerləşən Rusiyanın 366-cı alayının əsgər və zabitləri Xocalıya hər tərəfdən hücum etmiş, şəhəri tamamilə yandırmışlar, 613 nəfərdən artıq azərbaycanlı öldürülmüş, yüzlərlə şəhər sakini yaralanmış və itkin düşmüşdür. – 164, 165.

**70. Şəki Xan sarayı**– XVII əsrin 60-cı illərinə aid Azərbaycan memarlıq abidəsi. XVII əsrdə Azərbaycanda tikilmiş saray tipli binaların ən qiymətlisi hesab olunur. Müxtəlif dövrlərdə yaşamış rəssamların işlədiyi təsvirlər nəbati ornament kompozisiyalarından, insan və quş rəsmlərindən, müharibə və ov səhnələrindən ibarətdir. – 186.

**71. Milad bayramı** – İsa peyğəmbərin anadan olması şərəfinə keçirilən xristian dini bayramı. Dekabrın 25-də qeyd edilir. Milad bayramının ilkin mənbəyi hər il qış günəş duruşu zamanı (21–25 dekabr) xilaskar Allahın «doğulması» ilə əlaqədar keçirilən qədim bütpərəst bayram mərasimi olmuşdur. Milad bayramını ilk dəfə Roma xristian icmaları keçirmişlər. 431-ci ildə Efes kilsə yığıncağında qanuniləşdirilmişdir. – 186.

**72. Naftalan** – Azərbaycan Respublikasında şəhər. Salındığı tarix məlum deyildir. Naftalan sözünün etimologiyası bu ərazidə çıxan neftlə əlaqədardır. Ehtimala görə hələ qədimdən təbii şəkildə çıxan neftin müalicəvi əhəmiyyətini bilən adamlar onu tuluqlara doldurub müxtəlif yerlərə aparmış və satmışlar. Naftalan neftindən müalicə məqsədilə istifadə olunmasına dair ilk yazılı məlumat XII əsrə aiddir. Dünyada yeganə müalicə nefti Naftalanda çıxarılır.

Balneoloji kurort kimi, 1935-ci ildən fəaliyyət göstərir. Kurortda sümük-əzələ, periferi damar, dəri, ginekoloji xəstəliklər müalicə olunur. – 224.

**73. Naxçıvan** – Azərbaycan Respublikasında şəhər, Naxçıvan Muxtar Respublikasının paytaxtı. Sahəsi 191,8 km$^2$, əhalisi 82,5 min nəfərdir. Azərbaycanın ən qədim şəhərlərindəndir. Müasir Naxçıvan Qədim, Antik və orta əsr şəhər yerinin xarabalıqları üzərində yerləşmişdir. E.ə. IX–VI əsrlərdə qədim Manna və Midiyanın, eramızın əvvəllərində Albaniyanın, IV əsrdən Sasanilərin tərkibində olmuşdur. 654-cü ildə isə Naxçıvanı ərəblər işğal etmişlər. Azərbaycan Atabəylər dövlətinin (1136–1225) paytaxtlarından biri olmuşdur. 1828-ci il Türkmənçay müqaviləsinə qədər Naxçıvan müxtəlif dövlətlərin nüfuz dairəsində olub, məhz bu ildən Rusiya imperiyasına birləşdirilib və qəza mərkəzinə çevrilibdir. 1924-cü il fevralın 9-da isə Naxçıvan MSSR təşkil ediləndən muxtar respublikanın paytaxtıdır. – 188–189, 239, 263–266.

**74. «Duzdağ» –** fizioterapiya sanatorisi. Babək rayonunun Böyükduz kəndi yaxınlığında qədim duz mədənləri bazası əsasında 1979-cu ildə təşkil olunmuşdur. Burada bronxial astma və ağciyər-bronx sisteminin digər qeyri-spesifik xəstəlikləri müalicə olunur. – 224.

**75. Toğrul Bağırov**, T o ğ r u l A d i l o ğ l u (1954–2019) – Moskvada yaşamış azərbaycanlı alim – siyasi elmlər doktoru, professor, Moskva Beynəlxalq Neft klubunun icraçı vitse-prezidenti, Bakı Nobel İrsi Fondunun sədri, BMT Qlobal Enerji Problemləri üzrə ekspert olmuşdur. – 226.

**76. Almaniya,** A l m a n i y a F e d e r a t i v R e s- p u b l i k a s ı – Mərkəzi Avropada dövlət. Sahəsi 357 min km$^2$, əhalisi 82,2 milyon nəfərdir. AFR tərkibində 16 ərazisi olan federasiyadır. Dövlət başçısı Prezident, hökumət başçısı Federal Kanslerdir. Ali qanunverici hakimiyyət orqanı parlamentdən – Bundestaq və Bundesratdan ibarətdir. Paytaxtı Berlin şəhəridir. – 227–229.

**77. Angela Merkel** (d.1954) – Almaniyanın siyasi və dövlət xadimi. Xristian-Demokrat İttifaqı Partiyasının lideri, 2005-ci ildən Almaniyanın Federal Kansleridir. – 227, 228, 229.

**78**. **Şri-Lanka,** Ş r i - L a n k a S o s i a l i s t D e- m o k r a t i k R e s p u b l i k a s ı – Cənubi Asiyada dövlət. Sahəsi 65,6 min km$^2$, əhalisi 22 milyon nəfərdir. İnzibati ərazisi 25 əyalətə bölünür. Dövlət və hökumət başçısı Prezident, qanunverici

orqanı parlamentdir. Paytaxtı Şri-Cayavardenepura-Kotte şəhəridir. – 230.

**79. Maytripala Sirisena** (d.1951) – Şri-Lankanın dövlət və siyasi xadimi. 2015-ci ildən Şri-Lanka Sosialist Demokratik Respublikasının Prezidentidir. – 230.

**80. Moskva Dövlət Beynəlxalq Əlaqələr İnstitutu –** Rusiya Federasiyası Xarici İşlər Nazirliyinin ali təhsil müəssisəsi. Əsası 1944-cü ildə qoyulmuşdur. Yüksək səviyyəli peşəkar diplomatlar, tədqiqatçılar, jurnalistlər, siyasi və ictimai xadimlər hazırlayır. – 237.

**81. Füzuli rayonu** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1386 $km^2$, əhalisi 125,4 min nəfərdir. 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 242, 313.

**82. Cəbrayıl** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1050 $km^2$, əhalisi 76,6 min nəfərdir. 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 242, 313.

**83. Ağdərə** – Azərbaycan ərazisində (Dağlıq Qarabağ Muxtar Vilayəti) inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. 1993-cü ildə Ağdərə rayonunun mərkəzi və bir çox kəndləri Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 242, 313.

**84. Yeni Azərbaycan Partiyası** (YAP) – Azərbaycanda ən kütləvi siyasi partiya. YAP 1992-ci il noyabrın 21-də Naxçıvan şəhərində təsis edilib. 81 rayon və 5000-ə yaxın ilk partiya təşkilatı vardır. Partiyada Gənclər Birliyi və Qadın Şurası fəaliyyət göstərir. Üzvlərinin sayına görə parlamentdə çoxluq təşkil edir. Azərbaycanın dövlət müstəqilliyinin daha da möhkəmləndirilməsində, ölkəmizdə demokratik, hüquqi və dünyəvi dövlət qurulmasında və iqtisadi-siyasi islahatların həyata keçirilməsində fəal iştirak edir. YAP-ın təsis konfransında (1992) mərhum Prezidentimiz Heydər Əliyev yekdilliklə partiyanın sədri seçilmişdir. 2005-ci ilin mart ayından isə YAP-ın sədri Prezident İlham Əliyevdir. – 257–260.

**85. Naxçıvan Müəllimlər İnstitutu** – 2003-cü ildən fəaliyyətə başlamışdır. İnstitutda 23 audito-

riya, 4 kompüter otağı, 16 elektron lövhəli auditoriya, kitabxana və oxu zalı, rəngkarlıq və heykəltəraşlıq emalatxanaları vardır. Burada tələbə və müəllim heyəti üçün hər cür şərait yaradılmışdır. – 263–266.

**86. Nobel mükafatı** – illik beynəlxalq mükafat təsis etmiş İsveç mühəndis-kimyaçı, ixtiraçı və sənayeçi Alfred Bernhard Nobelin adınadır. 1901-ci ildən verilir. Nobelin vəsiyyətinə əsasən ölümündən sonra qalan kapital Nobel fondunu təşkil etmişdir. Onlardan götürülən gəlir hər il bərabər hissəyə bölünür və Nobel mükafatı formasında fizika, kimya, fiziologiya və tibb, ədəbiyyat sahəsində ən yeni nailiyyətlər və həmçinin sülhü möhkəmləndirmək sahəsindəki fəaliyyətə görə verilir. Nobel mükafatı üzərində Alfred Nobelin təsviri və müvafiq yazı olan qızıl medal, diplom və müəyyən məbləğdə pul çekindən ibarətdir. Sülh mükafatından başqa, mükafatlar yalnız fərdi, ancaq bir dəfə və yalnız sağ olan şəxslərə verilir. – 268.

**87. Azərbaycan Diplomatik Akademiyası** (A D A  U n i v e r s i t e t i), – beynəlxalq münasibətlər və diplomatiya, biznes administrasiyası,

energetikanın idarə edilməsi və ətraf mühit və s. sahələr üzrə mütəxəssis hazırlayır. 2006-cı ildə təsis edilmişdir. ADA-nın fəaliyyəti bakalavr, magistr, xarici siyasət proqramı, doktorantlara dəstək proqramı – doktoranturada təhsil alan gənc alimlərə elmi işləri üçün qrantlar ayırır. Dərslər ingilis dilində aparılır. ADA-da dünyanın 16 aparıcı institutundan cəlb edilmiş professor-müəllim heyəti çalışır. – 269.

**88. Raquf Orucov,** R a q u f İ b r a h i m o ğ l u (1972–2016) – Azərbaycan Silahlı Qüvvələrinin polkovnik-leytenantı, Qarabağ müharibəsinin qazisi. 2016-cı il aprel döyüşləri zamanı qəhrəmancasına həlak olmuşdur. Ölümündən sonra «İgidliyə görə» medalı ilə təltif edilmişdir. – 269.

**89. Malayziya** – Cənub-Şərqi Asiyada dövlət. Sahəsi 329,7 min km$^2$, əhalisi 31 milyon nəfərdir. Malayziya federasiyadır. Tərkibinə 13 ştat və federal ərazi – Kuala-Lumpur və Lavyan daxildir. Malayziya konstitusiyalı monarxiyadır. Dövlət başçısı sultanlığın ştat başçıları tərəfindən 5 il müddətinə seçilən kraldır. Qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Kuala-Lumpur şəhəridir. – 274.

**90. Patriarx Kirill** (d.1946) – Rusiyanın din xadimi. 2009-cu ildən Moskva və bütün Rusiyanın patriarxıdır. – 279–284.

**91. Vladimir Putin** (d.1952) – 2000–2008-ci illərdə Rusiya Federasiyasının Prezidenti olmuşdur. 1975–97-ci illərdə bir sıra məsul vəzifələrdə çalışmışdır. 1998-ci ildə Rusiya Federasiyası Prezident Administrasiyasının rəhbəri, 1998–99-cu illərdə FTX-nın direktoru, 1999–2000 və 2008–2012-ci illərdə Rusiya hökumətinin başçısı, 2012 və 2018-ci ildə yenidən Rusiya Federasiyasının Prezidenti seçilmişdir. – 280.

**92. Şeyxülislam Hacı Allahşükür Paşazadə,** Al-lahşükür Hümmət oğlu (d.1949) – 1980-ci ildən Qafqaz Müsəlmanları Ruhani İdarəsinin, 1990-cı ildən Qafqaz Xalqları Ali Dini Şurasının sədridir. Azərbaycan Respublikasının «Şöhrət», «Şərəf», «İstiqlal» və «Heydər Əliyev» ordenləri ilə təltif edilmişdir. – 282.

**93. İran İslam İnqilabı** – İranın daxilində Milli Cəbhənin, xaricdən isə ruhanilərin Fransada mühacirətdə olan başçısı ayətullah Ruhullah Xomeyninin rəhbərlik etdiyi ümumxalq hərəkatı.

Bu hərəkat getdikcə güclləndi və 1979-cu ildə şah Məhəmməd Rza Pəhləvi ölkəni tərk etdi. Mühacirətdən vətənə qayıtmış imam Xomeyni İran İslam Respublikasını elan etdi. – 285.

**94. Kəmaləddin Heydərov,** K ə m a l ə d d i n F ə t- t a h o ğ l u (d.1961) – general-polkovnik, 1995–2006-cı illərdə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri, 2006-cı ildən Azərbaycan Respublikası Fövqəladə Hallar naziridir. Azərbaycan Respublikasının «Azərbaycan Bayrağı» və «Şöhrət» ordenləri ilə təltif edilmişdir. – 286.

**95. Niderland Krallığı** (qeyri-rəsmi adı Hollandiya) – Qərbi Avropada, Şimal dənizi sahilində dövlət. Sahəsi 41,5 min km$^2$, əhalisi 17 milyon nəfərdir. İnzibati ərazisi 12 əyalətə bölünür. Dövlət başçısı kral, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Amsterdam şəhəridir. – 296.

**96. Rene Van der Linden** (d.1943) – Niderland siyasətçisi. 2005–2008-ci illərdə AŞPA-nın, 2009–2010-cu illərdə Niderland Senatının Sədri olmuşdur. – 296.

**97. Ərdoğan Rəcəb Tayyib** (d.1954) – Türkiyənin siyasi və dövlət xadimi. 1980-ci ildən siyasi fəaliyyətə başlayıb. 1994-cü ilin martında İstanbul Böyük Şəhər Bələdiyyəsinin sədri olmuşdur, Ədalət və İnkişaf Partiyasının lideridir.

2002-ci ildə keçirilən növbədənkənar seçkilər nəticəsində Ədalət və İnkişaf Partiyası təkbaşına hakimiyyətə gəlmək imkanı əldə etdi və Rəcəb Tayyib Ərdoğan TBMM-də Türkiyənin Baş Naziri, 2014-cü ilin sentyabrında və 2018-ci ilin aprelində yenidən Türkiyə Cümhuriyyətinin Prezidenti seçilmişdir. Azərbaycan Respublikasının «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 297.

**98. Serbiya,** Serbiya Respublikası – Cənub-Şərqi Avropada, Balkan yarımadasının mərkəzi hissəsində dövlət. Sahəsi 88 min km$^2$, əhalisi 7 milyon nəfərdir. Dövlət başçısı Prezident, qanunverici orqanı Skupşinadır. Paytaxtı Belqrad şəhəridir. – 298.

**99. Aleksandr Vuçiç** (d.1970) – Serbiyanın dövlət və siyasi xadimi. 2017-ci ildən Serbiya Respublikasının Prezidentidir. – 298.

**100. Şuşa** – Azərbaycan Respublikasında şəhər. Sahəsi 289 $km^2$, əhalisi 32,8 min nəfərdir. Elmi ədəbiyyatda Şuşanın əsasının XVIII əsrin 50-ci illərinin əvvəllərində Qarabağ xanı Pənahəli xan Cavanşir tərəfindən qoyulması göstərilsə də, tədqiqatlar Şuşanın qədim yaşayış məntəqəsi olduğunu qeyd edirlər. Qarabağ xanlığının mərkəzi olan Şuşa bir müddət Pənahəli xanın adı ilə Pənahabad adlanmışdır.

Şuşa 1813-cü il Gülüstan müqaviləsinə əsasən Qarabağ xanlığı tərkibində Rusiyaya birləşdirildi. 1920-ci ilin martında erməni daşnaklarının Qarabağda törətdikləri qırğın nəticəsində Şuşanın bir hissəsi tamamilə yandırıldı və minlərlə günahsız insan qətlə yetirildi. Lakin iyun ayının əvvəlində müsavatçılar və türk generalı Nuru Paşa Şuşanı erməni qəsbkarlarından xilas etdi. 1923-cü il Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin dekretinə əsasən Dağlıq Qarabağ Muxtar Vilayəti təşkil olunduqda Şuşa muxtar vilayətin tərkibinə daxil edildi. 1992-ci ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 312.

**101. Laçın** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1835 $km^2$, əhalisi 73,1 min nəfərdir. 1992-ci ildə

Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 312.

**102. Kəlbəcər** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1936 $km^2$, əhalisi 75 min nəfərdir. 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 312.

## Şəxsi adlar göstəricisi

**Ağayev Asif** – 326
**Ağayev Mirşahin** – 299
**Axundov Emin** – 181–184,
**Alxasov Şair** – 201–204
**Babayev Sahil** – 26–31
**Babaşov Nemət** – 204–206
**Bağırov Toğrul** – 226
**Baxtadze Mamuka** – 113
**Baqeri Məhəmməd** – 70–71
**Barklay Tomas** – 227–229
**Bayramova Emiliya** – 271–273
**Brende Borge** – 79
**Bukele Nayib** – 295
**Cəbrayılzadə Sarvan** – 146–147
**Dadli Robert** – 104
**Elçibəy** – 311
**Elliott Gerri** – 105–106
**Ələkbərov Vahid** – 122
**Əliyev Heydər** – 26, 29, 31, 75, 76, 157, 164, 165, 220, 230, 238, 239, 250, 251, 263, 264, 265, 266, 273, 276, 301,

302, 312, 326
**Əliyeva İbadət** – 161–163

**Əliyeva Mehriban** – 26, 29, 60, 66, 67, 68, 74, 77, 156, 162, 164, 165, 186, 198, 204, 236, 251, 256, 259, 260, 261, 262, 270, 271
**Əliyeva Vərziyar** – 163–165
**Ərdoğan Rəcəb Tayyib** – 297
**Əsədov Oqtay** – 77
**Əsədova Ülkər** – 266–268
**Əsgərzadə Fəridə** – 255–257
**Faythinger Kristian** – 275–276
**Gebali Erik** – 136
**Georgiyeva Kristalina** – 109–112
**Heydərov Kəmaləddin** – 286
**Hüseynli Ayxan** – 263–266
**Hüseynov İsgəndər** – 191
**Hüseynov Rafil** – 195–198
**İsmayılov Tofiq** – 191
**Kardsanella Lurdis** – 119
**Keri Çeyz** – 277–278
**Kərimov İnam** – 143
**Kirill** *(patriarx)* – 279–284
**Kosqrov Piter** – 141

**Kostin Andrey** – 135
**Kovind Ram** – 142
**Qribauskayte Dalya** – 325
**Quluzadə Sevinc** – 165–166
**Lesser Riç** – 131–132
**MakDermot Bill** – 107–108
**Maklnerni Rayan** – 102–103
**Maurer Ueli** – 138–140
**Mehdiyev Ramiz** – 77
**Mehdiyev Səfər** – 31–37
**Merkel Angela** – 227, 228, 229
**Məcidova Məryəm** – 251–253
**Məmmədov Allahverdi** – 67, 68
**Məmmədov Novruz** – 77
**Məmmədov Şahin** – 190–192
**Məmmədov Tahir** – 286
**Mikayılov Süleyman** – 60
**Mikuriya Kunio** – 57–59
**Mnanqaqva Emmerson** – 72–73
**Musavi Kamil** – 253–254
**Mustafayev Tacəddin** – 193–195
**Nəsimi İmadəddin** – 56
**Nüsrətov Şirvan** – 163
**Obrador Andres** – 78
**Oreşkin Maksim** – 140, 292–294
**Oruclu Aqşin** – 268

**Orucov Raquf** – 269
**Orucov Rəcəb** – 198–201
**Orucov Seymur** – 257–260
**Paşazadə Hacı Allahşükür**– 282
**Paşinyan Nikol** – 128
**Putin Vladimir** – 280
**Puyanne Patrik** – 123
**Piqas Metyu** – 133–134
**Ramazanova Aydan** – 260–263
**Rəfailova Elmira** – 60, 66–67
**Rəhimzadə Xatirə** – 288
**Rondolat Erik** – 126–127
**Ruhani Həsən** – 70, 71, 285
**Saetre Eldar** – 137
**Sarkozi Nikola** – 69
**Si Cinpin** – 94
**Sirisena Maytripala** – 230
**Şah əl-Mustain Billah** – 274
**Şərifov Samir** – 19–26
**Şirinov Umud** – 233–235
**Şirinov Sabir** – 233–235
**Şvab Klaus** – 114
**Tassel Loik** – 129–130
**Temrezov Raşid** – 231
**Usubov Elxan** – 184–188
**Van der Bel Mişel** – 124–125

**Van der Linden Rene** – 296
**Vuçiç Aleksandr** – 298
**Yusifova Rübabə** – 147

## Coğrafi adlar göstəricisi

**Afrika** – 124
**Ağcabədi** – 190–192
**Ağdərə** – 242, 313
**Ağstafa** – 193–195
**Ağsu** – 288
**Almaniya** – 194, 227–229
**Amerika Birləşmiş Ştatları**– 92, 119, 199
**Aralıq dənizi** – 96, 97
**Asiya** – 85
**Astara** – 43
**Avropa** – 30, 85, 87, 92, 95, 96, 119, 124, 179, 181, 217, 265, 323
**Avstraliya** – 141
**Avrasiya** – 179
**Basqal** – 53
**Belarus** – 48
**Beyləqan** – 326–328
**Bərdə** – 217
**Birləşmiş Ərəb Əmirlikləri**– 48
**Ceyhan** – 97

**Cəbrayıl** – 242, 313
**Cocuq Mərcanlı** – 162, 169
**Çin** – 48, 83–101
**Dağlıq Qarabağ** – 8, 9, 13, 14, 23, 128, 157, 163, 210, 246, 247, 253, 270, 306, 311, 312
**Davos** – 79–140
**El-Salvador Respublikası** – 295
**Əfqanıstan** – 54
**Ələt** – 222, 296
**Fransa** – 69, 186, 199
**Füzuli** – 242, 313
**Gəncə** – 43, 44, 48
**Günnüt** – 265
**Gürcüstan** – 44, 95, 96, 113, 194, 205
**Hacıqabul** – 204–206
**Hindistan** – 142
**Xəzər dənizi** – 9, 85, 87, 95
**Xocalı** – 164, 165
**İran** – 43, 70–71, 181, 182, 205, 222, 285
**İmişli** – 198–201
**İsmayıllı** – 286
**İspaniya** – 188
**İsrail** – 188

**İstanbul** – 297
**İsveçrə** – 79–140
**İtaliya** – 188, 189
**Kəlbəcər** – 312
**Kəngərli** – 189
**Kolmar** – 186
**Qax** – 215, 291
**Qalaaltı** – 224
**Qara dəniz** – 96
**Qaraçay-Çərkəz Respublikası** – 231–232
**Qazaxıstan** – 55, 194
**Qəbələ** – 55
**Qırğızıstan** – 55
**Qobustan** – 60–68
**Qusar** – 54, 201–204
**Laçın** – 312
**Lahıc** – 53
**Latviya** – 48
**Lələtəpə** – 242, 265
**Litva** – 325
**Malayziya** – 274
**Masallı** – 195–198
**Meksika** – 78
**Mərkəzi Asiya** – 85, 95
**Mingəçevir** – 48

**Moskva** – 183, 239, 240, 279–284
**Naftalan** – 224
**Naxçıvan** – 188–189, 239, 263–266
**Naxçıvan Muxtar Respublikası** – 188–189, 263–266
**Neftçala** – 181–184
**Niderland** – 296
**Ordubad** – 189
**Orta Asiya** – 54, 222
**Polşa** – 48
**Rusiya** – 43, 48, 140, 152–155, 183, 189, 194, 231–232, 279–284, 292–294
**Saatlı** – 217
**Sabirabad** – 215, 217
**Serbiya** – 298
**Soçi** – 183
**Sumqayıt** – 48, 55
**Şahbuz** – 189
**Şamaxı** – 53, 55, 286–291
**Şəki** – 184–188
**Şimali Qafqaz** – 231
**Şri-Lanka** – 230
**Şuşa** – 312
**Tərtər** – 217
**Türkiyə** – 20, 96, 118, 188, 297

**Türkmənistan** – 54, 55
**Ukrayna** – 48, 233–235
**Yaxın Şərq** – 124, 323
**Yalama** – 222
**Zaqatala** – 291
**Zimbabve** – 72–73

# MÜNDƏRİCAT

NAZİRLƏR KABİNETİNİN 2018-ci İLİN SOSİAL-İQTİSADİ İNKİŞAFININ YEKUNLARINA VƏ QARŞIDA DURAN VƏZİFƏLƏRƏ HƏSR OLUNMUŞ İCLASINDA İŞTİRAK

*11 yanvar 2019-cu il......................................................................5*

YEKUN NİTQİ

*11 yanvar 2019-cu il....................................................................37*

ÜMUMDÜNYA GÖMRÜK TƏŞKİLATININ BAŞ KATİBİ KUNİO MİKURİYA İLƏ GÖRÜŞ

*14 yanvar 2019-cu il....................................................................57*

QARADAĞ RAYONUNUN QOBUSTAN QƏSƏBƏSİNDƏ YENİ İNŞA OLUNMUŞ XƏSTƏXANANIN AÇILIŞI MƏRASİMİ

*14 yanvar 2019-cu il....................................................................60*

FRANSA RESPUBLİKASININ SABİQ PREZİDENTİ NİKOLA SARKOZİ İLƏ GÖRÜŞ

*15 yanvar 2019-cu il....................................................................69*

İRAN İSLAM RESPUBLİKASI SİLAHLI QÜVVƏLƏRİNİN BAŞ QƏRARGAH RƏİSİ MƏHƏMMƏD BAQERİNİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*16 yanvar 2019-cu il..................................................................70*

ZİMBABVE RESPUBLİKASININ PREZİDENTİ EMMERSON MNANQAQVA İLƏ GÖRÜŞ

*19 yanvar 2019-cu il..................................................................72*

ÜMUMXALQ HÜZN GÜNÜNDƏ ŞƏHİDLƏR XİYABANINI ZİYARƏT

*20 yanvar 2019-cu il..................................................................74*

MEKSİKA BİRLƏŞMİŞ ŞTATLARININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ANDRES MANUEL LOPES OBRADORA

*21 yanvar 2019-cu il..................................................................78*

İSVEÇRƏ KONFEDERASİYASINA İŞGÜZAR SƏFƏR

*21 yanvar 2019-cu il..................................................................79*

«ROSSİYA-1» TELEVİZİYA KANALINA MÜSAHİBƏ

*21 yanvar 2019-cu il..................................................................82*

ÇİNİN CGTN TELEVİZİYASINA MÜSAHİBƏ

*21 yanvar 2019-cu il..................................................................83*

«VİSA» ŞİRKƏTİNİN PREZİDENTİ RAYAN
MAKLNERNİ İLƏ GÖRÜŞ

*22 yanvar 2019-cu il................................................................102*

*bp* QRUPUNUN BAŞ İCRAÇI DİREKTORU
ROBERT DADLİ İLƏ GÖRÜŞ

*22 yanvar 2019-cu il................................................................104*

CİSCO ŞİRKƏTİNİN İCRAÇI VİTSE-PREZİDENTİ
GERRİ ELLİOTT İLƏ GÖRÜŞ

*22 yanvar 2019-cu il................................................................105*

SAP SE ŞİRKƏTİNİN BAŞ İCRAÇI DİREKTORU
BİLL MAKDERMOT
İLƏ GÖRÜŞ

*22 yanvar 2019-cu il................................................................107*

DÜNYA BANKININ BAŞ İCRAÇI DİREKTORU
KRİSTALİNA GEORGİYEVA İLƏ GÖRÜŞ

*22 yanvar 2019-cu il................................................................109*

GÜRCÜSTANIN BAŞ NAZİRİ MAMUKA
BAXTADZE İLƏ GÖRÜŞ

*22 yanvar 2019-cu il................................................................113*

«BİR KƏMƏR – BİR YOL» TƏŞƏBBÜSÜNÜN İNKİŞAF ETDİRİLMƏSİ: ÇİNİN TRİLYON DOLLARLIQ BAXIŞI» ADLI SESSİYADA İŞTİRAK

*22 yanvar 2019-cu il..............................................................114*

RUSİYANIN LUKOYL ŞİRKƏTİNİN PREZİDENTİ VAHİD ƏLƏKBƏROV İLƏ GÖRÜŞ

*22 yanvar 2019-cu il..............................................................122*

TOTAL S.A. ŞİRKƏTİNİN BAŞ İCRAÇI DİREKTORU PATRİK PUYANNE İLƏ GÖRÜŞ

*22 yanvar 2019-cu il..............................................................123*

«MİKROSOFT» ŞİRKƏTİNİN VİTSE-PREZİDENTİ MİŞEL VAN DER BEL İLƏ GÖRÜŞ

*22 yanvar 2019-cu il..............................................................124*

«SİGNİFY» ŞİRKƏTİNİN BAŞ İCRAÇI DİREKTORU ERİK RONDOLAT İLƏ GÖRÜŞ

*22 yanvar 2019-cu il..............................................................126*

ERMƏNİSTAN RESPUBLİKASININ BAŞ NAZİRİ NİKOL PAŞİNYAN İLƏ QEYRİ-RƏSMİ GÖRÜŞ

*22 yanvar 2019-cu il..............................................................128*

«PROCTER AND GAMBLE EUROPE» ŞİRKƏTİ-
NİN PREZİDENTİ LOİK TASSEL
İLƏ GÖRÜŞ

*23 yanvar 2019-cu il..............................................................129*

«THE BOSTON KONSULTİNG GROUP» ŞİRKƏ-
TİNİN PREZİDENTİ RİÇ LESSER
İLƏ GÖRÜŞ

*23 yanvar 2019-cu il..............................................................131*

«LAZARD FRERES» ŞİRKƏTİNİN BAŞ İCRAÇI
DİREKTORU METYU PİQAS
İLƏ GÖRÜŞ

*23 yanvar 2019-cu il..............................................................133*

«VTB-BANK»IN PREZİDENTİ ANDREY KOSTİN
İLƏ GÖRÜŞ

*23 yanvar 2019-cu il..............................................................135*

«SUEZ GROUP» ŞİRKƏTİNİN BEYNƏLXALQ
İNKİŞAF ÜZRƏ
İCRAÇI VİTSE-PREZİDENTİ
ERİK GEBALİ İLƏ GÖRÜŞ

*23 yanvar 2019-cu il..............................................................136*

«EQUİNOR» ŞİRKƏTİNİN BAŞ İCRAÇI DİREK-
TORU ELDAR SAETRE
İLƏ GÖRÜŞ

*23 yanvar 2019-cu il..............................................................137*

İSVEÇRƏ KONFEDERASİYASININ PREZİDENTİ
UELİ MAURER İLƏ GÖRÜŞ

*23 yanvar 2019-cu il................................................................138*

AVSTRALİYA İTTİFAQININ GENERAL-
QUBERNATORU ZATİ-ALİLƏRİ CƏNAB
PİTER KOSQROVA

*23 yanvar 2019-cu il................................................................141*

HİNDİSTAN RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB RAM NAT KOVİNDƏ

*23 yanvar 2019-cu il................................................................142*

KƏND TƏSƏRRÜFATI NAZİRLİYİNİN ƏSASLI
ŞƏKİLDƏ YENİDƏN QURULMUŞ TƏRƏVƏZ-
ÇİLİK ELMİ-TƏDQİQAT İNSTİTUTUNUN
AÇILIŞI MƏRASİMİ

*24 yanvar 2019-cu il................................................................143*

«ROSSİYA-1» TELEVİZİYA KANALINA
MÜSAHİBƏ

*28 yanvar 2019-cu il................................................................152*

ŞƏHİD AİLƏLƏRİ İLƏ GÖRÜŞ

*28 yanvar 2019-cu il................................................................156*

REGİONLARIN 2014–2018-ci İLLƏRDƏ SOSİAL-İQTİSADİ İNKİŞAFI DÖVLƏT PROQRAMININ İCRASININ YEKUNLARINA HƏSR OLUNMUŞ KONFRANSDA İŞTİRAK

*29 yanvar 2019-cu il*.................................................................*172*

YEKUN NİTQİ

*29 yanvar 2019-cu il*.................................................................*206*

GÖRKƏMLİ ALİM TOĞRUL BAĞIROVUN VƏFATI İLƏ ƏLAQƏDAR BAŞSAĞLIĞI

*31 yanvar 2019-cu il*.................................................................*226*

ALMANİYA FEDERATİV RESPUBLİKASININ FEDERAL İQTİSADİYYAT VƏ ENERGETİKA NAZİRLİYİNİN DÖVLƏT KATİBİ TOMAS BARKLAY BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*31 yanvar 2019-cu il*.................................................................*227*

ŞRİ-LANKA DEMOKRATİK SOSİALİST RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MAYTRİPALA SİRİSENAYA

*1 fevral 2019-cu il* ..................................................................*230*

RUSİYA FEDERASİYASI QARAÇAY-ÇƏRKƏZ RESPUBLİKASININ BAŞÇISI RAŞİD TEMREZOVUN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*1 fevral 2019-cu il* ............................................................... *231*
UKRAYNADA YAŞAYAN SOYDAŞLARIMIZ
UMUD VƏ SABİR ŞİRİNOV QARDAŞLARINI
«İGİDLİYƏ GÖRƏ» MEDALI İLƏ TƏLTİFETMƏ
MƏRASİMİ

*1 fevral 2019-cu il* ............................................................... *233*

AZƏRBAYCAN GƏNCLƏRİ GÜNÜNƏ HƏSR
OLUNMUŞ RESPUBLİKA TOPLANTISINDA
İŞTİRAK

*1 fevral 2019-cu il* ............................................................... *236*

MALAYZİYANIN XVI ALİ BAŞÇISI
ƏLAHƏZRƏT ƏL-SULTAN ABDULLAH
RİAYATUDDİN ƏL-MUSTAFA BİLLAH ŞAH
İBNİ SULTAN HACI ƏHMƏD ŞAH
ƏL-MUSTAİN BİLLAHA

*4 fevral 2019-cu il* ............................................................... *274*

BEYNƏLXALQ ASTRONAVTİKA FEDERASİ-
YASININ İCRAÇI DİREKTORU KRİSTİAN
FAYTHİNGER İLƏ GÖRÜŞ

*4 fevral 2019-cu il* ............................................................... *275*

«FORMULA-1» QRUPUNUN BAŞ İCRAÇI
DİREKTORU ÇEYZ KERİ İLƏ GÖRÜŞ

*5 fevral 2019-cu il* ............................................................... *277*

MOSKVANIN VƏ BÜTÜN RUSİYANIN
PATRİARXI KİRİLL İLƏ GÖRÜŞ

*5 fevral 2019-cu il* ....................................................................*279*
İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB HƏSƏN RUHANİYƏ

*7 fevral 2019-cu il* ....................................................................*285*

ŞAMAXIDA BAŞ VERMİŞ ZƏLZƏLƏDƏN
ZƏRƏR ÇƏKƏN TİKİLİLƏRƏ BAXIŞ
VƏ SAKİNLƏRLƏ GÖRÜŞ

*7 fevral 2019-cu il* ....................................................................*286*

RUSİYA FEDERASİYASININ İQTİSADİ
İNKİŞAF NAZİRİ MAKSİM OREŞKİNİN
BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ
İLƏ GÖRÜŞ

*9 fevral 2019-cu il* ....................................................................*292*

EL-SALVADOR RESPUBLİKASININ YENİ
SEÇİLMİŞ PREZİDENTİ ZATİ-ALİLƏRİ
CƏNAB NAYİB BUKELEYƏ

*11 fevral 2019-cu il* ..................................................................*295*

NİDERLAND–AZƏRBAYCAN DOSTLUQ
QRUPUNUN SƏDRİ RENE VAN DER LİNDEN
İLƏ GÖRÜŞ

*11 fevral 2019-cu il* ..................................................................*296*

TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB RƏCƏB TAYYİB
ƏRDOĞANA

*12 fevral 2019-cu il ...............................................................297*
SERBİYA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB ALEKSANDR VUÇİÇƏ

*12 fevral 2019-cu il ...............................................................298*

«REAL» TELEVİZİYASINA MÜSAHİBƏ

*12 fevral 2019-cu il ...............................................................399*

LİTVA RESPUBLİKASININ
PREZİDENTİ ZATİ-ALİLƏRİ
XANIM DALYA QRİBAUSKAYTEYƏ

*13 fevral 2019-cu il ...............................................................325*

BEYLƏQAN RAYONUNA SƏFƏR

*13 fevral 2019-cu il ...............................................................326*

QEYDLƏR .......................................................................... 330

*Şəxsi adlar göstəricisi...........................................................371*

*Coğrafi adlar göstəricisi .......................................................376*

**Texniki redaktor** *Zoya Nəcəfova*
**Yığım üzrə operator** *İlhamə Kərimova*
**Kompüter tərtibatı** *Məhəbbət Orucov*

Cildin hazırlanmasında AZƏRTAC-ın materiallarından
istifadə olunmuşdur.

«Tayms» qarnitur. Formatı 84×108 1/32. Ofset kağızı № 1
Şərti çap vərəqi 24,5. Uçot nəşr vərəqi 25,0. Tirajı 5000
Müqavilə qiyməti ilə.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi
Azərbaycan Dövlət Nəşriyyatı
Bakı – Mehdi Hüseyn küç. 55, dalan 2, ev 3.

«Şərq-Qərb» mətbəəsi, Aşıq Ələsgər küçəsi 17.